**QASIMOV ƏDALƏT QASIM OĞLU**

# HEYDƏR ƏLIYEVIN TƏRƏQQI STRATEGIYASI və NAXÇIVAN MUXTAR RESPUBLIKASI (XX əsrin 70-80-ci illəri)

**BAKI - 2009**

# M Ü N D Ə R İ C A T


| | | | |
|---|---|---|---|
| **GİRİŞ** | | **……………………………………….** | 3 |
| **I FƏSİL.** | | Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının iqtisadi yüksəlişi | |
| | 1.1. | Sənaye, əsaslı tikinti, nəqliyyat və rabitənin inkişafı ………………… | 28 |
| | 1.2. | Kənd təsərrüfatının inkişafında əsaslı dönüş …………………….. | 84 |
| **II FƏSİL.** | | Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial tərəqqisi ….. | |
| | 2.1. | Əhalinin rifah halının yaxşılaşması | 119 |
| | 2.2. | Sosial strukturda dəyişikliklər ……. | 153 |
| **III FƏSİL.** | | Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının mənəvi - siyasi həyatı ………………………………. | |
| | 3.1. | Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı …………………… | 160 |
| | 3.2. | Muxtar Respublikada mədəni quruculuq ………………………… | 180 |
| | 3.3. | Naxçıvan Muxtar Respubliukasında İctimai-siyasi həyat ……………. | 212 |
| **NƏTİCƏ** | | ...................................................... | 255 |
| **ƏDƏBİYYAT SİYAHISI ……………………..** | | | 273 |
| **SƏNƏDLƏR VƏ FOTOŞƏKİLLƏR …………** | | | 284 |

# GİRİŞ

Tarix boyu milli dirçəliş, ictimai tərəqqi yollarını dahi şəxsiyyətlər müəyyənləşdirmişdir. Əslində dahi şəxsiyyətlərin fəaliyyətləri və əməlləri ilə nizama salınan tarixin memarı da məhz ulu şəxsiyyətlərdir. Mürəkkəb, təlatümlü çağlarda məhz belə şəxsiyyətlər irəli çıxaraq liderlik və xilaskarlıq missiyasını yerinə yetirməklə öz xalqının və bəşəriyyətin taleyində silinməz iz qoyurlar. Əslində bu şəxsiyyətlərin fəaliyyəti, üzərinə götürdükləri missiya zaman ölçülərinə sığışmayaraq, tarixin sonrakı gedişinə güclü təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq öz xalqının inkişaf yolunu müəyyən etməklə həm də onun sonrakı taleyini də təyin etmək məsuliyyətlərini öz üzərinə götürürlər.

Bu gün müstəqillik və tərəqqi yolunda inamla addımlayan, azad və demokratik dövlət kimi dünya birliyində layiqli yer tutan, iqtisadi və siyasi islahatların uğurla həyata keçirildiyi Azərbaycan Respublikasının müasir tarixinin təqribən yarım əsrə bərabər dövrü və bu dövr ərzində qazandığı nailiyyətlər, uğurlar xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur.

Bu dövr ərzində Heydər Əliyev Azərbaycan xalqını və dövlətini zamanın ən çətin sınaqlarından uğurla çıxararaq sosial-iqtisadi, mədəni-mənəvi tərəqqiyə doğru aparmışdır.

Heydər Əliyev böyük və mənalı ömrünün hər anını hər şeydən əziz tutduğu xalqının tərəqqisi və rifahına sərf etmiş, onun dünya xalqları arasında şərəfli yer tutmasına, doğma yurdu Azərbaycanın nüfuzunun yüksəlməsinə həsr etmişdir.

Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, istər Naxçıvanda adi dövlət məmurundan SSRİ kimi nəhəng imperiyanın başçılarından birinə qədər yüksəldiyi totalitar sovet cəmiyyətində, istər düşmən məngənəsində ölüm-dirimlə çarpışan Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi müddətdə, istərsə də qurucusu olduğu Azərbaycan Respublikasının prezidenti olduğu müstəqillik dövründə də o yalnız bu amallarla yaşamış, öz xalqına xidməti həyatının mənası, fəaliyyətinin məramı hesab etmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş vermişdir. Sovet totalitar rejiminin az da olsa, yaratdığı imkanlardan məharətlə istifadə edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla, onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir. Hələ o zaman Azərbaycanın gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu.

Bu günkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dediyi kimi «Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan

xalqının lideri idi. 1970-1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikildi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə də neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. Bir sözlə, ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, xalqa, millətə bağlılığı böyük işlər görmək üçün gözəl şərait yaratmışdı. Amma təbii ki, Azərbaycanın ən ağır dövrü olan müstəqilliyimizin ilk illəri də Heydər Əliyevin fəaliyyətində həlledici idi» [2, 2005, 27 mart].

1993-cü ildə öz müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda xalqımız yenidən öz taleyini milli liderinə etibar etməli oldu. Xalqının israrlı təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi ilə ölkəni onu gözləyən təhlükələrdən xilas etmiş, cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir. Ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli şəxsən Heydər Əliyevin xidmətləridir.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün fəaliyyəti ərzində vətəninə xidmətlə azərbaycançılıq nümunəsini nümayiş etdirmişdi. O, əsl millət rəhbəri, dövlət başıçısı kimi Azərbaycanın bütün bölgələrinin ahəngdar inkişafına böyük diqqət yetirir, ölkənin ümumi inkişafını hər bir rayonun, kəndin, qəsəbənin tərəqqisi və yüksəlişi ilə vəhdətdə görürdü. Heydər Əliyevin məqsədyönlü siyasəti və böyük təşkilatçılıq qabiliyyəti nəticəsində Azərbaycanın bölgələrində yüksək sosial-iqtisadi və mədəni göstəricilər əldə edilmiş, Bakıdan əlavə ölkənin digər yerlərində iri sənaye və kənd təsərrüfatı mərkəzləri formalaşmışdı.

Vətənin torpağı, hər guşəsi onun üçün müqəddəs və əziz idi.

Heydər Əliyevin vətən məhəbbəti bütün etnik, regional amillərin fövqündə dayanan ilahi bir məhəbbət idi. «Heydər Əliyev Yardımlıya da, Lənkərana da, Qusara da, Gəncəyə də, Naxçıvana da eyni münasibət bəsləyir, qətiyyən fərq qoymurdu» [71, 145]. Lakin etiraf etməliyik ki, ümummilli liderimizin Naxçıvana münasibəti Azərbaycanın digər bölgələrinə olan münasibətindən fərqli səciyyə daşıyırdı.

Təbii ki, bütün insanlarda olduğu kimi Heydər Əliyevin də öz kiçik vətəninə xüsusi sevgisi və ehtiramı var idi. Özünün də qeyd etdiyi kimi, o, bu torpaqda doğulmuş, burada təhsil almış, buradan həyata addımlamış, daim bu torpaqla bağlı olmuş, buna görə də bütün dövrlərdə öz doğma torpağına xidmət etmək üçün əlindən gələni etmişdir [71, 145].

İkincisi, Heydər Əliyev peşəkar tarixçi, təhlükəsizlik orqanlarının təcrübəli rəhbər işçisi kimi bu regionun hansı mürəkkəb geosiyasi və coğrafi şəraitdə yerləşdiyini,

ermənilərin tarixən bu torpağı ələ keçirmək üçün hansı fitnələrə əl atdığını çox gözəl anlayır, buna görə də muxtar respublikanın təkcə sosial-iqtisadi cəhətdən inkişafına deyil, hərbi-siyasi cəhətdən möhkəmlənməsinə, burada Azərbaycanın milli mənəvi, sosial-demoqrafik faktorlarının daha da artaraq mütləq üstünlük təşkil etməsinə çalışırdı. Bu məqsədlə hələ sovet hakimiyyəti illərində muxtar respublikada iri sənaye potensialının yaradılmasına, kənd təsərrüfatının inkişaf etdirilməsinə, sosial infrastrukturun, elm, təhsil sisteminin formalaşmasına, ziyalı təbəqəsinin, kadr potensialının yüksəldilməsinə şərait yaradan kompleks qərarlar qəbul edilməsinə nail olmuşdu.

Müstəqillik dövründə isə Ermənistan tərəfindən hərbi-iqtisadi blokadaya alınmış muxtar respublikanın düşmən əlinə keçməməsi, siyasi, iqtisadi və mənəvi böhrandan çıxarılması yalnız Heydər Əliyevin misilsiz, fədakar fəaliyyəti sayəsində mümkün olmuşdur.

Üçüncüsü, Heydər Əliyevə qədər Naxçıvan MR-in iqtisadiyyatı və mədəniyyəti çox ləng inkişaf edirdi, bir çox göstəricilərə görə muxtar respublika Azərbaycanın və respublikanın digər rayonlarından, xüsusən DQMV-dən dəfələrlə geridə idi. Məsələn, 1960-cı illərin sonlarında adambaşına düşən sənaye məhsulunun həcmi Azərbaycan üzrə 828 manat, DQMV üzrə 700 manat təşkil etdiyi halda, Naxçıvan MR üzrə bu göstərici 263 manat təşkil edirdi. Pərakəndə ticarətin həcmi isə müvafiq olaraq 382, 358, 267 manat təşkil etmişdi. Mərkəzi hakimiyyət Dağlıq Qarabağın iqtisadi və sosial inkişafına daha çox diqqət ayırır, təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-də isə məhsuldar

qüvvələrin inkişafına bilərəkdən etinasızlıq göstərirdi. Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycandan təcrid olunmuş vəziyyətə salınmış Naxçıvan MR-i iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti yeridilirdi.

Çox təəssüf ki, Azərbaycanın əvvəlki rəhbərliyi də Naxçıvana laqeyd və ögey münasibət göstərir, muxtar respublikanın inkişafı üçün kifayət qədər əməli addımlar atmırdı.

Hakimiyyətə gəldikdən sonra Naxçıvana qarşı yeridilən bu ayrı-seçkilik siyasətini açıq şəkildə tənqid edən Heydər Əliyev bu ədalətsizliyi aradan qaldırmaq, Naxçıvan da daxil olmaqla Azərbaycanın bütün bölgələrinin dinamik, proporsional inkişafını təmin etmək üçün ciddi fəalliyyətə başladı, həyata keçirilmiş kompleks təşkilati-siyasi, iqtisadi, mədəni tədbirlər nəticəsində muxtar respublikanın ahəngdar inkişafı təmin edildi. Lakin Heydər Əliyev istefaya getdikdən sonra Azərbaycanın yeni iqtidarları sələflərinin Naxçıvana münasibətdə yeritdiyi «siyasi ənənə»ni bərpa edərək, muxtar respublikanın yenidən taleyin ümidinə buraxdılar. «Naxçıvanı bir apendisit kimi kəsib atmağa» (Heydər Əliyev) belə hazır oldular. Lakin Heydər Əliyevin siyasi dühası yenidən Naxçıvanı onu gözləyən fəlakətlərdən xilas etdi, bu qədim diyarı sabitliyə və tərəqqiyə qovuşdurdu.

Dördüncüsü, Heydər Əliyev Naxçıvanın milli dövlətçilik tarixində yerini və rolunu həmişə yüksək qiymətləndirir, naxçıvanlılarda həmişə milli qürurun, milli istiqlaliyyət ruhunun, müstəqilliyə bağlılığın, azərbaycançılığın möhkəm olduğunu qeyd edirdi [71, 146].

Əlbəttə, naxçıvanlıların milli dəyərlərə belə sıx bağlılığı kompleks tarixi, geosiyasi, hətta coğrafi amillərlə bağlıdır. Millilik, azərbaycançılıq Naxçıvanda həmişə yüksək olmuşdur. Bununla yanaşı, muxtar respublika əhalisində milli mənəvi dəyərlərin, vətənpərvərlik ruhunun daha da genişlənməsində Heydər Əliyevin Azərbaycanda bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin də çox böyük təsiri olmuşdur. Ona görə də heç də təsadüfi deyildir ki, 80-ci illərin sonlarında – 90-cı illərin əvvəllərində Azərbaycanda vüsət alan milli istiqlaliyyət uğrunda mübarizədə naxçıvanlılar ön cərgədə idilər. Həmin dövrdə azadlıq və müstəqillik istiqamətində Heydər Əliyevin başçılığı altında Naxçıvanın atdığı cəsarətli addımlar Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanmış və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərmişdi.

Nəhayət, Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm dövrlərindən biri olan 1990-1993-cü illər də bilavasitə Naxçıvanla əlaqədardır. Taleyin hökmü ilə muxtar respublika üçün çox mürəkkəb bir dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməli olan Heydər Əliyev bu torpaqda bütövlükdə Azərbaycan üçün taleyüklü qərarlara imza atdı, müstəqil dövlətçiliyin konseptual istiqamətlərini müəyyənləşdirdi. Heydər Əliyev sonralar bu dövrü nəzərdə tutaraq həmin illərin onun üçün əziz, çox şərəfli illər olduğunu, bu torpağa daha da yaxından bağlandığını etiraf etmişdi [125, 31-33].

Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqı üçün elə bir tükənməz xəzinədir ki, bu xəzinədən qədirbilən xalqımız hələ neçə əsrlər faydalanacaq, onun zəngin və çoxşaxəli irsindən öyrənərək ibrət dərsi alacaqdır. Neçə illər,

əsrlər keçsə də, onun siyasi dühası milyonlarla insanı özünə cəlb edəcək, bu böyük insanın tarixi irsindən, dövlətçilik ənənəsindən, idarəçilik məktəbindən neçə-neçə nəsillər bəhrələnəcəklər.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri təkcə onun ölkəmizə rəhbərlik etdiyi dövrlər ərzində həyata keçirdiyi əzəmətli işlərlə məhdudlaşmır. O, həm də ölkənin gələcək inkişaf perspektivlərini və yollarını müəyyənləşdirməklə böyük missioner rolunu oynamışdır.

Heydər Əliyevin nəzəri-ideoloji irsinin, inkişaf strategiyasının öyrənilməsi, ideyalarının tədqiqi və təbliği hələ uzun dövr ərzində Azərbaycanda ictimai elmlərin qarşısında duran əsas vəzifələrindən biri olacaqdır.

Onun davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsini Azərbaycanın bütün bölgələrinin ahəngdar sürətdə inkişafı təşkil edirdi.

Bu baxımdan Heydər Əliyevin Azərbaycan bölgələrinin inkişaf strategiyasının hərtərəfli araşdırılması və təhlili mühüm nəzəri və əməli əhəmiyyət kəsb edir.

Ulu öndərimizin irəli sürdüyü regional inkişaf strategiyası təkcə Azərbaycanın mərkəzi rayonlarının sosial-iqtisadi mədəni inkişafı ilə məhdudlaşmır. Heydər Əliyev bütün bölgələrdə mədəniyyətin, təhsilin çiçəklənməsinə, onların ixtisaslı kadrlarla təmin edilməsinə səy göstərir, eyni zamanda yerlərdə milli-mənəvi dəyərlərin qorunmasını, tarixi abidələrimizə diqqət və qayğı göstərilməsini, tarixinin dərindən öyrənilməsini tövsiyə edirdi.

Heydər Əliyev Azərbaycan xalqının tarixinin, mədəniyyətinin tədqiqini və öyrənilməsini daim diqqət

mərkəzində saxlamış, tarix elminin inkişafı üçün əlverişli şərait yaratmışdı. Naxçıvanın çoxəsrlik tarixini yüksək qiymətləndirən Heydər Əliyev Azərbaycanın bu qədim bölgəsinin qədim və orta əsrlər, yeni dövr tarixini hərtərəfli araşdırmağı tövsiyə edirdi. Onun rəyinə görə: «Azərbaycanın bir hissəsi olan Naxçıvanın tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq, bu əsrlərlə də təkcə iddiaçılara cavab verməк yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək» [2, 1999, 11 fevral].

Heydər Əliyev Naxçıvanın tarixinin təkcə Bakıda deyil, həm də muxtar respublikanın özündə hərtərəfli öyrənilməsini təşkil etmək üçün bir sıra dəyərli addımlar atmış, onun təşəbbüsü ilə hələ 70-ci illərin əvvəllərində Naxçıvan şəhərində yaradılmış Dövlət Pedaqoji İnstitutunda və Regional Elm Mərkəzində bölgənin sosial-iqtisadi inkişafının, təbii ehtiyatlarının araşdırılması ilə yanaşı, onun ədəbi mühitinin, tarixinin, arxeoloji və etnoqrafik abidələrinin tədqiqi ilə bağlı mühüm işlər aparılmış, dəyərli elmi nəticələr əldə edilmişdi.

İkinci dəfə rəhbərliyə qayıtdıqdan sonra bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da elmin, təhsilin, milli ziyalılığın yeni inkişaf dövrü başlananda bölgənin sosial-iqtisadi, mədəni məsələlərinin, tarixinin geniş araşdırılması və öyrənilməsi üçün geniş imkanlar açıldı. Bu baxımdan Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında 7 avqust 2002-ci il tarixli sərəncamı mühüm tarixi əhəmiyyətə malik qərardır. AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında qərar Naxçıvan Muxtar Respublikasının zəngin elmi mərkəzinə çevrilməsi istiqamətində atılmış mühüm addımdır. Qısa müddət ərzində

Bölmənin (bütövlükdə MR alimlərinin) regionun sosial-iqtisadi, mədəni, tarixi problemlərinin öyrənilməsi sahəsində qazandığı nailiyyətlər Heydər Əliyevin uzaqgörənliyini bir daha sübut edir.

AMEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş 12 avqust 2002-ci il tarixli müşavirədə Heydər Əliyev Bölmənin qarşısında duran vəzifələr haqqında demişdi: «Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlər hazırlanması məqsədini daşıyaram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüflər olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bəlkə də düz olardı deyim ki, ümumiyyətlə öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var». [2, 2002, 13 avqust].

Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun möhkəmləndərilmiəsi istiqamətində də cahanşümul işlər görmüşdü. Onun təşəbbüsü ilə hələ 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illiyi ittifaq səviyyəsində geniş qeyd olunmuşdu. 1990-1993-cü illərdə o, Naxçıvan bölgəsinin muxtariyyət statusunun beynəlxalq müqavilələrlə təsbit olunduğunu bütün dünyaya bəyan edərək erməni təcavüzünün qarşısını qətiyyətlə almağa nail oldu. Heydər Əliyev Naxçıvanın bir Azərbaycan diyarı kimi yaşamasının, inkişaf etməsinin onun muxtariyyət hüququnun sayəsində mümkün olduğunu aydın dərk edərək gələcəkdə də Naxçıvan üçün bunun vacibliyini qeyd etmiş, Naxçıvanın muxtar dövlətçilik statusunun daha da möhkəmləndirilməsi üçün sonrakı

dövrlərdə də əməli addımlar atmışdır. Azərbaycanın 1995-ci ildə qəbul edilmiş konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasının statusu əbədi müəyyənləşdirilmişdir.

Nəhayət, bu torpaqların tarixi-siyasi əhəmiyyətini və xalqımızın tarixində özünəməxsus yer tutğunu nəzərə alan Heydər Əlyevin 4 fevral 1999-cu il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikasının 75 illiyi bütün ölkədə geniş şəkildə qeyd edildi.

Bütövlükdə Naxçıvan MR-in təhlükəsizliyinin təmin edilməsi, sosial-iqtisadi, mədəni inkişafı, onun muxtariyyət statusunun möhkəmləndirilməsi bilavasitə Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Ona görə də Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin Naxçıvanın tərəqqisi naminə göstərdiyi çoxşaxəli fəaliyyətinin araşdırılması və təhlili Əliyevşünaslığın nəzəri və əməli istiqamətlərini öyrənmək baxımından mühüm aktuallıq kəsb edir. Digər tərəfdən təqribən 40 il ərzində Naxçıvan Muxtar Respublikasında cərəyan etmiş siyasi, sosial-iqtisadi və mədəni proseslərin obyektiv araşdırılması, qazanılmış təcrübələrin ümumiləşdirilməsi bütövlükdə Azərbaycan cəmiyyətində bu dövrdə baş vermiş ictimai-iqtisadi dəyişikliklərin tarixi köklərini öyrənmək, gələcək perspektivlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyətə malikdir.

Kitabda 1970-1980-ci illərin zaman kəsiyində Naxçıvan MR-də cərəyan etmiş hadisələr və proseslər, muxtar respublikanın inkişaf məsələləri tədqiqata cəlb edilmişdir.

Azərbaycan tarixinə haqlı olaraq Heydər Əliyev dövrü kimi daxil olmuş bu illəri Naxçıvan Muxtar Respublikası tarixinin də tərəqqi və yüksəliş illəri kimi qiymətləndirmək düz

olardı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-in həmin dövrdə əldə etdiyi uğurlar məhz Heydər Əliyev şəxsiyyəti və strategiyası ilə bağlıdır. Ümumilikdə Heydər Əliyevin başçılığı altında Naxçıvan Muxtar Respublikası üç inkişaf mərhələsindən keçmişdir: 1969-1987-ci illər; 1990-1993-cü illər və 1993-2003-cü illər.

1969-cu ildə hakimiyyətə gəldikdən sonra onun Azərbaycanda uzaqgörənliklə, siyasi əzmlə, qətiyyətlə həyata keçirdiyi tədbirlər bütün respublikada olduğu kimi, Naxçıvan MR-in iqtisadi, ictimai-siyasi həyatına da öz müsbət təsirini göstərmişdi. Muxtar respublika qısa zaman kəsiyində əsrlərə bərabər inkişaf yolu keçdi. Naxçıvan MR-in tərəqqisini geostrateji, milli məqsəd hesab edən Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Naxçıvan MR-in sənaye və kənd təsərrüfatının, yeni təsərrüfat sahələrinin yaradılmasında, sosial sahənin inkişafında, infrastrukturun genişləndirilməsində mühüm nailiyyətlər əldə edilmiş, mədəniyyət, elm, təhsil sahələri yüksək inkişaf səviyyəsinə çatdırılmış, ziyalı kadr potensialı yaranmışdı. Möhtərəm Heydər Əliyevin qayğısı sayəsində Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında iri sənaye, kənd təsərrüfatı, sosial obyektlər tikilərək istifadəyə verilmiş, əhalinin maddi rifah halında, mədəni-təhsil səviyyəsinin yüksəldilməsi istiqamətində çox mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi.

Lakin 1987-ci ildə Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılması bütün Azərbaycanın, o cümlədən Naxçıvanın tarixində yenidən çətin günlərin, faciəli proseslərin başlanğıcı oldu.

Təqdim olunan əsər çox zəngin və çoxşaxəli mənbələr əsasında yazılmışdır. Bu mənbələr sırasında Heydər Əliyevin böyük elmi-nəzəri irsini əks etdirən mənbələr xüsusi yer tutur. Heydər Əliyevin həm sovet hakimiyyəti, həm də müstəqillik dövründəki məruzələri, nitqləri, müsahibələri, xatirələri tariximizin təqribən 40 illik dövrünün öyrənilməsi baxımından əvəzsiz mənbədir. Onun əsərlərində tariximiz, milli-mənəvi dəyərlərimiz, iqtisadiyyatımız haqqında, Azərbaycanın ayrı-ayrı regionları haqqında çox dəyərli və qiymətli fikirlər, elmi-nəzəri cəhətdən ümumiləşdirilmiş müddəalar, nəticələr vardır.

Əsər yazılarkən Heydər Əliyevin Naxçıvan MR ilə bağlı məruzələri, nitqləri, imzaladığı fərman və sərəncamlar geniş təhlil edilmiş və bu mənbələr öz növbəsində tədqiqatın elmi-metodoloji əsasını təşkil etmişdir. Heydər Əliyevin bilavasitə mövzuya aid fikirləri bir sıra çap olunmuş əsərlərində [50-57; 140-141] və başqalarında öz əksini tapmışdır.

Lakin Heydər Əliyevin Naxçıvan MR-in sosial-iqtisadi, siyasi, mədəni inkişaf problemləri ilə bağlı fikirləri, xüsusən də 1970-1980-ci illərdə etdiyi məruzələr, çıxışlar indiyədək çap olunmadığından və arxivlərdə saxlanıldığından bu sənədlər elmi dövriyyəyə ilk dəfə daxil edilərək geniş istifadə edilmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai-Siyasi Hərəkatlar Dövlət Arxivinin 1-ci fondunda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işləyərkən KP qurutlaylarında, KP MK-nın plenumlarında, büro iclaslarında məruzə və çıxışlarında Naxçıvan MR ilə bağlı fikirləri öz əksini tapmışdır [57, 58, 59, 60, 62, 63, 66, 67, 70 və s. siyahılarda saxlanılan işlər]

Yeri gəlmişkən, həmin iclaslarda Naxçıvan MR rəhbərliyinin çıxışlarında muxtar respublikanın ümumi inkişaf göstəriciləri haqqında məlumatlardan da geniş istifadə edilmişdir.

Həmin fondun sənədlərində Heydər Əliyevin imzaladığı Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin Naxçıvan MR-in sosial-iqtisadi inkişafı ilə bağlı müxtəlif qərarlar, sərəncamlar, proqramlar təqdim olunan əsərdə ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir [s.56, iş 1, 34, 42; s.57, iş 81, 89, s.58, iş 48, 69, 134, s.59, iş 54, 76, 88, 89, 304, 305; s.60, iş 51, s.61, iş 17, 74, 125, s.62, iş 93, 96, 103, s.63 iş 33, s.64, iş 37, s.65, iş 103, iş 66, iş 90, iş 124, s.67, iş 67, 80, 118, 127, s.68, iş 83, 96, 149, s.70, iş 31 və s.].

Azərbaycan KP MK-nın I katibi vəzifəsində işləyərkən Heydər Əliyevin Naxçıvana səfərləri, Naxçıvan VPK-nın konfranslarında, muxtar respublika fəalları yığıncağında etdiyi çıxışlar, əhali ilə çoxsaylı görüşlərini əks etdirən materiallar Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin 1-ci fondunda saxlanılır [s.3, iş 3, s.9, iş 31, s.12, iş 39, s.16, iş 79] və mövzunun öyrənilməsində mühüm mənbə hesab edilir.

Azərbaycan Respublikası və Naxçıvan MR Dövlət Arxivlərinin bir sıra fondlarında, eləcə də Naxçıvan MR nazirlik və idarələrinin arxivlərində saxlanılan sənədlər və materiallar da kitabın faktoqrafik bazasını təşkil etmişdir.

Əsərin mühüm mənbə bazasını Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişaf göstəricilərini özündə əks etdirən statistik məcmuələr, yubiley nəşrləri, ensiklopediyalar təşkil edir [49; 88-90; 120-124; 138-139; 154-157; 158-164]. Bu sənədlərdə Naxçıvan

MR-də iqtisadi inkişafa, istehsal artımına, əhalinin maddi, mədəni-məişət və təhsil səviyyəsinin yüksəldilməsinə dair zəngin rəqəmlər öz əksini tapmışdır.

Kitabda Azərbaycan KP qurultaylarının plenumlarının, Naxçıvan VPK-nın konfranslarının nəşr edilmiş materiallarında Naxçıvan MR-in ictimai-siyasi vəziyyəti, iqtisadi inkişafı ilə bağlı məlumatlardan geniş istifadə edilmişdir.

Bütün bunlarla yanaşı, mövzunun tədqiqi zamanı dövri mətbuat, xüsusən «Pravda», «Kommunist», «Şərq Qapısı», «Sovet Naxçıvanı», «Sovetskiy Naxçıvan», «Azərbaycan», «Xalq» qəzetləri, «Azərbaycan Kommunisti» jurnalı və s. mətbu orqanlardakı materiallar geniş təhlil edilmiş, mövzuyla bağlı digər mənbələrdə öz əksini tapmış bir sıra məqamlara aydınlıq gətirilməsi üçün istifadə edilmişdir.

Adı çəkilən mənbələr bütövlükdə tədqiqatın faktoloji, nəzəri və metodoloji bazasını təşkil etməklə yanaşı, qarşıda qoyulmuş vəzifələrin tam yerinə yetirilməsində də əsas rol oynamışlar.

«Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikasını» mövzusu bilavasitə ayrıca tədqiqat obyekti olmasa da, mövzuyla bağlı bir çox məqamlar tarixi, siyasi, iqtisadi ədəbiyyatlarda öz əksini tapmışdır. Tədqiqatımızın predmetinə uyğun ədəbiyyatın təsnifatında şərti olaraq iki qrup müəyyənləşdirmək olar.

Birinci qrupa ulu öndərimiz Heydər Əliyevin həyatına, ictimai-siyasi fəaliyyətinə, dövlətçilik baxışlarına həsr edilmiş əsərlər daxildir. Son dövrdə Azərbaycanda və ölkədən xaricdə Əliyevşünaslığın nəzəri və əməli məsələlərinə aid bir sıra mühüm əsərlər yazılmış, həmin əsərlərdə Heydər Əliyevin

çoxşaxəli, zəngin fəaliyyətinin bir çox istiqamətləri təhlil edilmişdir. Qeyd edək ki, Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş monoqrafiyalarda, dissertasiyalarda böyük öndərin nəzəri irsi, müxtəlif sahələrdə həyata keçirdiyi siyasət tarixşünaslıq nöqteyi-nəzərindən təhlil edilmişdir. Digər tərəfdən Heydər Əliyevin siyasi fəaliyyətinə, nəzəri irsinə həsr edilmiş ədəbiyyat çox geniş olduğundan (çox təəssüf ki, onların bir çoxunda müəlliflərin subyektiv yanaşmaları üstünlük təşkil edir – Ə.Q.) biz bilavasitə tədqiqat mövzusuna aid olan əsərlərə müraciət etməyə üstünlük verməli olduq.

Bu baxımdan R.Mehdiyevin, Y.Mahmudovun, İ.Hüseynovanın, M.Qasımlının, və başqalarının əsərləri diqqəti cəlb edir [60-66; 69; 77-78; 79-80; 85; 126, 133].

Bu əsərlər Heydər Əliyevin inkişaf strategiyasının ayrı-ayrı istiqamətlərini öyrənmək baxımından mühüm mənbə olmaqla yanaşı, ulu öndərin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlərin işıqlandırılması baxımından da böyük əhəmyiyət kəsb edir.

Akademik Y.Mahmudovun «Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti» adlı monoqrafiyası geniş miqyaslı, əsaslandırılmış fəaliyyət fonunda görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev dühasının Azərbaycan xalqının tarixi taleyindəki əvəzsiz rolunun işıqlandırılmasına həsr edilmişdir. Ön söz, 6 bölmə və son sözdən ibarət olan bu monoqrafiyada Heydər Əliyevin çoxşaxəli fəaliyyəti tutarlı dəlillərlə, məntiqi ardıcıllıqla çox parlaq şəkildə təqdim edilmişdir. Əsər Əliyevşünaslıqda mühüm addım olmaqla ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında misilsiz tarixi

xidmətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir [78].

İ.Hüseynovanın doktorluq dissertasiyası [65], M.Qasımlının kitabı [69] Heydər Əliyevin 1969-1987-ci illərdə Azərbaycanın siyasi, iqtisadi, milli-mənəvi inkişafı məqsədi ilə həyata keçirdiyi tədbirləri öyrənmək baxımından olduqca mühüm mənbədir. M.Qasımlının zəngin qaynaqlar əsasında yazılmış kitabında Naxçıvanın mədəni həyatı ilə bağlı bir sıra məqamlar da öz əksini tapmışdır.

Akademik Z.Səmədzadənin monoqrafiyasında [166] Azərbaycanın XX əsrin ikinci yarısından – XXI əsrin əvvəllərinədək sosial-iqtisadi inkişafının əsas inkişaf mərhələləri təhlil edilmiş, ölkəmizin iqtisadi tərəqqisində Heydər Əliyevin xidmətləri göstərilmişdir. Əsərin II və III bölmələrində Heydər Əliyevin iqtisadi strategiyasının mühüm tərkib hisəsi olan regionların tarazlı inkişaf strategiyası ümumi kontekstdə nəzərdən keçirilmiş, Azərbaycanın, onun bölgələrinin inkişafını özündə ehtiva edən statistik göstəricilər, cədvəllər, rəqəmlər burada öz əksini tapmışdır. Əsərin maraqlı cəhətlərindən biri 1969-1987-ci illərdə Azərbaycan SSR, Naxçıvan MSSR və DQMV-nin sosial-iqtisadi inkişaf göstəricilərinin müqayisəli təhlilidir. Həmin göstəricilər erməni ideoloqlarının o zamankı Azərbaycan rəhbərliyinin DQMV-yə münasibətdə guya ayrı-seçkilik siyasəti apardığı haqqında yalan və iftiraları tamamilə darmadağın edir.

Mövzuya aid ikinci qrup ədəbiyyata Naxçıvan MR-in sosial-iqtisadi, siyasi, mədəni inkişafına həsr olunmuş əsərlər daxildir.

70-80-ci illərdə Naxçıvan MR-in sosial-iqtisadi inkişafı,

əhalinin maddi rifah halının və mədəni səviyyəsinin yüksəlməsi, sosial strukturunda dəyişikliklər və b. məsələlər həmin dövrdə yazılmış bir sıra monoqrafiyalarda, broşürlərdə, yubiley nəşrlərində, məqalələrdə [58-59; 61-62; 63; 72; 74; 76; 82-84; 86-87; 122, 130-131; 133; 134], dissertasiyalarda [143; 144; 145; 146] dövrün ruhuna uyğun şəkildə işıqlandırılmışdır.

Göründüyü kimi, son dövrlərdə Heydər Əliyevin sosial-iqtisadi, milli-mədəni inkişaf strategiyasının öyrənilməsi sahəsində çox işlər görülsə də, bu strategiyanın mühüm tərkib hissəsi olan Azərbaycan regionlarının tarazlı inkişaf məsələsi kompleks şəkildə tədqiqat obyekti olmamışdır. Ona görə də təqdim olunan tədqiqat əsərində əsas məqsəd Heydər Əliyevin zəngin nəzəri irsini, mövcud tarixi ədəbiyyatın, arxiv və statistik materialların, mətbu orqanların məlumatlarının təhlili əsasında, müqayisəli, elmi-tarixi metodları tətbiq etməklə onun Azərbaycana rəhbərlik etdiyi 1970-1980-cü illərdə Naxçıvan MR-in sosial-iqtisadi və mədəni inkişafında oynadığı rolunu, tarixi xidmətlərini araşdırmaqdan, muxtar respublikanın göstərilən dövrdə inkişaf dinamikasının əsas mərhələlərini, meyllərini və yekunlarını müəyyənləşdirməkdən, ictimai-siyasi və mədəni həyatda baş vermiş dəyişiklikləri və prosesləri ümumiləşdirməkdən ibarətdir.

Bu məqsədə uyğun olaraq monoqrafiyada aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- 1969-cu ilədək Naxçıvan MSSR-in sosial-iqtisadi və mədəni inkişaf səviyyəsini araşdırmaq, muxtar respublikanın inkişafındakı ziddiyətlərin, problemlərin və gerilələmələrin əsl səbəblərini müəyyənləşdirmək, idarəçilikdə və rəhbərlikdə köklü dəyişikliklərin zəruriliyini əsaslandırmaq;

- Respublikanın rəhbəri seçildikdən sonra Heydər Əliyevin Azərbaycanda iqtisadiyyata rəhbərliyi gücləndirmək, mənəvi-siyasi iqlimi yaxşılaşdırmaq, kadrlara tələbkarlığı artırmaq sahəsində atdığı addımları təhlil etmək və bu tədbirlərin Naxçıvan MR-in inkişafına təsirini müəyyənləşdirmək;

- Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanın ali hakimiyyət orqanlarının Naxçıvan MR-in sosial-iqtisadi problemlərinin həlli, inkişafının sürətləndirilməsi ilə bağlı qəbul etdikləri qərar və proqramları şərh etmək və bu sənədlərin muxtar respublikanın gələcək inkişafında rolunu müəyyənləşdirmək;

- Naxçıvan MR-də iqtisadi və sosial vəziyyəti yaxşılaşdırmaq, mövcud nöqsanları aradan qaldırmaq istiqamətində Heydər Əliyevin təşkilati-siyasi fəaliyyətini araşdırmaq;

- Naxçıvan MR-də sənayenin inkişafında problemləri müəyyənləşdirmək, sənaye potensialının artırılması, onun strukturunun təkmilləşdirilməsi, yeni sənaye sahələrinin və müəssisələrinin yaradılması istiqamətində Azərbaycan rəhbərliyinin həyata keçirdiyi tədbirləri təhlil etmək;

- Muxtar respublikanın zəngin təbii və xammal ehtiyatlarından səmərəli istifadə edilməsi üçün atılan kompleks addımları işıqlandırmaq;

- XX əsrin 70-80-ci illərinin I yarısında Naxçıvan MR-də sənaye istehsalının ümumi inkişaf meyllərini və nəticələrini ümumiləşdirmək və bu işdə Heydər Əliyevin xidmətlərini açıb göstərmək;

- Əsaslı tikinti, nəqliyyat, rabitə və digər sahələrin inkişaf

etdirilməsi məqsədilə həyata keçirilən kompleks tədbirləri və onların nəticələrini təhlil etmək;

- Həmin dövrdə Heydər Əliyevin muxtar respublikanın əmək potensialından səmərli istifadə edilməsi, məşğulluq problemlərinin həlli, əmək məhsuldarlığının artırılması sahəsində göstərdiyi fəaliyyəti təhlil etmək, əldə edilmiş nailiyyətləri qiymətləndirmək;

- 1969-cu ilə qədərki dövrdə Naxçıvan MR-in kənd təsərrüfatında mövcud olmuş vəziyyəti araşdırmaq, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə aqrar bölmənin inkişafında əsaslı dönüşün baş verdiyini əsaslandırmaq; muxtar respublikada üzümçülüyün, taxılçılığın, digər sahələrin dirçəldilməsində, kənd təsərrüfatının sənaye üsulu ilə inkişafında Heydər Əliyevin xidmətlərini açıb göstərmək;

- Böyük rəhbərin Naxçıvan MR-in bütün rayonlarının bərabər sosial-iqtisadi, mədəni tərəqqisi üçün çalışdığı və bu məqsədlə müvafiq addımlar atdığını əsaslandırmaq;

- Konkret faktlar və materiallar əsasında Heydər Əliyevin Azərbaycana siyasi rəhbərlik etdiyi birinci dövrdə respublika iqtisadiyyatında baş verən mütərəqqi dəyişikliklərin muxtar respublikanın sosial-mədəni həyatına, əhalinin maddi rifah halına təsirini müəyyənləşdirmək; Naxçıvan Muxtar Respublikası əhalisinin sosial problemlərinin həlli istiqamətində Heydər Əliyev başda olmaqla respublika rəhbərliyinin həyata keçirdiyi kompleks tədbirləri və onların nəticələrini təhlil etmək;

- 70-80-ci illərdə Naxçıvan Muxtar Respublikası əhalisinin maddi və mənəvi həyatında baş verən meylləri, sosial strukturundakı dəyişiklikləri izləmək;

- Həmin dövrdə Naxçıvan MR-də maarifin, mədəniyyətin inkişafında, elm və ali təhsil sisteminin təşəkkül tapmasında, Naxçıvan şəhərinin Azərbaycanın mühüm elm və təhsil mərkəzlərindən birinə çevrilməsində, regionda milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsində Heydər Əliyevin müstəsna xidmətlərini açıb göstərmək; statistik və arxiv materialları əsasında 1969-1987-ci illərdə Naxçıvan MR-də mədəniyyətin, təhsilin, elmin və digər mənəvi sahələrin inkişaf meyllərini ümumiləşdirmək;

- Naxçıvan MR-in ictimai-siyasi həyatında 70-80-ci illərdə baş vermiş prosesləri izləmək, Heydər Əliyev faktorunun bu proseslərə təsirini müəyyənləşdirmək;

- Heydər Əliyevin başçılığı altında həmin dövrdə Azərbaycanda mənəvi-siyasi iqlimin sağlamlaşdırılması uğrunda neqativ hallara, qanunsuzluqlara qarşı aparılan mübarizənin Naxçıvan MR-də təzahürünü işıqlandırmaq; muxtar respublikada həyata keçirilən siyasi-ideoloji işi, kadr siyasətinin xüsusiyyətlərini, siyasi sistemdə baş verən dəyişikliklərin səciyyəvi cəhətlərini, vətəndaşların sosial-siyasi fəallıq dərəcəsini və s. təhlil etmək.

Oxuculara təqdim olunan monoqrafiyanın elmi yeniliyi bir sıra amillərlə şərtlənir:

- Hər şeydən əvvəl ilk dəfə olaraq burada böyük öndərin inkişaf və tərəqqi strategiyasının mühüm tərkib hissəsi olan Azərbaycan regionlarının inkişaf strategiyası Naxçıvan MR-in materialları əsasında tədqiq edilmişdir;

- Naxçıvan MR-in təqribən iyirmi illik iqtisadi, sosial-siyasi, mədəni-mənəvi inkişaf prosesi kompleks şəkildə araşdırılmış, muxtar respublikanın bu dövrdə əldə etdiyi

nailiyyətlərin və uğurların bilavasitə Heydər Əliyev faktoru ilə qırılmaz surətdə bağlı olduğu sübut edilmişdir;

- 1969-cu ilə qədər Naxçıvan MR-in sosial-iqtisadi inkişaf vəziyyəti qiymətləndirilmiş, hakimiyyətə gəldikdən sonra regionda irəliləyişə və tərəqqiyə nail olmaq üçün Heydər Əliyevin atdığı addımlar təhlil edilmişdir. Bu məqsədlə 1970-1980-ci illərdə Heydər Əliyevin Naxçıvanın iqtisadi və sosial inkişafı ilə bağlı etdiyi məruzə və çıxışlar, onun təşəbbüsü və iştirakı ilə regionun inkişafı ilə əlaqədar Azərbaycan KP MK, Nazirlər Soveti səviyyəsində qəbul edilmiş mühüm qərarlar, Heydər Əliyevin muxtar respublikaya çoxsaylı səfərlərini əks etdirən materiallar elmi dövriyyəyə ilk dəfə daxil edilərək, elmi təhlil süzgəcindən keçirilmişdir;

- Kitabda ilk dəfə 1970-1980-ci illərdə Naxçıvan MR-in iqtisadi və sosial inkişaf göstəriciləri geniş təhlil edilmiş, Heydər Əliyevin başçılığı ilə Azərbaycanda bu dövrdə həyata keçirilən iqtisadi və siyasi kursun Naxçıvan MR-də xüsusiyyətləri və səciyyəvi cəhətləri araşdırılmış, əhalinin həyat şəraitində, sosial strukturunda baş vermiş köklü dəyişikliklər öyrənilmişdir. Bu məsələlər Heydər Əliyevin fəaliyyəti ilə sıx əlaqədə nəzərdən keçirilmişdir.

- Naxçıvan MR-də 1970-1980-ci illərdə mədəni quruculuq və təhsil sahəsində baş vermiş dəyişikliklər tədqiq edilmişdir;

- Göstərilən dövrdə Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, təhsilinə, elminə diqqət və qayğısının ən mühüm təzahürlərindən biri kimi Naxçıvan MR-də bu sahədə böyük canlanma və tərəqqinin olması konkret faktlarla sübut edilmişdir;

- Həmin dövrdə Naxçıvan MR-də ictimai-siyasi vəziyyət ilk dəfə olaraq ətraflı təhlil edilmiş, muxtar respublika əhalisində milli-mədəni dəyərlərə bağlılığın, sosial fəallığın artırmasının Heydər Əliyevin Azərbaycan miqyasında həyata keçirdiyi mənəvi iqlimin sağlamlaşdırılması, qanunun aliliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bilavasitə bağlı olduğu göstərilmişdir;

- 1970-1980-ci illərdə Naxçıvan MR-in sosial-iqtisadi, mədəni sahədə qazandığı nailiyyətlərin Azərbaycanın o dövrdəki inkişafının tərkib hissəsi və təzahürü olduğu göstərilmişdir;

Təqdim olunan əsər Azərbaycanın müasir iqtisadi və siyasi tarixinin tədqiqində, ümumiləşdirilmiş əsərlərin, eləcə də Naxçıvan MR-in müasir tarixinə aid əsərlərin, dissertasiyaların yazılmasında mühüm mənbə rolunu oynaya bilər.

Azərbaycanda Heydər Əliyev tərəfindən həyata keçirilmiş sosial-iqtisadi, siyasi islahatların, xüsusən regional inkişaf konsepsiyasının tarixini, köklərini, mərhələlərini, nəticələrini, ümumiyyətlə Heydər Əliyevin nəzəri irsini və dövlətçilik siyasətini öyrənmək baxımından monoqrafiya çox faydalı ola bilər.

Tədqiqatın nəticələri ali məktəblərin bakalavr və magistr pillərində təhsil alan tələbələrə xüsusi proqramların oxunmasında, tədris proqramları və vəsaitlərinin hazırlanmasında da istifadə oluna bilər.

Zənnimizcə, monoqrafiya bütövlükdə bir sıra praktik fəaliyyət sferalarında, o cümlədən idarəetmə, təbliğat, milli vətənpərvərlik tərbiyəsində, gənclərlə iş sahəsində geniş istifadə edilə bilər.

80-ci illərin II yarısında keçmiş SSRİ-də cərəyan edən ictimai proseslər Naxçıvan MR-nın həyatına öz təsirini göstərdi. Mərkəzi hakimiyyətin hökmdarlığı ilə təcavüzkar separatizm hərəkatına başlayan ermənilərin bir məqsədi də Naxçıvanı ələ keçirmək idi. Hərbi yolla öz məqsədlərinə nail ola bilməyən ermənilər muxtar respublikanı iqtisadi və nəqliyyat blokadasına olmaqla azərbaycanlıları buradan didərgin salmağı və bölgəni ələ keçirməyi düşünürdülər.

Lakin tale Heydər Əliyevi Naxçıvana yetirməklə bu müqəddəs torpağı erməni əlinə keçməsindən hifz etdi, Naxçıvan onu gözləyən fəlakətdən xilas oldu. Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikası taleyin ağır sınaqlarından üzüağ çıxdı, erməni təcavüzündən xilas oldu, siyasi sabitlik təmin olundu, sosial-iqtisadi problemlərin həlli, milli dövlət quruculuğu mədəniyyətin, təhsilin dirçəldilməsi üçün əlverişli imkanlar yarandı. Naxçıvan MR-nın bugünkü uğurlarının əsası məhz Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi 1991-1999-cu illərdə qoyuldu.

Respublikaya ikinci dəfə rəhbərlik etdiyi 1999-2003-cü illərdə Heydər Əliyevin dövlətçilik strategiyasının bütün regionlarının bərabər inkişafı məsələsi təşkil edirdi. Həmin illərdə Naxçıvan MR öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, ictimai həyatın bütün sahələrində çox ciddi uğurlara imza etmişdi. Xüsusən 1995-ci ildə Heydər Əliyev məktəbinin ən layiqli nümayəndələrindən olan Vasif Talıbovun muxtar respublikanın rəhbəri seçilməsilə regionun sosial-iqtisadi, mədəni inkişafında ciddi dəyişikliklər baş vermişdir.

Heydər Əliyevin siyasi kursu, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə həyata keçirilir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişaf məsələlərinə daim diqqət yetirir. Prezidentliyi dövründə o, 7 dəfə muxtar respublikada olmuş, hər səfərində yeni istehsal, sosial obyektlərin açılış mərasimlərində iştirak etmiş, bütün sərhədlərdə həyata keçirilən tədbirlərlə yerində tanış olmuş, muxtar respublikanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün öz dəyərli tövsiyyə və tapşırıqlarını vermişdir.

Ölkə prezidenti İlham Əliyev muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirərək demişdir: «Naxçıvanda çox böyük quruculuq işləri aparılır. burada gedən quruculuq abadlıq işləri, yeniləşmə infrastruktur layihələri – bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin inkişafına öz töhfələrini verirlər!

Bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkib hissəsi kimi ölkəmizin sosial-iqtisadi, mədəni, ictimai-siyasi həyatı ilə həmahəng şəkildə özünün tarixi inkişaf yolunu uğurla davam etdirir.

# I FƏSİL

## HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ YÜKSƏLİŞİ

### 1.1. Sənaye, əsaslı tikinti, nəqliyyat və rabitənin inkişafı

XX yüzillik Azərbaycan tarixində öz əhəmiyyətinə görə mühüm bir dövrü təşkil edir. Bu qısa tarixi zaman kəsiyində Azərbaycan xalqı böyük tərəqqi dövrü yaşamış, ictimai, iqtisadi, mədəni həyatda əzəmətli uğurlara nail olmuşdur. Ən böyük nailiyyətlərdən biri, heç şübhəsiz, bütün Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyət göstərməsidir. Lakin AXC-nin süqutundan sonrakı sovet dövründə xalqımız böyük faciələr və məhrumiyyətlərlə üzləşsə də, onun iqtisadiyyatı, mədəniyyəti, elm və təhsili, xüsusilə 70-ci illərdə sürətlə inkişaf etmişdi. Bu gün müstəqil Azərbaycanımızın əldə etdiyi nailiyyətlərin təməlini həmin dövrdə yaradılmış iqtisadi və mənəvi potensial təşkil edir.

Ulu öndər Heydər Əliyev 70-ci illərə qədərki tarixi dövrü təhlil edərək göstərirdi ki, 1960-cı ildə Azərbaycan sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 40-cı ildəki sənayeni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olmuşdur. 1950-1960-cı illərdə yeni sənaye sahələri əmələ gəlmiş, energetika və su təsərrüfatı tikintiləri genişləndirilmişdir. Müharibədən sonrakı beşilliklər ərzində Sovet Azərbaycanın keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi

meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatında istehsalın həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə, istehsalın məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. Bu dövrdə istehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmiş olduğundan yaranmış vəziyyətdən çıxış yolu tapılmalı, gələcəkdə iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişikliklər aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Sənayedə nominal göstəricilərin artmasına baxmayaraq, 1960-cı illərdə inkişaf sürəti nisbətən azalmağa başlamışdı. 1970-ciilədək iqtisadiyyatın artımı sürətlə aşağı düşməkdə idi. Əgər 1951-1960-cı illərdə məhsul istehsalı 104 faiz artmışdısa, 1961-1970-ci illərdə bu göstərici cəmi 94 faiz təşkil etmişdi [157, 27]. 60-cı illərin sonlarında sənayenin yüksəlişi, həmçinin ictimai əməyin məhsuldarlığının artım sürətinə görə Azərbaycan SSR müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. İdarəetmədə ciddi nöqsanlar, iqtisadi planlaşdırmada, məhsuldar qüvvələrin yerləşdirilməsində hökm sürən çatışmazlıqlar və volyuntarizm halları, eləcə də mərkəzi rəhbərlik tərəfindən respublika iqtisadiyyatının bir sıra sahələrinin inkişafına qarşı yaradılmış süni maneələr də Azərbaycan sənayesinin inkişafını ləngidirdi. Sənayenin aparıcı sahələri olan neft sənayesi, kimya, maşınqayırma sahələrinin inkişafına baxmayaraq, səkkizinci beşillikdə xalq təsərrüfatı üzrə ümumi plan tapşırıqları, o cümlədən əsas sənaye sahəsi

hesab edilən neft sənayesi üzrə plan tapşırıqları yerinə yetirilməmişdi. Sənaye istehsalının ümumi artımı 1,6 dəfə nəzərdə tutulsa da, bu artım 1,37 dəfə olmuş, orta illik artım sürəti isə əvvəlki beşillikdən xeyli aşağı düşmüşdü [127, 17]. Sənaye istehsalında artım sürətinin aşağı düşməsi neft və qaz hasilatının azalması, maşınqayırma sahəsində inkişafın ləng getməsi, yeni istehsal obyektlərinin yaradılmasına lazımi əhəmiyyət verilməməsi ilə əlaqədar idi. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması sahəsində demək olar ki, heç bir əsaslı tədbir görülmürdü. Respublikada istehsal edilən sənaye məhsullarından heç biri dövlət keyfiyyət nişanı almamışdı [127, 18].

Həmin dövrdə iqtisadiyyatın ümumi göstəricilərinin aşağı düşməsinin obyektiv səbəbləri olsa da, subyektiv amillərdən birbaşa asılılığı daha çox diqqəti cəlb edir ki, onların ayrı-ayrılıqda tədqiq edilməsinə ehtiyac vardır.

İqtisadi dinamikliyin azalmasının başlıca səbəblərindən biri dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması və modernləşməsi proseslərinin həyata keçirilməməsi idi.

60-cı illərdə respublikanın sosial-iqtisadi cəhətdən geri qalmasında başlıca amillərdən biri də sənayedə mövcud potensialdan düzgün istifadə edilməməsi idi. İqtisadi inkişafın genişləndirilməsi birinci növbədə yaranmış potensialdan tam, səmərəli şəkildə istifadə olunmasını tələb edirdi.

Respublika iqtisadiyyatında nəzərə çarpan geriləmələr 60-cı illərin sonlarında özünü daha açıq şəkildə büruzə verməyə başlamışdı. Belə ki, 1969-cu ildə SSRİ-də ümummilli məhsul 43 faiz artdığı halda, Azərbaycan SSR-də bu artım cəmi 22 faiz

təşkil etmişdi. Bu göstərici bütün müttəfiq respublikalar arasında ən aşağı göstərici idi. Ümummilli məhsulun adambaşına düşən istehsal göstəricisi də başqa müttəfiq respublikalarla müqayisədə ilbəil azalırdı. Əslində 60-cı illərin sonunda Azərbaycan bütün sahələrdə dərin böhran, tənəzzül ərəfəsini yaşayırdı. Bütün bunlar xalqın güzəranına, onun mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərirdi.

Respublika iqtisadiyyatında mövcud olan neqativ tendensiyaların qısa müddətdə aradan qaldırılması, iqtisadi sabitləşmə əsasında dinamik inkişafın təmin olunması, köklü struktur dəyişikliklərinin aparılması, sosial-mənəvi iqlimin yaxşılaşdırılması üçün zəruri addımlar atılması tələb olunduğu halda, real vəziyyətin mənzərəsi, problemlərin dəf olunmasında uğursuzluqlar silsiləsi işin gedişinin bədbin sonluğundan xəbər verirdi.

Qeyd olunan bütün nöqsanlar Azərbaycanın ayrılmaz hissəsi olan, qədim və zəngin tarixə malik Naxçıvan Muxtar Respublikasının mürəkkəb və çətin həyat problemlərinə çevrilmişdi. Naxçıvan MR-in 1970-ci ilə qədərki inkişafı çox ziddiyyətli xarakter daşımışdır. Ümumiyyətlə, 1956-60-cı illərdə sənaye məhsulunun həcmi cəmi 6 faiz, 1961-1965-ci illərdə 8 faiz, 1956-70-ci illərdə isə 14 faiz artmışdı. İnkişafı kənd təsərrüfatından asılı olan yüngül sənaye, yeyinti sənayesi sahələri əsasən durğunluq dövrünü yaşamış, 60-cı illərin II yarısınadək olan təqribən 40 il ərzində Naxçıvanın iqtisadiyyatı Azərbaycanın bir sıra başqa bölgələrinə nisbətən aşağı inkişaf səviyyəsində olmuş, sənaye məhsulunun artım sürətinə görə o, keçmiş SSRİ-nin muxtar respublikaları arasında sonuncu yerlərdən birini tutmuşdu.

Bir sıra sənaye məhsullarının istehsalı, xüsusən əsaslı tikinti sahəsində uzun müddətli geriləmələr mövcud idi. Kənd təsərrüfatı məhsulları istehsalı və satış planları yerinə yetirilmir, xüsusən heyvandarlıqda məhsuldarlığa görə Naxçıvan Muxtar Respublikası Azərbaycan SSR-in orta göstəricilərindən dəfələrlə geri qalırdı.

Əlbəttə, Naxçıvan Muxtar Respublikasının bir çox sahələrdə bu cür geriləməsi spesifik amillərlə bağlı idi ki, bunlardan bəzilərini qeyd etmək yerinə düşərdi. Məsələn, mərkəzi hakimiyyət Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafına daha çox diqqət yetirir, təbii ehtiyatlarla zəngin olan Naxçıvan MR-də məhsuldar qüvvələrin inkişafını isə bilərəkdən aşağı səviyyədə saxlayırdı. Daşnakların tarixi riyakarlığı və sovet imperiyasının xeyir-duası ilə qədim torpağımız olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycanın əsas ərazisindən ayrı düşmüş Naxçıvan MR-i iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək və bu yolla azərbaycanlıları bu torpaqlardan didərgin salmaq siyasəti yeridilirdi. Buna görə də əvvəllər olduğu kimi 50-60-cı illərdə də erməni millətçiləri muxtar respublikada iqtisadi inkişafın qarşısını almaq üçün fitnəkar fəaliyyətlərini davam etdirir və bu məsələdə sovet rəhbərliyində kök salmış havadarlarına arxalanırdılar. Səkkizinci beşillik ərzində Naxçıvan MSSR-in iqtisadiyyatında, o cümlədən sənaye məhsulu istehsalında müəyyən artım müşahidə olunsa da (1966-1970-ci illərdə Azərbaycanda sənaye istehsalının həcmi 37 faiz, sənayedə əmək məhsuldarlığı 27 faiz artdığı halda, Naxçıvan MR-də bu göstəricilər müvafiq olaraq 26 faiz və 69 faiz təşkil edirdi, muxtar respublikanın Azərbaycan SSR-in sənaye məhsulu

istehsalında xüsusi çəkisi 1965-ci ildəki 0,7 faizdən 1970-ci ildə 1,2 faizə qalxmışdı) [86, 30], Naxçıvan Muxtar Respublikası Azərbaycanın bir sıra regionlarından geri qalırdı. Məsələn, göstərilən dövrdə DQMV-nin təkcə sənaye məhsulunun həcmi 225 faiz artmışdı. Naxçıvanda isə bu göstərici xeyli aşağı idi. Naxçıvan MSSR-in sosial-iqtisadi inkişafına dair bir çox məsələlər, Azərbaycan SSR-in müvafiq nazirlik və idarələrinin laqeyd münasibəti sayəsində hələ də öz həllini tapmamışdı. Möhtərəm Heydər Əliyev məhz bunu nəzərdə tutaraq göstərirdi: «Naxçıvana ögey münasibəti olubdur. Ona görə də, açıq danışım, Naxçıvanda əsas quruculuq işi, sənayenin, kənd təsərrüfatının inkişafı – bunların hamısı 1970-ci illərdən başlayaraq gedibdir. Gedin Naxçıvana, sayın, əgər keçmiş xanların tikdikləri binaları, yaxud da tarixi abidələri istisna etsək, 1970-ci ilə qədər və 1970-ci ildən sonra Naxçıvanda nə tikilib, nə yaradılıbdır. Bu təkcə Naxçıvanda belə deyil, bunu Azərbaycanın hər yerinə aid etmək olar» [2, 1998-ci il, 17 yanvar].

Azərbaycan ərazisinin 6,4 faizi, əhalisinin isə 4,0 faizini təşkil etməsinə, zəngin təbii ehtiyatlara malik olmasına baxmayaraq, Naxçıvan MSSR Azərbaycan SSR-in ümumi sənaye məhsulu istehsalının cəmi 1,9 faizini verirdi.

Neqativ proseslərin, iqtisadi və sosial tənəzzülün qarşısını almaq üçün Azərbaycan rəhbərliyində artıq köklü kadr dəyişikliyinə zərurət yaranmışdı və radikal dəyişikliklər etmək iqtidarında olan bacarıqlı, işgüzar və nüfuzlu rəhbərliyə ehtiyac kəskin şəkildə özünü büruzə verirdi. Nəhayət, Azərbaycan xalqı Heydər Əlirza oğlu Əliyevin şəxsində belə bir rəhbəri qazanmış oldu. 1969-cu il iyulun 14-də keçirilmiş Azərbaycan

KP MK-nın plenumunda Heydər Əliyevin Azərbaycan rəhbərliyinə irəli çəkilməsi ilə respublikanın iqtisadi və ictimai həyatının bütün sahələrində əsl tərəqqi və çiçəklənmə dövrü başlandı.

Əlbəttə, bir çox möhtəşəm tarixi hadisələr kimi bu hadisənin böyüklüyü və Azərbaycanın xoşbəxtlik və əmin-amanlıq dövrünün başlanğıcı olduğu elə ilk illərdən göz önündə idi.

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumu Azərbaycanın həyatında mühüm hadisə oldu. Plenumda respublika iqtisadiyyatında yaranmış böhranlı vəziyyətin dərin elmi təhlili verildi, sosial-iqtisadi inkişafın əsas vəzifələri və onların həlli yolları müəyyənləşdirildi. Mövcud böhrandan qısa zamanda xilas olmaq və əsaslı dönüş yaratmaq üçün konkret tədbirlər planı işlənib hazırlandı. Azərbaycan KP MK-nın 1969-cu il dekabr, 1970-ci il mart və avqust plenumlarında qarşıda duran vəzifələr daha da konkretləşdirildi. İnzibati idarəçiliyin gücləndirilməsi, dövlət və plan intizamının möhkəmləndirilməsi, kadrlara qarşı tələbkarlığın və məsuliyyətin artırılması istiqamətində atılan addımlar sayəsində qısa müddət ərzində iqtisadi və sosial inkişafda yüksək nəticələr əldə edildi.

Heydər Əliyev eyni zamanda ittifaq rəhbərliyindəki nüfuzundan və şəxsi əlaqələrindən istifadə edərək respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üçün müvafiq qərarların qəbul edilməsi və böyük həcmdə vəsaitlərin ayrılmasına nail oldu.

Məhz Heydər Əliyevin yorulmaz səyləri və ardıcıl siyasəti nəticəsində Sov.İKP MK və SSRİ Nazirlər Soveti «Azərbaycan

SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında» 23 iyul 1970-ci il [142, 1970, 16 avqust], «Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» 25 iyul 1970-ci il [140, 8], «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında» 1975-ci il 9 iyul, «1976-1980-ci illərdə respublikada sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi təkliflərinin nəzərdən keçirilməsinin nəticələri barəsində» 1976-cı il 27 iyul [153, 61], «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırılmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» 1979-cu il 22 fevral tarixli [67, 1979, 17 mart] və başqa mühüm qərarlar qəbul etdi, bu qərarlar respublikanın iqtisadi və sosial inkişafında həlledici rol oynadı.

Heydər Əliyevin ilk dəfə rəhbərliyi ilə keçən Azərbaycan KP-nin XXVIII qurultayında iqtisadiyyatın mövcud durumu təhlil edildi, onun geridəqalma səbəbləri araşdırıldı və xalq təsərrüfatının bütün sahələrinin intensiv inkişaf etdirilməsi üçün konkret proqram müəyyənləşdirildi. Qurultayın qətnaməsində həlli vacib vəzifələr aydın şəkildə ifadə olunmuşdu: Respublika iqtisadiyyatının geriləməsinin tezliklə qarşısının alınmasının, IX beşilliyin vəzifələrinin, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» və «Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında» qərarlarının şərtsiz yerinə yetirilməsinin təmin edilməsi; xalq təsərrüfatına rəhbərliyin yaxşılaşdırılmasına, ictimai istehsalın səmərəliliyinin

yüksəldilməsinə, iqtisadiyyatın bütün sahələrinin intensiv inkişafının təmin edilməsinə, elmi-texniki tərəqqinin sürətləndirilməsinə və əmək məhsuldarlığının artırılmasına nail olmaq [150, 86].

Doqquzuncu beşilliyin vəzifələrinin uğurla yerinə yetirilməsi nəticəsində bütün əsas göstəricilər üzrə Azərbaycan iqtisadiyyatında çoxillik tənəzzülün qarşısı alınmış və rekord nailiyyətlər əldə edilmişdi. Beş il ərzində sənaye istehsalı planda nəzərdə tutulmuş 43-45 faiz əvəzinə 50 faiz artmışdı. Kənd təsərrüfatı istehsalının orta illik həcmi səkkizinci beşilikdən 34 faiz çox olmuşdu [151, 17, 35]. 1976-80-ci illərdə də müəyyən edilmiş sosial və iqtisadi vəzifələr uğurla həyata keçirilmiş, iqtisadiyyatın və mədəniyyətin bütün sahələrində əhalinin maddi və mənəvi ehtiyaclarının təmin edilməsindəki nəticələr doqquzuncu beşilliyin göstəricilərini ötüb keçmişdi. Doqquzuncu beşillikdə 51,5 mlrd. manata qarşı onuncu beşillikdə ümumi məhsulun həcmi 75 mlrd. manat təşkil etmişdi. Onuncu beşillikdə ictimai əmək məhsuldarlığı 28 faiz artmışdı [152, 13-14].

Heydər Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü iqtisadi və sosial siyasət nəticəsində 70-ci illərdə uzunmüddətli geriliyə son qoyulmuş, təsərrüfatın bütün sahələrində sabit və yüksək sürətli, dinamik artım əldə edilmişdi. Sənaye istehsalının orta illik artım sürəti 8,2 faiz təşkil etmişdi ki, bu da 1961-1970-ci illərlə müqayisədə 19 faiz çoxdur. 1971-1980-ci illərdə əmək məhsuldarlığı 1,7 dəfə artmış, məhsul artımının 75 faizi bunun hesabına əldə edilmişdi. 1980-ci ildə isə bu rəqəm 81 faiz təşkil etmişdi. Bu illərdə sənaye istehsalı 2,2 dəfə artmışdır. [152, 22-23].

1971-1980-ci illər kənd təsərrüfatının inkişafında da həlledici mərhələ oldu. Heydər Əliyevin hakimiyyətinin ilk illərində kənd təsərrüfatında qazanılan uğurlar xüsusən nəzərə çarpacaq dərəcədə idi. Çünki bu zamana qədər kənd təsərrüfatı məhsulları tədarükü və istehsalı sahəsində planlar mütəmadi yerinə yetirilmirdi. Bu dövrdə əkinçilik mədəniyyətinin yüksəldilməsinə lazımi diqqət yetirilməsi ilə əlaqədar olaraq kənd təsərrüfatında məhsuldarlıq İttifaq üzrə olan orta göstəricilərdən xeyli dərəcədə aşağı idi. Səkkizinci beşillikdə pambığın məhsuldarlığı 16 sentner, taxılınkı 10,9 sentner, üzümünkü isə 40,4 sentner idi [127, 114].

70-ci illərdə əsaslı tədbirlərin həyata keçirilməsi nəticəsində məhsul istehsalının artırılması, əkinçilik və heyvandarlıq mədəniyyətinin yüksəldilməsi sahəsində çox böyük nailiyyətlər qazanıldı. Kənd təsərrüfatında əmək məhsuldarlığının əvvəlki beşilliklərə nisbətən sabit və yüksək sürətlə artması təmin edilmişdir. Belə ki, səkkizinci beşilliyə nisbətən doqquzuncu beşillikdə ictimai kənd təsərrüfatında məhsul istehsalı 41 faiz, əmək məhsuldarlığı 26 faiz, onuncu beşillikdə isə müvafiq surətdə 46 və 27 faiz artmışdır [127, 141]. Kənd təsərrüfatının ümumi məhsulu 2 dəfə artmışdı. On il ərzində 5,5 mln. ton pambıq, 7 mln 399 min ton üzüm, 5 mln ton tərəvəz tədarük edilmişdi. Kolxoz və sovxozlarda əvvəlki onilliklə müqayisədə dövlətə 1,5-3 dəfə çox heyvandarlıq məhsulu təhvil verilmişdi [152, 40-41].

Ulu öndərimizin özünün də qeyd etdiyi kimi, əvvəllər kənd təsərrüfatı işçilərinin çoxu, hətta alimlər belə bu nəticələrin əldə edilməsinə inanmırdılar. Azərbaycanda hər inəkdən süd sağımı 1970-ci ilədək 700 litr həddində olurdu. Bir çox kənd

təsərrüfatı mütəxəssisləri, respublikada uzun illər rəhbər vəzifələrdə işləmiş adamlar iddia edirdi ki, Azərbaycan inəyi bundan artıq süd verməyə «qabil deyildir». 1973-cü ildə Azərbaycanda orta hesabla hər inəkdən 1200 litrdən artıq süd sağılmışdı ki, bu da əvvəlki illərdən təqribən 2 dəfə çox idi [95, v.97-98].

Heydər Əliyevin prinsipial, ardıcıl, qızğın fəaliyyəti nəticəsində 1950-1960-cı illərdə çox aşağı səviyyədə olan, bütün göstəricilər üzrə geridə qalan Azərbaycan iqtisadiyyatı artıq üçüncü beşillik dövrü idi ki, dinamik, sabit, orta ittifaq səviyyəsindən daha yüksək irəliləyişlərlə inkişaf edirdi. Sənaye, kənd təsərrüfatı, sosial inkişafın bütün sahələri üzrə dövlət plan və öhdəlikləri hər il artıqlaması ilə yerinə yetirilirdi. Əmək məhsuldarlığı, məhsulun keyfiyyəti, gəlirlər, rentabellik və ictimai istehsalın digər mühüm göstəriciləri dayanmadan artırdı. Sadə adamların iş və məişət şəraitinin yaxşılaşdırılması üçün çox işlər görülmüş, əhalinin rifah halı xeyli yüksəlmişdi. Azərbaycan elmi keyfiyyətli məhsuldar qüvvəyə çevrilmiş, onun mədəniyyəti, təhsili, səhiyyəsi yeni zirvələrə yüksəlmişdi. Həmin illərdə respublikada qazanılmış uğurların əsas amillərindən biri Heydər Əliyevin başçılığı altında Azərbaycan rəhbərliyinin apardığı ahəngdar, məqsədəuyğun təşkilati-siyasi iş idi. Rəhbərlikdə kollegiallıq, tələbkarlıq prinsipləri bərqərar olunmuş, kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyəsi işinin təkmilləşdirilməsi, partiya, dövlət, əmək intizamının möhkəmləndirilməsi, tapşırılan sahəyə kadrların məsuliyyətinin artırılması istiqamətində ardıcıl işlər həyata keçirilirdi. Qanunçuluğun pozulmasına, vəzifəli şəxslərin xidməti vəzifələrindən sui-istifadə etmələrinə,

proteksionizmə, rüşvətxorluğa qarşı amansız mübarizə aparılırdı.

13 il ərzində Heydər Əliyevin başçılığı altında Azərbaycan xalqının qazandığı uğurları digər statistik göstəricilər də təsdiq edir. Həmin 13 il ərzində milli gəlir 2,5 dəfə artaraq 5 mlrd 370 mln. manat təşkil etmişdir. Adambaşına düşən milli gəlir təqribən iki dəfə artmışdır. Bu dövrdə respublikada sənaye istehsalı 2,7 dəfə artmış, 13 il ərzində 101,5 mlrd. manatlıq məhsul istehsal edilmişdir ki, bu da əvvəlki 50 ildəkinə bərabər və ya əvvəlki 30 ildəkindən iki dəfə çox idi. Bu zaman xalq istehlak malları istehsalı 3 dəfə artmışdı.

Kənd təsərrüfatının ümumi məhsulu 13 ildə 2,7 dəfə artmışdır. Taxıl, pambıq, üzüm, meyvə, tərəvəz və tütünün məhsuldarlığı xeyli yüksəldi. Bütövlükdə kənd təsərrüfatında əmək məhsuldarlığı 2,2 dəfə artmış, su təsərrüfatı tikintisinə 2 mlrd. manatdan çox vəsait qoyulmuşdur, bu da əvvəlki 50 ildəkindən (800 mln. manat) iki dəfə çoxdur [46, v.25].

13 il ərzində iqtisadiyyatın inkişafına 21,3 mlrd. manat kapital yönəldilmişdir ki, bu da əvvəlki 50 ildəkindən 1,5 dəfə artıqdır. 250 müəssisə, sex və istehsal obyekti tikilmiş, əsas fondlar 18,6 mlrd. manat artmış (əvvəlki 25 ildəkindən 1,6 dəfə çox – Ə.Q.), fond verimi 1,3 dəfə yüksəlmişdir [46, v. 26].

Arxayınlıqla atılmış sıçrayışlı addımların, qazanılmış möhtəşəm uğurların, böyük nəticələrin əldə edilməsi Azərbaycanın siyasi rəhbərliyinin fəaliyyətində əsas istiqamətin geniş xalq kütlələri ilə sıx əlaqə, tənqid və özünütənqid, çatışmazlıqlara prinsipial münasibət, qərarların qəbul edilməsində aşkarlıq, ictimai rəyin daim öyrənilməsi və nəzərə alınması kütlələrin təşəbbüsünə və yaradıcılığına istinad

edilməsiylə reallaşırdı. Bu dövrdə respublikada ideoloji işə kompleks yanaşmada böyük təcrübə əldə edilmiş, ideya-siyasi, əmək və mənəvi tərbiyənin sıx birliyi təmin olunmuşdu. Cəmiyyətdə işgüzar əhval-ruhiyyə, sağlam mənəvi atmosfer, möhkəm sosial və millətlərarası münasibətlər hökm sürürdü.

70-80-ci illərdə Azərbaycan qazandığı müvəffəqiyyətlərə görə Oktyabr İnqilabı və Xalqlar Dostluğu ordenləri ilə təltif olunmuş, onuncu beşilliyin planlarını vaxtından əvvəl yerinə yetirdiyinə görə respublika üçüncü dəfə Lenin ordeninə layiq görülmüşdü. On iki il dalbadal respublika Ümumittifaq Sosializm yarışının qalibi olmuş və buna görə də Qırmızı Bayraqlarla təltif olunmuşdu.

Bütün bunlar Azərbaycan rəhbərliyinin qısa müddətdə həyata keçirdiyi əməli tədbirlərin nəticələri idi. Heydər Əliyevin obrazlı şəkildə dediyi kimi, axı zavod, fabrik və mədənlər elə həmin zavod, fabrik və mədənlərdir, torpaqlar elə həmin torpaqlardır, tarlalar həmin tarlalardır. Nəticələr isə tamam başqadır [95, v.98-99].

Bu danılmaz bir həqiqətdir ki, 13 il ərzində Azərbaycana rəhbərlik edən Heydər Əliyev respublikanın əldə etdiyi uğurlara və müvəffəqiyyətlərə böyük şəxsi töhfə vermişdi. Özünün təşkilatçılıq qabiliyyəti, müstəsna əməksevərliyi, işə yaradıcı münasibəti, prinsipiallığı və nöqsanlara qarşı barışmazlığı ilə o, bütün Azərbaycan xalqının böyük nüfuzunu və dərin hörmətini qazanmış, xalqın bütün təbəqələri içərisində uğurlu bir örnək kimi ruh yüksəkliyi yaratmışdı.

Buna görə də təsadüfi deyildir ki, 1982-ci ilin noyabrında Heydər Əliyevin Sov.İKP MK-nın Siyasi Bürosuna üzv seçilməsi və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini

təyin edilməsi bütün respublika əhalisinin hədsiz sevincinə səbəb olmuşdu. Həmin dövrdə Azərbaycan KP MK-ya daxil olan məktublarda insanlar bu hadisəni yüksək qiymətləndirərək öz sevinc və fəxarətlərini bildirirdilər.

Qeyd edildiyi kimi, Heydər Əliyevin Azərbaycanın siyasi rəhbəri seçilməsi ilə Naxçıvan MSSR-in iqtisadi inkişafında da ciddi dönüş baş vermişdi. İlk aylardan başlayaraq Azərbaycanın bütün regionları kimi muxtar respublikanın da iqtisadi və mədəni tərəqqisinin əsası qoyuldu. Azərbaycan rəhbərliyinin göstərişlərinə uyğun olaraq doqquzuncu beşillikdə Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişaf planı işlənib hazırlandı.

İqtisadiyyata əsaslı vəsait qoyuluşu artırıldı. Belə ki, əgər səkkizinci beşilliyin üç ilində – 1966-1968-ci illərdə Naxçıvan Muxtar Respublikanın iqtisadiyyatına cəmi 90 mln. manat kapital qoyulmuşdusa (hər il orta hesabla 30,3 mln. manat), Heydər Əliyevin rəhbərlik etdiyi ilk iki il ərzində - 1969-1970-ci illərdə bu rəqəm 105 mln manat təşkil etmişdir. Sənaye məhsulunun 1969-1970-ci ildə artımı 83 faiz olmaqla əvvəlki üç ildəkindən 4,1 dəfə çox idi [86, 31].

Heydər Əliyevin Azərbaycan SSR KP MK-nın birinci katibi seçildiyi ilk üç il ərzində (1970-1973-cü illərdə) muxtar respublikada sənayenin inkişaf sürəti 25,5 faiz təşkil etmiş, sənaye məhsulunun artımının yarıdan çoxu əmək məhsuldarlığının artırılması hesabına əldə edilmişdir. 1973-cü ildə bu göstərici 80 faizə çatmışdı. Həmin dövrdə kənd təsərrüfatının inkişafında da uğurlar əldə edilmişdi. Taxıl istehsalı 30 faiz tütün, 8,9 faiz, tərəvəz 4 dəfə, süd 54 faiz, ət 45 faiz yumurta 80 faiz artmış, taxıl bitkilərinin və

heyvandarlığın məhsuldarlığı artmışdı. Sosial problemlərin həllində, əhalinin rifah halının yaxşılaşdırılmasında bir sıra üstünlüklər nəzərə çarpırdı. Həyata keçirilmiş tədbirlər nəticəsində ilk 4 il ərzində səkkizinci beşilliklə müqayisədə 2,2 dəfə çox sənaye məhsulu satılmışdı [17, v.111].

Beşillik ərzində 10 mln şərti konserv bankı, 1000 ton ət, , 25 min kubmetr dəmir-beton məmulatı, 150 mln. mineral su butulkası, 54 ton barama, 310 ton qənnadı məmulatı, 1 mln ədəd kərpic və digər sənaye məhsulu istehsalı nəzərdə tutulurdu. VIII beşilliklə müqayisədə tütün istehsalı 60 faiz, üzüm 2,9 dəfə, tərəvəz 3,7 dəfə, süd 2,4 dəfə, yumurta 30 faiz artırılmalı idi [113, v.6-8].

Bir çox sahələrdə olduğu kimi, həmin illərdə muxtar respublikada tikinti quraşdırma sahəsinin inkişafına xüsusi diqqət yetirilirdi. 1969-1970-ci illərdə bu sahəyə 76 mln manat əsaslı vəsait qoyuldu ki, bu rəqəm əvvəlki iki ildəkindən (58 mln manat – Ə.Q.) xeyli çox idi. Bütövlükdə 1971-1975-ci illərdə əsaslı tikintiyə 210 mln manat, tikinti quraşdırma işlərinə isə 175 mln. manat vəsait ayrılmışdı (113, v.14). Bu isə əvvəlki 46 il (1925-1970-ci illər) ərzində qoyulmuş vəsaitdən dəfələrlə çox idi. 1970-ci illərin ilk üç ili ərzində Naxçıvan MR-də yeni sənaye müəssisələri – alıminium qablar zavodu, tikiş fabriki, dəmir-beton məmulatı zavodunun birinci növbəsi, iki şərab zavodu və s. işə salındı. Doqquzuncu beşilliyin ilk üç ili ərzində 1968-1970-ci illərdəkindən 1,5 dəfə çox sənaye məhsulu, o cümlədən 1,6 dəfə çox xalq istehlak malları istehsal edildi və satıldı [67, 1974, 27 fevral]. Əlbəttə, bütün bu göstəricilər həm də əhalinin iş yerləri ilə təmin olunması, rifah halının yaxşılaşdırılması demək idi.

Bununla bərabər, sənaye, nəqliyyat və tikinti sahələrində hələ də ciddi nöqsanlar var idi.

Düzdür, Azərbaycan SSR-də ümumi məhsul istehsalının həcminə görə Naxçıvan MSSR-in payı 1,2 faizdən 1,4 faizə qalxsa da, muxtar respublikanın sənaye potensialının artırılması üçün mövcud imkanlardan lazımınca istifadə edilmirdi. Buradakı sənaye müəssisələri işçi qüvvəsinin sayına görə çox kiçik müəssisələr (20-50 işçi qüvvəsinə malik) idilər. Sənaye müəssisələrinin strukturunun təhlili göstərir ki, həm kəmiyyət, həm də texnoloji prosesin yerinə yetirilməsinə görə bu müəssisələr ilkin formalaşma mərhələsində idilər. Sənaye müəssisələrinin yerləşməsi müasir prinsiplərə cavab vermirdi, ərazicə bir-birindən aralı idilər. Onlar arasında əlaqə olmadığından buraxdıqları məhsul xammal və ya yarımfabrikat şəklində muxtar respublikadan kənara çıxarılırdı [26, v.85].

Muxtar respublikanın sənayesinin inkişafının mühüm çatışmazlıqlarından biri də o idi ki, kəşf edilmiş ən müxtəlif xammal ehtiyatları yerində emal edilmədiyindən hazır məhsul səviyyəsinə qədər çatdırılmırdı. Muxtar respublikanın 100 mindən çox əhalinin yaşadığı bir çox rayonlarında (Culfa, Şərur) ümumiyyətlə sənaye obyektləri yox idi.

Naxçıvan Muxtar Respublikasının imkanları nəzərə alınaraq burada nəinki respublika, eləcə də ittifaq əhəmiyyətli iri, müasir istehsal müəssisələrinin tikilməsinə ehtiyac duyulurdu. Müasir elmin, texnikanın, mütərəqqi texnologiyanın nailiyyətlərinə əsaslanan belə istehsal gələcəkdə böyük siyasi-iqtisadi nəticələr verməklə bərabər, muxtar respublikanın mədəni simasının kökündən dəyişilməsinə, sosial strukturunda ciddi dəyişikliklərə gətirib çıxara bilərdi.

Azərbaycan KP MK və Respublika Nazirlər Soveti muxtar respublikanın sənayesinin və kənd təsərrüfatının inkişafına dair bir sıra qərarlar qəbul etsələr də, respublika nazirlikləri və idarələri bu qərarları pis yerinə yetirirdilər, muxtar respublika rəhbərliyinin təkliflərinə, tənqidi çıxışlarına reaksiya vermirdilər. 1975-ci ilə qədər Naxçıvanda evtikmə kombinatının tikilməsi mövcud sənaye-istehsal güclərinin (elektrotexnika, avtotəmir zavodu, mebel fabriki və s.) müasir texnika əsasında yenidənqurulması və genişləndirilməsi məsələsi həll edilməmiş qalırdı [26, v.86].

Naxçıvan MR-də bir sıra sənaye müəssisələrində (Elektrotexnika zavodu, Paraqçay filiz mədəni, Sirab mineral sular zavodu, Avtomobil təmiri zavodu və b.) plan tapşırıqları yerinə yetirilmir, bəzi müəssisələrdə quraşdırılmış avadanlığın gücündən 70-80 faiz istifadə edilirdi [26, v.88].

Xalq istehlakı malları istehsalında da ciddi nöqsanlar mövcud idi. Sənaye müəssisələrində malların çeşidini genişləndirmək, onu təzələmək və məhsulun keyfiyyətini yüksəltmək sahəsində lazımi iş aparılmırdı.

Muxtar respublikanın çox zəngin təbii və xammal ehtiyatlarından lazımınca istifadə edilmirdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, o zaman Azərbaycanda öyrənilmiş 350 mineral su mənbəyindən 132-si Naxçıvan MR ərazisində yerləşirdi. 1970-ci ildə Ümumittifaq Dequstasiya şurasında «Badamlı» mineral suyu 32 su arasında ən yaxşı «süfrə suyu» seçilmişdi. Ancaq onun ehtiyatlarının yalnız 2,7 faizindən istifadə olunurdu. Digər mənbənin, «Yesentuki-17» suyunun analoqu olan «Sirab» suyunun isə yalnız 7,4 faizindən istifadə olunur, muxtar respublika ərazisindəki digər mineral su

mənbələrindən, o cümlədən müalicəvi Vayxır suyundan isə ümumiyyətlə istifadə olunmurdu [7, v.85]. Badamlı mineral sular zavodu 1968-ci ildən istehsal planlarını yerinə yetirmirdi. Respublika rəhbərliyi isə geridə qalan müəssisədə təşkilati-texniki tədbirlər həyata keçirmək əvəzinə, planları ilbəil artırmağı üstün tuturdu. Muxtar respublika rəhbərliyi dəfələrlə mineral su xəttinin, Naxçıvan-Sirab-Badamlı dəmir yolu qolunun və ya xəttinin tikintisi barədə məsələ qaldırsa da, buna əməli işlə cavab verilmirdi [7, v.86].

Naxçıvan MSSR-də mövcud olan imkanlardan və ehtiyat mənbələrindən heç də tam istifadə edilmədiyini belə bir fakt da sübut edirdi ki, doqquzuncu beşilliyin üç ili ərzində muxtar respublika üzrə sənaye istehsalının, xüsusilə kənd təsərrüfatı istehsalının artım sürəti bütövlükdə Azərbaycan SSR üzrə olduğundan xeyli aşağı idi.

Muxtar respublika rəhbərliyi bir sıra zavod və fabriklərin iş geriliyinin aradan qaldırılması, yeni müəssisələrin tikilməsi, Naxçıvan torpağının zəngin faydalı qazıntı yataqlarının kəşf olunması və işlədilməsi məsələlərində əzmkarlıq göstərmirdi. Hər il nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşunun xeyli hissəsindən istifadə edilmir, əsas fondların işə salınması da yarıtmaz vəziyyətdə qalırdı. 1971-1973-cü illərdə muxtar respublika zəhmətkeşlərinə nəzərdə tutulduğundan 30 min kvadratmetr az mənzil verilmişdi [67, 1974, 27 fevral]. Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı respublika səviyyəsində qəbul edilmiş qərarlar elə respublika nazirlikləri və idarələri tərəfindən yerinə yetirilmirdi. Ona görə də muxtar respublika rəhbərliyi bu məsələ ilə bağlı birbaşa Heydər Əliyevə müraciət etməli olmuşdu [26, v.86].

Muxtar respublikanın iqtisadi inkişafı sahəsində mövcud vəziyyət Heydər Əliyevi daim narahat etdiyindən o, bu vəziyyəti dəyişdirmək üçün bir sıra əməli addımlar atmalı oldu. Bu baxımdan muxtar respublikanın iqtisadi inkişafı üçün Azərbaycan KP MK və respublika hökumətinin «Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarının mühüm əhəmiyyəti oldu [18, v.187-201]. Bu qərar Heydər Əliyevin muxtar respublikaya, onun sənayesinin, kənd təsərrüfatının inkişafına, naxçıvanlıların rifahının yüksəlməsinə göstərdiyi diqqətin birbaşa təzahürü idi. Qərarın muxtar respublikanın gələcək iqtisadi və mədəni inkişafında əhəmiyyətini nəzərə alaraq onun qəbul edilməsini şərtləndirən amillərin nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik.

1971-ci il oktyabrın 8-də Azərbaycan KP Naxçıvan VPK-nın katibi A.Hüseynov və Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.Nəbiyevin imzası ilə Azərbaycan KP MK-ya məktub ünvanlandı [18, v.199-201]. Məktubda göstərilirdi ki, son 10 ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin Naxçıvan MSSR üzrə qəbul etdikləri bir sıra qərarlar sayəsində muxtar respublikanın xalq təsərrüfatının daha da inkişafı, zəhmətkeşlərin rifah halının yüksəldilməsi və mədəni-məişət xidmətlərinin yaxşılaşdırılması üzrə müəyyən işlər görülmüşdür. Qəbul edilmiş qərarların nəticəsi olaraq Naxçıvan MR-də daha geniş miqyasda mənzil, məktəb, kinoteatr, əhaliyə xidmət obyektləri tikilməyə başlanmışdır.

Sənayedə də əhəmiyyətli dəyişikliklər baş vermişdi. Naxçıvan tütün-fermentasiya, sirab, mineral sular, Əbrəqunis və Şahbuz şərab zavodlarının istifadəyə verilməsi,

elektrotexnika və avtotəmir zavodlarının təşkili, Ordubad baramaaçan və Naxçıvan tikiş fabriklərinin yenidən qurulması və genişləndirilməsi və s. nəticəsində muxtar respublikada ümumi sənaye məhsulunun həcmi 23 mln. manatdan 52 mln. manata qalxmışdır [18, v.199].

Kənd təsərrüfatını inkişaf etdirmək məqsədi ilə bir sıra su təsərrüfatı obyektləri, o cümlədən Nehrəm su anbarı, Sədərək, Qaraçuq, Culfa, Yaycı və Dəstə nasos stansiyaları inşa edilmişdi ki, bu da suvarılan torpaqların su ilə təminatının yaxşılaşmasına, üzümçülüyün və tütünçülüyün inkişafına, onların bazasında ixtisaslaşdırılmış sovxozlar yaradılmasına təkan vermişdir.

Bütün bunlarla yanaşı, məktubda respublikanın orta göstəriciləri və Azərbaycanın digər rayonları ilə müqayisədə Naxçıvan MSSR-in iqtisadiyyatının və mədəniyyətinin çox aşağı səviyyədə inkişafı qeyd edilir və sübut kimi 1970-ci ilin bəzi statistik göstəricilərinə istinad edilirdi. Adambaşına düşən ümumi sənaye məhsulunun həcmi Azərbaycan üzrə 828 manat, DQMV üzrə 700 manat təşkil etdiyi halda, Naxçıvan MSSR üzrə bu rəqəm cəmi 263 manat, pərakəndə ticarətin həcmi isə müvafiq olaraq 382, 358, 267 manat təşkil edirdi. Naxçıvan MSSR-də xalq təsərrüfatının digər sahələri üzrə də gerilik müşahidə olunurdu [18, v.199].

Bu geriliyin əsas səbəbi kimi yuxarıda göstərilmiş qərarlarda nəzərdə tutulmuş bir sıra mühüm məsələlərin Azərbaycan SSR-in əksər nazirlik və idarələri tərəfindən qeyri-qənaətbəxş həll edilməsi göstərilirdi.

Muxtar respublikada torpaq balansında suvarılan torpaq kimi qeydə alınan torpaqların suvarılması məsələsi hələ də tam

həll edilməmişdi. Hətta ən münbit illərdə belə 52 min hektar torpağın cəmi 8 min hektarı su ilə normal təmin olunurdu: 3,9 min hektar torpaq yalnız 17 faizdən 35 faizə qədər, 17,8 min hektar torpaq 31 faizdən 50 faizə qədər, 17,6 min hektar torpaq 51 faizdən 75 faizə qədər, 4 min hektar torpaq isə 76 faizdən 100 faizə qədər su ilə təmin olunurdu [18, v.200].

Respublikanın kənd təsərrüfatının gələcək inkişafının asılı olduğu Arpaçay su qovşağının tikintisi ilə əlaqədar kolxozlardan alınmış 4300 hektar suvarılan torpaqların əvəzi ödənilməmiş, tikintisi 1975-ci ildə başa çatdırılması nəzərdə tutulan Arpaçay su anbarının inşası çox ləng aparılmışdı. Bu su anbarından asılı olan torpaqlarda suvarma sistemlərinin tikintisinə başlanılması məsələsi də həll edilməmiş qalırdı. Culfa və Ordubad rayonlarının təsərrüfatlarının su təminatı ilə bağlı məsələsi də öz həllini gözləyən məsələlərdən idi.

Muxtar respublikada kənd tikintisi çox yarıtmaz gedirdi. Kənd əhalisinin dörddə üç hissəsi elementar tələblərə cavab verməyən, düz damlı (şifersiz) torpaq evlərdə yaşayırdı.

Kəndlərin əksəriyyətində məktəblər, mədəni-məişət obyektləri yararsız binalarda yerləşirdi, hamamlar və içməli su mənbələri yox idi. Bir çox işlərin görülməsinə baxmayaraq muxtar respublikanın paytaxtının abadlıq səviyyəsi müasir tələblərə cavab vermirdi.

Respublikanın qazlaşdırılması məsələsi həll edilmir, Mincivan-Mehri avtomobil yolunun tikintisi ildən-ilə təxirə salınırdı.

Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti tərəfindən dəfələrlə qaldırılmış məsələlər – mineral su mənbələrindən səmərəli istifadə

olunması, tikintinin istehsal bazasının möhkəmləndirilməsi, yerli tikinti materiallarının istehsalının genişləndirilməsi, sovxozların mərkəzi malikanələrinin abadlaşdırılması, tikilməsi və digər həyati məsələlər öz həllini hələ də tapmamışdı.

Məktubda daha sonra göstərilirdi ki, 1974-cü ilin fevralın 9-da Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi tamam olur. Respublika zəhmətkeşləri bu şərəfli tarixi layiqli qarşılamağa hazırlaşırlar. Lakin Azərbaycan SSR-in bəzi nazirlik və idarələri onların qarşısında qoyulan məsələlərə heç də həmişə vaxtında reaksiya vermirlər. Bəzi hallarda onların baxılması və həlli yolverilməz dərəcədə ləngidilir, bəzən də əsassız olaraq təxirə salınır.

Bütün deyilənləri nəzərə alaraq muxtar respublika rəhbərliyi Azərbaycan KP MK-dan və Azərbaycan SSR Nazirlər Sovetindən Naxçıvan MSSR iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdirilməsi məsələlərinə baxmağı və müvafiq qərarlar qəbul etməyi xahiş edirdi [18, v.201].

Heydər Əliyev muxtar respublika rəhbərliyinin bu məktubuna dərhal münasibət bildirmiş və məsələni Mərkəzi Komitənin Büro iclasına çıxarmışdı. Heydər Əliyevin imzası ilə qəbul edilmiş Azərbaycan KP MK Bürosunun 22 oktyabr 1971-ci il tarixli qərarında H.İbrahimova, H.Seyidova, B.Baxşəliyevə və M.Xəlilova Azərbaycan KP Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Sovetinin məktubunda muxtar respublikanın iqtisadi və mədəni inkişafı ilə bağlı irəli sürülmüş məsələlərə üç ay müddətinə baxılması və Azərbaycan

KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin müvafiq qərar layihəsinin hazırlanması tapşırılmışdı [8, v. 187].

Qərar layihəsi göstərilən müddətdə hazırlanaraq təkliflərini bildirmək üçün respublikanın bütün nazirlik və idarələrinə göndərilmişdi [13, v. 145]. Məhz buna görə də qərarın qəbulu prosesi bir qədər çox çəkmişdi.  Bu zaman qərar layihəsinə bir sıra maddələr əlavə edilmiş, bəzi maddələrə isə yenidən baxılmışdı. Qərar layihəsi hətta mərkəzi orqanlarla razılaşdırılmışdı.

Nəhayət, 1974-cü il 8 yanvar tarixində Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin və Azərbaycan SSR Nazirlər Sovetinin sədri Əli İbrahimovun imzaları ilə «Naxçıvan MSSR xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri» haqqında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı qəbul edildi. Qərarda son illərdə Naxçıvan MSSR iqtisadi və mədəni inkişafında müəyyən uğurlar əldə edildiyi, 1966-1970-ci illərdə sənaye istehsalı həcminin 2,1 dəfə və hər il orta hesabla 16 faiz artdığı, muxtar respublikada üzümçülüyün, tütünçülüyün və digər kənd təsərrüfatı sahələrinin uğurla inkişaf etdiyi, geniş tikintinin aparıldığı vurğulanır, bununla yanaşı Naxçıvan MSSR-in bir sıra göstəricilər üzrə orta respublika səviyyəsindən geri qaldığı qeyd edilirdi. Göstərilirdi ki, Azərbaycan SSR Dövlət Plan Komitəsi, bir sıra respublika nazirlik və idarələri Azərbaycan KP Naxçıvan VPK, Naxçıvan MSSR Nazirlər Soveti muxtar respublikanın sənayesinin, kənd təsərrüfatının inkişafı, əsaslı tikinti məsələləri ilə kifayət qədər məşğul olmurlar.

34 maddədən ibarət qərarda muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün Azərbaycan SSR müvafiq nazirlik və idarələrin, Naxçıvan VPK və Nazirlər Soveti qarşısında konkret vəzifələr qoyulmuş, onların yerinə yetirilməsi müddəti dəqiq müəyyənləşdirilmişdi. Naxçıvan MSSR-in iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək məqsədi ilə Azərbaycan KP MK və respublika hökuməti Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Sovetindən muxtar respublikanın xalq təsərrüfatına rəhbərliyi yaxşılaşdırmağı, sənaye, kənd təsərrüfatı və əsaslı tikinti sahəsində beşilliyin planlarını yerinə yetirməyi, muxtar respublika qarşısında qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün zəhmətkeşlərin bütün qüvvəsini səfərbər etməyi tələb etmiş, Azərbaycan SSR Dövlət Plan Komitəsinə digər müvafiq nazirlik və idarələrlə, Naxçıvan MSSR Nazirlər Soveti ilə birgə mövcud istehsal güclərindən daha yaxşı istifadə edilməsi və yeni istehsal müəssisələrinin istismara verilməsinin sürətləndirilməsi əsasında, ictimai istehsalda əmək qabiliyyətli əhalidən daha çox istifadə etməklə 1974-1975-ci illər üçün xalq təsərrüfatı planlarında əvvəlki dövrlə müqayisədə muxtar respublikanın sənayesinin daha yüksək sürətlə inkişafının təminatını tələb etmişdi. Qərarda nəzərdə tutulmuş bütün işlər 1974-1975-ci illər ərzində yerinə yetirilməli idi. Naxçıvan MR-in gələcək inkişafında mühüm rol oynayacaq bu qərarın həyata keçirilməsinə Heydər Əliyev şəxsən nəzarət edirdi. Bunun nəticəsi olaraq qərarda öz əksini tapmış vəzifələrin əksəriyyəti vaxtında yerinə yetirilmişdi [18, v.188-189].

Qərarın qəbulundan bir ay sonra Heydər Əliyev Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransında şəxsən iştirak

edərək muxtar respublikadakı sosial-iqtisadi vəziyyətin, ideoloji işin dərin elmi-siyasi təhlilini verdi, mövcud nöqsanları açıq göstərdi və onların həlli yollarını müəyyənləşdirdi. Muxtar respublika rəhbərliyinin iş metodlarını kəskin tənqid edən Heydər Əliyev konkret faktlara əsaslanaraq iqtisadiyyatın inkişaf sürətini artırmaq, ideoloji işi gücləndirmək, kadrların məsuliyyətini yüksəltmək sahəsində Azərbaycan rəhbərliyinin həyata keçirdiyi tədbirlərin, bütün mənfi hallara qarşı mübarizə ruhunun Naxçıvan MSSR rəhbərliyinin fəaliyyətində lazımınca öz əksini tapmadığını, bəzi partiya və sovet rəhbərlərinin sözlərində və işlərində qətiyyət, prinsipiallıq və səmimiliyin hiss olunmadığını açıq şəkildə bəyan etmişdir. Heydər Əliyev muxtar respublikanın vilayət və rayon partiya komitələrinin, Nazirlər Sovetinin, Ali Soveti Rəyasət Heyətinin və nazirliklərin fəaliyyətini kəskin tənqid edərək onlardan əməli nəticələr çıxarmağı, iş üslubunu və metodlarını yaxşılaşdırmağı, müəssisələrlə əlaqələri möhkəmləndirməyi, prinsipsizliyə və laqeydliyə yol verməməyi, eyni zamanda o, Azərbaycan nazirliklərinin və baş idarələrinin muxtar respublikanın əsas ehtiyaclarına daha çox diqqət yetirmələrini tələb edirdi [93, v.105].

Heydər Əliyev konfransda belə bir fakta diqqəti cəlb etmişdi ki, Naxçıvanda həm sənayenin, həm də kənd təsərrüfatının, həm digər başqa xalq təsərrüfatı sahələrinin inkişaf sürəti Azərbaycanın orta inkişaf sürətindən aşağıdır. Buna görə də bu sahələrin xüsusən sənayenin inkişaf etdirilməsi üçün bütün tədbirlərin görülməsini təkidlə tələb edirdi [95, v.105].

Heydər Əliyev tərəfindən Naxçıvanın iqtisadiyyatının inkişafına göstərilən dövlət qayğısı sənayenin ayrı-ayrı sahələrinin inkişaf göstəricilərində öz əksini tapırdı.

Naxçıvan Muxtar Respublikasının sənaye strukturunda tikinti materialları sənayesinin mühüm yer tutmasına baxmayaraq, 1970-ci illərin əvvəllərinə qədər geniş potensiala malik bu sahə demək olar ki, başlı-başına buraxılmışdı. Hələ Naxçıvan VPK-nın XXX konfransında çıxış edərkən Heydər Əliyev qeyd etmişdi ki, hamı bilir ki, Naxçıvan faydalı qazıntılarla zəngindir, lakin nə vaxta qədər bununla öyünəcəklər, bəs nə zaman faydalı qazıntılardan respublika zəhmətkeşlərinin xeyri üçün istifadə olunacaqdır [129, 1974, 24 fevral]. Heydər Əliyev Azərbaycan Tikinti Materialları Sənayesi Nazirliyi, Geologiya Komitəsi ilə yanaşı, Naxçıvan MR Nazirlər Sovetini də təşəbbüskarlıq və əzmkarlıq göstərmədiyinə görə kəskin tənqid etmişdi. O, belə bir faktı da xatırlatmışdı ki, son on il ərzində bir əlvan metal yatağı da sənaye miqyasında istifadəyə verilməmiş və hamı buna dözmüşdür [129, 1974, 24 fevral].

1973-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosu Naxçıvanda yerli kərpic istehsalının başlanması haqqında məsələni müzakirə edərək, bu barədə müvafiq qərar qəbul etmişdi. Lakin bu qərar yerinə yetirilmədiyinə görə Heydər Əliyev Azərbaycanın müvafiq nazirliyinin və muxtar respublika rəhbərliyinin qarşısında ciddi tələblər qoymalı olmuşdu.

Muxtar respublikanın və əhalinin artan tələbatı, həmçinin tikinti materiallarının uzaqdan daşınmasının çox baha başa gəldiyi nəzərə alınaraq 70-80-ci illərdə bu sahənin inkişafına xüsusi diqqət ayrıldı. Azərbaycan KP MK və respublika

hökumətinin 8 yanvar 1974-cü il tarixli qərarında Azərbaycan SSR Tikinti Materialları Sənayesi Nazirliyinə 1974-cü ildə, 1976-1980-ci illərdə Naxçıvan MSSR-də yerli tikinti materialları istehsalının inkişafının texniki-iqtisadi əsaslandırılmasını hazırlamaq və onuncu beşillikdə həyata keçirmək tapşırılmışdı [18, v.188]. Qərarda həmçinin yem briketlərinin, yalayıcılarının hazırlanması üçün Naxçıvan yatağındakı duz dənələrinin istifadə olunması imkanlarının öyrənilməsi, bu məqsədlə Naxçıvan duz mədəninin yem briketlərinin, yalayıcılar sexinin bərpası və genişləndirilməsi nəzərdə tutulurdu [18, v.188]. Bütün bunların nəticəsi olaraq 1973-cü ildə gücü 20 min kubmetr olan dəmir-beton məmulatları zavodu, 1977-ci ilə yenə həmin gücdə yığma dəmir-beton məmulatları zavodu, 1979-cu ildə 50 mln ədəd butulka istehsalı gücündə şüşə tara zavodu, 1982-ci ildə 10 min kubmetrlik Şahtaxtı travertin bloklar karxanası, 1984-cü ildə iri paneli evtikmə zavodu inşa edilərək istifadəyə verildi. 1980-ci ildə 21,2 min kubmetr dəmir-beton məmulatı, 24,3 min kub-metr əmtəə betonu, 55,4 min kubmetr travertin bloku, 2,5 mln. ədəd kərpic və s. istehsal edilmişdi [160, 28]. 1971-1980-ci illərdə ümumi məhsul istehsalı üzrə tikinti materiallarının sənayesinin xüsusi çəkisi 2,7 faizdən 3,8 faizə, sənaye istehsal heyətinə görə isə 8,3 faizdən 9,1 faizə çatdı [5, v.182]. Tikinti materialları sənayesi dəmir-beton məmulatları, tikinti daşı, mərmər, üzlük plitələr, kərpic, travertin bloku və s. istehsalından ibarət olmaqla çoxsahəli xarakter daşıyırdı və əsasən yerli tələbatı ödəyirdi. Bununla yanaşı, muxtar respublikada istehsal olunmuş mərmər, üzlük plitə, travertin bloku SSRİ-in başqa regionlarına ixrac olunurdu. Şahtaxtı

travertinindən hazırlanmış üzlük plitələr metro, kinoteatr, inzibati binaların tikintisində tətbiq olunurdu. Bu qiymətli materiala tələbat ildən-ilə artırdı. Təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kubmetr travertinin 10 min kubmetri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac olunmuşdu. 1985-ci ildə bu qiymətli tikinti materialının istehsalı 47,7 min kubmetrə çatdırılmışdı.

Heydər Əliyevin rəhbərliyi dövründə muxtar respublikada üzlük materialların istehsalının daha da inkişaf etdirilməsi sahəsində çox böyük işlər görülmüş, üzlük plitələrin buraxılması üzrə yeni müasir müəssisələr yaradılmış, istehsal olunan məhsulun keyfiyyəti yaxşılaşmışdır. Onuncu beşillikdə travertindən blok hazırlanması 1,8 dəfə artmış və 113 min kubmetr təşkil etmiş, 160 min kvadratmetr üzlük plitə istehsal edilmişdir. Muxtar respublikada yüksək dekorativ xüsusiyyətlərə malik travertinlər, mərmərləşmiş əhəng daşları, monsopitlər, tuflar, konqlameratlar yatağı aşkar edilmişdi. Lakin Naxçıvan MR-də yerli tikinti materiallarının, xüsusən üzlük materialların istehsal səviyyəsi Heydər Əliyevi əsla qane etmirdi. Azərbaycan SSR Dövlət Plan Komitəsi, Geologiya İdarəsi tərəfindən yeni bəzək daşları yataqlarının axtarılması, kəşf edilmiş ehtiyatların təsdiqi, Naxçıvan MSSR-də üzlük materialların istehsalı üzrə yeni güclüklərin yaradılması məsələləri heç də səmərəli həll edilmirdi.

Bu sahədə işlərin ləng getməsini göstərən amillərdən biri də 17 mln. kubmetr ehtiyata malik Buzqov və Qarabağlar travertin yataqlarının, 2,3 mln. kubmetrlik Ulya-Noraşen mərmərləşmiş əhəng daşı yatağının sənaye istehsalına cəlb edilməməsi idi [47, v.89-90].

Təbii daşdan blokların hazırlanmasının texniki səviyyəsi aşağı idi. Yeni Şahtaxtı travertin karyerinin tikintisi gecikdirilir, Qızılvəng stansiyasında plitə istehsalı sexinin genişləndirilməsinə də diqqət yetirilmir, mövcud gücün yalnız yarısından istifadə olunurdu.

Naxçıvan MSSR-in partiya və sovet orqanları üzlük materialları istehsalının inkişafı üzrə vəzifələri həll edilməsində qətiyyət göstərmir, yeni müəssisələrin tikintisi və mövcud güclərin mənimsənilməsi gedişinə zəif nəzarət edir, bu sahədə çalışan işçilərin iş və məişət şəraitinin yaxşılaşdırılması məsələsi ilə kifayət qədər məşğul olmurdular. Bütün bunlar barədə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 19 fevral 1982-ci il tarixli «Naxçıvan MSSR-də üzlük materialların istehsalının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərarında öz əksini tapmışdı. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin və Nazirlər Sovetinin Sədri Həsən Seyidovun imzaladıqları 15 maddədən ibarət qərarda Naxçıvanda üzlük materialların istehsalının genişləndirilməsi üçün kompleks təşkilati və iqtisadi tədbirlər müəyyənləşdirilmişdi. Qərarda təbii daşdan blok və plitələrin hasilatının genişləndirilməsi, sənaye istehsalı hasilatına cəlb etmək məqsədi ilə yeni üzlük material yataqlarının axtarışının sürətləndirilməsi, üzlük plitələrin istehsalı üzrə müəssisələrin yaradılması, Kilit, Buzqov, Qarabağlar, Qızılvəng karyerlərinin işə salınması, bu sahədə çalışanlar üçün mənzil, məktəb, uşaq bağçaları və digər sosial-mədəni obyektlərin tikintisi nəzərdə tutulmuşdu [47, v.90-95]. Çox təəssüf ki, hadisələrin sonrakı gedişi nəzərdə tutulmuş layihələrin həyata keçirilməsinin qarşısına bir çox əngəllər çıxardı. Bu gün Naxçıvan MR-in iqti-

sadi inkişafının ən mühüm vəzifələrindən biri də Naxçıvanın tikinti materialları istehsalı mərkəzinə çevrilməsi barədə Heydər Əliyevin ideyasının həyata keçirilməsidir.

Məlum olduğu kimi, iqtisadi siyasətin mühüm istiqamətlərindən olan struktur problemlərinin uğurlu həlli birinci növbədə elmi-texniki tərəqqini müəyyən edən və sənayenin digər sahələrinin dinamik inkişafına təkan verən maşınqayırma sənayesinin üstün inkişaf etdirilməsindən asılıdır.

Maşınqayırma və metal emalı muxtar respublika sənayesinin yeni və sürətlə inkişaf edən sahələri idi. Kifayət qədər əmək ehtiyatlarına malik Naxçıvan MSSR şəraitində bu əməktutumlu sahələrin inkişafı mühüm iqtisadi və sosial vəzifələrin yerinə yetirilməsinə, həmçinin birinci növbədə əmək qabiliyyətli əhalinin ictimai istehsalata daha geniş şəkildə cəlb edilməsinə təminat verirdi [74, 82].

1972-ci ilin martında Azərbaycan KP MK bürosunda elektrotexnika sənayesinin işi haqqında məsələ müzakirə olunarkən Naxçıvanda elektrotexnika zavodunun tikilməsi və tam gücündə işə başlaması ilə bağlı ciddi nöqsanlar olduğu göstərildi.

Heydər Əliyev 1974-cü ilin fevralında Naxçıvanda çıxış edərkən yenidən zavodun vəziyyətini kəskin tənqid edərək bildirmişdi: «1966-cı ildə tikintisinə başlanan zavod indiyə qədər tikilib qurtarmamışdır. Səkkiz il ərzində 1,8 milyon smeta dəyərinin cəmi 1 milyonu xərclənmişdir. Axı belə zavodu bir ilə işlətmək olar». O, zavodun məhsullarının keyfiyyətinin də aşağı olduğunu qeyd etmişdir [95, v.106].

Görülən tədbirlər öz nəticəsini verirdi. 1980-ci ildə bu sahələrin payına muxtar respublika sənayesində məşğul olanların 14,2 faizi və ümumi məhsulun 3.5 faizi düşürdü [47, v.21], halbuki 1970-ci ildə bu göstəricilər müvafiq olaraq 6,6 və 2,1 faiz təşkil edirdi [82, 53].

1982-ci ildə maşınqayırma və metal emalı sahəsinin payına ümumi sənaye məhsulunun 3,8 faizi, sənaye istehsal heyətinin 15,3 faizi düşürdü. Sənayenin bu sahəsində muxtar respublika üçün vacib olan bir sıra sənaye məhsulları, o cümlədən elektro-texnika məhsulları, istehsal təyinatlı metal məhsullar, təsərrüfat və məişət təyinatlı metal qablar istehsal edilir, maşın və avadanlıqların təmiri və modernləşdirilməsi həyata keçirilirdi. Maşınqayırma sənayesinin ən iri müəssisəsi olan Naxçıvan elektrotexnika zavodunda tənzimləyici aparatlar, drosellər, starter tutqacları, elektrotexniki məmulatlar, eləcə də müxtəlif xalq istehlakı malları istehsal olunurdu. 1980-ci illərin birinci yarısında muxtar respublikanın maşınqayırma sənayesində istehsal olunan məhsulun, bir qayda olaraq 50-55 faizi, sənaye istehsal heyətinin 35-40 faizi bu müəssisənin payına düşürdü.

Naxçıvan alıminium qablar zavodu, Şahbuz avtomobil təmiri zavodu, Naxçıvan məişət texnikası zavodu da maşınqayırma və metal emalı sənayesinin tərkibinə daxil idi və müxtəlif təsərrüfat, məişət xarakterli məhsullar istehsal edir və ya xidmət göstərirdilər. 1980-ci ildə bu sənaye sahəsinin müəssisələrində istehsal həcmi 1970-ci ildəkindən 3,9 dəfə çox – 3,5 min manat təşkil etmişdi [160, 28; 112, v.7].

70-ci illərə qədər potensial imkanların mövcud olmasına baxmayaraq, muxtar respublikada elektrik enerjisi istehsalı çox zəif inkişaf etmişdi. 1970-ci ildə burada cəmi 0,5 mln. kvt. saat

elektrik enerjisi istehsal edilmişdi ki, bu da istehsalın və əhalinin artan tələbatını ödəmək iqtidarında deyildi. Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə 1970-ci illərdə İranla birlikdə gücü 21 milyon kvt. saat olan Araz Su Elektrik Stansiyası tikilib istifadəyə verildi. Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan MSSR-in elektrik enerjisi ilə etibarlı təmin edilməsi vəzifəsi irəli sürülmüş, 1974-cü ildə Naxçıvan şəhərinin mərkəzi hissəsinin elektrik şəbəkəsinin bərpa edilməsi və 1975-ci ildə kabelə keçirilməsi nəzərdə tutulmuşdu [18, v.188]. 1977-ci ildə Qərçivan-Naxçıvan dairəvi elektrik xəttinin işə salınması muxtar respublikanı müntəzəm elektrik enerjisi ilə təmin etməyə imkan verdi [129, 1977, 21 iyul]. 1980-ci ildə muxtar respublikada 73,3, 1985-ci ildə isə 68,7 milyn kvt. saat elektrik enerjisi istehsal olunmuşdu [86, 36].

Yeri gəlmişkən, Heydər Əliyevin Naxçıvanda yerli enerji istehsalını genişləndirmək təşəbbüsü 90-cı illərin əvvəllərində muxtar respublikanın Ermənistan tərəfindən nəqliyyat və enerji blokadasına alındığı zamanda çox müdrik bir addım idi. Ulu öndər bununla öz tarixi uzaqgörənliyini bir daha sübut etdi. Vaxtında həyata keçirilmiş bu xeyirli işin nəticəsi ulu öndərimizin xalqının rifahi üçün həyata keçirdiyi digər uzaqgörən işləri kimi elini xata-bəladan qoruyan sipərə çevrildi. Bədnam qonşularımız muxtar respublikaya gələn bütün elektrik xətlərini kəsib blokadaya saldığı bir vaxtda Araz SES Naxçıvan camaatını qışın soyuğundan, aclıqdan, böhrandan xilas etdi.

70-ci illərdə, 80-ci illərin birinci yarısında Naxçıvan MSSR-in ərazisində sənaye müəssisələrinin yerləşməsində

əsaslı dəyişikliklər baş verdi. Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı İliç (Şərur), Şahbuz və Culfa rayonlarının mərkəzlərində və şəhər tipli yaşayış məntəqələrində də sənaye müəssisələri tikilməyə başlanmışdı. Əgər 1970-ci ildə muxtar respublikada istehsal olunan sənaye məsulunun 64,2 faizi Naxçıvan şəhəri və Babək rayonunun payına düşürdüsə, 1980-ci ildə onların xüsusi çəkisi 44 faizə düşdü. Şərur, Culfa, Ordubad, Şahbuz rayonlarında isə sənaye məhsulu istehsalının xüsusi çəkisi xeyli artdı. 1980-ci ildə istehsal olunan sənaye məhsulunun 37 faizi və sənaye istehsal heyətinin 12 faizi Culfa şəhərinin, Şahbuz qəsəbəsinin, Sədərək, Əbrəqunis, Xanlıqlar kəndinin payına düşürdü [4, v.192].

70-ci illərdə, 80-ci illərin I yarısında Naxçıvan MSSR-in sənaye inkişafının mühüm cəhətini yüngül və yeyinti sənayesi sahələrinin artımı təşkil edirdi. 1980-ci ildə bu iki sənaye sahəsinin payına muxtar respublikadakı bütün sənaye məhsulunun 90 faizi düşürdü. Bir sıra yeyinti və yüngül sənaye məhsullarının istehsalına görə muxtar respublika Azərbaycanda mühüm yer tuturdu. Məsələn, 80-ci illərin sonunda Naxçıvan MSSR-in payına respublikada istehsal olunan mineral suların 90 faizi, xam ipəyin 5,2 faizi, şərabçılıq sənayesi məhsulunun 5 faizi, konserv istehsalının 3,3 faizi düşürdü [4, v.192].

Yüngül sənaye Naxçıvan MR-in ənənəvi sənaye sahəsi kimi 70-ci illərdə öz inkişaf dövrünü yaşayırdı. Muxtar respublika sənayesinin ümumi məhsulunun 1970-ci ildə 62 faizi, 1975-ci ildə 76,1 faizi, 1980-ci ildə isə 77,5 faizi, sənaye istehsal heyətinə görə isə müvafiq olaraq 24,6, 34,4, 26,5 faizi bu sahənin payına düşürdü. Sənaye istehsalında çalışanların 29,6 faizi bu sahəyə aid idilər. 1970-ci illə müqayisədə yüngül

sənaye işçilərinin sayı 26,4 faiz, əmək məhsuldarlığı isə 49 faiz artmışdı [82, 48].

Ən geniş yüngül sənaye sahəsi sayılan ipəkçiliyin iri həcmli Ordubad baramaaçma fabriki 1980-ci ildə muxtar respublikanın ümumi sənaye məhsulunun 8,2 faizini istehsal edirdi və sənayedə məşğul olanların 13,1 faizini birləşdirirdi [82, 48]. 1982-ci ildə isə muxtar respublikanın yüngül sənayesində işləyənlərin 27 faizi və məhsulun 65 faizi bu müəssisənin payına düşürdü. 1985-ci ildə burada 107 ton xam ipək istehsal olunmuşdu ki, bu da 1970-ci ildəkindən 2,3 dəfə çox idi [160, 28].

Məhz Heydər Əliyevin Azərbaycanda, o cümlədən Naxçıvanda ipəkçiliyin inkişafı üçün atdığı addımlar sayəsində bu sahə dirçəlməkdə idi. Bu baxımdan Azərbaycan SSR-də ipəkçiliyin daha da inkişaf etdirilməsi tədbirləri haqqında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 17 mart 1971-ci il tarixli qərarı mühüm rol oynadı [9, v.49-53].

Həmin qərarda Azərbaycanda ipəkçilik sahəsinin dərin təhlili verilmiş, bu sahənin inkişafı üçün konkret tədbirlər müəyyənləşdirilmişdi. Qeyd edilmişdi ki, Azərbaycanda ipəkçiliyin zəif irəliləyişinin əsas səbəbləri ipəkçiliyin yem bazasının inkişafındakı çatışmazlıqlar, elmin və qabaqcıl təcrübənin tətbiqindəki xətalar, respublikada qrenaj zavodlarının olmamasıdır.

Məsələ ondadır ki, ipəkçilik sənayesinin tarixən respublikamızın sənaye sahələrindən hesab olunmasına baxmayaraq, ipəkçiliyin yem bazasının təminatı səmərəli şəkildə qurulmamışdı. Tut ağaclarının yetişdirilməsində əkinə yararsız torpaqlardan, yol kənarlarından, yamaclardan və s.

istifadə etməkdənsə, onlar ancaq plantasiya şəklində əkilirdi ki, bu cür üsul ehtiyacı ödəmirdi. Muxtar respublikada bu nöqsanlar daha aydın şəkildə görünürdü.

Bütün bunları nəzərə alaraq həmin qərarda 1971-1975-ci illərdə Naxçıvan MSSR-də 20 tonluq baramanın ilkin emalı bazasının tikintisi, yolların, kanalların və sahələrin kənarlarında 94 hektar ərazidə 84 min yüksək gövdəli tut ağacının əkilməsi planlaşdırılmışdı [9, v.55, 58].

70-ci illərdə Ordubad barama açma fabriki daha da genişləndirildi, müəssisədə yeni maşın və dəzgahlar quraşdırıldı, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması üzrə tədbirlər həyata keçirildi, yeni istehsal və köməkçi sexlər yaradıldı.

Lakin öz məhsulunu SSRİ-nin 9 şəhərinə göndərən fabrik artıq mövcud tələblərə cavab vermirdi. Avadanlıq köhnə olduğu və xammal göndərilməsində fasilələrə yol verildiyi üçün müəssisə geri qalırdı. 1980-ci ildə fabrikdə olan Heydər Əliyev problemi həll etmək üçün yeni yüksək səviyyəli mexanikləşdirilmiş müəssisə tikməyi Azərbaycan Yüngül Sənaye Nazirliyi qarşısında vacib məsələ kimi qoydu [67, 1980, 27 may]. Qısa müddət ərzində müəssisədə yenidənqurma işləri aparılması, yeni avadanlıqlar quraşdırılması, xammal istehsalının artırılması üçün tədbirlər görülməsi nəticəsində əmək məhsuldarlığı xeyli yüksəldi, məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə yanaşı çox çeşidliyi də təmin edildi.

Naxçıvan MSSR-də yüngül sənayenin mühüm sahələrindən birini də tikiş sənayesi təşkil edirdi. Bu sahənin müəssisələri muxtar respublikanın bütün rayon və şəhərlərində olan məişət xidməti kombinatının nəzdində fəaliyyət göstərirdi. Bunlardan

ən iriləri Naxçıvan tikiş fabriki, Naxçıvan istehsal kombinatı və fərdi tikiş fabriki idi. Müəssisələr yerli əhalinin və Azərbaycanın digər rayonlarının əhalisinin tələbatını ödəmək üçün geniş çeşiddə məhsullar buraxırdı. 70-ci illərdə Naxçıvan fərdi tikiş fabriki əsaslı surətdə yenidən qurulmuş, genişləndirilmiş və texniki bazası müasirləşdirilmişdi.

Lakin kifayət qədər sürətlə inkişaf etməsinə baxmayaraq 70-ci illərdə ümumi sənaye çərçivəsində yüngül sənayenin xüsusi çəkisi xeyli aşağı düşmüşdü.

Bu dövrdə yüngül sənayenin muxtar respublikanın ümumi məhsul istehsalında xüsusi çəkisi 1970-ci ildəki 30,9 faizdən 1980-ci ildə 12,5 faizə düşmüşdü. Bunun əsas səbəbi 70-ci illərdə muxtar respublikada digər sənaye sahələrinin təşəkkül tapması və sürətlə inkişaf etməsi idi. Buna baxmayaraq, 1980-ci ildə 1970-ci illə müqayisədə sənaye məhsullarının ümumi həcmində tikiş malları istehsalının həcmi 2,5 dəfə artmışdı [82, 48].

Heydər Əliyev Naxçıvanda yüngül sənayesinin inkişafı üçün bir sıra qərarların qəbul edilməsinə nail olmuşdu. Belə ki, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1971-ci il 14 yanvar tarixli qərarı ilə Naxçıvan şəhərində alt trikotaj fabrikinin tikintisi barədə mühüm qərar qəbul edilmiş [129, 1974, 29 mart]. 1974-cü il 8 yanvar tarixli digər qərarda isə fabrikin inşasının texniki sənədlərinin hazırlanması və fabrikin tikintisinin başa çatdırılması nəzərdə tutulmuşdu [18, v.188]. Heydər Əliyev yüngül sənaye obyektlərinin tikintisi ilə şəxsən maraqlanır, muxtar respublikada istehsal edilən məhsulların keyfiyyətinin yüksəldilməsi məsələsini daim diqqətdə saxlayırdı.

Heydər Əliyevin Naxçıvan MR-də yüngül sənayenin inkişafında ən mühüm xidmətlərindən biri Naxçıvan şəhərində Xalça Kombinatının tikintisinə nail olması idi. Bu, bütövlükdə muxtar respublika sənayesinin inkişafında mühüm hadisə olmaqla bərabər, işçi qüvvəsindən daha səmərəli istifadə edilməsi, xüsusən qadınların istehsalata cəlb edilməsi üçün böyük əhəmiyyət daşıyırdı. Bu kombinatın əhəmiyyətini Heydər Əliyev hələ 1978-ci ilin oktyabrın 15-də Naxçıvanda çıxışında göstərərək demişdi: «Mən sizə deyə bilərəm ki, çox böyük çətinliklə Naxçıvan şəhərində yeni xalça kombinatının tikilməsinə nail oldum. Mən bunu çox istədim, istədim ki, burada tikilsin. Çünki sənayeni inkişaf etdirmək lazımdır. Burada tikiləcək xalça kombinatı Kirovobaddakından da böyük olacaqdır və ondan da yüksək keyfiyyətli məhsul istehsal edəcəkdir» [96, v.62].

1981-ci ildə Naxçıvan şəhərində alt geyimləri fabrikinin istifadəyə verilməsi ilə muxtar respublikanın yüngül sənayesinin inkişafında yeni dövr başlandı. Tam istehsal gücünə düşməməsinə baxmayaraq, artıq 1983-cü ildə burada 678 nəfər (bütün yüngül sənaye işçilərinin 23 faizindən çoxu) işləməklə 5,6 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilmişdi [86, 39].

Heydər Əliyev hələ 1980-ci ildə Naxçıvana səfərində fabrikin tikildiyi obyektə baş çəkmiş, onun tezliklə başa çatdırılmasını tövsiyə etmişdi. Heydər Əliyev qeyd etmişdi ki, bu tikinti təkcə Naxçıvanın iqtisadiyyatının inkişafı üçün deyil, həm də mühüm sosial problemin həlli, əmək qabiliyyətli əhalinin işlə daha yaxşı təmin edilməsi üçün əhəmiyyətlidir. O, tikinti-quraşdırma işlərini sürətindən və keyfiyyətindən razı

olmadığını bildirmiş, Dövlət Plan Komitəsindən, müvafiq nazirlik və baş idarələrdən yaranmış vəziyyəti dərhal düzəltməyi tələb etmişdi [67, 1980, 27 may].

Heydər Əliyev bu dövrdə Naxçıvanın iqtisadi inkişaf sahələrinin genişləndirmək və müasirləşdirmək haqqında qərarlar qəbul edilməsiylə kifayətlənmir, həm də çox ciddi şəkildə işin icra keyfiyyətinə nəzarət edirdi.

Yeyinti sənayesi Naxçıvan MR-in nisbətən geniş şəbəkəyə malik olan, daha çox çeşidli məhsul istehsal edən sənaye sahəsi idi. 70-ci illərdə Heydər Əliyevin bu sahəyə diqqəti konkret göstəricilərlə ifadə olunurdu. Məhsul istehsalının həcminə görə o, digər sənaye sahələri arasında birinci yeri tuturdu – onun payına sənaye istehsalının 76,8 faizi, eləcə də sənaye istehsalında məşğul əhalinin 31,9 faiz düşürdü. 1970-ci illə müqayisədə 1980-ci ildə yeyinti sənayesi işçilərin sayı və əmək məhsuldarlığı 2 dəfə artmışdı (82, 49). 1970-ci ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 36,6 faizi, 1975-ci ildə 76,1 faizi, 1980-ci ildə isə 77,5 faizi yeyinti sənayesinin payına düşmüşdür. Doqquzuncu beşillikdə yeyinti sənayesinin artım sürəti bütövlükdə sənayenin artım sürətindən 1,5 dəfə, onuncu beşillikdə isə 1,4 dəfə yüksək olmuşdur. Əhalinin ərzaq məhsullarına artan tələbatı, kənd təsərrüfat sahələrinin inkişafı muxtar respublikada yeyinti sənayesinin kompleks inkişafına şərait yaratmışdı. 1970-1985-ci illərdə muxtar respublikada tikilib istifadəyə verilmiş 21 müəssisədən 11-i (53 faizi) yeyinti sənaye müəssisəsi idi. 1970-85-ci illərdə 5 ilkin şərab zavodu, quşçuluq fabriki, pivə zavodu, pendir zavodu, süd zavodu, yeni pendir zavodu, dəyirman kombinatı, mineral su zavodu, çörək bişirmə müəssisəsi və b. tikilib

istifadəyə verilmiş, mövcud müəssisələrdə yenidənqurma işləri aparılmışdı [86, 40]. Nəticədə Naxçıvanda çoxsahəli yeyinti sənayesi kompleksi formalaşmışdır.

Bütün bu uğurlara baxmayaraq, Naxçıvan MR əhalisinin ərzaqla təmin edilməsi sahəsində ciddi problemlər Heydər Əliyevi daim narahat edirdi. 1974-cü ildə Naxçıvanda çıxışında muxtar respublikanın əhalisinin süd, kolbasa və digər məhsullara tələbatının ödənilməməsini ürək ağırısı ilə qeyd edərək, yerli rəhbərlərdən qısa bir zamanda ciddi tədbirlər görməyi tələb etmişdi [99, v.107].

Yeyinti sənayesinin ən inkişaf etmiş sahələrindən biri şərabçılıq idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bu sahə daha sürətlə inkişaf etməyə başlamışdı. Bunu 1970-1982-ci illərdə muxtar respublikada həmin sahənin inkişaf dinamikasını əks etdirən rəqəmlər sübut edir. Əgər 1970-ci ildə yeyinti sənayesi məhsulunun 57,5 faizi və burada işləyənlərin 17,3 faizi şərabçılıq sənayesinin payına düşürdüsə, 1978-ci ildə bu göstəricilər 64,5 faiz və 22,1 faiz təşkil etmişdi. 1982-ci ildə bütün sənaye məhsulunun 42 faizi və yeyinti sənayesi məhsulunun 63 faizi şərabçılıq sənayesinin payına düşürdü.

1970-ci ildə muxtar respublikada 75 min dekalitr şərab istehsal edildiyi halda, bu rəqəm 1983-cü ildə 319, 1985-ci ildə isə 536 min dekalitrə çatdırılmışdı. Həmin göstəricilər 1970-ci ilə nisbətən müvafiq olaraq 4,3 və 7,1 dəfə çox idi [160, 28]. 1985-ci ildə Naxçıvan MSSR-də 10 iri şərabçılıq müəssisəsi fəaliyyət göstərirdi. Məhz bu dövrdə Naxçıvan şərab zavodu ilk dəfə olaraq müxtəlif markalı hazır şərab məhsulları istehsalına başlamışdı.

Heydər Əliyev Naxçıvanda şərabçılığın inkişafına şəxsən nəzarət edir, bölgəyə səfərlərində şərab zavodlarının tikintisinə, şərabçılıq müəssisələrinə, üzümçülük sovxozlarına hökmən baş çəkirdi.

Yeyinti sənayesinin ən iri müəssisəsi Ordubad konserv zavodu idi. Yeyinti sənayesi işçilərinin 31,2 faizini məhsul istehsalının 5,4 faizini özündə toplamış bu zavod, 1980-ci ildə Naxçıvan MSSR-in sənaye sahəsi işçilərinin 8,6 faizini birləşdirir və ümumi məhsulun 3,4 faizini istehsal edirdi [82, 50]. 1971-1980-ci illərdə istehsalın artım sürətini yüksəltmək üçün bir sıra tədbirlər həyata keçirildi. 1975-ci ildə Dəstə sovxozu və Ordubad konserv zavodu əsasında Ordubad aqrar-sənaye birliyi yaradıldı. 1978-ci ildə isə M.S.Ordubadi adına sovxozun və Naxçıvan MSSR-in 40 illiyi adına sovxozun əsasında yaradılmış Y.Məmmədəliyev adına Bağçılıq sovxozu həmin birliyin tərkibinə verildi. Sonralar Birlik daha da genişləndirildi. Onun texniki təchizatı yaxşılaşdırıldı, əmək tutumlu istehsal proseslərin 90 faizindən çoxu avtomatlaşdırıldı. Nəticədə 1970-ci illə müqayisədə 1980-ci ildə konserv istehsalı 2,6 dəfə artırılaraq 26 mln. şərti bankaya çatdırıldı [161, 39]. Buraxılan məhsulun keyfiyyəti də yaxşılaşırdı. 1980-ci ildə 8 növ üzrə məhsul keyfiyyət nişanı ilə buraxılırdı ki, bu da ümumi məhsulun 25,4 faizini təşkil edirdi [137, 1980, 30 iyun]. 1985-ci ildə zavodun istehsal gücü 34,5 milyon bankaya çatdırılmış onun istehsal etdiyi məhsullar, xüsusilə gül, tut, qoz mürəbbələri respublika və ittifaq bazarlarında yüksək qiymətləndirilirdi.

Müəssisənin sonrakı inkişafında, istehsal gücünün artırılmasında Heydər Əliyevin 1980-ci ildə burada və eləcə də

Y.Məmmədəliyev adına sovxozda olaraq, iş prosesi ilə yaxından maraqlanması böyük rol oynadı. Sovxozda olarkən bağçılar ondan nasos, boru, daş yığan texnika göndərilməsini xahiş etmiş, o isə bu barədə dərhal müvafiq respublika təşkilatlarına öz göstərişlərini vermişdi [67, 1980, 27 may].

Heydər Əliyevin iqtisadi strategiyasına uyğun olaraq 1970-ci illərdə Naxçıvan MR-də o zaman yerli sənaye adlandırılan sənaye sahəsi də inkişaf etməyə başladı. Artıq 1980-ci ildə muxtar respublikada yerli sənaye üç müəssisə ilə, o cümlədən fəaliyyətdə olan Naxçıvan sənaye kombinatı və alıminium qablar zavodu, eləcə də tikintisi başa çatmaqda olan üzlük materiallar zavodu ilə təmsil olunmuşdu. Gələcəkdə Ordubadda 500 nəfərlik əllə toxunan xalçaçılıq fabriki, eləcə də rayon mərkəzlərində tikiş mallarının istehsalı ilə məşğul olacaq istehsal sahələri və bədii sənət mərkəzlərinin təşkili planlaşdırıldı [38, v.109].

Naxçıvan MSSR-in zəngin təbii ehtiyatlarından yerli sənaye çərçivəsində istifadə edilməsi məqsədyönlü və metodik iş tələb edirdi. Bu işin həyata keçirilməsi və ona planauyğun rəhbərlik muxtar respublikada Yerli Sənaye Nazirliyinin aparat bölməsinin yaradılmasını şərtləndirirdi. Onun əsas vəzifəsi yerli xammal ehtiyatlarını üzə çıxarmaq, onları istehsal sahəsinə cəlb etmək, müəssisələrin fəaliyyətinə rəhbərlik etmək və yeni istehsal sahələri təşkil etməkdən ibarət idi.

Yerli təbii ehtiyatlardan maksimal dərəcədə istifadə etməklə muxtar respublikada sənayeni inkişaf etdirmək, mövcud əmək ehtiyatlarını ictimai faydalı əməyə cəlb etmək, istehsalın həcmini əhəmiyyətli dərəcədə artırmaq məqsədi ilə

Heydər Əliyev 8 iyul 1980-ci il Naxçıvan MSSR yerli sənaye nazirliyinin yaradılması barədə qərara imza atdı [39, v.166].

Heydər Əliyevin iqtisadi strategiyasının əsas istiqamətlərindən biri də respublikanın və onun bölgələrinin zəngin təbii ehtiyatlarından səmərəli şəkildə, xalqın rifahı naminə istifadə edilməsi idi. Bu baxımdan Naxçıvanın zəngin mineral su mənbələrindən muxtar respublikanın iqtisadi inkişafı üçün istifadə edilməsi məqsədilə 70-ci illərdə kompleks tədbirlər planı işlənib hazırlandı və həyata keçirildi. Bu illər ərzində Badamlı və Sirab mineral su zavodlarının istehsal gücü xeyli artırıldı. İstehsal proseslərinin avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə diqqət artırıldı, yenidənqurma işləri genişləndirildi. 1979-cu ildə Naxçıvan şəhərində şüşə tara zavodunun tikilib istifadəyə verilməsi mineral su zavodlarının şüşə taralarla təminatını yaxşılaşdırmağa imkan verdi. 1980-ci ildə 98,5 milyon şüşə mineral su buraxıldı ki, bu da 1970-ci ildəkindən 2,6 dəfə çox idi [160, 28]. Heydər Əliyev layihəyə görə həcmi 50 milyonluq butulka istehsalına hesablanmış şüşə qablar zavodunun həcmini 80 milyona qaldırmağa nail olmuş, sonralar müəssisənin tutumunu 200 milyona çatdırmaq haqqında göstəriş vermişdi [96, v.18]. Nəticədə Naxçıvanın mineral suları nəinki Azərbaycanda, həmçinin respublikadan kənarda özünə çoxlu istehlakçı qazanmış və artıq 1980-ci illərdə istehsal olunmuş mineral suyun 60 faizindən çoxu muxtar respublikadan kənara ixrac edilirdi.

Heydər Əliyev şəxsən özü su doldurma zavoduna və şüşə qablar zavoduna getmiş, bu obyektlərin vaxtında və keyfiyyətlə təhvil verilməsini tələb etmişdi. Çıxışlarında Azərbaycan

Yeyinti Sənayesi Nazirliyinin, muxtar respublika rəhbərliyinin Naxçıvan mineral sularının istehsalının artırılması istiqamətində yarıtmaz işini bir neçə dəfə tənqid edilmişdi.

Muxtar respublikanın qiymətli təbii sərvəti sayılan duzun hasilatında da 70-ci illərdə mühüm göstəricilər əldə edildi. Duz mədəninin maddi-texniki bazası genişləndirildi. Duzun qablaşdırılması və nəqli sahəsində əməli tədbirlər həyata keçirildi. Bu isə hasilatın artmasına müsbət təsir göstərdi. 1970-ci ildə 62,1 min ton, 1980-ci ildə 81,8 min ton, 1983-cü ildə isə 104 min ton duz çıxarılmışdı. 1985-ci ildə Azərbaycanda istehsal edilmiş 118 min ton duzun hamısı Naxçıvanın payına düşürdü.

Muxtar respublikanın yeyinti sənayesinin aparıcı müəssisələrindən biri olan Naxçıvan ət-süd kombinatı yerli əhalinin ət və süd məhsulları ilə təmin etməklə bölgənin iqtisadiyyatında mühüm rol oynayırdı. Kombinat yeyinti sənayesinin bütün məhsulunun 6,1 faizini istehsal edirdi. 1980-ci ildə məhsul istehsalı 1,6 min tona çatmışdı ki, bu da 1970-ci ildəkindən 481 ton çox idi [160, 28].

70-ci illərdə tütün-fermantasiya zavodu da böyük uğurlar qazanmışdı. 1980-ci ildə burada 7,4 ton fermentləşdirilmiş tütün istehsal edilmişdi ki, bu da 1975-ci ilin göstəricisindən 0,5 min ton çox idi [162, 12].

Beləliklə, Heydər Əliyev başda olmaqla respublika rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Naxçıvan MSSR-in yüngül və yeyinti sənayelərinin inkişafı yüksək səviyyə çatdırılmış, sahədaxili strukturu təkmilləşdirilmiş, bu isə öz növbəsində muxtar respublika

iqtisadiyyatında bu sahənin rolunun artmasına gətirib çıxarmışdı.

70-ci illərdə muxtar respublikanın ayrı-ayrı sahələrində əldə edilmiş uğurlar sənayenin bütövlükdə inkişafı üçün əsas oldu.

Həmin dövrdə 970129 min manat sənaye məhsulu istehsal edilmiş [128, 1981, 29 mart], 1970-ci illə müqayisədə 1980-ci ildə ümumi sənaye məhsulunun istehsalı 261 faiz artmışdı. 1971-1980-ci illərdə sənaye istehsalının orta illik həcmi 7,9 faiz olmuşdu [161, 129; 112, v.21].

Bu illər ərzində Naxçıvan MSSR sənayesinin dinamik və proporsional inkişafının daha bir göstəricisi əmək məhsuldarlığının 1970-ci illə müqayisədə 1980-ci ildə 2 dəfə artması oldu. Məhsul istehsalının artımının 80 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə edilmişdi [162, 12; 112, v.21].

Muxtar respublikada buraxılan məhsulların keyfiyyətinə də diqqət artırılmışdı. Hələ 1975-ci ildə burada istehsal edilən 70 növ sənaye məhsulundan yalnız biri dövlət keyfiyyət nişanına layiq görülmüşdüsə [22, v.85], 1980-ci illərin sonlarında keyfiyyət nişanı ilə buraxılan məhsulların sayı 14 dəfə artmış, 40 yeni məhsul istehsanın seriya buraxılışına başlanmışdı [37, v.32]. Əgər 1976-cı ildə dövlət keyfiyyət nişanlı məhsulların ümumi istehsal həcmində xüsusi çəkisi 0,01 faiz olmuşdusa, 1980 ildə həyata keçirilmiş tədbirlər nəticəsində bu rəqəm 4,8 faizə çatdırılmış, həmin ildə 6 məhsul növünə keyfiyyət nişanı verilmişdi [32, v.101].

Sənaye müəssisələrinin işində qazanılmış uğurlarla yanaşı ciddi nöqsanlar da var idi. Bəzi partiya və təsərrüfat işçiləri

kəmiyyət göstəricilərinə uyaraq məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, çoxçeşidliyə, istehsal güclərindən səmərəli istifadə edilməsinə, köhnəlmiş avadanlıq və texnikanın yeniləri ilə əvəz edilməsinə, avtomatlaşdırmaya və istehsalın yenidən qurulmasına ciddi səy göstərmirdilər. Bunun nəticəsində muxtar respublika sənayesində yüksək keyfiyyət kateqoriyalı məhsulun xüsusi çəkisi Azərbaycan SSR üzrə sənayenin müvafiq göstəricisindən qat-qat geri qalırdı [128, 1981, 14 yanvar].

Naxçıvanda olarkən partiya təsərrüfat rəhbərləri qarşısında çıxışlarında Heydər Əliyev respublikanın iqtisadiyyatını dərindən təhlil edir, müsbət irəliləyişləri göstərməklə yanaşı, öz tənqidi fikirlərini də yerli-yerində nəzərə çatdırırdı [97, v.60-69].

O, muxtar respublikanın partiya təşkilatlarından, əmək kollektivlərindən sənaye istehsalını artırmağı, mövcud imkanlardan və ehtiyat mənbələrindən daha yaxşı istifadə etməyi, istehsal müəssisələrinin səmərəliliyini yüksəltməyi, yeni sənaye müəssisələri üçün ixtisaslı fəhlələr və mütəxəssislər hazırlanmasını tələb edirdi [129, 1978, 18 oktyabr].

1978-ci ilin oktyabrında Naxçıvanda olarkən o, bir daha muxtar respublikada sənayenin üstün inkişaf etdirilməsi zəruriliyindən danışaraq bu sahədə işin zəif getdiyini qeyd etmişdi: «Çox təəssüf ki, Naxçıvan Muxtar Respublikasında bu sahədə iş getməyib. Bunu mən ürək ağrısı ilə keçən görüşlərimizdə demişəm. İndi də deyirəm. Çünki nə qədər ki vəziyyət yaxşılaşmayıb, bizim də ürəyimiz ağrıyacaqdır. Ona görə də o ürək ağrısını gizlətmək olmaz. Onu gərək həmişə

deyəsən. Mən sizə həm xoş sözlər demək istəyirəm, həm də, necə deyərlər, narazılığımı bildirmək istəyirəm. Ancaq siz hələ bütün mümkünatlarınızdan istifadə etmirsiniz. Biz həmişə çalışırıq sizin muxtar respublikaya kömək edək» [97, v.62-63]. Bu sözlər Heydər Əliyevin Naxçıvanın inkişafı, xüsusən sənayenin inkişafı üçün necə can yandırdığını əyani sübut edirdi.

1980-ci ilin mayında muxtar respublika partiya və təsərrüfat fəallarının yığıncağında Heydər Əliyev 70-ci illərdə muxtar respublikada mühüm müvəffəqiyyətlər qazanıldığını, lakin regionun göstəricilərinin orta respublika səviyyəsindən hələ də aşağı olduğunu təəssüf hissi ilə qeyd etmiş, bunun əsas səbəbi kimi isə əvvəlki illərdə Naxçıvanın xeyli geri qalmış olduğunu göstərmişdi. O, Naxçıvan MR xalq təsərrüfatının daha da yüksəlməsinə dair proqramın hazırlandığı haqda məlumat verərək göstərirdi ki, proqramın əsas məqsədi gələcəkdə diyarın daha yüksək sürətlə inkişafını təmin etmək, onu Azərbaycanın ən qabaqcıl regionlarından birinə çevirməkdən ibarətdir. Heydər Əliyev bunun üçün muxtar respublikanın sənaye potensialını durmadan artırmaq, yeni sənaye obyektlərini yaratmaq, mövcud obyektlərin gücünü artırmaq kimi məsələlərin qarşıda dayanan ən vacib vəzifələr olduğunu göstərirdi.

Heydər Əliyev sonrakı dövrlərdə də Naxçıvan iqtisadiyyatının yüksəldilməsi sahəsində böyük işlər görürdü. Onun göstərişi ilə Azərbaycanın və Naxçıvanın nazirlik və baş idarələri on birinci beşillik üçün Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf planının tapşırıqlarını müəyyən etmişdilər [97, v.62-63]. Bu isə muxtar respublikanın

gələcək inkişafının Heydər Əliyevin daim diqqət mərkəzində olduğunun daha bir əyani sübutu idi.

Bütövlükdə 70-ci illərdə Naxçıvan MSSR-də sənayenin kompleks inkişafı və əmək məhsuldarlığının yüksəldilməsi ilə bağlı mühüm işlər görülmüş, yüngül və yeyinti sənayeləri ilə yanaşı energetika, dağ mədən, maşınqayırma, metal emalı kimi yeni sənaye istehsalı yaradılmış və inkişaf etdirilmişdi. Yerli kənd təsərrüfatı xammalı və faydalı qazıntılar əsasında ət-süd, tütün-fermentasiya istehsalı, eləcə də mineral sular istehsalı genişləndirilmiş, muxtar respublika iqtisadiyyatında sənayenin xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmış, onun strukturunda mühüm dəyişikliklər baş vermişdi.

İqtisadiyyatın digər sahələrinin inkişafında, xalqın maddi rifah halının yaxşılaşdırılmasında əsaslı tikintinin mühüm rol oynadığını nəzərə alan Heydər Əliyev Azərbaycanda, o cümlədən Naxçıvan MSSR-də bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. 70-ci illərdə Azərbaycan KP MK-nın plenumlarında, büro iclaslarında, Mərkəzi Komitənin keçirdiyi müşavirələrdə əsaslı tikinti məsələləri müntəzəm müzakirə edilir, planların yerinə yetirilməsi, sahənin səmərəliliyinin artırılmasına yönəlmiş kompleks tədbirlər müəyyənləşdirilirdi.

Bu baxımdan Azərb. KP MK-nın 1971-ci ilin iyulunda keçirilmiş plenumu xüsusi rol oynadı. Respublikada əsaslı tikintinin yaxşılaşdırılması məsələlərinə həsr edilmiş həmin plenumda Heydər Əliyev bu sahədə böyük çatışmazlıqların və nöqsanların olduğunu, xüsusən Naxçıvan MR-in əsaslı tikinti sahəsində çox geridə qaldığını bildirmişdi.

Naxçıvan MSSR-də əsaslı tikintinin geridə qalmasına səbəb bir tərəfdən tikinti işlərinin təşkilində ciddi nöqsanlara yol

verilməsi idisə, digər tərəfdən muxtar respublikanın özündə zəruri tikinti bazasının formalaşdırılmaması idi. Təkcə onu demək kifayətdir ki, 1970-ci illərə qədər Naxçıvanda dəmir-beton məmulatları zavodu yox idi. Hələ 1968-ci ildə Naxçıvanda bu zavodun bünövrəsi qoyulsa da, tikinti-quraşdırma işləri ləng gedirdi, 3 il ərzində smeta dəyərinin cəmi 40 faizi xərclənmişdi [7, v.86].

Buna görə də 1972-ci ilin oktyabrında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bürosunda MK-nın 1971-ci il iyul plenumunun qərarlarının yerinə yetirilməsi sahəsində Naxçıvan Vilayət Partiya Komitəsinin işi geniş müzakirə edildi. Büronun iclasına Azərbaycan KP MK-nın Tikinti və Şəhər təsərrüfatı şöbəsinin hazırladığı 8 səhifəlik arayış təqdim edilmişdi. Arayışda əsaslı tikintiyə rəhbərlik sahəsində Naxçıvan Vilayət Partiya Komitəsinin fəaliyyəti hərtərəfli təhlil edilmiş, muxtar respublikada bu sahədə ciddi nöqsanlar olduğu göstərilmişdi [12, v. 88].

Azərbaycan KP MK Bürosunun bu məsələ ilə bağlı qəbul etdiyi qərarda göstərilirdi ki, Azərbaycan KP Naxçıvan VPK əsaslı tikintinin yaxşılaşdırılması üzrə plenumda qoyulmuş praktik vəzifələri həyata keçirmək üçün zəruri təşkilati işlərin aparılmasını təmin etməmiş, bu mühüm sahə bəzi hallarda VPK-nın, rayon və şəhər partiya komitələrinin, Naxçıvan MR Nazirlər Sovetinin, nazirlik və idarələrin, rayon icraiyyə komitələrinin diqqətindən yayınmışdır. Qərarda həm də planda nəzərdə tutulmuş kapital qoyuluşlarının vaxtında xərclənməməsi, yeni sənaye və mədəni-məişət obyektlərinin tikintisinin ildən-ilə ləngidilməsi, bunun isə muxtar respublikanın xalq təsərrüfatının inkişafının

sürətləndirilməsinə, iqtisadiyyatının qaldırılmasına mənfi təsir etməsi, inşaatda tikinti-quraşdırma və tamamlama işlərinin aşağı səviyyədə olması, obyektlərin bir sıra hallarda böyük nöqsanlarla təhvil verilməsi, kadr sahəsində, əməyin və istehsalın təşkilində, elmi-texniki tərəqqinin, qabaqcıl təcrübənin tətbiqində ciddi nöqsanların olduğu da göstərilmişdi. Muxtar respublikanın zəngin təbii ehtiyatlarından yerli tikinti materialları istehsalında çox pis istifadə olunması, uzun müddət ərzində tikinti sənayesi və sənaye tikintisi müəssisələrinin inkişaf etdirilməsi, tikinti təşkilatlarının gücünün zəif artırılması qərarda xüsusi qeyd edilmiş, göstərilmişdi ki, VPK və muxtar respublika Nazirlər Soveti əsaslı tikintinin vəziyyətini dərindən təhlil etmir və işin mahiyyətinə varmır. Konkret rəhbərlik əvəzinə müxtəlif növ müşavirələrin keçirilməsi ilə işi məhdudlaşdırırlar, qəbul etdikləri qərarların çoxu isə elə kağız üzərində qalır. Geriliyin yaranmasında, Naxçıvan MR-də əsaslı tikintinin qeyri-qənaətbəxş vəziyyətdə olmasında Azərbaycan SSR Dövlət Plan Komitəsi, Sənaye Tikinti, Tikinti Materialları Sənayesi nazirlikləri və digər respublika təşkilatlarının da günahı olduğu bildirilir, onların muxtar respublika ərazisindəki bölmələrinə zəif rəhbərlik etdikləri, istehsal bazalarının inkişaf etdirilməsi, yerli tikinti materialları istehsalının artırılması, tikintinin keyfiyyətinin yaxşılaşdırılması, maliyyələşdirilməsi və təchiz edilməsi üçün zəruri tədbirlər görmədikləri qeyd edilmişdir. Büronun məsələ ilə bağlı qəbul etdiyi 9 bəndlik qərarında Naxçıvan VPK-nın əsaslı tikintiyə rəhbərlik sahəsindəki fəaliyyəti qeyri-kafi hesab edilmiş, bu sahəyə münasibətin kökündən dəyişdirilməsi, tikinti işlərinin təşkilində ciddi

qüsurların qısa müddətdə aradan qaldırılması tələb edilmişdi.

Qərarda həm Azərbaycanın, həm də muxtar respublikanın müvafiq idarə və təşkilatları qarşısında konkret tapşırıqlar qoyulmuş, Naxçıvan VPK-dan qərarın yerinə yetirilməsi barədə hesabat verməsi tələb edilmişdi [12, v.1-9].

1974-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransında Heydər Əliyev bir daha diqqəti muxtar respublikada əsaslı tikinti sahəsində mövcud olan nöqsanlara yönəldərək onların aradan qaldırılmasını muxtar respublika rəhbərliyindən tələb etmiş, hər il nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşunun xeyli hissəsindən istifadə edilmədiyini də irad kimi qeyd etmişdir (1971-73-cü illərdə 85 milyon manat əsaslı vəsaitdən istifadə edilməmişdi – Ə.Q.). 1971-1973-cü illərdə muxtar respublika əhalisinə nəzərdə tutulduğundan 24,4 min kvadratmetr az mənzil verilmişdi [95, v.108]. Heydər Əliyev Naxçıvanda inkişaf etmiş tikinti sənayesi yaratmağı, əsaslı tikintinin bütün problemləri ilə dərindən və operativ məşğul olmağı tələb edir və bu tələbkarlığın nəticəsində doqquzuncu və onuncu beşilliklərdə Naxçıvan MSSR-də artıq əsaslı tikinti sahəsində mühüm irəliləyişlər əldə edilmişdi.

1971-1975-ci illərdə muxtar respublika üzrə əsaslı tikintiyə 210 milyon manat, tikinti-quraşdırma işlərinə isə 175 milyon manat ayrılmışdı [113, v.14]. Onuncu beşillikdə isə bu göstəricilər müvafiq olaraq 290 milyon və 240 milyon manata çatdırılmışdı [129, 1976, 17 dekabr]. Tikinti təşkilatlarının maddi-texniki bazası möhkəmləndirilmiş, 1971-1980-ci illərdə xalq təsərrüfatına 372 milyon manat əsaslı vəsait qoyulmuşdu ki, bu da 1961-1970-ci illərdən 138 milyon manat çox idi. İstehsal proseslərinin mexanikləşdirilməsində də müəyyən

uğurlar əldə edilmişdi. 1970-ci ildə tikinti təşkilatlarında 129 ekskavator, 93 buldozer, 63 qaldırıcı kran var idisə, 1980-ci ildə onların sayı müvafiq olaraq 149, 132 və 82-ə çatdırılmışdı [4, v. 181].

1980-ci ildə tikintidə əməyin mexanikləşdirilməsi 55,2 faizdən 66,7 faizə çatdırılmış, tikinti-quraşdırma işlərini mexanikləşdirilməsi yüksəlmişdi [4, v.181].

1976-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR-də yeni tikinti təşkilatı – Naxçıvan meliorasiya və su tikintisi tresti yaradıldı [26, v.90].

Doqquzuncu və onuncu beşilliklərdə Naxçıvan MSSR-də tikintidə işlərin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər bu sahədə əmək məhsuldarlığının artırılmasına da imkan vermişdir. Nəticədə tikintidə əmək məhsuldarlığı 1971-1980-ci illərdə 77,1 faiz artmışdı [26, v.90].

70-ci illərdə əsaslı tikintinin inkişafında onun işçi qüvvəsi və mütəxəssislərlə təminatı məsələsi mühüm əhəmiyyət kəsb edirdi. 1980-ci ildə tikintidə işləyənlərin sayı muxtar respublikada 5 min nəfərə çatmışdı [4, v. 182]. Əsaslı tikintinin işçi qüvvəsi ilə təminatının respublika göstəricilərindən aşağı səviyyədə olmasına sabit istehsalat kollektivlərinin yaradılması əsaslı tikintinin miqyasından geri qalmasına baxmayaraq 70-ci illərdə Naxçıvan MSSR-də tikinti geniş vüsət almışdı. Mənzil tikintisinin miqyası da xeyli genişlənmişdi. Dövlət və kooperativ müəssisələri və təşkilatları tərəfindən ümumi sahəsi 270,1 min kvadratmetr yaşayış evi tikilərək istifadəyə verilmişdi ki, bu 1961-1970-ci illərin göstəricilərindən 81,0 min kvadratmetr çox idi [160, 143]. Naxçıvan şəhərində yaşayış binalarının tikintisini sürətləndirmək məqsədilə Heydər

Əliyevin göstərişi ilə 1980-ci ildə evtikmə kombinatının tikintisinə başlandı və elə həmin ilin mayında tikintiyə baş çəkərək işin gedişiylə maraqlanan rəhbər 1981-ci ilin axırına qədər müəssisənin hazır olmasını bir vəzifə kimi qarşıya qoymuşdu .

Heydər Əliyev Naxçıvana gələrkən sənaye müəssisələrinin tikintisi ilə bağlı vəziyyətlə yerində tanış olmağa, necə deyərlər, ilkin mənbədən məlumat almağa üstünlük verirdi. O, 1978-ci ilin oktyabrında alt trikotaj fabrikinin tikintisinə gedərək müəssisənin baş korpusunun, məişət binalarının, digər obyektlərin tikildiyi sahələrə baxmış, tikinti işlərinin sürətinin və keyfiyyətinin aşağı olması barəsində bir sıra tənqidi mülahizələrini söyləmişdi. Yaxın vaxtlarda fabrikin yaxınlığında xalça kombinatı tikintisinin başlanılacağı ilə əlaqədar olaraq o, bu rayonda yaşayış massivi, mədəni məişət obyektləri yaratmaq vəzifəsini qarşıya qoymuşdu. Sonra o, şüşə qablar zavodunun tikintisində olmuş, inşaatçı fəhlələrlə söhbət edərək onların əmək, məişət şəraiti ilə, ərzaq və sənaye məhsulları ilə təchizatının təşkili ilə maraqlanmış, mineral sular zavodunun tikintisi ilə də tanış olmuş və öz tövsiyələrini vermişdi [129, 1978, 18 oktyabr].

Təkcə onuncu beşillikdə 20-dən çox yeni xalq təsərrüfat obyekti təhvil verilmiş, 14,8 min şagird yeri olan məktəb tikilmişdi ki, bu da əvvəlki beşillikdəkindən 52 faiz çox idi [35, v.93].

1981-1985-ci illərdə isə daha 7 sənaye müəssisəsi tikilib istifadəyə verildi, bir neçə sənaye müəssisəsi əsaslı sürətdə yenidən quruldu. Sənaye müəssisələrin əksəriyyəti yeyinti, yüngül və tikinti materialları istehsalı sahəsinə aid idi. 1985-ci

ildə Naxçıvan sənayesi 100-dən çox müəssisə ilə, o cümlədən 50 müstəqil balansda olan iri dövlət müəssisəsi ilə təmsil olunmuşdu.

Ümumilikdə 1970-85-ci illərdə muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrinə aid 783 miylon manatlıq əsas fondlar tikilib istifadəyə verildi.

Beləliklə, 70-ci illərdə Heydər Əliyevin Naxçıvan MSSR-in əsaslı tikintisini yaxşılaşdırmaq və genişləndirmək sahəsində səyləri öz müsbət nəticələrini göstərdi. Belə ki, əsaslı tikintinin maddi-texniki bazası gücləndirilmiş, əmək məhsuldarlığı artmış, inşaat-quraşdırma işlərinin həcmi yüksəlmişdi. Bütün bunlar muxtar respublikanın iqtisadiyyatının dinamik inkişafında əsaslı tikintinin rolunun artmasına gətirib çıxarmışdı.

İqtisadiyyatın proporsional və dinamik inkişafı nəqliyyat və rabitə sisteminin kökündən yaxşılaşdırılmasını tələb edirdi. Azərbaycan rəhbərliyinin qayğı və diqqəti sayəsində 70-ci illərdə muxtar respublikada nəqliyyatın və rabitənin inkişafında mühüm uğurlar əldə edildi. Məsələn, 1970-ci illə müqayisədə 1980-ci ildə ümumi istifadəli nəqliyyatın bütün növlərinin yük dövriyyəsi 256 faiz, yük daşımaları 225 faiz, sərnişin daşınmaları 151 faiz, sərnişin dövriyyəsi 211 faiz artmışdı [161, 58].

70-ci illərdə bütün rabitə vasitələrinin təkmilləşdirilməsi sahəsində də müəyyən uğurlar əldə edilmişdi. Rabitə müəssisələrinin sayı artmış, onların iş keyfiyyəti yaxşılaşdırılmışdı. 1980-ci ildə onların gəlirləri 1970-ci ilin göstəricilərindən 2 dəfə artaraq 3481 min manat təşkil etmişdi [161, 59]. Əlbəttə, az vaxtda bu misilsiz göstəricilərin əldə

edilməsi Heydər Əliyevin uzaqgörən, müdrik layihələrinin və bu layihələrin həyata keçirilməsində göstərdiyi can yanğısının, tükənməz zəhmətinin nəticəsi idi.

Naxçıvan MR-in iqtisadi inkişafının, maddi-texniki bazasının möhkəmləndirilməsinin əsas faktorlarından biri də muxtar respublikanın SSRİ-nin respublikaları ilə iqtisadi əlaqələrinin genişlənməsi ilə bağlı idi. Muxtar respublikaya digər respublikalardan layihə sənədləri, maşın və avadanlıqlar, dəzgahlar, müxtəlif tikinti materialları daxil olurdu ki, bu da istehsal texnologiyalarının təkmilləşdirilməsinə, əmək prosesinin avtomatlaşdırılmasına, buraxılan məhsulun keyfiyyətinin artmasına kömək edirdi. Göstərilən dövrdə muxtar respbulikadan sənaye məhsulunun ixracı da xeyli artmışdı. Məsələn, Naxçıvan elektrotexnika zavodu 1971-ci ildə öz məhsulunu yalnız Mordovo MSSR-dəki bir zavoda göndərmişdisə, 1985-ci ildə onun məhsullarını RSFSR-in 10 şəhəri alırdı. Zavodun məhsulları başqa respublikalara da göndərilirdi. Naxçıvanın digər sənaye müəssisələri də həmin dövrdə öz ixrac potensialını xeyli artırmışdı. Naxçıvan alıminium qablar zavodu 14 şəhərə məhsul göndərirdi. Moskva şəhərindəki Dövlət Universitetinin, Kreml Qurultaylar Sarayının, «Naməlum əsgər» abidəsinin, Ostankino teleмərkəzininin, QİYŞ-in binasının, «Rusiya» mehmanxanasının və digər binaların inşasında üzlük material kimi Şərur travertinindən istifadə olunmuşdu [167, 11-12]. Məhsul ixracında yüngül və yeyinti sənayesi müəssisələri də iştirak edirdilər. Naxçıvan tikiş fabriki, trikotaj fabriki, Ordubad konserv zavodu bu sahədə əsas yerləri tuturdu. Ordubad konserv zavodunun məhsullarının 80 faizi digər

respublikalara göndərilirdi. Onuncu beşillikdə zavod ölkənin müxtəlif şəhərlərinə 12 mln. 80 min şirə, kompot və konserv göndərmişdi [129, 1980, 3 avqust]. 1985-ci ildə zavod öz məhsullarını Azərbaycandan kənarda yerləşən 500-dən çox təşkilata göndərmişdi [167, 13].

Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq Naxçıvan MR-nın iqtisadi əlaqələri getdikcə inkişaf edir, ixrac olunan malların çeşidi genişlənir, Azərbaycanın iqtisadi əlaqələrində muxtar respublikanın xüsusi çəkisi artırdı. Bu isə bölgənin iqtisadi imkanlarının möhkəmlənməsinə sənayenin, kənd təsərrüfatı istehsalının yüksəlməsinə, son nəticədə bölgə əhalisinin rifah halının yaxşılaşmasına təsir göstərir.

## 1.2. Kənd təsərrüfatının inkişafında əsaslı dönüş

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kənd təsərrüfatı da böyük inkişaf yolu keçmişdir. Kənd təsərrüfatının inkişafı isə əhalinin çoxluq təşkil etdiyi hissəsinin maddi rifahının yaxşılaşması, onun sosial-mədəni cəhətdən inkişaf etməsi demək idi.

Araşdırmalar sübut edir ki, 1970-ci ilədək Azərbaycan iqtisadiyyatının digər mühüm sahələri kimi kənd təsərrüfatı da zəif inkişaf etmiş, onun artım sürəti nəzərə çarpacaq dərəcədə azalmışdı. Bu sahədə əldə edilən nəticələr səkkizinci beşillikdə nəzərdə tutulmuş göstəricilərdən xeyli geridə qalırdı. Səkkizinci beşillikdə məcmu ictimai məhsul orta hesabla 35 faiz, milli gəlir 34 faiz artdığı halda, kənd təsərrüfatı məhsullarının istehsalı cəmi 27 faiz artmışdı. Ümumiyyətlə, 1950-1960-cı illərdə Azərbaycanın kənd təsərrüfatını inkişaf

etdirmək sahəsində həyata keçirilən tədbirlər nəticəsində bu sahədə ümumi məhsul istehsalı 1,9 dəfə çoxalsa da [157, 90-94], kənd təsərrüfatında vəziyyət qeyri-qənaətbəxş olaraq qalırdı. Rentabelliyin aşağı olması, aqrotexniki qaydaların ciddi şəkildə pozulması, kompleks mexanikləşdirilmənin, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalata ləng tətbiqi vəziyyəti daha da ağırlaşdırırdı. Xüsusən 60-cı illərin II yarısında kənd təsərrüfatının inkişaf sürəti nəzərdə tutulduğundan xeyli geri qalırdı (29 faiz əvəzinə 23 faiz). Mühüm strateji  məhsul olan pambığın istehsalı xeyli aşağı düşmüşdü. İctimai heyvandarlıqda mövcud olan ənənəvi gerilik davam edirdi. Torpaqlarda meliorasiya-irriqasiya  işləri bərbad vəziyyətdə idi. Nəticədə respublikada kənd təsərrüfatı bitkilərinin və xüsusən heyvandarlığın  məhsuldarlıq göstəriciləri müttəfiq respublikalar üzrə ən axırıncı yerləri tuturdu. Kəndin sosial-mədəni inkişafı da ümumölkə səviyyəsindən çox  aşağı idi. Kənd əhalisinə məişət, səhiyyə, mədəni xidmətin səviyyəsi qeyri-qənaətbəxş idi. Kənd yerlərində kənd təsərrüfatı  məhsullarını emal edən sənaye obyektləri yox idi. Əmək şəraiti dözülməz olduğundan və kütləvi işsizlik ucbatından gənclərin böyük əksəriyyəti şəhərlərə üz tutmağa məcbur olurdu. Xüsusən respublikanın dağ və dağətəyi rayonlarında  yerləşən kəndlərin boşalma təhlükəsi artmışdı.

Oxşar proseslər Naxçıvan MSSR-in kənd təsərrüfatında da müşahidə edilirdi. Muxtar respublikanın kənd təsərrüfatının zəif inkişafını nəzərə alaraq hələ 1954-cü ilin dekabrında Azərbaycan KP MK və respublika Nazirlər Soveti, «1955-1960-cı illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında» xüsusi qərar qəbul etmişdi. Bu

qərarda muxtar respublikada kənddə məhsuldar qüvvələrin inkişaf etdirilməsi, irriqasiya-meliorasiya işlərinin, kənd təsərrüfatı məhsullarının emalı sahələrinin genişləndirilməsi nəzərdə tutulurdu. Lakin qərarda nəzərdə tutulanlar lazımi səviyyədə yerinə yetirmədiyindən muxtar respublikanın aqrar bölməsində durğunluq davam edirdi. Nəticədə kənd təsərrüfatından asılı olan digər iqtisadi sahələrin də inkişafı ləng gedirdi.

Muxtar respublikada kənd təsərrüfatının zəif inkişaf etməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var idi. Muxtar respublikanın mürəkkəb təbii-coğrafi şəraiti, kənd təsərrüatına yararlı torpaqların azlığı, suvarma şəbəkəsinin, nəqliyyat sisteminin, emal sənayesinin zəif inkişaf etməsi kənd təsərrüfatında məhsuldarlığa mənfi təsir göstərir, məhsulun maya dəyərini artırırdı. Eyni zamanda qabaqcıl aqrotexnikanın pis tətbiq edilməsi, maşınlardan, gübrələrdən, əkin suyundan səmərəli istifadə olunmaması kimi amillər də məhsuldarlığa mənfi təsir göstərirdi. Muxtar respublika iqtisadiyyatının, o cümlədən, kənd təsərrüfatının uzun müddət geridə qalmasının bir səbəbi də Heydər Əliyevin qeyd etdiyi  kimi, Azərbaycan rəhbərlərinin Naxçıvana daim ögey münasibət göstərmələri olmuşdur [2, 1998, 15 yanvar].

Azərbaycanın əvvəlki rəhbərliyinin Naxçıvana ögey münasibəti haqqında fikirləri Heydər Əliyev hələ 1974, 1978, 1980-ci illərdə ardıcıl olaraq açıq şəkildə nəzərə çatdırmışdır. Hələ 1974-cü ilin fevralında muxtar respublikanın iqtisadi inkişafındakı geriliyi həm Vilayət Partiya təşkilatının imkanlardan uzun müddət lazımınca istifadə etməməsi, həm də Azərbaycan nazirlik və idarələrinin Naxçıvan Muxtar

Respublikasında iqtisadiyyatın inkişafı məsələlərinə ciddi fikir verməmələri ilə bağlamışdı [95, v.105]. Eyni fikirləri o, 1980-ci ildə də təkrar edərək göstərmişdi: «Muxtar respublika iqtisadiyyatının göstəriciləri orta respublika səviyyəsindən aşağıdır. Bunun əsas səbəbi əvvəlki illərdə onun xeyli geri qalmasıdır. Muxtar respublikaya vaxtı ilə lazımi qayğı göstərilməyib, istehsal qüvvələri əvvəlki mərhələlərdə kifayət qədər inkişaf etdirilməyib, onlardan səmərəli istifadə olunmayıb. Biz son on ildəki müvəffəqiyyətləri 1969-1970-ci illərə qədər respublikada əldə olunan səviyyə ilə müqayisə edirik. Naxçıvan Muxtar Respublikasında bu müddətdə olan dəyişiklikləri 1969-1970-ci illərin səviyyəsi ilə müqayisə edəndə inkişaf templəri heç də respublikanın orta səviyyəsindən aşağı deyil, ancaq respublikanın inkişafının mütləq rəqəmləri ilə müqayisə edəndə xeyli aşağıdır. Çünki 1970-ci ilə qədər ümumrespublika səviyyəsi Naxçıvan MR-in səviyyəsindən xeyli yuxarı idi. Məhz buna görə də bu on il içərisində Naxçıvan MR-də işlər orta respublika səviyyəsindən daha sürətlə getməli idi ki, bu gerilik aradan götürülsün» [129, 1980, 5 iyun].

Bütün dövrlərdə olduğu kimi, keçən əsrin 50-60-cı illərinə qədər də erməni millətçilərinin ziyankarlığı Naxçıvana, xüsusilə aqrar sənaye kompleksinin inkişafına təsirsiz ötüşmürdü və sovet rəhbərliyi tərəfindən bunun qarşısı vaxtında alınmırdı [86, 27-29]. 1966-70-ci illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər bu ənənəvi təsərrüfat sahəsinin, nəhayət, nisbətən canlanmasına səbəb oldu. 1965-ci illə müqayisədə 1970-ci ildə qaramalın sayı 8 faiz, xırdabuynuzlu

mal-qaranın sayı isə 6 faiz artmışdı. Həmin dövrdə dənli bitkilərin əkin sahəsi 3 faiz azaldığı halda, yığılan məhsul 631 ton, üzüm 23.065 ton, tütün 605 ton artmışdı. Lakin muxtar respublikada kənd təsərrüfatının inkişafı ümumrespublika göstəricilərindən, o cümlədən DQMV-dən geri qalırdı. Azərbaycan ərazisinin 6,4 faizini təşkil etməsinə baxmayaraq respublika üzrə kənd təsərrüfatı məhsulu istehsalında Naxçıvan MSSR-in payı cəmi 1,0 faiz təşkil edirdi [86, 27-29].

1969-cu ildə Heydər Əliyev cənablarının hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da bir canlanma, dirçəliş yaratdı.

1970-1980-ci illərin əvvəllərində respublikada kənd təsərrüfatının maddi bazasının genişləndirilməsinə əsaslanan təsərrüfatçılıq üsullarından daha səmərəli istifadə edilməsi ilə yanaşı, torpaq fondunun intensiv yollarla mənimsənilməsi sistemi gücləndirildi. Yeni texnika və texnologiyaların, səmərəli əkinçilik sistemlərinin tətbiqi, növbəli əkinçilik sisteminin genişləndirilməsi, kənd təsərrüfatına yararlı torpaqların, xüsusilə də yeni əkin yerlərinin istifadəyə verilməsi vəziyyəti yaxşılaşdırdı. Əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə mədəni gübrələrin, bitkiləri xəstəlikdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqi genişlənməyə başladı.

Azərbaycan şəraitində müstəsna əhəmiyyət kəsb edən suvarılan torpaq sahələrinin artırılmasının da bu uğurlarda böyük rolu oldu. Həmin dövrdə bir çox iri hidrotexniki komplekslər və dəryaçalar, o cümlədən Tərtərçay və Xanbulançay su təsərrüfatı kompleksləri, Şamxor, Aşağı Köndələnçay dəryaçaları, Baş Mil, Lənkəran kanalları, Yuxarı

Şirvan kanalının Ağsu qolu və başqa obyektlər istifadəyə verildi. Bu tədbirlər nəticəsində suvarılan əkin sahələri təqribən 30 faizə qədər artdı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə kənd təsərrüfatının respublika iqtisadiyyatında rolu daha da artmağa başlanmışdı. Ümumi kənd təsərrüfatı məhsulu istehsalı səkkizinci beşilliyə (1966-1970) nisbətən 1971-1975-ci illərdə 134 faiz, 1976-1980-ci illərdə 196 faiz, 1981-1982-ci illərdə 251 faiz artmışdı. Həmin dövrdə bitkiçilik məhsulları müvafiq olaraq 145, 232 və 310 faiz, heyvandarlıq məhsulları isə 119, 146 və 169 faiz artmışdı. Doqquzuncu beşilliyə nisbətən onuncu beşillikdə dənli bitkilər istehsalı 38,6 faiz, pambıq istehsalı 48,3 faiz, tərəvəz istehsalı 57,5 faiz, üzüm istehsalı 2,2 dəfə, çay istehsalı 54 faiz artmışdır. Heyvandarlıq sahəsində ənənəvi geriliyə son qoyulmuş, ət tədarükü 21 faiz, süd istehsalı 21 faiz, yumurta istehsalı 25 faiz çoxalmışdı [85, 29-32]. Azərbaycanda aqrar sahənin ümumi məhsulunun həcmi 1981-1985-ci illərdə orta hesabla 1966-1970-ci illərin orta səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı [155, 321]. Əkinçiliyin bütün sahələrində məhsul istehsalının həcmi artmışdı. Məsələn, 1981-1985-ci illərdə 1966-1970-ci illərə nisbətən orta illik məhsul istehsalı taxıl üzrə 710,5 min tondan 1.2395 min tona, pamıq 327,7 min tondan 861,4 min tona, tütün 21,2 mindən 56,9 min tona, kartof 122,5 mindən 189,8 min tona, tərəvəz 364,5 mindən 890,4 min tona, meyvə və giləmeyvələr 82,8 mindən 317,5 min tona çatdırıldı [155, 321]. Əlbəttə, müraciət olunan bu rekord göstəricilər təsadüfün möcüzəsi deyildi, Heydər Əliyev dühasının uzaqgörən,

məqsədyönlü siyasətinin islahatçı təfəkkürünün, düşünülmüş strategiyasının və bir də əzmli zəhmətinin danılmaz bəhrəsi idi.

Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə Naxçıvan MSSR-in kənd təsərrüfatının inkişafında da əsaslı dönüş baş verdi. Doqquzuncu və onuncu beşilliklərdə respublika rəhbərliyi muxtar respublikanın kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinə, əkinçilik və heyvandarlıq məhsulları istehsalının artırılmasına yönəlmiş bir sıra kompleks tədbirlər həyata keçirdi.

1970-ci ildən başlayaraq muxtar respublikanın kənd təsərrüfatının planlaşdırılmasında buraxılmış çatışmazlıqların aradan qaldırılması üçün işlər aparılmağa başlandı. Qeyri-rentabelli, yüksək maya dəyərinə malik pambıqçılıq Naxçıvan MSSR-də yüksək məhsuldarlığa malik üzümçülük və tütünçülüklə əvəz edildi. Bu ideyanın əsas təşəbbüskarı məhz Heydər Əliyev oldu.

Heydər Əliyevin təşəbbüsü ilə mərkəz Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı üç mühüm tarixi qərar (Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında» 23 iyul 1970-ci il tarixli, «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında» 9 iyul 1975-ci il və «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» 23 fevral 1979-cu il tarixli qərarlar) qəbul etdi. Bu sənədlərdə həm Azərbaycanda, həm də onun tərkib hissəsi olan Naxçıvan MSSR-də kənd təsərrüfatının geniş inkişaf proqramı əks olunmuşdu.

Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında muxtar respublikada kənd təsərrüfatı istehsalının artırmaq barədə bir sıra mühüm maddələr öz əksini tapmışdır. Bu qərarlar sırasında muxtar respublikada heyvandarlığın inkişafı məqsədi ilə yem bazasının möhkəmləndirilməsi, təsərrüfatların su təchizatının yaxşılaşdırılması, tədarük, texniki xidmət müəssisələrinin yaradılması, kolxoz və sovxozlarda mədəni-məişət obyektlərinin tikintisi və s. var idi.

1970-ci illərdə respublika partiya təşkilatının və hökumətinin qərarlarına uyğun olaraq muxtar respublikada kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun mexanikləşdirilməsi, kimyalaşdırılması, torpaqların meliorasiyasına dair mühüm işlər həyata keçirilmişdi.

Heydər Əliyevin başçılığı altında həyata keçirilən əməli iqtisadi, təşkilati tədbirlər nəticəsində artıq doqquzuncu beşillikdə muxtar respublikada kənd təsərrüfatının səmərəliliyinin yüksəldilməsinə və plan tapşırıqlarının yerinə yetirilməsinə nail olundu. Əvvəlki beşilliklə müqayisədə doqquzuncu beşillikdə 3,7 dəfə çox taxıl və üzüm, 2 dəfə çox tütün, 4,2 dəfə çox tərəvəz, 1,3 dəfə çox meyvə, 1,5 dəfə çox süd istehsal olunmuş, bütün kənd təsərrüfatı məhsulları üzrə dövlət planları yerinə yetirilmişdi. 1970-ci illə müqayisədə kolxoz və sovxozların ümumi gəliri 191 faiz, təmiz gəliri isə iki dəfə artmışdı. İctimai istehsalın artımı əsasında əməkçilərin maddi rifah halı da yaxşılaşmışdı. Kəndlinin orta illik əmək haqqı 1,7-2 dəfə artmışdı [22, v.83].

1970-ci illə müqayisədə əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı da əhəmiyyətli dərəcədə yüksəlmişdi.

Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsində onun texnika və texniki vasitələrlə təminatı həlledici əhəmiyyət daşıyırdı. Əgər 1970-ci ildə muxtar respublikanın kənd təsərrüfatında 442 traktor, 100 taxılyığan kombayn, 394 yük avtomobili var idisə, 1975-ci ildə onların sayı müvafiq olaraq 994-ə, 134-ə, 704-ə, 1980-ci ildə isə 1149-a, 146 və 880-ə çatdırıldı [161, 45].

Kənd təsərrüfatının inkişafının mühüm şərti kolxoz və sovxozların elektriklə tam təminatı idi. Elektrikləşdirmə əmək məsrəflərini azaltmaqla bərabər, fiziki əməyi yüngülləşdirmək, əmək məhsuldarlığını artırmaq, istehsalın geniş avtomatlaşdırılması imkanı idi. Doqquzuncu və onuncu beşilliklərdə kənd təsərrüfatının elektrik enerjisinə olan tələbatını təmin etmək üçün bir sıra tədbirlər hazırlanmış və həyata keçirilmişdi. 70-ci illərdə kolxoz və sovxozlarda elektrik stansiyaları və elektrik dizelləri dövlət elektrik energetika sistemi ilə əvəz edildi. Araz çayı üzərində su elektrik stansiyası tikilib istifadəyə verildi. Bütün kolxozlar, təsərrüfatlar arası kənd təsərrüfat müəssisələri tamamilə elektrikləşdirildi. 1970-ci ilə nisbətən 1980-ci ildə muxtar respublikada elektrik enerjisi istehlakı 3,4 dəfə artdı [4, v.192].

Kənd təsərrüfatının sürətli inkişafınının təmin edilməsində meliorasiya və torpaqların irriqasiyası mühüm yer tuturdu. Naxçıvanda su təminatı ciddi problemə çevrilmişdi. Bu məsələnin həlli üçün Sovet hakimiyyətinin əvvəlki illərində bir sıra işlər görülsə də, yalnız Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə ciddi dönüş yarandı. 70-ci

illərdə Naxçıvan MSSR-də meliorasiya və irriqasiya işlərinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirildi. 1975-ci ildə Hidromeliorasiya tikinti tresti, 1979-cu ildə isə Naxçıvan MSSR Su Təsərrüfatı idarəsi bazasında Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi yaradıldı [134, 33].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan MSSR-də meliorasiya və irriqasiya sahəsində bir sıra işlərin, o cümlədən Naxçıvan şəhərindəki 6 km-lik Bazarçay kanalının betonlaşdırılması, Şahbuz rayonunun suvarılan torpaqlarının su təminatını yaxşılaşdırmaq üçün Durnalı, Ağbulaq, Qeysi-Gözəl su tutarlarının tikintisi, İliç (indiki Şərur) və Naxçıvan rayonlarının (indiki Babək rayonu) bəzi kolxoz və sovxozların şorlanlaşmış torpaqlarının meliorasiyası, Sirab su anbarının tikintisi və s. işlərin görülməsi nəzərdə tutulmuşdu [18, v.189].

Heydər Əliyevin göstərişinə əsasən hələ 1971-ci il oktyabrın 18-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Şamil Rəsizadənin yanında Naxçıvan MSSR meliorasiya və su təsərrüfatının cari və perspektiv məsələlərinə dair müşavirə keçirilmiş, orada muxtar respublikanın təsərrüfatlarının su ilə təminatının yaxşılaşdırılmasına dair tədbirlərin işlənib hazırlanması qərara alınmışdı [14, v.15-17].

Göstərilən dövrdə su təsərrüfatı qurğularının tikintisinə kapital qoyuluşu əhəmiyyətli dərəcədə artmışdı. Təkcə doqquzuncu beşillikdə Naxçıvan MR-in su probleminin həlli üçün 66 milyon vəsait sərf olunmuşdu. 1971-1980-ci illərdə bu məqsədlə ayrılmış vəsait 4,3 dəfə artmış və bu sahəyə 119 milyon manat kapital qoyulmuşdu. Doqquzuncu və onuncu beşilliklərdə 60-cı illərə nisbətən su təsərrüfatı qurğularının

tikintisi 7 dəfə artmışdı [134, 33]. 70-ci illərdə 1,35 mlrd. kubmetr həcmə malik Araz, 150 milyon kubmetrlik Arpaçay və 12,7 milyon kubmetrlik Sirab su anbarı istismara verildi. Nurs, Bənənyar su tutarları tikildi. Eyni zamanda kiçik suvarma qurğularının tikintisi də genişləndirildi. 1980-ci ildə muxtar respublikada 22 su anbarı var idi. Nəticədə 1971-1980-ci illərdə 4863 ha suvarılan torpaq sahəsi istifadəyə verildi, 40575 ha suvarılan torpağının meliorasiya və su təminatı yaxşılaşdırıldı, 636 ha torpaq sahəsində əsaslı yuma aparıldı, 6838 ha torpağın səthi hamarlaşdırıldı.

Arpaçay su tikintisinin 1975-ci ildə istifadəyə verilməsi 46 min hektar əkin sahəsinin suvarılmasına, 2 min hektara yaxın yeni suvarılan torpaq sahəsinin dövriyyəyə buraxılmasına imkan yaratdı ki, bu da yenə Heydər Əliyevin səyləri və nəzarəti ilə həyata keçirilmişdi.

O dövrün ən böyük su tikintilərindən olan Arpaçay su anbarının tikintisinə Heydər Əliyev çox böyük diqqət yetirirdi.

Azərbaycanın keçmiş rəhbərliyinin günahı ucbatından su anbarının tikintisi nəzərdə tutulduğundan xeyli sonra- 1969-cu ildə başlanmışdı. 1975-ci ildə başa çatdırılması nəzərdə tutulmuş, smeta dəyəri 57 mln. manat olan  və 30 min hektar torpağı suvarmağa imkan verəcək obyektin tikintisi üçün 1969-cu ildə ayrılmış 3,5 mln. manatın yalnız 1,4 mln. manatı xərclənmişdi. Planda nəzərdə tutulmuş bütün işlərin hamısında geriləmə müşahidə olunurdu.

Ulu öndər Naxçıvanın gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyan bu obyektin tikintisi ilə bilavasitə məşğul olmağa başladı. Hər şeydən əvvəl tikinti ilə bilavasitə məşğul olacaq idarə – «Arpaçay-hidrotikinti» tresti yaradıldı. 1972-ci

ilin 17 oktyabrında o, Azərbaycan KP MK Bürosunda Naxçıvan MSSR-də Arpaçay üzərində su anbarının tikintisinin vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında məsələnin müzakirəsinə nail oldu. Məsələ ilə bağlı qəbul edilmiş qərarda bu vəziyyətin yaranmasının əsas səbəbləri göstərilmişdi. Qeyd edilmişdi ki, tikintinin davam etdiyi 3 il ərzində kompleksin smeta dəyərinin yalnız 20 faizi xərclənmiş, tikinti quraşdırma işləri isə yalnız 17 faiz yerinə yetirilmişdir [12, v.24].

Qərarda tikinti istehsalının təşkilində və idarə edilməsində səhvlər və nöqsanların buraxıldığı, tikinti materialları, mexanizmləri və avtonəqliyyatdan səmərəsiz, böyük itkilərlə istifadə edilməsi, istehsalat və əmək intizamının aşağı olması, kadrların seçilməsi və yerləşdirilməsi, tərbiyə edilməsi üzrə zəif iş aparılması, fəhlələr üçün zəruri mədəni-məişət şəraitinin yaradılmaması göstərilir və qeyd edilirdi ki, Naxçıvan MR-in partiya və sovet təşkilatları anbarın tikintisinə lazımi diqqət yetirməmiş, tikintidə işlərin vəziyyəti ilə maraqlanmamış və tikintinin təşkilinin yaxşılaşdırılması, iş sürətinin artırılması üçün vaxtında tədbirlər görməmişlər. Heydər Əliyevin imzası ilə qəbul edilmiş qərarda Azərbaycanın tikinti ilə məşğul olan təşkilatlarından və muxtar respublika rəhbərliyindən obyektin vaxtında – 1975-ci ildə təhvil verilməsini təmin etmək üçün bütün əlavə tədbirlərin görülməsi tələb edilirdi. [12, v.24-27].

1974-cü ilin oktyabrında Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar muxtar respublikada olan Heydər Əliyev Arpaçay su qovşağının tikintisinə baş çəkmiş, tikintinin tezliklə başa çatdırılması üçün tapşırıqlar vermişdi. O, İranla birgə çəkilən Araz su qovşağında da olmuş, onun da tezliklə istifadəyə verilməsinin vacibliyini vurğulamış, Naxçıvançayın üzərində

Vayxır dəryaçasının yaradılması və Əlincəçay suvarma sisteminin yenidən qurulması haqqında da planlarının olduğunu nəzərə çatdırmışdı [129, 1974, 5 oktyabr]. Lakin sonrakı ictimai-siyasi proseslər bu planların həyata keçirilməsinə imkan vermədi. O, yalnız ikinci dəfə prezident seçiləndən sonra bu arzularını gerçəkləşdirə bildi.

1978-ci ilin oktyabrında yenidən muxtar respublikaya gələn rəhbər Azərbaycanın müvafiq qurumları qarşısında 1979-cu ilin mayınadək komleksin tikintisində yarımçıq qalmış işlərin başa çatdırılması və kompleksin istifadəyə verilməsi, aşağı su buraxıcı qurğunun və sağ sahil kanalının çəkilişinə başlanılması kimi yeni vəzifələr qoydu [129, 1978, 18 oktyabr]. O, partiya təsərrüfat fəallarının yığıncağındakı çıxışı ilə kifayətlənməyərək yenidən Arpaçay dəryaçasında olmuş, kompleksin inkişafı ilə bağlı öz tövsiyələrini vermişdi.

1980-ci ilin mayında Heydər Əliyev növbəti dəfə Arpaçay dəryaçasının vəziyyətilə maraqlanmış, Sirab və Batabat dəryaçalarına getmişdi. O, muxtar respublikada kənd təsərrüfatı istehsalının yüksəlişinin həlledici amili olan su təsərrüfatının genişləndirilməsində nöqsanların olduğunu da göstərmiş, su obyektlərinin tikintisini sürətləndirməyi və mühüm su mənbəyi kimi kəhrizlərin, artezianların, çeşmələrin imkanlarından istifadə etməyi tövsiyə etmişdi.

Kənd təsərrüfatının sürətlə inkişafı istehsalın kimyalaşdırılmasından da çox asılı idi. 70-ci illərdə Naxçıvan MSSR-in kənd təsərrüfatında mineral gübrələrdən daha səmərəli istifadə edilməyə başlanılmışdı. Bu işi yaxşılaşdırmaq üçün 1979-cu ildə kolxoz və sovxozlarda 35449 ton gübrə, zəhərləyici maddə, herbisid və stimulyator istifadə olunmuşdu

ki, bu da 1970-ci illərlə müqayisədə 4,5 dəfə çox idi [128, 1982, 6 iyul].

Heydər Əliyevin kənd təsərrüfatının iknişaf strategiyasının ən mühüm istiqamətlərindən biri də bu sahəyə ixtisaslı kadrların cəlb edilməsi idi.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu sahəyə böyük diqqət ayırmağın özü də ulu öndərimizin çox uzaqgörən fəaliyyətinin bir cəhəti kimi qiymətləndirilməlidir. Torpağın gübrələnməsi əgər səriştəsiz, ixtisassız kadrlar tərəfindən aparılarsa, əlbəttə, gələcəkdə onun xeyirindən çox zərərini görmək olardı. Odur ki, Heydər Əliyev aqrar sahənin ixtisaslı kadrlara, təcrübəli işçilərə tapşırılmasına xüsusi fikir verirdi.

Haqqında danışılan dövrdə artıq kənd təsərrüfatının ali və orta ixtisas təhsilli kadrlarla təmin edilməsində böyük uğurlar əldə edilmişdi. 1980-ci ildə Naxçıvan MSSR-in kənd təsərrüfatında ali təhsilli mütəxəssislərin sayı 486 nəfərə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə 49 faiz çox idi [161, 67]. Kənd təsərrüfatında mütəxəssislərin ümumi sayı 1,9 dəfə artmışdı [161, 67]. Kənd təsərrüfatında çalışan mexanizatorların sayı 1970-ci ildə 1184 nəfərdən 1980-ci ildə 1805 nəfərə çatmışdı [4, v.192].

70-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının sənaye əsasına keçirilməsi, onun təmərküzləşməsi və ixtisaslaşmasına Heydər Əliyev xüsusi diqqət yetirirdi. Kənd təsərrüfatının ixtisaslaşdırılması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirilir, əmək bölgüsünün dərinləşməsi prosesi sürətlənirdi.

Naxçıvan MSSR-in özündə təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyası əsasında kənd təsərrüfatı

istehsalının təmərküzləşməsi və ixtisaslaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdü. Ordubad rayonunun meyvə tərəvəz və ipəkçilik üzrə ixtisaslaşdırılması qərara alınmış, bu məqsədlə Ordubad aqrar-sənaye birliyi yaradılmışdı [30,v.79]. 1971-1980-ci illər ərzində muxtar respublikada ixtisaslaşdırılmış 18 üzümçülük, 1 tərəvəzçilik, 1 qoyunçuluq, 6 tütünçülük sovxozu və aqrosənaye inteqrasiyası əsasında işləyən 6 sovxoz-zavod yaradılmışdı [130, 19]. Heydər Əliyevin imzası ilə 10 fevral 1981-ci ildə Azərbaycan KP MK bürosu Şahbuz, Culfa və Ordubad rayonlarının iqtisadi cəhətdən zəif olan 16 kolxozu əsasında 9 qoyunçuluq, 3 ətçilik və 3 südçülük sovxozunun yaradılması haqqında qərar qəbul etdi. Azərbaycan KP MK Bürosu 2 iyun 1981-ci il tarixli qərarı ilə Naxçıvan MSSR-də daha iki yeni ixtisaslaşdırılmış üzümçülük və südçülük sovxozu yaradıldı [42, v.145-148]. Kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və göndərilməsi zamanı yol verilən böyük itkilərin qarşısını almaq məqsədi ilə 1982-ci ildən bütün ölkədə olduğu kimi, muxtar respublikada da aqrar-sənaye birlikləri yaradılmağa başlandı və bu iş 1985-ci ildə başa çatdırıldı.

Görülən işlər kənd təsərrüfatı məhsullarının istehsalının və əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artmasına kömək etdi. Muxtar respublikanın kənd təsərrüfatının ümumi məhsulu 1970-ci ildə 16,932 min manatdan, 1980-ci ildə 54,389 min manata qədər, yaxud 3,2 dəfə artmışdı [128, 1982, 6 iyul]. 1980-ci ildə kənd təsərrüfatı müəssisələrinin xalis gəliri 8,92 min manat təşkil etmişdi ki, bu da 1970-ci ildəkindən 2,7 dəfə çox idi [4, 192].

Heydər Əliyev respublikanın digər rayonlarına olduğu kimi, Naxçıvana səfərlərində də kolxoz və sovxozların işi ilə əyani şəkildə tanış olur, kəndlilərin həyatı, məişət qayğıları ilə maraqlanır, onların problemlərini özlərindən eşitməyə üstünlük verirdi [129, 18 oktyabr, 1978, 67, 1980 27 may].

1980-ci ilin aprelində Naxçıvan MR-də təbii fəlakət baş vermişdi. Qışdan çoxlu miqdarda yığılmış qar kütlələrinin yazın gəlişiylə sürətlə əriməsi və ardıcıl leysan yağışları çaylarda suyun səviyyəsini kəskin şəkildə artırmış, daşqınlar başlamış və aprelin 13-də güclü sel bir sıra yaşayış məskənlərini və kənd təsərrüfatı sahələrini öz altına almışdı. Ayın 16-da isə temperatur kəskin surətdə aşağı düşmüş, qar yağmış, küləyin surəti 25-30 metrə çatmışdı. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün respublika və rayon komissiyaları yaradılmışdı. Komissiyanın gəldiyi nəticəyə görə 15801 ha üzüm sahəsindən 74 faizi, o cümlədən məhsuldar plantasiyaların 85,4 faizi, 2615,5 ha məhsuldar meyvə bağından 2396 ha və ya 92 faiz, 554 ha tut plantasiyasından 76 faizi tam yararsız hala düşmüşdü. Tütün və tərəvəz sahələrinə də ciddi ziyan dəymişdi. Bütövlükdə muxtar respublikanın kənd təsərrüfatına 27249 min manat, o cümlədən fərdi bölməyə 5143,3 min manat həcmində ziyan dəymişdi. Təbii fəlakət təkcə kənd təsərrüfatına zərər vurmamış, xalq təsərrüfatının digər sahələri də tələfata uğramışdı. Elektrik xətlərinə 42 min, avtomobil yollarına 758 min, su təsərrüfatı qurğularına 526 min, inşaat obyektlərinə 2991,7 min, rabitəyə 7,7 min heyvandarlığa 15,8 min manat ziyan dəymişdi [36, v.14-15]. Bütövlükdə muxtar respublikanın təbii fəlakət nəticəsində aldığı itki 31650 min manat həcmində ölçülürdü. Naxçıvanın

partiya, sovet və təsərrüfat orqanları təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün zəruri tədbirlər görsələr də, muxtar respublikaya əlavə kömək göstərilməsinə ehtiyac yaranmışdı.

Təbii fəlakət baş verdikdən dərhal sonra Heydər Əliyev Azərbaycanın müvafiq orqanlarına muxtar respublikaya zəruri yardım göstərilməsi barədə göstəriş vermiş, təbii fəlakət zonasına texnika, tikinti materialları və s. göndərilmişdi. Lakin bütün bu tədbirlər təbii fəlakətin nəticələrini tam aradan qaldırmağa kifayət etmirdi. Buna görə də Naxçıvan VPK-nın I katibi K.Rəhimovun imzasıyla Sov.İKP Siyasi Bürosunun üzvülüyünə namizəd, Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevə göndərilən 5.V.1980-ci il tarixli arayış-məktubda təbii fəlakətin Naxçıvan MR iqtisadiyyatına vurduğu zərər barədə bir daha ətraflı məlumat verilmiş, bir sıra əməli məsələlərin (bu məsələlər məktubda konkret göstərilmişdi) həllində Naxçıvan MR-ə əməli kömək göstərmək üçün ondan Azərbaycan SSR Nazirlər Sovetinə, respublika Dövlət Plan Komitəsinə və müvafiq nazirlik və idarələrə lazımi göstərişlər vermək xahiş edilmişdi [36, v.16-17].

Heydər Əliyev məktuba dərhal cavab olaraq 8 may 1980-ci ildə Ə.İbrahimov, H.İbrahimov və H.Seyidova oradakı məsələləri nəzərdən keçirməyi və Azərbaycan KP MK Bürosunun və Azərbaycan SSR Nazirlər Sovetinin müvafiq qərar layihəsini hazırlayaraq büroya təqdim etməyi tapşırmışdı [36, v.14]. Təbii fəlakətindən sonra əhaliyə və rəhbərliyə mənəvi dəstək olmaq, onlara öz köməyini göstərmək üçün o, fəlakət zonasına getmiş və bir həftə Naxçıvanda qalmışdı. Vəziyyətlə yerində ətraflı tanış olduqdan sonra, nəhayət, 27 may 1980-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR

Nazirlər Kabineti Heydər Əliyev və Ə.İbrahimov tərəfindən imzalanmış 20 maddəlik qərar qəbul etdi. Qərarda Azərbaycan SSR və Naxçıvan MSSR partiya, sovet və təsərrüfat orqanlarından, nazirlik və idarələrindən muxtar respublikada təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılması üçün lazımi tədbirlər görmək, kolxoz və sovxozlara, vətəndaşların təsərrüfatlarına dəymiş ziyanın məbləğini müəyyənləşdirmək və bu ziyanı ödəmək üçün müvafiq addımlar atmaq tələb edilirdi.

Qərarda təbii fəlakətdən ziyan çəkmiş dövlət və fərdi təsərrüfatların müxtəlif vergilərdən və icbari sığortalardan azad edilməsi, vətəndaşlara 2,0 mln. manat həcmində birdəfəlik pul yardımı göstərilməsi, muxtar respublikaya maddi-texniki ehtiyatlar göndərilməsi, kolxoz və sovxozlara kreditlərin ayrılması, fəlakətdən zərər çəkmiş əhaliyə satılmaq üçün əlavə tikinti materialları, ərzaq və sənaye malları ayrılması nəzərdə tutulurdu.

Qəbul edilmiş qərarda həmçinin respublikanın Dövlət Plan Komitəsindən, nazirlik və idarələrindən Naxçıvan VPK və muxtar respublikanın Nazirlər Soveti ilə birgə Naxçıvan MSSR-in sosial-iqtisadi məsələlərini nəzərdən keçirmək və öz təkliflərini təqdim etmək tələb edilmişdi [36, v.3-7].

Həmin illərdə ölkənin kənd təsərrüfatı qarşısında duran ən ümdə məsələlərdən biri də taxıl istehsalının inkişaf etdirilməsi problemi idi. 1970-ci ildə Azərbaycanda dənli bitkilər bütövlükdə 622 min hektardan çox sahəni tuturdu ki, bu da bütün əkin sahələrinin 52 faizini təşkil edirdi. 70-ci illər - 80-ci illərin əvvəllərində taxılçılıq mədəniyyətinin yüksəldilməsinə və dənli bitkilərin sort tərkibinin yaxşılaşdırılmasına diqqət

artırıldı, məhsuldarlıq yüksəldildi. Nəticədə 1970-ci ildəkinə nisbətən 1985-ci ildə Azərbaycanda əkin sahələri 128 min hektar azalsa da, taxıl yığımı bu dövrdə təqribən 1,8 dəfə artmışdı [155, 72].

Taxılçılıq Naxçıvan MR-in kənd təsərrüfatında mühüm yer tuturdu. Muxtar respublikanın torpaq-iqlim şəraiti burada dənli və bir sıra aqrotexniki bitkilərin inkişafı üçün əlverişli idi. Bununla belə muxtar respublikanın kolxozlarında dənli və paxlalı bitkilərin əkin sahəsi cəmi əkin sahəsinin 57 faizini, yem bitkilərinin əkin sahəsi isə 18,8 faizini təşkil edirdi. Dənli bitkilərin sahələrinin azalmasına baxmayaraq, taxıl istehsalı əhəmiyyətli dərəcədə artmışdı. Əgər 1970-ci ildə 23655 ha əkin sahəsindən 21443 ton taxıl yığılmışdısa, 1980-ci ildə 11428 ha-dan 26436 ton yığılmışdı [162, 24-29]. Taxıl istehsalının artması əsasən intensivləşdirmə hesabına əldə edilmişdi. Belə ki, 1970-ci ildə kolxoz və sovxozlarda hər hektardan 9,5 sentner məhsul yığılmışdısa [162, 24-29], 1975-ci ildə bu göstərici 13,2 sentnerə, 1980-ci ildə isə 23,2 sentnerə çatmışdı [156, 318]. Lakin bu göstərici SSRİ-nin başqa iqtisadi rayonları ilə müqayisədə çox aşağı idi.

Heydər Əliyev Naxçıvanda olarkən öz çıxışlarında muxtar respublikada kənd təsərrüfatını daha da inkişaf etdirmək, bitkiçiliyin və heyvandarlığın məhsuldarlığını yüksəltmək üçün konkret vəzifələr irəli sürmüşdü.

Ümumiyyətlə, etdiyi çıxışlar, qoyduğu vəzifələr, verdiyi tövsiyə və tapşırıqlar hər dəfə öz dəqiqliyi, müdrikliyi ilə bir daha Heydər Əliyevin Naxçıvan MR-in iqtisadiyyatının çox mürəkkəb bir sahəsi olan kənd təsərrüfatına, onun inkişaf perspektivlərinə yaxından bələd olduğunu sübut edirdi.

Muxtar respbulikanın kənd təsərrüfatının aşağı səviyyəsi, məhsuldarlığın respublikanın orta göstəricilərindən geri qalması, əkilən sahələrdən səmərəli istifadə olunmaması daim onu narahat edir və o, bu narahatçılığı dəfələrlə muxtar respublika rəhbərliyinin diqqətinə çatdırırdı.

1980-ci ildə Naxçıvanın partiya sovet fəallarının yığıncaqlarında Heydər Əliyev bu problemi nəzərdə tutaraq deyirdi: «İndi desək ki, muxtar respublikada uzun illər ərzində taxılın məhsuldarlığı hər hektardan 6-7 sentner yuxarı qalxmamışdır, buna heç kəs inanmaz. Ancaq bu həqiqətdir. İndi sual vermək olar ki, bəs vaxtilə buna necə dözüblər? Bəli, nəinki dözüblər, hələ ola bilsin ki, bunu nailiyyət də hesab ediblər» [99, v.109]. 1980-ci ildə muxtar respublika üzrə hər hektardan 21,5 sentner taxıl götürüldüyü təqdirdə Heydər Əliyev bunun yenə az olduğunu göstərmiş, taxılın məhsuldarlığının aşağı olması səbəbiylə muxtar respublika rəhbərliyini tənqid etmişdi. Heydər Əliyevin bu tənqidi fikirləri öz nəticəsini tezliklə Naxçıvanda taxılçılıqda məhsuldarlığın artmasında göstərdi. 1982-ci ilin oktyabrında partiya, sovet təsərrüfat fəallarının yığıncağında Heydər Əliyev Naxçıvanda artıq 30 sentner taxıl götürüldüyünü yaxşı fakt kimi qeyd etmişdi (67, 1982, 5 oktyabr). 1987-ci ildə həmin göstərici 35,9 sentner olmuşdu [4, v. 201].

1970-ci illərdə və 80-ci illərin I yarısında üzümçülük özünün yüksək inkişaf sürəti ilə muxtar respublikanın ən mühüm sahələrindən birinə çevrilmişdi. Həmin dövrdə üzüm plantasiyaları 11 dəfə genişlənmiş, üzüm istehsalı 2,3 dəfə artmışdı. 1970-ci ildə üzümün məhsuldarlığı hər hektardan 36,7 sentner idisə, 1975-ci ildə bu rəqəm 44,6, 1980-ci ildə isə

52,7 sentner olmuşdu. Halbuki hələ 1970-ci illərin əvvəllərində kənd təsərrüfatının bu sahəsi çox geridə qalırdı. Dövlət tapşırıqları çox ciddi kəsirlə yerinə yetirilirdi. Təsərrüfatlarda aqrotexniki qaydalara əməl edilmirdi, əmək intizamı çox aşağı səviyyədə idi [67, 1982, 5 oktyabr].

Heydər Əliyev şərabçılığın inkişafı ilə bağlı sahələrin inkişafına xüsusi diqqət yetirməklə bu işə bilavasitə rəhbərlik etmişdir. O, «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1979-cu il 22 fevral tarixli xüsusi qərar qəbul etmələrinə nail olmuş, həmin ilin noyabrında Azərbaycan KP MK-nın xüsusi plenumunu keçirərək orada respublikada üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı sahələrin inkişafını mühüm iqtisadi vəzifə kimi qarşıya qoymuşdu. Azərbaycan KP MK-nın 1979-cu ilin noyabr plenumunda bu qərarın yerinə yetirilməsi üzrə respublika partiya təşkilatlarının vəzifələri haqqında məsələ müzakirə edilərək Azərbaycanın kənd təsərrüfatının uzunmüddətli strateji inkişaf proqramı müəyyənləşdirilmişdi [32, v.117]. Təkcə Naxçıvan MSSR üzrə 1979-1986-cı illərdə 19,4 min hektar yeni üzüm sahəsinin yaradılması [10, v.102], 1985-ci ildə üzüm istehsalının 230 min, 1990-cı ildə isə 400 minə çatdırılması nəzərdə tutulurdu [31, v.123]. Həmin qərara əsasən on il ərzində muxtar respublikanın üzümçülük və şərabçılıq üzrə ixtisaslaşması nəzərdə tutulmuşdu. Nəticədə Azərbaycanda üzümçülüyün təbii-iqtisadi zonalar üzrə ixtisaslaşdırılması, üzümçülük sahələrinin genişləndirilməsi prosesi getdikcə güclənmiş və kənd təsərrüfatı məhsullarının istehsalında bu sahənin xüsusi

çəkisi artmışdı. Üzüm plantasiyalarının sahəsi 1970-ci ildəki 212,6 min hektardan 1985-ci ildə 268 min hektara çataraq 2,2 dəfə artmış oldu. Azərbaycan 70-ci illərin sonlarında ildə orta hesabla 2 milyon ton üzüm ishesal edərək SSRİ-də birinci yeri tuturdu.

Cəlilabad, Şamxor, Xanlar, Ağdam kimi Naxçıvan MSSR də üzümçülük rayonuna çevrilmiş, muxtar respublika ərazisində ixtisaslaşmış üzümçülük sovxozları yaradılmışdı.

1974-cü ildə Heydər Əliyev Naxçıvanda üzümçülüyün inkişafı üçün yaxşı imkanlar olduğunu qeyd etmiş, tarixən burada süfrə üzüm sortlarının çox olduğunu xatırlatmışdı. Lakin 70-ci illərin əvvəllərində üzümçülük muxtar respublikada böhran vəziyyətində idi, üzümlüklərin məhsuldarlığı Azərbaycanın göstəricilərdən təqribən iki dəfə az idi (1971-ci 38,5 sentnerə qarşı 21,7 sentner, 1972-ci ildə isə 25,5 sentnerə qarşı 19 sentner). Muxtar respublikada üzümlüklərdə seyrəklik də çox idi (30 faiz). Bu cür nöqsanların tezliklə aradan götürülməsini arzulayan rəhbər təsərrüfat işçilərinə belə tövsiyə edirdi: «Əgər siz üzümçülüyü Naxçıvan diyarında əkinçiliyin əsas sahəsinə çevirmək istəyirsinizsə, onda üzümçülüyün bütün problemləri ilə məşğul olmalısınız. Özünüz şitil yetişdirməli, çubuq, tənək tədarük etməlisiniz» [95, v.110-111].

Sonrakı illərdə də Naxçıvanda olarkən o, üzümçülük təsərrüfatlarına baş çəkməyi unutmur, ən kiçik məqamlara qədər işin gedişi ilə tanış olurdu. O, Naxçıvanda üzümçülüyün inkişafı üçün böyük ehtiyat mənbələrinin olduğunu, seyrəkliyin olduqca çox – 41 faiz təşkil etdiyini onların diqqətinə çatdırır, plantasiyalarda işlərin keyfiyyətini yaxşılaşdırmağı, seyrəkliyi

ləvğ etməyi, suvarma imkanlarından maksimum istifadə etməyi və s. bir vəzifə kimi irəli sürürdü [96, v.63-64].

Heydər Əliyevin Naxçıvanda üzümçülüyün inkişafına qayğı və diqqətini aşağıdakı rəqəmlər də sübut edir. 1970-ci illərin sonlarında muxtar respublikada 19 ixtisaslaşdırılmış üzümçülük sovxozu yaradılmış, üzümlüklərin sahəsi 12,759 hektara çatdırılmış, 1969-cu illə müqayisədə 1979-cu ildə üzüm istehsalı 5,3 dəfə artmışdı. Üzümçülük təsərrüfatları təkcə 1976-1979-cu illərdə 17 mln. manat xalis gəlir əldə etmişdilər ki, bu da bütün doqquzucu beşillikdəkindən (7 mln. 400 min manat) xeyli çox idi. Həmin dövrdə sovxoz fəhlələrinin əmək haqqı da 1,2 dəfə artmışdı [31, v.123].

Heydər Əliyev 1980-ci ildə Naxçıvanda üzüm təsərrüfatında olarkən Azərbaycan Dövlət Üzümçülük və Şərabçılıq Komitəsindən, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin rəhbərliyindən Naxçıvanda üzümçülüyün problemlərinə diqqət yetirməyi tələb etmişdi. Naxçıvan üzümçüləri qarşısında çıxış edən Heydər Əliyev diyarın ənənəvi süfrə üzüm sortlarının - «Mələyi», «Kişmişi», «Xəlili», «Şəfayi» sortlarının əvvəlki şöhrətini qaytarmağı vacib vəzifə kimi qarşıya qoymuşdu. O, həmçinin, əhalidən üzümün satın alınmasının təşkilinə xüsusi fikir verməyi, fərdi bağlarda məhsul itkisinə yol verməməyi tələb etmişdi [67, 1980, 27 may].

1982-ci ilin oktyabrında Naxçıvanda olarkən Heydər Əliyev üzümçülər qarşısında plantasiyaların məhsuldarlığını artırmaq, məhsulun keyfiyyətini yüksəltmək, Naxçıvan torpağında qədimdən məşhur olan süfrə üzüm sortlarının yetişdirilməsini sürətləndirmək kimi yeni vəzifələr qoydu [67, 1982, 5 oktyabr].

Lakin alkoqolizmə qarşı qondarma və uğursuz bir şəkildə aparılan mübarizə kampaniyası Azərbaycanın, eləcə də Naxçıvanın böyük zəhmətlər hesabına yaradılmış mükəmməl üzümçülük plantasiyalarını yerlə yeksan etdi. Plantasiyaların dağıdılması üzümçülüyü, şərabçılığı dərin böhranlara saldı. Muxtar respublika ərazisində yerləşən şərab zavodlarının, şərabçılıq müəssisələrinin fəaliyyəti iflic oldu. Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvü olarkən bu ağılsız siyasətə öz kəskin etirazını bildirsə də, bu dağıdıcı hərəkatı dayandıra bilmədi.

Doqquzuncu və onuncu beşilliklərdə muxtar respublikada tərəvəzçiliyin inkişafında da müəyyən uğurlar əldə edilmişdi. 1970-ci illə müqayisədə tərəvəz istehsalı 1980-ci ildə 7,7 dəfə artmışdı. Həmin ildə kolxoz və sovxozlar hər hektardan 99 sentner tərəvəz almışdılar ki, bu da 1970-ci ildəkindən 4,9 dəfə çox idi [161, 24-26]. 1982-ci ildə isə tərəvəz istehsalı 17912 tona çatmışdı [160, 35].

70-ci illərdə muxtar respublikada kənd təsərrüfatının ən rentabelli sahəsi olan tütünçülüyün inkişafına da diqqət yetirilirdi. Həmin dövrdə 6 ixtisaslaşmış tütünçülük sovxozu yaradılmışdı [128, 1982, 6 iyul]. Burada işlərin əksəriyyəti əl əməyinə əsaslandığından təsərrüfatların mexanikiləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Tütün istehsalı 1970-ci ildə 3096 tondan 1981-ci ildə 6396 tona çatdırılmış, bu zaman hər hektarın məhsuldarlığı müvafiq olaraq 14,5 sentnerdən 24,0 sentnerə yüksəlmişdi [161, 26; 160, 35-39].

Muxtar respublikada ənənəvi təsərrüfat sahəsi olan heyvandarlığın inkişafı üçün geniş imkanlar olsa da, 70-ci illərə qədər bu sahədə də geriləmə davam edirdi. Ümumi kənd

təsərrüfatı məhsulunun 20 faizi heyvandarlığın payına düşsə də, mal-qaranın və quşçuluğun məhsuldarlığı hələ də aşağı olaraq qalırdı. Orta süd sağımının göstəricilərinə görə muxtar respublika Azərbaycan üzrə göstəricilərdən xeyli geri qalırdı.

1974-cü ildə VPK-nın XXX konfransındakı çıxışında Heydər Əliyev muxtar respublikada heyvandarlığın geridə qalmasına aid konkret faktlar və rəqəmlər göstərmiş, bu sahədə məhsuldarlığın artırılması, əhalinin ət və süd məhsulları ilə təminatının yaxşılaşdırılması vəzifəsinin tezliklə həll edilməsini muxtar respublika rəhbərliyi qarşısında bir tələb kimi qoymuşdu [128, 1974, 12 mart]. 70-80-ci illərdə muxtar respublikada heyvandarlığın inkişafı üçün kompleks işlər aparılırdı. Həyata keçirilən tədbirlər sırasında bu sahənin ixtisaslaşdırılması, mal-qara cinsinin yaxşılaşdırılması, təmərküzləşmə və təsərrüfatlararası kooperasiyaların yaradılması kimi tədbirlər xüsusi yer tuturdu. Bu tədbirlərin nəticəsi olaraq ictimai heyvandarlığın inkişafında müsbət dəyişikliklər baş verdi. 1970-ci ilə nisbətən 1980-ci ildə muxtar respublikanın kolxoz və sovxozlarında ət istehsalı 2,1 dəfə (Azəbaycanda 1,4 dəfə), süd istehsalı 2,8 dəfə (Azərbaycanda 1,6 dəfə), yumurta istehsalı 3,4 dəfə (Azərbaycanda 1,7 dəfə), yun istehsalı 1,3 dəfə (Azərbaycanda 1,3 dəfə) artmışdı. Əgər 1970-ci ildə hər furaj inəkdən orta hesabla 544 litr süd sağılmışdısa, hər toyuqdan 49 yumurta, hər 100 qoyundan 80 quzu alınmışdısa, 1980-ci ildə bu göstəricilər müvafiq olaraq 1264; 121; 87 təşkil etmişdir [162, 26].

Heydər Əliyev 70-80-ci illərdə Naxçıvan MR kənd təsərrüfatının üzümçülük, taxılçılıq, meyvəçilik və maldarlıq üzrə ixtisaslaşmasının perspektivlərini görürdü və artıq bu

prosesin başlanmasına rəvac vermişdi. Ancaq hələ də heyvandarlığın inkişaf göstəriciləri orta respublika göstəricilərindən aşağı səviyyədə idi.

Belə ki, 1982-ci ildə SSRİ-də adambaşına 58 kq ət və ət məhsulları düşürdüsə, Azərbaycanda bu göstərici 32 kq-a, muxtar respublikada isə cəmi 24,3 kq-a bərabər idi. Heyvandarlığın inkişafı hər şeydən əvvəl yemdən asılı idi. 1981-ci ildə hər şərti başa burada cəmi 9,8 sentner yem vahidi hazırlanmışdı [45, v.72]. Ona görə də Heydər Əliyev muxtar respublikada yem bazasının möhkəmləndirilməsi üçün yeni suvarılan və azad edilən torpaqlar hesabına taxıl və yem bitkilərinin əkin sahələrinin genişləndirilməsini tövsiyə edirdi. O, bunu 1978, 1980, 1982-ci illərdə Naxçıvana səfərlərində dəfələrlə qeyd etmiş, muxtar respublika rəhbərlərindən vəziyyəti düzəltməyi tələb etmişdi. Məsələn, 1978-ci ilin oktyabrında Naxçıvanda olarkən Naxçıvan MR-də maldarlığın çox geridə olduğunu ürək ağrısı ilə bildirərək, bir sıra konkret rəqəmlər göstərmiş (təhvil verilən malın orta çəkisi ümumi Azərbaycan üzrə 260 kq olduğu halda, burada 215 kq, hər inəkdən sağılan südün miqdarı isə ümumölkə üzrə 1500 litr olduğu halda, burada 1071 litr təşkil edirdi), bunu biabırçı vəziyyət adlandırmış və bu biabırçılığı aradan qaldırmağı tələb etmişdi [96, v.65]. 1982-ci ildə Naxçıvanda olarkən burada yem tədarükünün artırılması, süd sağımı və qaramalın çəki artımının yüksəldilməsi üçün konkret təkliflər irəli sürmüşdü [67, 1982, 5 oktyabr].

1970-ci illərdə Naxçıvan MSSR-də heyvandarlığın mühüm sahəsi olan sənaye quşçuluğunun da əsası qoyuldu. Heydər Əliyevin göstərişi ilə Naxçıvanda qabaqcıl texnologiyaya

əsaslanan quşçuluq kompleksləri quraşdırıldı. Naxçıvan və Ordubadda yeni quşçuluq fermaları istifadəyə verildi [96, v.65)].

Kənd təsərrüfatı məhsullarının istehsalının artması onun dövlətə satışının da artmasına gətirib çıxarırdı. Belə ki, 1970-ci illə müqayisədə dövlətə taxıl satışı 1980-ci ildə 2,4, tütün 2,6, üzüm 2,4, tərəvəz 8,8, yun 1,5, yumurta 2,6, ət 1,7, süd isə 1,9 dəfə artmışdı [129, 1980, 5 iyun].

Bütövlükdə 1970-ci ildən 1980-ci ilə qədərki dövrdə Naxçıvan MR-də ümumi kənd təsərrüfatı istehsalı hər il ardıcıl, dinamik sürətlə artırdı. Bitkiçilik və heyvandarlıq sahəsində hər il yüksək artım sürəti əldə edilmişdir. Bunu aşağıdakı rəqəmlər də sübut edir. Taxıl istehsalı 1970-ci ildə 20,5 min ton, 1980-ci ildə 27 min, 1985-ci ildə 36,8 min, tütün istehsalı müvafiq olaraq 3,1 min, 6,4 min, 2,1 min, tərəvəz 8,4, 16,3, 14,2, üzüm 23,3, 62,1, 146,3 min təşkil etmiş, məhsuldarlıq həmin illərdə 1 hektardan: taxıl üzrə 9,3, 23,2 və 34,7 setner, tütün 14,5, 23,3, 27,8, kartof 85, 94, 43, tərəvəz 96, 137, 116, üzüm 39,9, 64,7, 103,8 sentner təşkil etmişdir. 1971-ci ildə muxtar respublikada iribuynuzlu mal-qaranın sayı 63,7, 1981-ci ildə 69, 1986-cı ildə 72,5 min baş, qoyun və keçilərin sayı isə müvafiq olaraq 254,8, 292,2 və 281,7 min baş olmuşdur. Bütün təsərrüfat kateqoriyalarında əsas heyvandarlıq məhsullarının istehsalı üzrə ət (kəsilmiş çəkidə) 1970-ci ildə 3,7, 1980-ci ildə 5,7, 1985-ci ildə 6,4 min ton; müvafiq olaraq süd 18,9, 27,2, 33,3 min ton; yumurta 18,4, 37,9, 46,8 milyon ədəd; yun 0,4, 0,5 və 0,4 min ton; barama 72,6, 88,3 və 122,8 ton təşkil etmişdi [124, 87-88].

Kənd təsərrüfatının əsas istehsal fondları 1980-ci ildə 105,6 milyon manat təşkil edirdi ki, bu da 1970-ci ildəkindən 2,4 dəfə çox idi.

Təsərrüfatlarda rentabellik 8,3 faiz, kənd təsərrüfatında işləyən bir nəfərin əmək məhsuldarlığı 2,2 dəfə, kənd təsərrüfatı müəssisələrinin xalis gəliri 3,6 dəfə artmışdı (124, 88).

Heydər Əliyevin böyük təşkilatçılıq fəaliyyəti nəticəsində muxtar respublikanın kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxmış, əhalinin ərzaq məhsulları ilə təminatında müsbət dəyişikliklər baş vermişdi. Müqayisə üçün biz 1969-1979-cu illəri və 1965-1982-ci illərin göstəricilərini təhlil etmişik.

1969-1979-cu illərdə Naxçıvan MR-də kənd təsərrüfatının ümumi məhsulu 2,4, taxıl istehsalı 2, tütün 2,3, üzüm 5,3, tərəfəz 6,7, meyvə 9,8, bostan məhsulları 5,4, ət 1,7, süd 2,6, yumurta 2,9, yun 1,9, barama 1,3 dəfə artmışdı. Kənd təsərrüfatında əmək məhsuldarlığı iki dəfədən çox artmışdı [31, v.122]. 1965-ci illə müqayisədə 1981-ci ildə muxtar respublikada əməyin fondla təchizatı 2,6 dəfə artmış, təsərrüfatlara mineral gübrələrin verilməsi 4 dəfə, kolxoz və sovxozlarda əmək məhsuldarlığı 2,2 dəfə, heyvandarlığın ixtisaslaşdırılması və təmərküzləşdirilməsi, onun sənaye əsasına keçirilməsi üzrə mühüm işlər görülmüşdü. Bütün bunlar isə həmin dövr ərzində əsas kənd təsərrüfatı məhsullarının istehsalının artmasına imkan yaratmışdı: taxıl 1,9 dəfə, üzüm 4 dəfə, tərəvəz və bostan məhsulları 2,7 dəfə, ət 1,6 dəfə, süd 2,4 dəfə, yumurta 3,2 dəfə artmışdı. 1965-ci illə müqayisədə 1980-ci ildə ərzaq məhsullarını istehlakı ət və ət məhsulları üzrə 1,6 dəfə, süd və süd məhsulları üzrə 1,4 dəfə,

yumurta 2,5 dəfə, tərəvəz və bostan məhsulları üzrə 2,8 dəfə, meyvə üzrə 2,6 dəfə artmışdı. Yeddinci beşilliyin orta illik göstəriciləri ilə müqayisədə 1981-ci ildə taxıl bitkilərinin məhsuldarlığı bostan məhsulları 34,9 sentner, hər inəkdən və camışdan sağım 979 litr, hər iri buynuzlu malın orta təhvil çəkisi 81 kq artmışdı. Nəticədə kənd təsərrüfatının orta illik ümumi məhsulu 3,2 dəfə, kolxoz və sovxozların xalis gəliri 3,6 dəfə, kənd təsərrüfatında işləyən hər bir adamın orta illik əmək haqqı 2 dəfə yüksəlmişdi [45, v.70-71].

Beləliklə, materialların və faktların elmi təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, 1969-cu ildən sonra Naxçıvan MR-in kənd təsərrüfatında köklü dəyişikliklər baş vermiş, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, əkinçilik və heyvandarlıq məhsullarının istehsalı və tədarükü sahələrində, kəndin sosial inkişafında nəzərə çarpacaq uğurlar əldə edilmişdi. Bu isə öz növbəsində muxtar respublika əhalisinin həyat səviyyəsinin daha da yüksəlməsinə kömək etmişdir.

Nəzərdən keçirilən faktlar Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, aqrar islahat sahəsində də çox dəqiq və düzgün siyasət yeritdiyini, xalqın rifahının yaxşılaşdırılması üçün böyük səylə və səmərə ilə fəaliyyət göstərdiyini bir daha təsdiqləyir.

Heydər Əliyev Naxçıvan MR-in kompleks şəkildə inkişaf etdirilməsinə, bütün rayonların sosial-iqtisadi, mədəni tərəqqisinə çalışırdı. O, muxtar respublikaya səfərlərində təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmır, ətrafdakı rayonlara baş çəkərək oradakı problemlər, əhalinin güzəranı ilə də maraqlanırdı. Bu baxımdan onun 1980-ci ilin mayında

Naxçıvan MR-a səfəri xüsusi diqqətəlayiqdir. Səfər müddətində Heydər Əliyev muxtar respublikanı başdan-başa – Sədərəkdən Ordubada, Batabata qədər gəzmiş, əhali ilə yüzdən çox görüş keçirmişdi. Həmin səfərin əsas məqsədi Naxçıvanın gələcək inkişaf planını hazırlamaq idi. Heydər Əliyev özü ilə bərabər Azərbaycan SSR-in bir çox nazirlərini, idarə başçılarını gətirmiş, Vilayət Partiya Komitəsi və rayon partiya komitələrində birgə müzakirə və təhlillər aparmışdı.

1980-ci illərin əvvəllərində Heydər Əliyevin başçılığı ilə Naxçıvan MR-in iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramlar hazırlanmağa başlandı. Proqramda MR sənayesinin durmadan inkişaf etdirilməsi, yeni iri sənaye obyektlərinin yaradılması, mövcud obyektlərin gücünün xeyli artırılması nəzərdə tutulurdu. Bütün bunlar Naxçıvanın iqtisadi simasını dəyişərək, onun böyük bir mərkəz kimi tanınmasına imkan yaradacaqdı. Kənd təsərrüfatı sahəsində də bir sıra mühüm tədbirlərin görülməsi nəzərdə tutulurdu [99, v.109-110].

Çox təəssüf ki, 1969-1982-ci illərdə – Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda əldə edilmiş yüksək sosial-iqtisadi inkişaf səviyyəsi 1980-ci illərin ortalarından başlayaraq getdikcə aşağı düşməyə başladı. M.Q.Qorbaçovun «yenidənqurma» adlanan avantürist siyasəti dövründə bütün ölkədə olduğu kimi, Azərbaycanda da əsas iqtisadi göstəricilər aşağı düşməklə bərabər, bəzi göstəricilər hətta mənfi olmuşdu. Məsələn, Azərbaycanda məcmu ictimai məhsulun orta illik artım sürəti 1976-1980-ci illərdə 7,8 faiz, 1981-1985-ci illərdə 4,7 faiz təşkil etmişdisə, 1986-1989-cu illərdə 0,1 faiz təşkil etmişdi. Həmin dövrlərdə milli gəlir istehsalı müvafiq olaraq 8 faiz, 4,4 faiz və 0,9 faiz olmuşdu. Sənaye mallarının orta illik

artım sürəti 8,0, 4,4 və 1,4 faiz, əsas istehsal vasitələri istehsalı (A qrupu) 7,5, 5,4 və 3,1 faiz, istehlak malları istehsalı isə 9,3, 1,6 və 2,8 faiz olmuşdu [85, 94].

Sonrakı dövrlərdə iqtisadi tənəzzül daha da güclənmiş, 1990-cı ildə ümumi daxili məhsul istehsalı 11,7 faiz, ümumi ictimai məhsul 10,5 faiz, 1993-cü ildə isə müvafiq olaraq 23,1 faiz və 20,9 faiz təşkil etmişdi [85, 93-94].

Sosial-iqtisadi göstəricilərin azalma meyli Naxçıvan MR-də daha aydın təzahür etməyə başlamış, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşmüşdü. Muxtar respublikanın əsas istehsal sahələrinin (yüngül və yeyinti sənayeləri, tikini materialları sənayesi, əlvan metallurgiya və s.) inkişaf sürəti kəskin surətdə azalmışdı. 1985-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, sənayedə əmək məhsuldarlığı 36,2 faiz, fond verimi 51,7 faiz aşağı düşmüşdü. Göstərilən dövrdə ictimai kənd təsərrüfatı bölməsində məcmu məhsul 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı. Qaramalın sayı 10,9 min baş, davarın sayı 31,1 min baş, quşların sayı 372,2 min baş azalmışdı. Bu sahədə əmək məhsuldarlığı 33,9 faiz aşağı enmişdi [85, 104].

Ermənistanın Azərbaycana qarşı 1988-ci ildə başlayan təcavüzü Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına xüsusilə ağır zərbə vurdu.

Muxtar respublikanın Ermənistan tərəfindən nəqliyyat və iqtisadi blokadaya alınması regional iqtisadiyyatı iflic vəziyyətə salmaqla bərabər əhalini aclıq təhlükəsi ilə üz-üzə qoydu. 1990-cı ildə tale möhtərəm Heydər Əliyevi Naxçıvana yetirməklə bu qədim torpağı real işğal təhlükəsindən qorudu.

Dahi insanın dövlətçilik təcrübəsi, dönməz iradəsi, sarsılmazlığı və fədakarlığı Naxçıvanı böyük fəlakətlərdən qurtardı. Heydər Əliyevin Naxçıvana gəlməsi ilə Naxçıvanın, bütövlükdə Azərbaycanın tarixində yeni inkişaf mərhələsi başlandı. Müharibə məhrumiyyətləri içərisində çabalayan Azərbaycan yeni, sabaha inamlı bir həyatla yaşamaq şansı qazandı.

# II FƏSİL

# HEYDƏR ƏLIYEV VƏ NAXÇIVAN MUXTAR RESPUBLIKASININ SOSIAL TƏRƏQQISI

## 2.1. Əhalinin rifah halının yaxşılaşması

Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1970-ci illər və 80-ci illərin əvvəllərində Azərbaycanın, Naxçıvanın iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər cəmiyyətin sosial-mədəni həyatına, əhalinin maddi rifah halının yüksəldilməsinə, maddi və mənəvi tələbatlarının daha dolğun ödənilməsinə əsaslı təsir göstərdi. Məlum olduğu kimi, xalqın həyat səviyyəsinin yüksəldilməsi birinci növbədə maddi istehsalın genişlənməsindən, milli gəlirin artım sürətindən asılıdır.

70-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olaraq Azərbaycanın milli gəliri, xüsusən onun istehlaka yönəlmiş hissəsi daha da artdı. 1971-1980-ci illərdə respublikada adambaşına düşən milli gəlirin artım sürəti əvvəlki onilliyə nisbətən 2,7 dəfə çoxalmışdı. [152, 73]. Doqquzuncu beşilliyə nisbətən onuncu beşillikdə milli gəlir 42 faiz artmış, onun dörddə üç hissəsi əhalinin şəxsi istehlakına yönəldilmişdi. On birinci beşilliyin iki ilində (1981-1982-ci illərdə) milli gəlirin artım sürəti daha da güclənmişdi.

Onillik ərzində adambaşına düşən milli gəlir 50% artmışdı ki, bu da 1961-1970-ci illərdəkindən 4,5 dəfə çox idi [152, 73].

Bütövlükdə Azərbaycanda milli gəlirin artım sürəti orta ittifaq səviyyəsindən yüksək olmuşdur.

Azərbaycan xalqının maddi rifah halının yaxşılaşdırılmasının əsas göstəricilərdən biri real gəlirlərin artması idi. 1970-ci illə müqayisədə respublikada adambaşına düşən real gəlir 1975-ci ildə 17 faiz, 1980-ci ildə 42 faiz, 1982-ci ildə 15,1 faiz artmışdır [49, 84]. Real gəlirlərin yüksəlməsinə əmək haqlarının artımı da böyük təsir göstərmişdi. Onuncu beşilliyin sonlarında yalnız əmək haqqı əhalinin bütün gəlirlərinin 2/3 hissəsini, o cümlədən fəhlə və qulluqçuların gəlirlərinin 3/4 hissəsini, kolxozçuların gəlirlərinin yarısını təşkil etmişdir [127, 195]. Azərbaycanda fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci ildəki 109,6 manatdan 1975-ci ildə 125,1 manata, 1980-ci ildə isə 148,4 manata qalxmışdı [158, 192].

Ümumrespublika göstəricilərindən az olsa da, Naxçıvan MSSR-də fəhlə və qulluqçuların orta aylıq əmək haqqı artmış, 1980-ci ildə 138,6 manat təşkil etmişdi.

Heydər Əliyev muxtar respublikada iqtisadiyyatın inkişaf etdirilməsi ilə kifayətlənmir, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına çalışırdı.

1971-1980-ci illər ərzində muxtar respublikada sənaye işçilərinin orta aylıq əmək haqqı 32,6 faiz, meşə təsərrüfatı əməkçilərininki 10,7 faiz, rabitə işçilərininki 20,1 faiz, tikintidə çalışanlarınkı 68,7 faiz, ticarət işçilərininki 36,7 faiz, müəllimlərinki 28,3 faiz, həkimlərin orta aylıq əmək haqqı isə 27,6 faiz artmışdı [4, v.23].

Göründüyü kimi, əhalinin orta aylıq əmək haqqı ilbəil yüksəlirdi. Göstərilən dövrdə Naxçıvanın kənd təsərrüfatının

inkişafı, muxtar respublika kolxoz və sovxozlarının iqtisadi göstəricilərinin yaxşılaşmasına, onların gəlirlərinin artmasına gətirib çıxarmış, bu da öz növbəsində kolxozçuların əmək haqqının əhəmiyyətli dərəcədə artmasına şərait yaratmışdı. 1970-ci ildə kolxozçuların aylıq pul gəlirləri 57 manat, 1975-ci ildə 69 manat, 1980-ci ildə isə 94 manat təşkil etmişdi. Sovxoz işçilərinin orta aylıq əmək haqqı isə həmin dövrdə müvafiq olaraq 73 manat, 81 manat və 110 manat olmuşdu [164, 49].

Heydər Əliyevin idarəçiliyi müddətində əhalinin real pul gəlirinin önəmli şəkildə yüksəlməsi müşahidə edilirdi. Əlbəttə, burada bir çox başqa amillərin də xüsusi rolu vardı və bu şərtlərin ən çox nəzəri cəlb edəni əksər mallar və xidmətlər üzərində sabit qiymətlərinin qorunub saxlanılması idi. Məsələn, SSRİ-də ət və süd məhsularının qiyməti 1962-ci ildən, çörək, bitki yağı, şəkər və s. 1955-ci ildən dəyişdirilməmişdi. Telefon ödənişləri, ictimai nəqliyyatda gediş haqları 1948-ci ildən, mənzil haqqı isə 1928-ci ildən sabit qalmışdı. Hətta bəzi sənaye mallarına qoyulan pərakəndə satış qiymətlərinin aşağı salınması nəticəsində əhali əlavə gəlirlər əldə etmişdi.

Əhalinin real gəlirləri ictimai istehlak orqanlarından aldığı imtiyaz və güzəştlər, xüsusilə milli gəlirin yığım fonduna nisbətən istehlak fondunun daha sürətlə artırılması ilə yüksəlirdi. Doqquzuncu beşillikdə Naxçıvan MSSR əhalisi ictimai istehlak fondlarından 32,4 milyon manat məbləğində imtiyaz və güzəştlər almışdı. Onuncu beşillikdə bu məbləğ 39 milyon manata çatmışdı [128, 1980, 25 dekabr].

Əhalinin real gəlirlərinin artmasını əmanət kasallarında pul əmanətlərinin çoxalması da sübut edir. Əgər 1970-ci ildə Naxçıvan MSSR-də pul əmanətlərinin məbləği 7,2 min manat

təşkil edirdisə, 1975-ci ildə bu məbləğ 12,6 min manata, 1980-ci ildə isə 27,3 min manata çatmışdı [123, 74].

Doqquzuncu və onuncu beşilliklər ərzində Naxçıvan MR-də bütün ölkədə olduğu kimi sosial təminat və sığorta sisteminin yaxşılaşdırılması və təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, fəhlə, qulluqçu və kolxozçuların təqaüdlərinin minimum məbləği artmış, əlillərin pensiya təminatı yaxşılaşdırılmışdı. Aztəminatlı ailələrdəki uşaqlara müavinətlər təyin edilmişdi. Ali məktəb və orta ixtisas tələbələrinə, texniki-peşə məktəbləri şagirdlərinə verilən təqaüdlərin həcmi artırılmış, ümumtəhsil məktəblərinin şagirdlərinin dərsliklərlə pulsuz təminatına başlanılmışdı.

Əhalinin sosial təminatı ilə əlaqədar tədbirlər arasında pensiya təminatı mühüm yer tuturdu. Əgər doqquzuncu beşillikdə muxtar respublikada təqaüdçülərə, qocalara, əlillərə, çoxüzvlü və aztəminatlı ailələrə 42908 min manat xərclənmişdisə, onuncu beşillikdə bu məbləğ 55249 min manat təşkil etmişdi [4, v.193]. Həmin dövrdə əhalinin bir sıra kateqoriyalarının pensiya və müavinətlərinin həcmi bir neçə dəfə artırılmışdı. Nəticədə fəhlə və qulluqçuların orta aylıq təqaüdlərinin məbləği muxtar respublikada 1970-ci ildəki 36,4 manatdan 1975-ci ildə 48,9 manata, 1980-ci ildə isə 56,1 manata qədər yüksəlmişdir[4, v.193].

İctimai istehlak fondlarından pul ödənişlərinin bir forması da müavinətlər hesab edilirdi. 70-ci illərdə Naxçıvan MSSR-də əhaliyə ödənilən müavinətlərin həcmi xeyli artmışdı. Muxtar respublikada müavinət alan ailələrin sayı 1970-ci ildəki 415-dən 1975-ci ildə 795-ə, 1980-ci ildə isə 1063-ə çatmışdı. Bu müavinətlərin ümumi məbləği isə həmin illərdə müvafiq olaraq

8,300, 15,900, 21,260 manat təşkil etmişdi [4, v.193]. 1974-cü ildən başlayaraq Naxçıvanda hər ailə üzvünə 50 manatdan az gəlir düşən aztəminatlı ailələrdə 8 yaşına qədər hər uşağa 12 manat müavinət verilirdi. 1976-1980-ci illərdə bu məqsəd üçün 6.000.598 manat dövlət vəsaiti xərclənmişdi [4, v.193].

Kənd təsərrüfatı sistemində kolxoz və sovxozlar, müxtəlif təsərrüfatlararası birliklər əsas forma olmaq etibarilə maddi istehsalda həlledici rol oynasalar da, əhalinin ərzaq mallarına olan tələbatının ödənilməsi zərurəti yardımçı təsərrüfatların rolunu və əhəmiyyətini xeyli artırırdı. Muxtar respublikada 1980-ci ildə əhalinin istifadəsində 49 min ha yardımçı torpaq sahəsi var idi ki, bu da 1970-ci ildəkindən 11 min ha çox idi. Təkcə 1980-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin icazəsi ilə muxtar respublikada 232,99 ha torpaq yardımçı təsərrüfat fonduna keçirilmiş və 1863 ailə şəxsi yardımçı torpaq sahələri almışdı. Onlardan 952 ailə İliç (Şərur), 376 ailə Babək, 118 ailə Şahbuz, 270 ailə Culfa, 147 ailə isə Ordubad rayonu ərazisində yaşayırdı [117, v.7-8].

SSRİ-də 1982-ci ildə qəbul edilmiş ərzaq proqramının yerinə yetirilməsi işində şəxsi yardımçı təsərrüfatların dəstəyinə ehtiyac böyük idi. Buna görə də bütün ölkədə olduğu kimi, Azərbaycanda və Naxçıvanda da 80-ci illərin əvvəllərindən başlayaraq şəxsi yardımçı təsərrüfatlara, bağ-bostan kooperativlərinə məxsus torpaq sahələrinin həcmi genişləndirilməyə başlandı. Artıq 1985-ci ildə Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulunun 25,5 faizi yardımçı təsərrüfatların payına düşürdü. Bu dövrdə muxtar respublikada şəxsi yardımçı təsərrüfatlar tərəfindən dövlətə 806,4 min ton ət, 140,3 ton yun, 1156 min ədəd yumurta, 1248,9 bostan

məhsulları və 7300 ton üzüm satılmışdısa, 1980-ci ildə bu göstəricilər müvafiq olaraq 848 min ton ət, 254,6 yun, 1207 min ədəd yumurta, 9290 ton üzüm, 2622 ton bostan məhsulunu əhatə etmişdi [112, v.17-18; 114, v.43].

Maddi istehsalın, o cümlədən geniş istehlak malları istehsalının inkişafı, həmçinin real gəlirlərin artması nəticəsində istehlakın səviyyəsi yüksəlir, strukturu yaxşılaşırdı.

1974-cü ilin fevralındakı çıxışında Heydər Əliyev Naxçıvan partiya sovet təsərrüfat orqanlarından muxtar respublika əhalisinin rifah halının yaxşılaşdırılması ilə bağlı bütün problemləri ən qısa müddətdə, 2-3 il ərzində həll etməyi tələb etmiş [95, v.115] və bu işi şəxsən öz nəzarətinə götürmüşdü. Sonrakı səfərlərində o, bu istiqamətdə görülən işlərin hesabatını dinləyir, qarşıya yeni vəzifələr qoyurdu.

Pərakəndə ticarət dövriyyəsinin artmasında Azərbaycan KP MK-nın 1974-cü ilin iyulunda keçirilmiş plenumunun respublika əhalisinə göstərilən ticarət və məişət xidmətinin daha da yaxşılaşdırılması tədbirləri haqqında qərarı mühüm rol oynadı [67, 1974, 17 iyul].

Pərakəndə ticarət dövriyyəsi 1970-ci ilə nisbətən 1982-ci ildə 79 faiz çoxalmışdı. Bu zaman pərakəndə ticarət dövriyyəsinin strukturunda uzunmüddətli istifadə mallarının xüsusi çəkisi daha sürətlə artmışdı. Belə ki, 1970-ci ildə ümumi mal dövriyyəsi strukturunda ərzaq mallarının xüsusi çəkisi 52 faiz, qeyri-ərzaq mallarının xüsusi çəkisi isə 48 faiz olduğu halda, 1981-ci ildə bu göstəricilər müvafiq olaraq 47 faiz və 53 faiz təşkil etmişdi. 1970-82-ci illərdə adambaşına düşən mal dövriyyəsi orta hesabla 25,5 faiz, o cümlədən ərzaq məhsulları

üzrə 16 faiz, qeyri-ərzaq malları üzrə isə 35 faiz artmışdı [85, 44].

Naxçıvan MR əhalisinin istehlak strukturunda da mütərəqqi dəyişikliklər baş vermişdi. Əgər 1970-ci ildə adambaşı hesabına qeyri-ərzaq malları ümumi ticarət dövriyyəsinin 38,5 faizini təşkil edirdisə, 1980-ci ildə bu göstərici 45,6 faizə çatmışdı. 1970-ci illə müqayisədə 1980-ci ildə adambaşına düşən ərzaq məhsullarının həcmi 57 faiz, qeyri-ərzaq mallarının həcmi isə 75 faiz artmışdı [4, v.192].

Naxçıvan MSSR-də ticarətin inkişafına Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli məlum qərarı çox müsbət təsir göstərdi. Həmin qərarın 26 və 28-ci maddələrinə uyğun olaraq Naxçıvan şəhərində univermaq və ikimərtəbəli kafe, Ordubad şəhərində kolxoz bazarı və univermaq, Culfa şəhərində kitab mağazası, kəndlərdə 23 mağaza və digər ticarət obyektləri tikilmişdi [18, v.193].

Bütün bunlar muxtar respublikada ticarət dövriyyəsinin artmasına öz müsbət təsirini göstərmişdi. Muxtar respublikada adambaşına düşən ticarət dövriyyəsi 1970-ci ildə 262 manatdan 1980-ci ildə 386 manata qədər, yaxud 41 faiz artmışdı [160, 147]. 70-ci illərdə muxtar respublika əhalisinin uzunmüddətli məişət əşyalarına tələbatı da əhəmiyyətli dərəcədə artmışdı. Həmin illərdə dövlət və kooperativ ticarət xətti ilə əhaliyə 15340 soyuducu, 7872 paltaryuyan maşın, 32237 televizor, 26928 radio və radioqəbuledici satılmışdı [5, v.161].

Əldə olunmuş uğurlara baxmayaraq, bu sahədə hələ bir çox problemlər öz həllini tapmamış qalırdı.

Vilayət partiya komitəsinin XXX konfransındakı çıxışında Heydər Əliyev Naxçıvanda ticarət sahəsində mövcud olan nöqsanlar barədə konkret faktlar göstərmiş, muxtar respublikanın partiya sovet inzibati orqanlarının bu nöqsanlara qarşı pis mübarizə apardığını və bu barədə ona çoxlu siqnallar gəldiyini bildirmiş, hamılıqla çalışıb ticarətdə qayda yaratmağı tələb etmişdi. Heydər Əliyev əhaliyə göstərilən məişət xidmətləri ilə bağlı çoxlu şikayətlər aldığını, muxtar respublikada məişət xidmətlərinin orta göstəricisinin respublikanın müvafiq göstəricilərindən xeyli aşağı olduğunu nəzərə çatdırmışdı [95, v.116]. Respublika rəhbərliyinin təklifi ilə Naxçıvanda əhaliyə göstərilən ticarət xidmətinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər hazırlanaraq həyata keçirilmişdi. Vilayət Partiya Komitəsinin «Muxtar respublika əhalisinin ticarət və mədəni-məişət xidmətinin yaxşılaşdırılması sahəsində Vilayət Partiya Təşkilatının vəzifələri haqqında» [103, v.54], «Naxçıvan MSSR-də mütərəqqi ticarət forma və metodlarının daha da geniş tətbiq edilməsi tədbirləri haqqında» [103, v.7], «Naxçıvan MSSR əhalisinin ticarət xidmətlərinin vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında» və digər qərarları ticarət xidmətinin qismən yaxşılaşmasında müəyyən rol oynadı. Bu sahədəki mövcud problemlərin aradan qaldırılması üçün ticarətin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi. Ticarət və ictimai iaşə şəbəkəsinin genişləndirilməsi və bu müəssisələrin müasir avadanlıqlarla təmin edilməsi üçün ayrılan vəsaitlərin həcmi 1970-ci ildə 449 min manat təşkil etmişdisə, 1980-ci ildə bu məbləğ 798 min manata çatdırılmışdı. 1971-1980-ci illərdə ticarət müəssisələrinin

tikintisi və avadanlıqların alınması üçün 7319773 manat xərclənmişdi [5, v.161].

Təkcə 1971-1975-ci illərdə Naxçıvan şəhərində qastronom, idman malları mağazası, 2 təsərrüfat mağazası, mebel mağazası və ikimərtəbəli «Uşaq aləmi» mağazası tikilib istifadəyə verilmişdi [113, v.29]. 1976-1980-ci illərdə isə muxtar respublikada 80-ə yaxın ictimai iaşə və ticarət müəssisəsi tikilmişdi. Nəticədə, Naxçıvan MSSR-də ticarət müəssisələrinin sayı 1970-ci ildə 574-dən 1980-ci ildə 671-ə çatmış, yaxud 16,8 faiz artmışdı [123, 72]. Ancaq bununla belə, əhalinin hər on min nəfərinə düşən pərakəndə ticarət müəssisələrin sayına görə Naxçıvan MSSR ümumrespublika göstəricilərindən geri qalırdı. Əgər 1980-ci ildə ticarət müəssisələrin sayı Azərbaycan SSR üzrə 1970-ci illə müqayisədə təqribən 2,4 dəfə artmışdısa, Naxçıvan MR üzrə bu artım cəmi 1,8 dəfə idi [82, 95].

İnsanların ərzaq məhsullarına tələbatının ödənilməsində, onların əmək şəraitinin yaxşılaşdırılmasında, əmək ehtiyatlarından səmərəli istifadə edilməsində, əhalinin, xüsusilə evdar qadınların əməyinin yüngülləşdirilməsində ictimai iaşə mühüm rol oynayırdı. 70-ci illərdə muxtar respublikada ictimai iaşə müəssisələrinin şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənmişdi. Əgər 1970-ci ildə bölgədə 358 belə müəssisə fəaliyyət göstərirdisə, 1980-ci ildə onların sayı 474-ə çatmış və ya 75 faiz artmışdı [123, 72]. Həmin illərdə ictimai iaşə müəssisələrində oturacaq yerlərinin sayı 9,9 mindən 14,8 minə çatmış və ya 66 faiz artmışdı. 1970-ci ilə nisbətən 1980-ci ildə ictimai iaşədə əmtəə dövriyyəsinin həcmi 5,2 milyon manatdan 10,6 milyon manata çatmışdı [123, 72].

Həmin dövrlərdə ölkə üzrə bütün müəssisə və təşkilatlarda, ümumtəhsil müəssisələrində ictimai iaşə müəssisələri şəbəkəsinin genişlənməsinə xüsusi diqqət yetirilmişdi. 1980-ci ildə muxtar respublikada sənaye və ticarət müəssisələrində 6994 yerlik (1970-ci ildə 4679 yerlik) ictimai iaşə müəssisəsi fəaliyyət göstərirdi [5, v.168].

Göz qarşısındakı nailiyyətlərlə yanaşı, muxtar respublikanın ticarət və ictimai-iaşə müəssisələrinin işində, ticarətin təşkilində mütərəqqi metodların tətbiqində, əhaliyə xidmətdə ciddi çatışmazlıqlar da var idi. Alıcıların çəkidə və hesabda aldadılması geniş hal almışdı. Heydər Əliyev bu barədə söz alaraq Naxçıvanda zəhmətkeşlərin mənafeyinə ziyan vuran hallara qarşı heç bir güzəşt etmədən kəskin mübarizə aparmağı tələb edirdi.

İctimai iaşənin təşkilində də bir sıra nöqsanlar var idi. Hazırlanan yeməklər müasir kulinariya tələblərinə cavab vermirdi, tərəvəz, süd yeməkləri, un məmulatları çatışmırdı. Məktəblilər isti yeməklərlə, yarımfabrikatlarla, süd məhsulları və un məmulatları ilə vaxtlı-vaxtında təmin olunmurdular və s. Kadrların seçilməsi, yerləşdirilməsi sahəsində də ciddi nöqsanlar hökm sürürdü. Qadınların, xüsusən qızların ticarət və ictimai iaşəyə cəlb edilməsi işinə ciddi diqqət yetirilmirdi. Bu isə bir tərəfdən muxtar respublikada əmək ehtiyatlarından düzgün istifadə edilməməsinə gətirib çıxarır, digər tərəfdən isə gender siyasətində əyintilərə səbəb olurdu.

Əhalinin maddi həyat səviyyəsinin mühüm amillərindən biri də mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Heydər Əliyevin sosial-iqtisadi strategiyasının tərkib hissəsinə əhalinin mənzillə təmin edilməsi də daxil idi. Onun rəhbərliyi

dövrünün – 1971-1983-cü illərində Azərbaycanda 18 milyon 293 min kvadratmetr mənzil sahəsi inşa edilmişdir ki, bu da 1920-1983-cü illərdə tikilən mənzil fondunun 33 faizini təşkil edirdi. Respblikanın bütün regionları kimi Naxçıvan MSSR-də də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində böyük nəticələr əldə edilmişdi. 70-ci illərdə muxtar respublikada 580,1 min kvadratmetr mənzil sahəsi tikilərək istifadəyə verilmişdi ki, onun da 270,1 min kvadratmetri dövlət və kooperativ təşkilatları tərəfindən tikilmişdi [156, 322]. Həmin dövrdə Naxçıvanda fəhlə və qulluqçular tərəfindən ümumi sahəsi 105,8 min kvadratmetr olan, kolxozçu və kənd ziyalıları tərəfindən isə 204,2 kvadratmetrlik yaşayış evi tikilmişdi [156, 322]. Bütünlükdə 1970-1980-ci illərdə muxtar respublikada 96 min nəfər (hər üç ailədən biri) öz mənzil şəraitini yaxşılaşdırmağa nail olmuşdu [128, 1980, 27 dekabr].

Bütün respublikada olduğu kimi, Naxçıvanda da şəhər və kəndlərin abadlaşdırılması sahəsində çox mühüm işlər görülmüşdü. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri Heydər Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində kiçik əyalət şəhərindən böyük, abad və gözəl şəhərə çevrilməyə başlamışdı. Bu barədə ümummilli liderimiz Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında qeyd etmişdi: «Gedin Naxçıvana, sayın, əgər keçmiş xanların tikdikləri binaları, yaxud tarixi abidələri istisna etsək, 1970-ci ilə qədər və 1970-ci ildən sonra Naxçıvanda nə tikilib, nə yaradılıbdır. Bunu təkcə Naxçıvana deyil, Azərbaycanın hər yerinə aid etmək olar» [2, 1998, 17 yanvar]. 1974-cü il 8 yanvar tarixli qərarda Naxçıvan

şəhərinin yaşıllaşdırılması, bu iş üzrə təsərrüfat hesablı idarənin təşkili haqqına bənddə öz əksini tapmışdı [18, v.194].

1974-cü ildə Azərbaycanın siyasi rəhbəri kimi ilk dəfə Naxçıvanda olarkən o deyirdi: «Mən Naxçıvanda təqribən səkkiz il əvvəl olmuşam. İndi şəhərin bəzi küçələrindən keçərkən onları tanıya bilmədim. Əlbəttə, bu fərəhli haldır. Axı əsrlər boyu Naxçıvanda evlər gildən, ən yaxşı halda çiy kərpicdən tikilirdi. Lakin bununla birlikdə demək lazımdır ki, muxtar respublika paytaxtının siması günün tələblərinə cavab vermir. Şəhərdə yaraşıqlı, enli prospektlər, mədəni-məişət ocaqları daha çox olmalıdır və daha çox ola bilərdi. Burada adamlar gil evlərdən – belə evlər hətta şəhərin mərkəzində də vardır – yeni, abad mənzillərə köçməyə layiqdirlər» [95, v.105].

1978-ci ilin oktyabrında yenidən Naxçıvana gələn Heydər Əliyev muxtar respublikanın şəhər və kəndlərinin abadlaşdırılmasına xüsusi qayğı göstərməyi, içməli su problemini təcili həll etməyi, öz ömrünü başa vurmuş daxmaların yerində müasir məhəllələr salmağı, şəhərin baş planında fərdi layihələr üzrə orijinal binalar tikməyi təklif etmişdi. O, trikotaj fabrikinin, xalça fabrikinin, şüşə qablar zavodunun, Badamlı sudoldurma zavodunun tikintisi ilə tanış olmuş, üçmərtəbəli Pioner və Məktəblilər sarayının, həmçinin uşaq parkının açılışında iştirak etmişdi. Ümumiyyətlə, istər Naxçıvan şəhərinin, istərsə də muxtar respublikanın digər şəhər və kəndlərinin abadlaşdırılması Heydər Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri idi. 1978-ci ilin oktyabrında Naxçıvan Muxtar Respublikası partiya-təsərrüfat fəallarının yığıncağında Heydər Əliyev üzünü muxtar respublika

rəhbərlərinə tutaraq demişdi: «Şəhəri abadlaşdırmaq lazımdır. Bu palçıq divarlar, palçıqlı evlər Naxçıvandan gərək silinsin, gərək daş evlər tikilsin… Şəhər gərək gözəlləşsin. Ona görə gərək arxitektorlar da, rəssamlar da, inşaatçılar da yaxşı işləsinlər» [96, v.66].

O, Naxçıvanın gələcək tikintisinin baş planının layihəsini özü ilə Bakıya apararaq büro üzvləri ilə birlikdə müzakirə etmişdi. Onun təşəbbüsü ilə Naxçıvanda Evtikmə kombinatı tikilmiş və bununla yaşayış binalarının sürətlə tikilməsinə imkan yaranmışdı. Fərdi layihələr əsasında gözəl binalar tikməyi, şəhərdə yeni mədəniyyət ocaqlarının, inzibati binaların tikintisini sürətləndirməyi tövsiyə edən Heydər Əliyev Naxçıvan şəhərindəki Qızlar bulağı komleksinin əsas ideyaçısı və təşəbbüskarı oldu. 1980-ci ildə o, Naxçıvanda kompleksin tikintisi ilə tanış olmuş, istirahət kompleksinin qısa müddətdə, həm də keyfiyyətli iş ilə istifadəyə verilməsini tapşırmışdı. O, Möminə Xatun məqbərəsinə baxaraq Əcəmi sənətinin incilərini bundan sonra da yaşatması, bu üslubda binaların tikilməsinə, abidədəki ornamentlərdən geniş istifadə edilməsinə diqqət yetirməyi tövsiyə etmişdi.

1980-ci ilin mayında Naxçıvana növbəti səfərində Heydər Əliyev muxtar respublikanın qəsəbə və kəndlərinin, o cümlədən Naxçıvan şəhərinin abadlaşdırılması məsələsinə yenidən diqqəti cəlb etmişdi. Naxçıvan şəhərinin gələcək inkişaf planına baxaraq onu bəyənmiş, bu baş plana əsasən yaraşıqlı binalar tikməyi, prospektlər, meydanlar salmağı VPK, Azərbaycan və Naxçıvan Nazirlər Sovetləri, respublika nazirlikləri qarşısında mühüm vəzifə kimi qoymuşdu. Heydər Əliyev bildirirdi: «Əgər bu baş planda nəzərdə tutulmuş bütün

tədbirlər həyata keçirilsə, Naxçıvan şəhəri qısa müddətdə daha da gözəlləşər və abadlaşar. Biz bunu çox arzu edir və istəyirik» [99, v.113].

Həmin dövrdə onlarla ictimai və yaşayış binası istismara verilmiş, qısa zaman kəsiyində 3 mikrorayon tikilərək əhalinin istifadəsinə verilmişdi [128, 1980, 27 dekabr]. Əvvəlki illərdən fərqli olaraq Naxçıvan şəhərində fərdi layihələr üzrə 9-12 mərtəbəli yaşayış evləri tikilmişdi.

Zəhmətkeşlərin ixtiyarına həmçinin yeni park və xiyabanlar verilmiş, orta əsrlər tarixinin qiymətli memarlıq abidəsi olan Möminə Xatun məqbərəsi ətrafındakı ərazi abadlaşdırılmış, qədim şəhəri daha da gözəlləşdirən Qızlar bulağı kompleksinin tikintisi başa çatdırılmışdı.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi müddət tarixə Azərbaycan kəndinin sosial-iqtisadi və mədəni tərəqqisi dövrü kimi düşmüşdür. Buna Naxçıvan MR-in şəhər və kəndlərinin sosial-mədəni inkişaf səviyyəsi bariz bir sübutdur.

70-ci illərdə muxtar respublikada əhalinin rifah halının yaxşılaşdırılmasından danışan Heydər Əliyev 1980-ci ilin yayında qeyd edirdi ki, muxtar respublikanının şəhərlərinin, kəndlərinin, küçə və yollarının ümumi vəziyyəti, görünüşü xeyli yaxşılaşmışdır. Bunlar hamısı göz qabağındadır. Ən böyük dəyişiklik, ümumiyyətlə, muxtar respublikanın sakinlərinin hamısının, xüsusən zəhmət adamlarının həyat tərzinin xeyli yüksək səviyyəyə qalxması ilə bağlıdır. Bunu həm Naxçıvan şəhərinin, həm də rayonların, kəndlərin hamısının timsalında görmək olar [129, 1980, 5 iyul]. O, buna misal olaraq Şahbuz rayonundakı, onun kəndlərindəki vəziyyəti göstərir, onların mövcud vəziyyətini 20 il əvvəlki

vəziyyətlə müqayisə edərək xeyli dəyişikliklər olduğunu göstərirdi. Təkcə kəndlərin simasında deyil, əhalinin xarici görünüşü, geyim formaları və əhval-ruhiyyəsindəki müsbət dəyişikliklər də Heydər Əliyevə böyük təsir bağışlamışdı [99, v.113].

Azərbaycan KP MK və respublika hökumətinin Naxçıvan MSSR-də xalq təsərrüfatının daha da inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan şəhərində tikinti işlərinin yaxşılaşdırılması, Ordubad şəhərinin tarixi hissəsinin müfəssəl planının hazırlanması nəzərdə tutulmuşdu [18, v.191].

Bu dövrdə baş planlar əsasında Cavidabad, Böyükdüz, Qaraxanbəyli kimi yeni kəndlər salınmış və Şərur rayonunun Təzəkənd və Danzik, Babək rayonunun Süst kəndlərinin əhalisi yeni kəndlərə köçürülmüşdü [129, 1977, 23 sentyabr; 128, 1982, 25 iyul]. Kəndlərdə 70-ci illərdə tikilmiş yaşayış sahələri 416 min kvadratmetr təşkil etmiş, 20 mindən çox insan özü üçün yeni abad ev tikdirmişdi [128, 1982, 25 iyul].

Bütün bunların nəticəsində muxtar respublikada bir çox kəndlər abadlaşmış, onların sosial simaları dəyişərək müasir yaşayış məntəqələrinə çevrilmişdi. Amma bir çox hallarda kəndlərdə yaşayış evləri plansız şəkildə, mövcud qaydalara əməl edilmədən tikilirdi ki, bu da kəndin ümumi görünüşünə, üslub və səliqəsinə xələl gətirirdi.

Heydər Əliyev Azərbaycanın şəhər və kəndlərinin yaşıllaşdırılması məsələsinə ümummilli məsələ kimi baxaraq partiya sovet təsərrüfat rəhbərlərindən bu məsələni daim diqqətdə saxlamağı tələb edirdi. Mürəkkəb və çətin iqlim şəraiti olan Naxçıvanda yaşıllaşdırma məsələsinə bölgənin

sosial inkişafının mühüm tərkib hissəsi kimi baxırdı. Naxçıvana aid qəbul edilmiş qərarlarda muxtar respublikanın şəhərlərinin yaşıllaşdırılması zəruriliyi xüsusi qeyd edilirdi. Məsələn, Azərbaycan KP və Nazirlər Soveti 8 yanvar 1974-cü il tarixli məlum qərarında Naxçıvan, Ordubad və İliç şəhərlərində ümumşəhər parklarının tikilməsi və abadlaşdırılması, Naxçıvan şəhərində yaşıllaşdırma idarəsinin təşkili, şəhərin su təhcizatı sisteminin yenidən qurulması və genişləndirilməsi məsələsi öz əksini tapmışdı [129, 1974, 29 mart; 18, v.194]. Bu qərara uyğun olaraq 1974-cü ilin martında Naxçıvan VPK-nın  nəzdində abadlıq və yaşıllaşdırma işlərinə baxan xüsusi komissiya yaradılmışdı.

70-ci illərdən başlayaraq Naxçıvan MR-də əhaliyə göstərilən məişət xidmətlərinin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi sahəsində böyük uğurlar əldə edilmişdi. Bunu muxtar respublikada müvafiq müəssisələrin sayının artması da sübut edirdi. Əgər 1970-ci ildə burada 380 məişət xidməti obyekti fəaliyyət göstərirdisə, 1975-ci ildə onların sayı 401-ə, 1980-ci ildə 539-a çatmışdı. On il ərzində əhaliyə göstərilən məişət xidmətlərinin həcmi 1182,6 min manatdan 2954 min manata qədər artmışdı. Muxtar respublikada məişət xidməti müəssisələrində işləyənlərin sayı xeyli artaraq 1970-ci ildə 713-dən 1980-ci ildə 1305 nəfərə çatmışdı. 70-ci illərdə muxtar respublika əhalisinə 360 növ məişət xidməti  göstərilirdi [128, 1980, 25 dekabr]. Göstərilən xidmətlərin çeşidi və keyfiyyəti də daim artmaqda idi. Bununla yanaşı, xidmət müəssisələri az və kiçik olduğundan əhalinin maddi və mənəvi tələbatlarına cavab vermirdi. Bu tip müəssisələrin yeni texniki avadanlıqlarla təchizatı ümumrespublika səviyyəsindən geri

qalırdı. Nəticədə Naxçıvan MR-də adambaşına məişət xidmətlərinin orta illik həcmi (7 manat 27 qəpik) Azərbaycanda ən aşağı göstərici idi [116, v.37]. Kənd əhalisinin məişət xidmətinin təşkilində də nöqsanlar var idi. 1980-ci ildə muxtar respublika kəndlərinin 34 faizində əhaliyə məişət xidməti göstərilmirdi.

Əhalinin məişət şəraitinin yaxşılaşdırılmasında onun içməli su ilə təmin edilməsi xüsusi rol oynayırdı. 70-ci illərdə muxtar respublikada yeni kəndlərin əmələ gəlməsi, mövcud şəhər və kəndlərin genişləndirilməsi ilə əlaqədar şəhər və kənd əhalisinin içməli suya tələbatı da artmışdı. Bunu nəzərə alaraqa, 70-ci illərdə əhalinin içməli su ilə tam təminatı üçün bir sıra tədbirlər görülmüş, yeni su kəmərləri çəkilmişdi.

Məlum 8 yanvar 1974-cü il tarixli qərarda əhalinin içməli su ilə təmin edilməsi ilə bağlı görüləcək işlər də (bənd 8 və 29) öz əksini tapmışdı [18, v.189, 193].

1978-ci ilin oktyabrında Naxçıvanda olarkən Heydər Əliyev bir daha Naxçıvanın içməli su ilə təchizatı məsələsi ilə dərindən məşğul olmağı və bütün mövcud ehtiyatlardan maksimum istifadə etməyi vacib məsələ kim qarşıya qoydu [96, v.66]

Muxtar respublikanın ən böyük rayonlarından olan Şərur (İliç) rayonunun əhalisi Arpaçayın suyundan (suyu daşdan keçirməklə) istifadə edirdi. 1971-1980-ci illərdə bu rayonda çoxlu subartezian quyusu qazıldı. 1979-cu ildə Daşarx kəndi yaxınlığındakı böyük bulaqdan Daşarx-Naxçıvan su kəmərinin çəkilməsi nəticəsində rayonun bütün kəndləri içməli su ilə təmin edildi. Bu kəmərin hesabına Babək rayonunun əhalisinin də içməli suya tələbatı qismən ödənilirdi. Həmin rayonun

S.M.Kirov adına sovxozuna 8 km-lik, H.Aslanov adına kolxozuna isə 3 km-lik su xətti çəkilmişdi. Arınc kəndindən çəkilmiş yeni su xətti Şahbuz qəsəbəsinin əhalisini içməli su ilə təmin etməyə imkan verdi.

1978-1979-cu illərdə muxtar respublikada yeni su kəmərlərinin çəkilməsi, subartezian quyularının qazılması, su mənbələrinin yenidənqurulması və genişləndirilməsi sayəsində Yaycı, Ərəzin, Xanağa, Bənənyar, Qazançı (Culfa rayonu), Nəzərabad (Babək rayonu) və digər kəndərin əhalisinin içməli suya tələbatı müəyyən səviyyədə təmin edilmişdi [129, 1977, 4 mart]. 1980-ci ildə muxtar respublikanın şəhər tipli qəsəbələrində 61,7 kilometrlik mərkəzləşdirilmiş su kəməri fəaliyyət göstərirdi. Əgər 1970-ci ildə şəhərlərdə və şəhər tipli qəsəbələrdə hər adambaşına bir günə 145 litr su düşürdüsə, 1975-ci ildə bu göstərici 218 litrə, 1980-ci ildə isə 266 litrə çatmışdı. Naxçıvan və Ordubad şəhərlərinin əhalisinin suya tələbatını ödəmək məqsədi ilə yeni su kəmərlərinin inşası nəzərdə tutulurdu [128, 1980, 27 dekabr].

Naxçıvan MR əhalisinin məişət şəraitinin yaxşılaşdırılmasında elektrik enerjisi və qazla təminat məsələsi də mühüm yer tuturdu. Artıq 70-ci illərin sonunda muxtar respublika tam elektrikləşdirilmişdi, elektrik əhalinin məişətində mühüm yer tutmuşdu. 1971-1980-ci illərdə muxtar respublikanın yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, bu isə əhalinin sanitar-gigiyenik şəraitinin yaxşılaşdırılmasına, əmək sərfinin azalmasına, bütövlükdə əhalinin sosial-mədəni səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdi.

1974-cü ilin fevralında Heydər Əliyev Naxçıvan camaatına muxtar respublikada məişət qazının daimi dövriyyəsinə dair söz vermişdi [129, 1974, 12 mart].

Magistral qaz kəmərinin çəkilməsinə böyük vəsait tələb olunduğunu əsas gətirən SSRİ Qaz Sənayesi Nazirliyi 1975-ci ildə başlanılması nəzərdə tutulan bu tikintini bir neçə dəfə təxirə salmağı təklif etsə də, Heydər Əliyev Naxçıvana qaz kəməri çəkilişini əvvəldən nəzərdə tutulmuş vaxtda başlamağı təklif etmişdi.

70-ci illərdə Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın şəhər və kəndlərinin qazlaşdırılması sahəsində çox ciddi addımlar atılmışdı. Təkcə 1971-1976-cı illərdə qazlaşdırmanın inkişafına 56 mln. manat məbləğində vəsait sərf olunmuş, 3,1 min km. magistral və yardımçı qaz kəməri çəkilərək istismara verilmiş, 46 yaşayış məntəqəsi, 9 şəhər və rayon qazlaşdırılmışdı. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 9 iyul 1975-ci il tarixli «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında» qərarında Yevlax-Stepanakert-Naxçıvan qaz xəttinin çəkilməsi nəzərdə tutulmuşdu. Buraxılış qabiliyyəti ildə 2,4 mlrd. kubmetr, ümumi uzunluğu 367,5 km olan və 213,5 km-i Azərbaycan ərazisindən keçən qaz kəməri Naxçıvan MSSR, DQMV və kəmərə yaxın digər rayonları, ümumilikdə 587 yaşayış məntəqəsini, 187 kolxozu və 83 sovxozu qazlaşdırmaq imkanı verəcəkdi. Qaz kəmərinin tikintisi iki növbədə həyata keçirilməli idi. Birinci növbənin – 285 kilometrlik Yevlax-Stepanakert-Gorus hissəsinin (o cümlədən Azərbaycan ərazisində 153,5 km-lik sahənin) tikintisinin 1978-ci ildə, ikinci növbənin – 121,6 km-lik Gorus-Naxçıvan hissəsinin

(Azərbaycan üzrə 60,5 km) inşasının isə 1979-cu ildə başa çatdırılması nəzərdə tutulmuşdu [48, v.187].

Lakin qaz kəmərinin böyük iqtisadi və sosial əhəmiyyətə malik olmasına baxmayaraq, onun tikintisi çox ləng gedirdi. Kəmərin tikintisinə zəruri işçi qüvvəsi və maddi-texniki ehtiyatlar cəlb edilməmişdi. Tikintiyə kapital qoyuluşuna da fikir verilmir, tikinti-quraşdırma işləri çox aşağı səviyyədə aparılırdı.

Azərbaycan Dövlət Plan Komitəsi və Baş Qaz İdarəsi şəhər və kəndlərin qazla təmin edilməsində lazımi tələbkarlıq göstərmədiyindən Naxçıvan MR-in qazlaşdırılması məsələsində ciddi problemlər yaranmışdı. Buna görə də Heydər Əliyev muxtar respublikanın qazlaşdırılması məsələsini öz nəzarətinə götürməli olmuşdu. 1977-ci il mayın 6-da Azərbaycan KP MK-nın bürosu Yevlax-Stepanakert-Naxçıvan qaz kəmərinin tikintisinin və respublikanın kəmərə yaxın şəhər və kənədlərinin qazlaşdırılmasının sürətləndirilməsi tədbirləri haqqında müzakirələr keçirərək qərar qəbul etdi (28, v.119). Qərarda Yevlax-Stepanakert-Naxçıvan qaz kəmərinin tikintisi ilə məşğul olan idarələrin işi qeyri-qənaətbəxş hesab edilmiş və onlardan qaz kəmərinin 1979-cu ildə başa çatdırılması üçün təsirli tədbirlər görmək tələb edilmişdi.

1978-ci ilin oktyabrında Naxçıvanda olarkən Heydər Əliyev bu işdə hansı maneələrlə üzləşdiyini üstüörtülü şəkildə olsa da etiraf etmişdi: «Naxçıvana qaz çəkilməsi məsələsini biz həll elədik. Sizə deyə bilərəm ki, çox böyük çətinliklə. Çünki bilirsiniz ki, Yevlaxdan buraya qaz kəməri çəkmək asan məsələ deyil. Burada biz bir neçə prinsipi əsas götürdük. Həm Naxçıvanı təmin etmək, həm Dağlıq Qarabağ Vilayətinin, həm

də Ermənistanın bu arada olan rayonlarını təmin etmək. Bunların hamısını biz birlikdə müzakirəyə qoyaraq Mərkəzi Komitədən (Sov. İKP MK-dan – Ə.Q.) razılıq aldıq və indi artıq onu həll edirik» [96, v.66].

1980-ci ildə o, muxtar respublikada olarkən kənd və qəsəbələrin qazla təmin edilməsi işinin ləng getməsi haqqında öz tənqidlərini yenidən dilə gətirməli olmuşdu [128, 1980, 5 iyun].

Nəhayət, 1980-ci ildə Yevlax-Stepanakert-Naxçıvan qaz kəmərinin çəkilib istifadəyə verilməsi muxtar respublika üçün mühüm sosial-iqtisadi və siyasi hadisəyə çevrildi.

Naxçıvanın coğrafi-siyasi şəraitini, muxtar respublikanın sosial-iqtisadi həyatında nəqliyyatın mühüm rol oynadığını nəzərə alaraq bu sahənin inkişafına respublika rəhbərliyi xüsusi diqqət yetirirdi. Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan dəmiryol stansiyasının yenidən qurulması, Noraşen stansiyasında yeni vağzal binasının, piyada körpüsünün tikintisi, Culfa-Noraşen dəmiryol xəttinin elektrikləşdirilməsi, Noraşen və Naxçıvan stansiyalarında mənzil, xəstəxana və digər məişət obyektlərinin inşası da nəzərdə tutulmuşdu [18, v.191-192]. 70-ci illərdə Bakı-Noraşen dəmir yolunun İmişli stansiyasına qədər elektrikləşdirilməsi, Naxçıvan, Culfa, Şərur, Ordubad dəmiryolu vağzallarının təmir edilməsi əhalinin dəmiryolu nəqliyyatından səmərəli istifadə etməsinə imkan verdi. Naxçıvan dəmiryolu vağzalında SSRİ-nin istənilən məntəqəsinə və əksinə, bütün marşrutlar üzrə plaskart biletlərin satışının təşkili sərnişin daşınmasının artmasına gətirib çıxardı

[129, 1974, 28 aprel]. Nəticədə 1970-ci illə müqayisədə 1980-ci ildə dəmiryolu ilə sərnişin daşınması 1,1 dəfə artmış oldu.

70-ci illərdə Naxçıvan MR-də yolların tikintisi və təmiri, avtomobil nəqliyyatının inkişafı sahəsində də əhəmiyyətli işlər görülmüşdür. Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarının 23-cü maddəsinə əsasən 1975-ci ildə Culfa şəhərində avtovağzalın, Naxçıvan şəhərində 250 maşınlıq, İliç qəsəbəsində isə 50 avtomaşınlıq avtobaza və qarajın, Ordubad, Şahbuz və İliçdə avtostansiyaların tikilməsi, Arazdəyən-Naxçıvan-Ordubad yolunda və Naxçıvan-Biçənək aşırımında 6 körpünün inşası və s. nəzərdə tutulmuşdu. Həmin qərarda Naxçıvan VPK və Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinə yolların tikintisi, əsaslı təmiri və saxlanılması planlarının uğurla yerinə yetirilməsində yol təşkilatlarına zəruri kömək göstərilməsi, onlara kifayət qədər işçi qüvvəsinin ayrılması, yolların təmirində kolxoz, sovxoz və müəssisələrin fəal iştirakını təmin etmək tapşırılmışdı.

Naxçıvan vətəndaşlarının yüngül avtomobillərinə texniki xidmətin yaxşılaşdırılması, o cümlədən 1975-ci ildə texniki xidmət stansiyasının tikilməsi də qərarda öz əksini tapmışdı [18, v.192]. 70-80-ci illərdə 422 kilometr uzunluğunda yol çəkilmiş və bir sıra yollar əsaslı təmir edilmişdi. Muxtar respublikada aşağıdakı istiqamətlərdə yeni yollar salınmışdı: Naxçıvan-Tənənəm aşırımı, Gümüşlü-Cağazir, Maxta-Qarabürc, Aşağı Buzov – Yuxarı Buzov, Yaycı-Dizə-Kırna, Culfa-Cuğa, Milax-Teyvaz, Camaldın-Qızılca-Kırna, Ordubad-Dizə, Remeşin-Kükü, Şahbuzkənd-Keçili, Aşağı Remeşin – Yuxarı Remeşin, Badamlı-Şada, Kömür-Gecəzur və s. Bu

yolların əksəriyyətinin Naxçıvanın Ermənistanla həmsərhəd dağlıq ərazilərində çəkildiyini nəzərə alsaq, onların Azərbaycan və Naxçıvanın gələcəyi üçün strateji əhəmiyyəti aydın olar. Həmin dövrdə həmçinin Gilançay, Əlincəçay üzərindən, Üstüpü, Çənnab, Nehrəm kəndlərində körpülər tikilmiş, Çeşməbasarla Güznüt arasındakı körpü əsaslı təmir edilmişdi.

Tarixi ədalətsizlik nəticəsində doğma Azərbaycanın digər ərazilərindən ayrı düşmüş, Ermənistan tərəfindən anklav vəziyyətinə salınmış doğma Naxçıvanın coğrafi-strateji vəziyyətini dərindən dərk edən Heydər Əliyev muxtar respublikanın nəqliyyat problemlərinin həlli üçün əlindən gələni edirdi.

Azərbaycanın KP MK birinci katibi işləyərkən Heydər Əliyev ermənilərin bütün təzyiqlərinə baxmayaraq Moskva qarşısında Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirən ən qısa avtomobil yolunun çəkilməsi məsələsini qaldırmış və mərkəzin razılığını ala bilmişdi. Bu yolun ən əlverişli yeri isə Zəngilan-Mehri-Ordubad istiqaməti idi. Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi Ermənistan SSR rəhbərliyinin bu yolun çəkilməsinə razılıq verməsi ilə nəticələndi. 1974-cü ildə tikintisinə başlanılan yolun tikilişi 1980-ci ildə başa çatdırılmalı idi. Bu yolun 48 km-i Mehri rayonu ərazisindən keçməli idi. Lakin «erməni barmağı» yenə öz işini görürdü. 1977-ci ilin sonuna qədər mərkəzi hakimiyyət orqanları yolun texniki-iqtisadi əsaslandırma variantlarından başqa heç nə təqdim etməmişdilər [28, v.92]. Heydər Əliyevin səyləri nəticəsində 1982-ci ilə qədər Zəngilandan Ermənistan sərhədinə qədər olan məsafədə yol çəkilsə də, onun Moskvaya rəhbər vəzifəyə getməsindən sonra ermənilər bu yolun

tikintisinə qarşı çıxaraq, yolun Mehri vasitəsilə Naxçıvana deyil, dağlardan keçməklə Ermənistanın mərkəzi rayonlarına çəkilməsinə israr etməyə başladılar. Lakin Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutan Heydər Əliyev ermənilərin niyyətlərini əvvəlcədən duymuş, Azərbaycan rəhbərliyindən bu məsələ ilə ciddi məşğul olmağı tələb etmişdi. Eyni zamanda o, Ermənistan rəhbərliyi ilə də bir neçə dəfə bu barədə söhbətlər aparmış, lakin bunun bir nəticə vermədiyini görərək vəziyyəti SSRİ rəhbərliyinə, o cümlədən Nazirlər Sovetinin sədri N.Tixonova çatdırmışdı. Heydər Əliyevin təkidi ilə yolun çəkilməsi ilə bağlı məsələ SSRİ hökumətinin iclasında müzakirə edilmiş, ermənilərin iddiaları rədd edilərək yolun çəkilməsinin davam etdirilməsinə qərar verilmişdi. Lakin 80-ci illərin sonunda ermənilərin Dağlıq Qarabağ avantürasına başlamaları Heydər Əliyevin bu strateji layihəsinin başa çatdırılmasına imkan vermədi.

Həmin dövrdə nəqliyyat sektorundakı irəliləyişlər muxtar respublikanın həyatında çox müsbət dəyişikliklər yaratdı. Naxçıvan şəhərindən birbaşa Azərbaycanın Gəncə, Yevlax, Qazax şəhərlərinə gedən avtobus marşrutu xətləri, eləcə də, muxtar respublika paytaxtından rayon mərkəzlərinə və kəndlərinə də gediş-gəliş nəqliyyatı fəaliyyətə başladı.

1980-ci ildə muxtar respublika əhalisinə 138 marşrut üzrə nəqliyyat xidməti göstərilirdi ki, bu da 1970-ci ilin göstəricisindən 3,2 dəfə artıq idi. Bütövlükdə 1980-ci ildə 203 yaşayış məntəqəsindən 191-nə sərnişin daşıyan avtomobil nəqliyyatı işləyirdi. On il ərzində - 1971-1980-ci illərdə avtomobil nəqliyyatı ilə sərnişin daşınması 2,5 dəfə artmışdı [4, v.193].

Naxçıvanın anklav vəziyyətini nəzərə alaraq Heydər Əliyev respublikanın müvafiq idarələrinin qarşısında muxtar respublikanın hava nəqliyyatının inkişaf etdirilməsini ən mühüm strateji vəzifə kimi qoymuşdu. Bilavasitə onun təşəbbüsü ilə «Naxçıvan MSSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli birgə qərarında Azərbaycan Mülki Aviasiya İdarəsinə tapşırılmışdı ki, 1974-cü il planında hazır layihə-smeta sənədləri əsasında Naxçıvan şəhərində aerovağzal tikilməsini nəzərdə tutsun [18, v.191].

Məhz Heydər Əliyevin iradəsi və səyləri nəticəsində Naxçıvanın mərkəzində hava limanının genişləndirilməsi, Bakı-Naxçıvan hava xətti ilə işləyən yararsızlaşmış təyyarələrin müasir «YAK-40» tipli təyyarələrlə əvəz edilməsi və bu məqsədlər üçün lazımi vəsaitin ayrılması kimi məsələlərin həyata keçirilməsi baş tutdu.

Görülən işlər Naxçıvanın nəqliyyat sisteminin genişləndirilməsi ilə yanaşı, əhaliyə göstərilən hava nəqliyyat xidmətinin yaxşılaşdırılmasına da kömək etdi. 1980-ci ildə bu nəqliyyat növü ilə 5160 sərnişin daşınmışdı ki, bu da 1970-ci ildəkindən 2,1 dəfə çox idi [4, v.194].

1971-1985-ci illərdə Naxçıvan MR-də əhaliyə göstərilən rabitə xidmətinin təkmilləşdirilməsi sahəsində də mühüm işlər həyata keçirildi. Bu sahəni daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Azərbaycan KP MK və respublika hökumətinin 8 yanvar 1974-cü il tarixli məlum qərarında muxtar respublikanın bütün kənd sovetlərinin telefonlaşdırılmasını Rabitə Nazirliyi qarşısında bir vəzifə kimi qoymuş, Naxçıvan

MSSR Nazirlər Sovetindən telefonlaşdırılması və radiolaşdırılması nəzərdə tutulan kənd sovetlərinin siyahısını Azərbaycan SSR Rabitə Nazirliyinə təqdim etməsini tələb edilmişdi [18, v.193]. Nəticədə 1980-ci ildə muxtar respublikanın şəhər və kəndlərində quraşdırılmış telefon aparatlarının sayı 9934-ə çatmışdı ki, bu da 1970-ci ildəkindən 3611 ədəd çox idi [123, 58].

Muxtar respublikada radio və televiziya verilişlərinin müntəzəm və keyfiyyətli qəbul edilməsi üçün mühüm tədbirlər həyata keçirilmiş, Mingəçevir-Şuşa-Naxçıvan radiorelexəttinin çəkilməsi başa çatdırılmış, Paraqçay, Qoşa Dizə, Bist, Üstüpü, Dırnıs, Badamlı, Kükü, Ərəfsə kəndlərində retranslyatorlar quraşdırılmışdı. Kəndlərin radiolaşdırılması sahəsində də müəyyən uğurlar əldə edilmişdi. 1975-ci ildə Ordubad rayonunun Vənənd kəndində, 1978-ci ildə Şahbuz rayonunun Badamlı, Kükü, Külüs kəndlərində, 1979-cu ildə isə Babək rayonunun Böyükdüz kəndində radioqovşaqlar fəaliyyətə başlamışdı. 1971-1980-ci illərdə 17.087 mənzil radiolaşdırılmış, 1980-ci ildə muxtar respublikada radionöqtələrin sayı 37.930-a çatdırılmışdı ki, bu da 1970-ci ildəkindən 1,7 dəfə çox idi [113, 59].

Göründüyü kimi, Heydər Əliyev bu illər ərzində Naxçıvanın abadlaşdırılması və əhalinin həyat şəraitinin, firavanlığının yüksəldilməsinə xidmət göstərəcək ən xırda təfərrüatları belə nəzərdən qaçırmır, bu yolda dayanan problemlərin hansı çətinliklər hesabına olursa-olsun, aradan götürülməsinin qayğısına qalırdı.

Əhalinin məişət şəraitinin yaxşılaşdırılmasında, uşaqlı qadınların ictimai istehsala daha geniş cəlb edilməsində

məktəbəqədər uşaq tərbiyə müəssisələri mühüm əhəmiyyət kəsb edirdi. 1971-1980-ci illərdə muxtar respublikada 1340 yerlik məktəbəqədər müəssisə tikilərək istifadəyə verilmişdi. Daimi məktəbəqədər uşaq müəssisələrində 1970-ci ildə 2531, 1980-ci ildə 3629, 1985-ci ildə 4345 uşaq tərbiyə alırdı [124, 63]. Bununla yanaşı, Naxçıvanda bu tip müəssisələrin inkişaf səviyyəsi respublika səviyyəsindən aşağı idi, xüsusən kəndlərdə uşaqların məktəbəqədər tərbiyə müəssisələrinə cəlb edilməsi işi çox zəif idi. Məsələn, 1980-ci ildə bu müəssisələrdə tərbiyə alan 3629 uşaqdan yalnız 715-i, 1985-ci ildə isə 4345 uşaqdan 1200-ü kənd yerlərinin payına düşürdü [124, 63].

Azərbaycanın gənc nəslinə qayğı Heydər Əliyevin rəhbər seçildiyi gündən diqqətdə saxladığı əsas məsələlərdən biri idi. Onun rəhbərliyi dövründə uşaqların pioner düşərgələrində istirahətinə ayrılan vəsaitlərin həcmi xeyli artırılmış, pioner düşərgələrinin, uşaq istirahət mərkəzlərinin şəbəkəsi genişləndirilmişdi. Bunu Naxçıvan MSSR-in timsalında aydın görmək mümkündür. Məsələn, 1970-ci ildə muxtar respublikada cəmi 9 pioner düşərgəsi var idisə və orada 1660 məktəbli dincəlmişdisə, [6, v.15], 1980-ci ildə artıq 43 pioner düşərgəsində 9396 uşaq dincəlmişdi [4, v.194].

Heydər Əliyev həmin dövrdə əhalinin sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə xüsusi fikir verirdi. Onun rəhbərliyi altında Azərbaycanda həyata keçirilən tədbirlərin nəticəsində bu sahədə əhəmiyyətli uğurlar əldə edilmişdi. Müalicə profilaktika müəssisələrinin elmi-praktik mərkəzlərinin şəbəkəsi genişləndirilmiş, respublikada çoxlu sayda qadın məsləhətxanaları, uşaq poliklinikaları və

ambulatoriyaları yaradılmış, həkimlərin və tibb işçilərinin sayı artmışdı. Respublika rəhbərliyinin göstərişlərinə uyğun olaraq Naxçıvan Vilayət Partiya Komitəsi və muxtar respublika hökuməti burada səhiyyə xidmətinin səviyyəsini yüksəltmək üçün bir sıra  qərarlar qəbul etmişdi. Bu qərarlar sırasında Naxçıvan VPK-nın «Naxçıvan MSSR-də əhaliyə səhiyyə xidmətinin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında» 5 avqust 1970-ci il tarixli qərarı və Muxtar Respublika Nazirlər Sovetinin «Uşaqların sağlamlığının qorunmasının vəziyyəti və onun daha da yaxşılaşdırması tədbirləri haqqında» 14 fevral 1974-cü il tarixli, «Kənd səhiyyə müəssisələrinin iş, əmək şəraitinin və kənd əhalisinə səhiyyə xidmətinin daha da yaxşılaşdırılması tədbirləri haqqında» 29 may 1975-ci il tarixli və «Naxçıvan MSSR əhalisinə səhiyyə xidmətinin yaxşılaşdırılması haqqında» 13 may 1976-cı il tarixli  qərarlarını göstərmək olar [94, v.102-104; 106.v35; 107, v.42].

70-ci illərdə səhiyyənin inkişafına yönəldilmiş vəsaitlərin həcmi əhəmiyyətli dərəcədə artırılmış, səhiyyə obyektlərinin tikintisi genişləndirilmişdi. Təkcə həmin onilliyin birinci yarısında Naxçıvan şəhərində 150 çarpayılıq uşaq xəstəxanası, respublika xəstəxanası yanında yeni müalicə korpusu, 50 çarpayılıq endokrenoloji dispanser, İliç və Culfa rayonlarında hər biri 120 çarpayılıq xəstəxana, Babək rayonunun Didivar və Əznəbürd kəndlərində xəstəxanalar, Ordubad rayonunda sanitar-epidemioloji stansiya tikilib istifadəyə verilmişdi [129, 1976, 24 fevral]. Sonrakı illərdə Naxçıvan şəhərində təcili yardım stansiyası, stamotoloji poliklinika, göz xəstəxanasının yeni korpusu, Şahbuz mərkəzi rayon xəstəxanası, Darıdağda

balneoloji müalicəxana istifadəyə verilmiş, 1979-cu ildə Avropada üçüncü olaraq asmanın duzla müalicəsinin aparıldığı allerkoloji xəstəxana yaradılmışdı [128, 1980, 26 iyul]. 1980-ci ildə muxtar respublikada 48 xəstəxəna, 6 dispanser, bir ambulatoriya, 147 kənd mama-feldşer məntəqəsi, 4 kolxoz doğum evi fəaliyyət göstərirdi. Müalicə müəssisələrinin təmərküzləşməsi ilə əlaqədar onların sayı azalsa da, onlardakı çarpayıların sayı artmışdı. Belə ki, muxtar respublikada 1970-ci ildə 1975, 1980-ci ildə 2530, 1985-ci ildə isə 2590 xəstəxana çarpayısı var idi [124, 72]. Hər min nəfərə düşən çarpayıların sayı isə 1970-ci ildə 95,2-dən 1980-ci ildə 102, 8-ə çatmışdı [124, 72].

Muxtar repsbulikanın səhiyyə müəssisələrinin ixtisaslı kadrlarla təminatı da yaxşılaşmışdı. 1971-1980-ci illər ərzində səhiyyə orqanlarına 400 həkim göndərilmişdi. 1970-ci ildə muxtar respublikada 262 həkim və 1435 orta tibb işçisi var idisə, bu rəqəmlər 1980-ci ildə müvafiq olaraq 591 və 1900, 1985-ci ildə isə 718 və 1293-ə bərabər idi. Hər on min nəfərə düşən həkimlərin sayı isə müvafiq olaraq 1970-ci ildə 12,6-dan 1980-ci ildə 24,1-ə, 1985-ci ildə 26,6-a çatmışdı [124, 72]. Qadın və uşaqlara müalicə profilaktika xidməti daha da inkişaf etməyə başlamışdı. 1970-ci illə müqayisədə belə müəssisələrin sayı 2 dəfədən çox artmış (15-dən 34-ə), 1985-ci ildə isə 39-a çatmışdı [124, 72]. Bütün bunlar əhalinin sağlamlığının möhkəmlənməsinə və xəstəliklərlə mübarizənin güclənməsinə kömək etmişdi. Muxtar respublikada ölüm göstəricisi ilbəil aşağı düşürdü. Belə ki, 1970-ci ildə hər min nəfərə ölüm halı 7,7 nəfər təşkil edirdisə, 1980-ci ildə bu göstərici 6,8 nəfərə düşmüşdü [123, 6].

Ümummilli Liderimiz Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə onun xüsusi diqqət və qayığısı nəticəsində respublikada bədən tərbiyəsi və idmanın inkişafında da mühüm nailiyyətlər əldə olunmuş, bir sıra mühüm idman kompleksləri, meydanları, sarayları tikilmiş, nəhəng sağlamlıq mərkəzləri yaradılmışdı.

Naxçıvan MR-də bədən tərbiyəsi və idmanın inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həm respublika, həm də muxtar respublika səviyyəsində bir sıra tədbirlər həyata keçirilmiş, qərarlar qəbul edilmişdi. Azərbaycanda bədən tərbiyəçisi və idmançıların hazırlığının yaxşılaşdırılması işində respublika partiya sovet və təsərrüfat işçilərinin 1974-cü il 21 iyun tarixli iclası mühüm rol oynadı. Həmin iclasda respublikada bu sahədə mövcud vəziyyət ətraflı təhlil edildi. Heydər Əliyev yığıncaqda çıxış edərək kütləvi idman işinin inkişafına rəhbərliyin siyasi əhəmiyyətli iş olduğunu vurğulamış, bədən tərbiyəsi və idmanın partiya təşkilatlarının diqqət mərkəzində olmasını tələb etmişdi. Həmin il avqustun 6-da Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti «Respublikada bədən tərbiyəsi, idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Qərarda bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, idman qurğularının tikilməsi, şəhər və kəndlərdə bədən tərbiyəsi və idmanın inkişafı, respublikada idmançıların ustalığının, idmana rəhbərliyin yüksəldilməsi kimi məsələlər öz əksini tapmışdı.

Vilayət Partiya Komitəsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin «Əməyə və SSRİ-nin müdafiəsinə hazıram» yeni ümumittifaq bədən tərbiyəsi kompleksinin qüvvəyə

minməsi haqqında 29 aprel 1972-ci il tarixli birgə qərarı, həmçinin Muxtar Respublika Nazirlər Sovetinin «Naxçıvan MSSR-də bədən tərbiyəsinin inkişafı» haqqında (28 noyabr 1974 tarixli) qərarları bu baxımdan səciyyəvidir [104, v.28; 105, v.39]. Respublika hökumətinin qayğısı sayəsində muxtar respublikada idman qurğularının sayı artmaqda idi. Hələ 1970-ci ildə Naxçıvan MR-da 1 stadion, 92 basketbol, 203 voleybol, 84 futbol meydançası, 18 idman və 1 yüngül atletika zalı var idisə, 1980-ci ildə 2 stadion, 144 basketbol meydançası və 49 idman zalı fəaliyyət göstərirdi.

70-ci illərdə muxtar respublikanın bütün rayonlarında uşaq idman məktəbləri yaradılmışdı.

Ümumtəhsil, uşaq və yeniyetmə idman məktəblərinin və idman cəmiyyətlərinin ixtisaslı kadrlarla təminatı da xeyli yaxşılaşmışdı. 1970-ci ildə muxtar respublikada 139 bədən tərbiyəsi mütəxəssisindən 77-nin ali təhsili var idisə [111, v.193], 1980-ci ildə 332 idman mütəxəssisinin 171-i ali təhsilli idi [4, v.79].

Bu sahənin inkişafı özünü bədən tərbiyəsi və idmanın kütləviliyinin artmasında da göstərirdi. 1970-ci ildə 286 idman kollektivi var idisə (5, v.193), 1980-ci ildə onların sayı 330-a çatmış [4, v.53], bu kollektivlərdə məşğul olanların sayı müvafiq olaraq 27390-dan 45634-dək artmışdı [4, v.193]. 1971-1980-ci illərdə müxtəlif idman növləri ilə məşğul olanların sayı 18244 nəfər artmış, bədən tərbiyəçilərinin sayı isə 1970-ci ildəki 28981 nəfərdən 94694 nəfərə çatmışdı. 1970-ci ildə 3959 I, II, III dərəcəli idmançı və 6421 ƏMH nişançısı, 1980-ci ildə isə 2 idman ustalığına namizəd, 7381 I, II, III dərəcəli idmançı, 18094 ƏMH nişançısı hazırlanmışdı [4,

v.53]. İdman və bədən tərbiyəsi muxtar respublikanın kənd əməkçilərinin də həyatına daxil olmaqda idi. Kəndlərdə idman işinin təşkili üçün Azərbaycan SSR «Məhsul» Könüllü İdman cəmiyyətinin Naxçıvan Vilayət Şurası yaradılmışdı [5, v.43]. Əgər 1970-ci ildə cəmiyyətin 90 idman kollektivində 12521 adam var idisə [5, v.43], 1980-ci ildə «Məhsul» cəmiyyətinə daxil olan 105 bədən tərbiyəsi kollektivində idmanın müxtəlif növləri ilə 18835 adam məşğul olurdu [4, 193].

Əldə edilmiş uğurlara baxmayaraq, bədən tərbiyəsi və idmanın inkişafı sahəsində mövcud imkanlardan hələ də tam istifadə edilmirdi. İdmanın inkişafına ayrı-ayrı təsərrüfat rəhbərlərinin laqeyd münasibəti mənfi təsir göstərirdi. Bədən tərbiyəsi və idmanın inkişafını ləngidən səbəblərdən biri də zəruri maddi-texniki bazanın olmaması idi. Xüsusən kolxoz və sovxozlarda bu baxımdan vəziyyət daha pis idi. Qapalı idman komplekslərinin olmaması ucbatından burada qışda idman tədbirləri, demək olar ki, keçirilmirdi. Bəzi kəndlərdə idman qurğuları və meydançaları ümumiyyətlə yox idi. Gənclərin idmanla məşğulluq işi plansız və pərakəndə bir şəkildə aparılırdı. 1980-ci ildə muxtar respublikada idman tədbirlərinə əhalinin yalnız 39 faizi cəlb edilmişdi ki, bu da orta respublika göstəricilərindən çox aşağı idi [123, 3].

Beləliklə, 70-80-ci illərdə Heydər Əliyevin sosial-iqtisadi strategiyasının tərkib hissəsi olan xalqın sosial-mədəni tələbatının ödənilməsi, insanların həyatının yaxşılaşdırılması siyasəti bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da əməli sürətdə həyata keçirilmişdi. Muxtar respublikada sürətli iqtisadi inkişaf sosisal sahənin də inkişafına təkan vermiş, sadə

adamların həyat səviyyəsində və yaşayış tərzində mühüm dəyişikliklər baş vermişdi.

Naxçıvan şəhərinin, muxtar respublikanın digər şəhər və kəndlərinin abadlaşdırılması, əhalinin maddi gəlirlərin artması, sosial və məişət xidmətlərinin səviyyəsinin yüksəldilməsi, sosial-mədəni və səhiyyə sisteminin yaxşılaşdırılması istiqamətində diqqətəlayiq nailiyyətlər əldə edilmiş, muxtar respublika sosial inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdu.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası böyük tikinti meydançasına çevrilmişdi. Respublikanın rəhbəri kimi Heydər Əliyevin Naxçıvana gəlişi mühüm obyektlərin, yaşayış sahələrinin istifadəyə verilməsi ilə əlamətdar oldu. Naxçıvan şəhərində on minlərlə əhalinin məskunlaşdığı üç mikrorayon, «Yeni Naxçıvan» yaşayış massivi, yeni məhəllələr əhalinin ixtiyarına verilmişdi. Hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində orta hesabla 35 min kvadratmetrlik mənzil sahəsi istifadəyə verilirdi ki, bu da əhalinin mənzilə olan tələbatını xeyli yaxşılaşdırmışdı [133].

Bu dövrdə sosial obyektlərin tikintisinə böyük diqqət yetirilirdi. Naxçıvan şəhərində 400 çarpayılıq respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm, onkoloji dispanser, rayon mərkəzlərində və kəndlərdə çoxlu səhiyyə obyektləri tikilmişdi.

Əhalinin məişət problemlərinin həlli sahəsində mühüm addımlar atılmış, onun qaz, elektrik, içməli su, rabitə, nəqliyyatla təminatı xeyli yaxşılaşmışdı.

Muxtar respublikanın yaşayış məntəqələrində çoxlu ictimai binalar, mədəniyyət sarayları, yaraşıqlı parklar, xiyabanlar

salınmış, onların siması kökündən dəyişmişdi. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin abadlaşdırılması, Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilməsi Heydər Əliyevin diqqət yetirdiyi mühüm məsələlərdən biri idi.

## 2.2. Əhalinin sosial strukturunda dəyişikliklər

Heydər Əliyevin inkişaf strategiyasında sosial, milli, demoqrafik amillər xüsusi yer tuturdu. Xüsusən respublikanın müxtəlif bölgələrinin, o cümlədən Naxçıvan MR-in sosial-iqtisadi inkişaf planları hazırlanarkən bu amillər hökmən nəzərə alınırdı. Naxçıvan MR özünün malik olduğu demoqrafik inkişaf xüsusiyyətlərinə görə keçmiş SSRİ əhalisinin və əmək ehtiyatlarının ən çox sürətlə artmaqda olan əraziləri sırasına daxil idi. Belə ki, 1959-1985-ci illərdə SSRİ-də əhalinin sayı 29,9%, Azərbaycanda 73% artmışdısa, Naxçıvan MR-də 82,3% artmışdı. Muxtar respublika əhalisinin belə sürətlə artımının mühüm səbəblərindən biri burada doğumun daha yüksək olması ilə izah edilməlidir. 70-ci illər və 80-ci illərin əvvəllərində əhalinin hər min nəfərinə düşən artım səviyyəsi SSRİ-də 18,9, Azərbaycanda 25,3 nəfər təşkil edirdisə, Naxçıvanda təbii artım orta ittifaq səviyyəsindən 2,8 dəfə yüksək idi. [84, 37].

Naxçıvan MR-də əhalinin maddi rifah halının, mədəni-məişət şəraitinin yaxşılaşması, tibbi xidmət səviyyəsinin yüksəldilməsi əhalinin sayının artmasına da öz təsirini göstərmişdi. 1970-ci ildə muxtar respublika əhalisinin sayı 205,7 min, 1980-ci ildə 248,5 min, 1985-ci ildə isə 275,5 min nəfər təşkil etmişdir [124, 21, 51].

70-ci illərdə bütövlükdə Azərbaycanda əhali artımş 19,5 faiz təşkil edirdisə, muxtar respublika üzrə bu artım 20,3 faiz idi (0,8 faiz çox) [82, 5]. Bütövlükdə muxtar respublika əhalisinin sayı 1970-90-cı illərdə 99,5 min nəfər və ya 49,3 faiz artaraq 205,7 min nəfərdən 307,2 min nəfərə, o cümlədən şəhər yerlərində 39,8 min nəfər artaraq 51 min nəfərdən 90,8 min nəfərə (78%), kənd yerlərində isə 61,7 min nəfər artaraq 154,7 mindən 216,4 nəfərə (39,9%) çatmışdı [124, 51].

Təhlil göstərir ki, Naxçıvan MR-də doğumun səviyyəsi özünün ən yüksək inkişaf göstəricisinə 1960-cı ildə (hər min nəfərə 54.0 doğum) çatmış, sonra isə tədricən azalmağa başlayaraq 1970-ci ildə 37, 1975-ci ildə 29,4, 1980-ci ildə 28,8 nəfər təşkil etmişdi. Nəhayət, 1985-ci ildə təbii artımın səviyyəsi yenidən yüksələrək hər min nəfərə 31,0 nəfər olmuş, sonra yenidən azalmağa başlamışdı.

Ümumilikdə Naxçıvan MSSR-də doğumun səviyyəsi və təbii artım bütün illərdə Azərbaycana nisbətən yüksək olmuşdur. Belə ki, əhalinin hər min nəfərinə görə doğulan uşaqların sayı Naxçıvan MR-da Azərbaycana nisbətən 1970-ci ildə 6,6, 1975-ci ildə 4,3, 1980-ci ildə 3,6 nəfər, təbii artım isə müvafiq olaraq 5,6, 4,3 və 3,7 nəfər çox olmuşdur. Əhalinin təkrar istehsal göstəriciləri muxtar respublikanın ayrı-ayrı rayonları üzrə də fərqlənirdi [82, 12; 86, 73]. Muxtar respublikada doğumun səviyyəsinə bir çox sosial, iqtisadi, demoqrafik, milli-etnik xarakterli faktorlar, o cümlədən qadınların ictimai və sosial vəziyyətində baş verən dəyişikliklər, əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi, uşaqların sayının şüurlu surətdə nizamlanması, əhalinin yaş-cins strukturuna əvvəlki dövrlərin təsiri, nikahların

və boşanmaların dinamikası, kənd və şəhər əhalisinin nisbəti və s. təsir göstərirdi.

Muxtar respublikanın əhalisinin artım səviyyəsinə ölüm faktoru da mühüm təsir göstərirdi. Muxtar respublikada tibbi tədbirlərin geniş tətbiqilə əlaqədar ölüm əmsalı get-gedə azalırdı. Muxtar respublikada hər min nəfərə görə ölüm əmsalı 1959-cu ildə 7,8, 1970-ci ildə 7, 1980-ci ildə 6,9 arasında tərəddüd etmişdir [82, 16-17]. Digər mənbəyə görə, ölüm əmsalı 1975-ci ildə Naxçıvan MR-də 7,3 (Azərbaycanda 6,3), 1975-ci ildə 7,0 (Azərbaycanda 7), 1985-ci ildə 6 (Azərbaycanda 6,8), 1990-cı ildə isə 5,0-ə (Azərbaycanda 6,1) bərabər olmuşdur. [86, 73].

Əhalinin sayı muxtar respublikada həm də miqrasiyanın mexaniki hərəkəti hesabına dəyişirdi. Bu şəhər əhalisinin artmasında daha çox özünü göstərirdi. Şəhər əhalisi təkcə təbii amillər hesabına deyil, həm də əhalinin miqrasiyası hesabına artırdı. Bu isə istehsalın həcminin və miqrasiyanın böyüməsi ilə birbaşa əlaqədar idi. Naxçıvan MR-də bütün əhalinin 1970-ci ildə 24,5, 1975-ci ildə 25,2, 1980-ci ildə 26,6, 1985-ci ildə 28,3 faizini şəhər əhalisi təşkil etmişdir [124, 5].

Göstərilən dövrdə əhalinin demoqrafik vəziyyətində baş verən ən mühüm dəyişikliklərdən biri də onun milli tərkibində baş verən dəyişikliklər idi. 1970-ci ilin siyahıyaalınmasına görə, burada yaşayan əhalinin 93,8 faizini azərbaycanlılar, 2,9 faizini ermənilər, 1,9 faizini ruslar, 1,4 faizini isə digər millətlər təşkil etmişlər. 1979-cu ildə bu göstəricilər müvafiq olaraq 95,7, 1,4, 1,6 və 1,3 faiz, 1989-cu ilin siyahıyaaalınmasına görə isə 95,9, 0,6, 1,3 və 2,2 faiz təşkil etmişlər [124, 54]. Göründüyü kimi, regionun ən qədim

sakinləri olan azərbaycanlılar 70-80-ci illərdə buranın əhalisinin mütləq əksəriyyətini təkşil edirdilər. Əsrin əvvəllərində erməni daşnaklarının Azərbaycan türklərinə qarşı yeritdiyi soyqırımı nəticəsində Naxçıvan bölgəsində azərbaycanlıların sayı aşağı düşsə də, sonradan ədalət tədricən bərpa olunmuş, azərbaycanlılar bu bölgənin əsl sahiblərinə çevrilmişlər. Buna əhalinin tərkibində baş verən təbii-demoq-rafik dəyişikliklərlə yanaşı, Azərbaycanda həyata keçirilən düzgün milli siyasət də təsir göstərirdi.

Ermənilərin, eləcə də rusların sayının azalmasına gəlincə isə, bu təbii proses olub SSRİ-də, Azərbaycan SSR-də və Ermənistan SSR-də əhalinin miqrasiyasında baş verən proseslərlə əlaqədar idi.[(86, 75-78].

Azərbaycanın əhalinin həyat rifahının yüksəldilməsinə nail olmuş Heydər Əliyev Naxçıvanda digər sahələrlə yanaşı, demoqrafik inkişafa da rəvac verdi. Vaxtilə rus çarlığının fitnəkar siyasət taktikasının bir hissəsi kimi bu torpaqlara köçürülmüş ermənilər öncüllüyü ələ ala bilmədiklərindən və onlar üçün yad olan bu diyarda mədəni və ictimai baxımdan özlərinə bir perspektiv görmədiklərindən köçüb getməyə üstünlük verdilər ki, bu da muxtar respublikanın yerli əhalisi olan azərbaycanlıların tam dominantlığını təmin etdi.

Heydər Əliyevin hakimiyyəti dövründə Naxçıvan MR-in demoqrafik vəziyyətində, sosial strukturunda baş verən ən mühüm dəyişikliklərdən biri də qadınların təhsilinin, mədəni səivvyəsinin yüksəldilməsi məsələsi idi. Qadınların ictimai istehsala cəlb olunması, qadın əmək ehtiyatlarından səmərəli istifadə edilməsi ictimai tərəqqinin aparıcı amillərindən birinə çevrilmişdi.

70-80-ci illərdə Naxçıvan qadınlarının təhsil səviyyəsində mütərəqqi dəyişikliklər baş vermişdi. Vaxtilə kütləvi savadsızlıq şəraitində yaşayan naxçıvanlı qadınların 1979-cu ildə artıq 100%-i savadlı idi. Həmin dövrdə respublika rəhbərliyinin həyata keçirdiyi ardıcıl və prinsipial siyasət nəticəsində qızların mütləq əksəriyyəti təhsilə cəlb edilmişdi. Nəticədə muxtar respublikada ali və orta təhsilli əhali arasında qadınların sayı sürətlə artmışdı. Əgər 1970-ci ildə hər min nəfər qadına 10 ali və 254 orta təhsilli qadın düşürdüsə, 1979-cu ildə bu göstəricilər müvafiq olaraq 24 və 752 nəfər təşkil edirdi. 1979-cu ildə məşğul əhali arasında hər 1000 nəfər qadından 42-si ali təhsili, 717-si orta təhsilli idi [160, 3].

Naxçıvanda qadın əmək ehtiyatlarından səmərəli istifadə etmək, qadınların məşğulluq problemlərini həll etmək üçün müəyyən işlər görülsə də, vəziyyət bütövlükdə Azərbaycan SSR və SSRİ üzrə orta göstəricilərdən aşağı idi. 1980-ci ildə fəhlə və qulluqçular arasında qadınların xüsusi çəkisi Azərbaycanda 43%, SSRİ-də 51% təşkil etdiyi halda, Naxçıvanda bu göstərici 42% idi (1970-ci ildə 39%). Düzdür, 1985-ci ildə bu rəqəm bir qədər artmış (44,9%), lakin sonra yenidən aşağı düşmüşdü. 1980-ci ildə istehsala cəlb edilməyən əhalinin 89,4%-ni qadınlar təşkil edirdi [82, 100-101].

Buna görə də muxtar respublikada qadınların istehsala geniş cəlb edilməsi üçün müvafiq istehsal müəssisələrinin tikintisinə xüsusi diqqət yetirilirdi. 70-ci illərdə istifadəyə verilmiş alt trikotaj, fərdi tikiş fabriklərində, xalça kombinatında, bir sıra yeyinti sənayesi müəssisələrində işləyənlərin əksəriyyətini qadınlar təşkil edirdi. Bütövlükdə 70-80-ci illər işləyən əhali arasında qadınların sayının ən çox

olduğu dövrdür. Həmin dövrdə işləyən qadınların sayı 14,6 min nəfərdən (1970-ci il) 26,4 min nəfərə (1980-ci il) çatmış və ya 1,8 dəfə artmışdı [124, 24-25].

70-80-ci illərdə muxtar respublikada sosial-iqtisadi sahələrdə qadınların rolu xeyli yüksəlmiş, qeyri-istehsal və intellektual əməyin üstünlük təşkil etdiyi sahələrdə qadın əməyinin xüsusi çəkisi artmışdı.

Beləliklə, Heydər Əliyevin yeritdiyi regional sosial-iqtisadi siyasət nəticəsində Naxçıvanın sosial həyatında böyük irəliləyişlər əldə edildi. Mədəniyyət, təhsil, yaş-cins strukturunun yeniləşməsi, əhalinin təbii artımı, qadınların sosial-iqtisadi səviyyəsinin yüksəldilməsi kimi sahələrdə tərəqqiyə nail olundu. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə muxtar respublikanın demoqrafiyasının müsbət planda inkişafı əldə edildi. Azərbaycanın əzəli və əbədi sakinləri olan Azərbaycan türkləri məhz ulu öndərimizin səyləri ilə bu diyarın əsl sahibinə çevrilmişdilər.

# III FƏSİL

# HEYDƏR ƏLİYEV və NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MƏNƏVİ-SİYASİ HƏYATI

## 3.1. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı

70-ci illər – 80-ci illərin I yarısı sovet hakimiyyəti dövründə Azərbaycan maarif, mədəniyyət və incəsənətin ən yüksək inkişaf dövrü oldu. Heydər Əliyevin qayğı və diqqəti sayəsində milli mədəniyyətimizin bütün sahələrininin ahəngdar inkişafı təmin edildi. Nəticədə xalqımızın mədəniyyəti, elmi, təhsili, milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə vəhdətdə tərəqqi dövrünü yaşadı.

Azərbaycan elmi bu dövrdə əsl məhsuldar qüvvəyə çevrilmişdi. Respublika alimlərinin fundamental tədqiqatları və tətbiqi işləri iqtisadiyyatın sürətli inkişafına təkan vermiş, SSRİ elm və texnikasına əhəmiyyətli töhfələr vermişdi.

Sovet Azərbaycanın mədəniyyəti yeni zirvələrə qalxmışdı. Ədiblərimiz, incəsənət xadimlərimiz respublikanın ictimai-siyasi həyatında, yeni insan tərbiyəsində, neqativ hallara qarşı mübarizədə fəal iştirak edirdilər. Onların ən yaxşı əsərləri keçmiş SSRİ-də və onun hüdudlarından kənarda geniş şöhrət tapmış, Azərbaycan dünyada tanınmağa başlamışdı.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan təhsil sisteminin maddi-texniki bazası xeyli möhkəmləndi, təhsil kütləviləşdi və nəticədə Azərbaycan başdan-başa savadlılar diyarına çevrildi.

Göstərilən dövrdə Naxçıvan MR-da da xalq təhsili

sahəsində böyük uğurlar əldə edilmişdi. Bu özünü ilk növbədə tədris müəssisələrinin şəbəkəsinin genişlənməsində göstərirdi.

Yuxarı partiya və sovet orqanlarının kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılması haqqında qərarları ilə əlaqədar olaraq Naxçıvan Vilayət Partiya Komitəsi bürosu 13 dekabr 1973-cü il tarixli iclasında «Muxtar respublikada məktəblərin tikintisinin vəziyyəti haqqında» [93, v.4-5], 10 dekabr 1975-ci il tarixli iclasında isə «Kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılması haqqında» [93, v.6-7] məsələləri müzakirə edərək müvafiq qərarlar qəbul etdi.

Doqquzuncu və onuncu beşillikdə muxtar respublikada xalq maarifinin inkişafına vəsait qoyuluşunun həcmi xeyli artmışdı. Belə ki, 1970-ci ildə maarif və elmin inkişafı üçün 11966 min manat ayrılmışdısa, 1980-ci ildə bu məqsədlər üçün 24723 min manat, yəni 2 dəfədən çox vəsait xərclənmişdi [160, 22]. Əgər 1966-1970-ci illərdə xalq təhsilinin inkişafına 40,9 mln. manat xərclənmişdirsə [109, v.22-25], 1971-1975-ci illərdə bu məbləğ 62,2 mln. manat, 1976-1980-ci illərdə isə 86,6 mln. manata qədər artmışdı. Bu isə öz növbəsində məktəb tikintisinin inkişafını sürətləndirirdi. 1971-1975-ci illər ərzində kapital qoyuluşu hesabına 1600 yerlik məktəb binası tikilmişdi. Onuncu beşillikdə kənd yerlərində məktəb tikintisi daha geniş vüsət aldı. 1979-cu ildə İliç rayonunun Yaycı kəndində 320 yerlik, Maxta kəndində 624 yerlik, İbadulla kəndində 464, Muğancıq-Mehrab kəndində 320, Çərçiboğan kəndində 624 yerlik, Aşağı Daşarx kəndində, 192 yerlik, Babək rayonunun Buzqov kəndində 320 yerlik, Ordubad rayonunun Sabir Dizə kəndində 624 yerlik, Nüsnüs kəndində 400 yerlik məktəb binaları tikilib istifadəyə verildi. 1980-ci ildə Naxçıvan

şəhərində 1176 yerlik, Babək qəsəbəsində 1176 yerlik, Culfa rayonunun Ərbəqunis kəndində 320 yerlik, Qazançı kəndində 320 yerlik, Ordubad rayonunun Nürs kəndində 320 yerlik məktəb binalarının tikintisi başa çatdırıldı. Onuncu beşillik ərzində muxtar respublika üzrə 14,8 min şagird yeri olan məktəb tikilmişdi ki, bu da əvvəlki beşilliklə müqayisədə 52% çox idi [35, v.92]. Bütövlükdə 1971-1980-ci illərdə Naxçıvan MR-də 24.594 yerlik 37 məktəb tikilib istifadəyə verilmişdi ki, bu da yeddinci və səkkizinci beşilliklərdə tikilənlərdən 3,1 dəfə çox idi [156, 323].

Azərbaycanda ali təhsilin son 30 ildən çox bir dövrü əhatə edən inkişaf mərhələsi də Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərlik etdiyi illərdə elm və təhsil məsələləri cəmiyyətin və dövlətin ön mövqeyində durmuşdur. Onun uzaqgörən siyasəti nəticəsində mövcud ali məktəblərin maddi-texniki və tədris bazası xeyli möhkəmləndirilmiş, yeni ali məktəblər yaradılmışdır. Cəmiyyətin həyatının bütün sahələrində ziyalılaşma prosesi dərinləşmiş, böyük tərəqqi və dirçəliş üçün zəruri zəmin formalaşmışdır [61, 7].

Ali məktəblərin işində daha böyük uğurlar əldə edilmişdi. Azərbaycanda ali məktəblərin sayı artmış, təhsilin səviyyəsi yüksəlmiş, tədris prosesi yaxşılaşmışdı [141, 6]. Artıq 1980-ci ildə Azərbaycanda 17 ali və 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi ki, orada 148 ixtisas üzrə mütəxəsis hazırlanırdı [156, 263]. Həmin ildə Azərbaycanın ali məktəb və texnikumlarında 18,1 min ali və 22,6 min orta ixtisas təhsilli mütəxəssis hazırlanmışdı. 1970-ci illə müqayisədə bu mütəxəssislərin sayı müvafiq olaraq 23,2 və 14 faiz artmışdı.

Ayrı-ayrı regionlarda (Gəncədə, Sumqayıtda, Naxçıvanda) ali məktəblərin yaradılması da Heydər Əliyevin təkcə paytaxtın deyil, bölgələrin də hərtərəfli inkişafına nail olmaq strategiyasının tərkib hissəsi kimi özünü doğrultmuşdur.

Azərbaycanın ali məktəbləri sırasında özünə məxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universiteti də Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

1972-ci il iyunun 20-də Azərbaycan KP MK Bürosunun «Naxçıvan şəhərində Pedaqoji institutun təşkili haqqında» Azərbaycan KP MK-nın I katibi Heydər Əliyev tərəfindən imzalanmış qərarı qəbul edildi. Qərarda deyilirdi: «Naxçıvan şəhərində V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filialının bazası əsasında Naxçıvan Pedaqoji İnstitutunun təşkili haqqında Azərbaycan SSR Nazirlər Sovetinin təklifi qəbul edilsin. Azərbaycan SSR Nazirlər Soveti bu məsələ üzrə müvafiq qərar qəbul etsin» [11, v.71].

Filialın müstəqil instituta çevrilməsi onun daha da inkişafına, geniş perspektivinə, muxtar respublikada elm və təhsilin yüksəlişinə əlverişli zəmin yaratdı.

Azərbaycan MK Bürosunun bu qərarından sonra Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Sovetinin «Naxçıvan şəhərində pedaqoji institutun təşkili haqqında» qərarı qəbul edildi. Heydər Əliyevin və Ə.İbrahimovun imzaladıqları qərarda qeyd olunmuşdu ki, 1967/1968-ci tədris ilində Naxçıvan şəhərində V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (APİ) filialının təşkili Naxçıvan MSSR və ona yaxın rayonların məktəbələrinin müəllimlərlə təmin edilməsi məsələsinin həllinə müsbət təsir göstərmişdir. Öz mövcudluğu dövründə APİ-nin filialı yüksək

ixtisaslı mütəxəssislərlə komplektləşdirilmişdir. Azərbaycan KP MK və respublika hökuməti «Naxçıvan MSSR-də xalq təhsilinin daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verərək» V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı bazasında Naxçıvan Pedaqoji İnstitutunun yaradılmasını və 1972-ci ilin iyulun 15-dək açılacaq institutda normal tədris prosesinin aparılmasını təmin etməyi Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi qarşısında bir vəzifə kimi qoymuşdur. Nəzərə alınmışdır ki, Azərbaycan KP, Naxçıvan VPK və Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan Pedaqoji İnstitutunu təlim prosesini aparmaq üçün normal şəraitə cavab verən tədris və xidməti binalarla təmin etmək, professor-müəllim heyəti və tələbələr üçün zəruri mənzil-məişət şəraiti yaratmaq üçün lazımi tədbirlər görəcəklərinə söz vermişlər.

Qərarda Azərbaycan SSR Maliyyə Nazirliyinə Ali və Orta İxtisas Təhsili Nazirliyi ilə birgə Naxçıvan Pedaqoji İnstitutunun xərclər smetasını hazırlamaq və bütün zəruri məsələləri həll etmək tapşırılmışdı [11, v.76-77].

Qərara Naxçıvan şəhərində Pedaqoji İnstitunun təşkili barədə iki arayış və V.İ.Lenin adına APİ-nin Naxçıvan filialının bazası əsasında Naxçıvan şəhərində Pedaqoji İnstitutunun təşkili haqqında Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Naziri Q.Əliyevin Azərbaycan SSR Nazirlər Sovetinə məktubu da əlavə olunmuşdu [11, v.74-75, 80-84].

Həmin sənədlərdə Naxçıvanda ali təhsilin tarixi qısaca şərh olunur, APİ-nin Naxçıvan filialının mövcud vəziyyəti təhlil edilirdi. Sənədlərdən bəlli olur ki, 1972-ci ilin əvvəlləri üçün filialda əyani və qiyabi şöbələrdə 925 tələbə təhsil alırdı, 1972-

ci ilin qəbulu nəzərə alınmaqla 1972/73-cü tədris ilinin əvvəlində tələbələrin sayı 1242-yə çatacaqdır. Filialda o zaman 39 müəllim, o cümlədən 7 elmlər namizədi işləyirdi. Gələcəkdə ümumtəhsil məktəblərinin tələbatına uyğun olaraq Naxçıvan filialında müəllim hazırlığının genişləndirilməsi nəzərdə tutulurdu. 1975-ci ildə tələbə mütəxəssis hazırlığının genişləndirilməsi məsələsi öz növbəsində müstəqil fakültələrin, kafedraların, laboratoriyaların, emalatxanaların və s. təşkilini tələb edirdi. Buna görə də həmin filialın bazasında müstəqil ali məktəbin yaradılması zərurəti ortaya çıxmışdı. Lakin filialın mövcud maddi bazası tədris prosesini normal təşkil etməyə, lazımi kafedralar, tədris laboratoriyaları və kabinetləri yaratmağa imkan vermirdi. Filialın maddi bazasını genişləndirmək üçün sərhəd dəstəsinin bir sıra azad olunan binalarının instituta verilməsi qərara alınmışdı.

Həm də nəzərə alınmışdı ki, filial təkcə Naxçıvan MSSR üçün deyil, həm də yaxın rayonlar, eləcə də Ermənistan SSR-də azərbaycanlılar yaşayan rayonlar üçün mütəxəssis hazırlayır.

Naxçıvan şəhərində müəllim hazırlığınının həcminin daha da genişlənməsi filialın fəaliyyətinin Azərbaycanın bütün yaxın cənub-qərb rayonlarını əhatə etməsinə imkan verəcəkdir[11, v.80-81, 83-84].

Heydər Əliyev Naxçıvan ali təhsilinin flaqmanı olan NDPİ-nin böyüyüb genişlənməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, onun ölkənin qabaqcılq ali məktəbinə çevrilməsi üçün bütün zəruri addımları atırdı. Onun imzası ilə qəbul edilmiş Azərbaycan KP MK və respublika hökumətinin 8 yanvar 1974-cü il tarixli qərarına Pedaqoji İnstitut üçün 1976-1977-ci illərdə 5 min kvadratmetr ümumi sahəsi olan yeni

tədris korpusunun tikintisi barədə xüsusi bənd salınmışdı [18, v.192].

Müstəqil ali məktəbin yaradılması bölgənin elmi-mədəni inkişafının, ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdi. Naxçıvan MR-in 50 illiyi ilə əlaqədar Naxçıvan DPİ-də olan dahi lider İnstitutun müəllim və tələbələri ilə görüşmüş, onun daha da inkişafı üçün öz tövsiyə və tapşırıqlarını vermişdi. Məhz bu görüşdən sonra respublika və muxtar respublika rəhbərləri, dövlət orqanları İnstituta diqqəti daha da artırmışdılar. Onun maddi-texniki bazası möhkəmlənmiş, yeni ixtisaslar açılmışdı. Elə həmin vaxtlarda Heydər Əliyev tərəfindən İnstitutun universitetə çevrilməsi ideyası da irəli sürülmüşdü.

1971-1975-ci illərdə İnstitutda 236 filoloq müəllim, 197 tarix, 233 fizika və riyaziyyat, 142 coğrafiya müəllimi hazırlanmışdı. Sonrakı beşillik ərzində İnstitutda yeni fakültələrin və şöbələrin açılması sayəsində tələbələrin sayı xeyli artdı. 1976-1980-ci illərdə institutda müxtəlif ixtisaslara aid 2451 müəllim hazırlanmışdı ki, bu da muxtar respublika məktəblərinin ali təhsilli müəllim kadrları ilə təminatını xeyli yaxşılaşdırmağa imkan verdi [4, v.199]. 20 il ərzində muxtar respublikanın məktəblərində müəllimlərin sayı 1,8 dəfə, o cümlədən ali təhsilli müəllimlərin sayı 3-4 dəfə artmışdı.

1970-ci illərdə Naxçıvan MR-də pedaqoji kadrların sayının artmasını aşağıdakı cədvəldən də görmək olar (müəllif tərəfindən hesablanmışdır).

| İllər | Bütün müəllimlərin | Müəllimlərin tərkibi | | |
|---|---|---|---|---|
| | | ali | natamam | orta |

| | sayı | təhsilli | ali təhsilli | pedaqoji təhsilli |
|---|---|---|---|---|
| 1970 | 3120 | 766 | 662 | 1133 |
| 1975 | 4527 | 2344 | 614 | 920 |
| 1980 | 5276 | 3949 | 517 | 785 |

Göründüyü kimi, muxtar respublikada ali və natamam ali təhsilli pedaqoqların sayı artmış, orta təhsilli pedaqoqların sayı isə əksinə, azalmağa başlamışdı.

Muxtar respublika məktəblərinin yüksək ixtisaslı kadrlarla təminatında müəllimlərin ixtisasının artırılması da müəyyən rol oynayırdı. Bu məqsədlə həm Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutunun imkanlarından istifadə edilir, həm də müəllimlər Bakıya ixtisas artırma kurslarına göndərilirdi. 1971-75-ci illərdə muxtar respublikanın 121 müəllimi və maarif işçisi qabaqcıl təcrübə ilə tanış olmaq üçün Moskva, Leninqrad və müttəfiq respublikaların paytaxtalarında ezamiyyətdə olmuşdular. 1976-1980-ci illərdə muxtar respublikada 2836 müəllim attestasiyadan keçmiş, 3718 müəllim isə yenidən hazırlıq kurslarında oxumuşdur [4, v.194].

Həmin illərdə Naxçıvan MR ümumtəhsil məktəblərinin strukturunda da ciddi dəyişikliklər baş verdi.

Orta məktəblərin sayı 1970-ci ildəki 73-dən 1980-ci ildə 121-ə, 1985-ci ildə isə 135-ə çatmış və 15 il ərzində 2 dəfə çoxalmışdı. Həmin illərdə ibtidai məktəblərin sayı isə əksinə, 52-dən 21-ə və 19-a enmişdi. Səkkizillik məktəblərin sayı da azalmağa başlamış, 15 il ərzində onların sayı 85-dən 55-ə

düşmüşdü [124, 63]. Bunun əsas səbəbi bütün ölkədə olduğu kimi muxtar respublikada da məktəblərin iriləşdirilməsi prosesi ilə bağlı idi.

Məktəblərin sayının azalmasına baxmayaraq, orada oxuyan şagirdlərin sayı artmaqda idi. 1970-1980-ci illərdə onların sayı 62,3 mindən 70,7 minə çatmışdı [121, 63].

Heydər Əliyevin başçılığı ilə Azərbaycanda aparılan təşkilati-siyasi tərbiyəvi və maarifləndirmə işinin ən mühüm nəticələrindən biri qızların təhsilə cəlb edilməsi sahəsində qazanılan müvəffəqiyyətlər idi. Bunu Naxçıvan MR-in timsalında daha aydın görmək olar. Əgər 1970-ci ildə orta ümumtəhsil məktəblərinin I-X siniflərində oxuyanların 45 faizini qızlar təşkil edirdisə, 1980-ci ildə bu rəqəm 51 faiz olmuşdu [4, v. 199]. Orta məktəbləri bitirən qızların sayı da ilbəil artırdı. 1970/1971-ci tədris ilində orta məktəbləri 1026 qız bitirmişdisə [101, v.29-31], 1980-1981-ci ildə onların sayı 2321 çatmışdı [4, v.191-194].

Məktəblilərin mənəvi-ideoloji tərbiyyəsi sahəsində də muxtar respublikada müəyyən təcrübə toplanmışdı. Məktəblərdə hərbi-vətənpərvərlik guşələri, hərbi şöhrət klubları, faşizm üzərində qələbəyə həsr edilmiş stendlər yaradılır, müharibə və əmək veteranları ilə müntəzəm görüşlər keçirilirdi. Dövrün ruhuna uyğun tərbiyə vasitələrindən biri də gənclərin inqilab, döyüş və əmək şöhrəti yerlərinə yürüşlərinin təşkili idi.

Yeniyetmələrin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində hərbi-idman oyunlarının rolu danılmazdır. Rayonlar və muxtar respublika səviyyəsində müntəzəm olaraq «Qartal balası», «Üfüqdə parıltı» kimi oyunlar və yarışlar

keçirilirdi. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, o zamanlar bütün SSRİ məkanında artıq uzun illərdən bəri ənənəvi xarakter daşıyan, çox zaman məktəblərarası, rayonlararası yarışlar kimi keçirilən belə oyunlar gəncliyə qədəm basmış yeniyetmələrin sonrakı həyatının, peşə fəaliyyətinin, vətəndaşlığının formalaşmasında öz əyaniliyi və dinamikliyi ilə çox vaxt müsbət rol oynaya bilirdi.

Gənclərin əmək tərbiyəsində, müstəqil həyata və əməyə hazırlanmasında məktəblər əsas rol oynadığından muxtar respublikanın bir sıra məktəblərində şagird istehsalat briqadaları yaradılmışdı. 1970-1980-ci illərdə onların sayı 65-dən 213-ə çatmışdı. 1980-ci ildə 3992 iş yerində şagirdlər müxtəlif ixtisaslara yiyələnmişdilər [4, v.193].

İstehsalda çalışan gənclərin ümumtəhsil səviyyəsinin, nəzəri biliklərinin və ümumi dünyagörüşünün artırılmasında axşam və qiyabi məktəbləri mühüm rol oynayırdı. Gənclərin bu tip məktəblərə cəlb edilməsində «hər bir gənc fəhləyə orta təhsil» devizi altında keçirilən hərəkat da müəyyən rol oynamışdı. 1970-ci ildə fəhlə və kəndli gənclər məktəblərində, qiyabi məktəblərdə istehsalatdan ayrılmamaqla 3598 nəfər, 1975-ci ildə 4793 nəfər, 1986-cı ildə isə 5124 nəfər oxuyurdu [143, 19].

70-ci illərdə və 80-ci illərin əvvəllərində Heydər Əliyevin xalq təhsilinin inkişafı sahəsində həyata keçirdiyi uzaqgörən siyasəti Naxçıvan MR əhalisinin ümumtəhsil səviyyəsinin əhəmiyyətli şəkildə artmasında da özünü göstərdi. Əgər 1970-ci ildə əhalinin hər 1000 nəfərinə 142 ali təhsilli düşürdüsə, 1979-cu ildə bu göstərici təqribən iki dəfə artaraq 277 nəfər təşkil etmişdi. Qadınların da ümumtəhsil səviyyəsi xeyli

artmış, hər 1000 nəfərə 1970-ci ildə 96, 1979-cu ildə isə 244 orta təhsilli qadın düşürdü. İstehsalla məşğul olanların da ümumtəhsil səviyyəsi xeyli artmışdı. Əgər 1970-ci ildə hər 1000 nəfər fəhləyə 273 orta, 324 natamam orta, 198 ibtidai təhsilli düşürdüsə, 1979-cu ildə bu göstəricilər müvafiq olaraq 498, 262, 140 nəfər təşkil etmişdi. Bu tendensiya kolxozçular arasında da müşahidə olunurdu [148, 18].

Muxtar respublika əhalisinin ümumtəhsil səviyyəsinin artması öz növbəsində iqtisadiyyatın yüksək ixtisaslı kadrlarla təmin edilməsinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərdi.

Heydər Əliyev siyasi rəhbərliyə gəldikdən sonra respublikada ali və orta təhsilin inkişafı, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilməyə başladı. Azərbaycan KP-nin XXVIII, XXIX və XXX qurultayında, KP MK-nın oktyabr 1971-ci il, dekabr 1975-ci il və iyun 1979-cu il plenumlarında ali və orta təhsilli kadrların hazırlanması məsələsinə xüsusi diqqət yetirilmiş, bu sahədə qəbul edilmiş qərarlar ali və orta ixtisas təhsilinin təkmilləşdirilməsində mühüm rol oynamışdı. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş təşkilati və ideoloji tədbirlər ali məktəblərdə işgüzar, yaradıcı və sağlam mənəvi-siyasi iqlimin yaranmasına gətirib çıxarmış, tələbələrin ideya-siyasi səviyyəsi, təhsilin keyfiyyəti xeyli yüksəlmişdi.

70-ci illərdə Naxçıvan MR-də yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində uğurlu addımlar atılmağa başlanmışdı.

1971-ci ildə Naxçıvanda Politexnik texnikumu, 1972-ci ildə Naxçıvan Pedaqoji İnstitutu, 1975-ci ildə isə orta ixtisas musiqi məktəbi fəaliyyətə başladı. Muxtar respublikada ali və orta ixtisas məktəblərində tələbələrin sayı da əhəmiyyətli dərəcədə artdı. Əgər 1970-ci ildə burada 1,1 min tələbə təhsil alırdısa, 1980-ci ildə artıq 3,8 min (3,4 dəfə çox) tələbə təhsil alırdı (122, 63). 1970-ci ildə orta ixtisas təhsili müəssisələrini yalnız 414 nəfər bitirmişdi. 1985-ci ildə ali və orta təhsilli mütəxəssislərin sayı 1114-ə çatmışdı [124, 68].

Muxtar respublikada iqtisadiyyatın sürətlə inkişafı ixtisaslı mütəxəssislərə tələbatı daha da artırdı. Sənaye müəssisələrinin orta ixtisas mütəxəssislərinə tələbatının ödənilməsində Naxçıvan Politexnik texnikumu müəyyən rol oynadı. 1973-1980-ci illərdə burada 1125 mütəxəssis hazırlanmış və əsasən sənaye müəssisələri və tikinti təşkilatlarına göndərilmişdi.

Naxçıvan MR-in kənd təsərrüfatının mütəxəssis kadrlarla təmin edilməsində əsas rolu Naxçıvan Sovxoz texnikumu oynayırdı. 1971-1980-ci illərdə burada 1946 mütəxəssis hazırlanmışdı ki, bu da əvvəlki onillikdən (1961-1970-ci illər) 1,9 dəfə çox idi. Aqrar sahənin mexanizator kadrlarla təmin edilməsi ilə Sovxoz texnikumu və kənd texniki-peşə məktəbləri məşğul olurdu. 1971-1975-ci illərdə Sovxoz texnikumunda 167, 6 kənd texniki-peşə məktəbində isə 575 mexanizator kadr hazırlanmış, 1976-1980-ci illərdə onların sayı müvafiq olaraq 170 və 625 olmuşdu. Nəticədə muxtar respublikanın kənd təsərrüfatında mexanizator kadrların sayı 1970-ci ildə 1184 nəfərdən 1980-ci ildə 1805 nəfərə çatmışdı [4, 195].

Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq Naxçıvan MR-in iqtisadiyyatında, maarif və mədəniyyət

sahələrində ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı xeyli artmışdı. Belə ki, əgər 1970-ci ildə muxtar respublikada 3159 ali təhsilli mütəxəssis çalışırdısa, 1980-ci ildə onların sayı 7875-ə çatmış və ya 2,4 dəfə artmışdı. Həmin dövrdə orta ixtisas təhsilli mütəxəssislərin sayı 4827-dən 7425 nəfərə qədər, yəni 1,5 dəfə artmışdı. 1971-1980-ci illərdə ali və orta ixtisas təhsilli mühəndis və texniklərin sayı 2,2 dəfə, aqronom, zootexnik, baytar həkimi və meşəçilərin sayı isə 1,7 dəfə artmışdı [123, 67].

Ali və orta ixtisas təhsilli mütəxəssislərin sayının artması muxtar respublika əhalisinin ümumtəhsil səviyyəsinin xeyli dərəcədə artmasına və fəaliyyət sahələrində bilikli, perspektivli kadrların üstünlüyünə şərait yaratdı. Belə ki, 1970-ci ildə hər 1000 nəfər məşğul əhaliyə 159, 1979-cu ildə isə 198 ali və orta ixtisas təhsilli mütəxəssis düşürdü. Həmin dövrdə hər 1000 nəfər fəhləyə düşən ali, natamam ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 31 nəfərdən 52 nəfərə çatmış, kolxozçularda bu göstərici müvafiq olaraq 31 və 33 nəfər olmuşdu. Əgər 1970-ci ildə istehsalatda çalışan hər 1000 nəfər qadının 94-ü ali, natamam ali və orta ixtisas təhsilli idisə, 1979-cu ildə bu rəqəm 119-a çatmışdı (148, 32).

Həmin illərdə iqtisadiyyatda məşğul olan hər 1000 nəfərə düşən ali və orta ixtisas təhsilli şəxslərin sayına görə Naxçıvan MR ən yüksək göstəriciyə nail olmuşdu. Bunu «Pravda» qəzetində göstərilmiş faktlar da sübut edir. Belə ki, həmin göstərici Özbəkistanda 848, Qazaxstanda 807, Azərbaycanda 832, Türkmənistanda 823, Naxçıvan MR-də isə 839-a bərabər idi [165, 1980, 14 iyun].

Azərbaycanda mütəxəssis hazırlığının mühüm forması olan peşə təhsilinin yüksəliş dövrü də Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. 1970-ci illərdə Azərbaycanda texniki-peşə təhsili yeni inkişaf mərhələsinə qədəm qoymuş, texniki-peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7 dəfə, orada təhsil alanların sayı isə 2,5 dəfə artmışdı. Həmin dövrdə Azərbaycanda Heydər Əliyevin başçılığı ilə gedən quruculuq prosesi, sənayenin, kənd təsərrüfatının coşğun inkişafı yüksək ixtisaslı fəhlə kadrlarına tələbatı artırmış və bu tələbat birinci növbədə texniki-peşə təhsili şəbəkəsinin inkişafını şərtləndirmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1969-cu ilin sonlarında Azərbaycan KP MK tərəfindən «Texniki-peşə təhsili sistemi məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında» xüsusi qərarın qəbul edilməsi fəhlə kadrlarının yetişməsində mühüm rol oynadı.

Heydər Əliyevin hakimiyyətinin ilk iki ili ərzində Azərbaycanda 16 yeni texniki-peşə məktəbi yaradılmış, 20 TPM orta texniki məktəbə çevrilmişdi. Azərbaycanda texniki-peşə təhsilinin inkişafında Azərbaycan KP MK və respublika hökumətinin birgə qəbul etdikləri qərarlar: «Azərbaycan SSR-də texniki-peşə təhsilinin daha da inkişaf etdirilməsi haqqında» noyabr 1971-ci il və «Azərbaycan SSR-də texniki-peşə təhsili sisteminin inkişafının bəzi məsələləri haqqında» may 1975-ci il tarixli qərarları da mühüm rol oynadı.

Bu dövrdə Naxçıvan MR-də texniki-peşə təhsili sisteminin inkişafına ciddi diqqət yetirilirdi. 1972-ci ilin oktyabrın 18-də Naxçıvan Vilayət Partiya Komitəsi «Naxçıvan MSSR texniki-peşə məktəblərində ideya-siyasi tərbiyə işinin vəziyyəti

haqqında» məsələni, 31 yanvar 1973-cü ildə isə «Naxçıvan MSSR texniki-peşə məktəblərində təhsil sisteminin daha da təkmilləşdirilməsi haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarının yerinə yetirilməsi, gedişi haqqında» məsələni müzakirə etdi. İxtisaslı kadrların hazırlanmasını yaxşılaşdırmaq və tərbiyə işinin səviyyəsinin artırmaq məqsədilə muxtar respublika Nazirlər Soveti yanında Texniki-Peşə Təhsili İdarəsi yaradıldı.

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Kənd orta texniki-peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında» da qərar qəbul edilmiş, bu qərardan sonra 4 il ərzində Azərbaycanda texniki-peşə məktəblərinin sayı 3 dəfə artaraq 44-ə çatdırılmış, bütün rayonlarda peşə məktəbləri yaradılmışdı. Heydər Əliyevin göstərişi ilə 1977-1980-ci illərdə texniki-peşə təhsili sisteminin iqtisadi və sosial inkişaf planı təsdiq olundu və həyata keçirilməyə başlandı. Plana uyğun olaraq peşə təhsili müəssisələrində 235 peşə və ixtisas üzrə 43 nazirlik və baş idarə üçün ixtisaslı fəhlə kadrlarının hazırlanması həyata keçirildi.

1970-1982-ci illərdə Naxçıvan MR-də texniki-peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, həmin illərdə TPM şəbəkəsi genişlənmiş və oradakı şagirdlərin sayı artmışdır. Belə ki, əgər 1970-ci ildə 2 TPM-də 799 nəfər oxuyurdusa, 1975-ci ildə 3 TPM-də 1238, 1980-ci ildə isə 8 TPM 2053 nəfər təlim və təhsil alırdı. 1975-ci illə müqayisədə 1980-ci ildə TPM -ə qəbul 1,5 dəfə, 1970-ci illə müqayisədə isə 2,5 dəfə artmışdı. Ümumilikdə 1971-1980-ci illərdə Naxçıvan MR texniki-peşə məktəblərində 9849 ixtisaslı fəhlə

kadrları hazırlanmışdı ki, bu da 1966-1970-ci illərdəkindən dəfələrlə çox idi. Fəhlə kadrlarının hazırlanması həmçinin on birinci beşillikdə də geniş vüsət almışdır. Həmin dövrdə TPM-ləri də 6513 fəhlə hazırlanmışdı ki, bu da 1970-1980-ci ildə hazırlanmış bütün fəhlə kadrlarının 54 faizini təşkil edirdi [91, v.53]. 1971-1980-ci illərdə sənayeyə 1315, kənd təsərrüfatına 5315, tikintiyə 985, rabitə və nəqliyyat müəssisələrinə 281, xalq təsərrüfatını digər sahələrinə isə 1627 ixtisaslı fəhlə göndərilmişdi. Bu ərəfədə istehsalat sahələrində artıq öz işini dərindən bilən, səriştəli fəhlələr, ustalar çalışırdılar ki, bu da texniki-peşə məktəblərinin tədris sahəsində səmərəli işinin nəticəsi idi.

70-ci illərdə icbari səkkizlik təhsilin həyata keçirilməsində və icbari onillik təhsilə keçiddə əldə edilən uğurlar texniki-peşə məktəblərinə qəbul olunan şagirdlərin səviyyəsinin keyfiyyətcə yüksəlməsinə kömək etdi. Əgər 1970-ci ildə texniki-peşə məktəblərinə daxil olanların 89 faizi 8-10 illik təhsil bazasına malik idisə, 1975-ci ildə bu göstərici 95, 1980-ci ildə isə 99,6 faiz təşkil etmişdi.

İctimai istehsalda ən yeni texnikanın tətbiqi və bununla əlaqədar əməyin məzmununda və xarakterində baş verən dəyişikliklər TPM-də öyrədilən ixtisasların sayının artmasına səbəb oldu. Əgər 1970-ci ildə muxtar respublikanın texniki-peşə məktəblərində 9 ixtisas üzrə kadrlar hazırlanırdısa, 1975-ci ildə onların sayı 12-yə, 1980-ci ildə isə 22-yə çatdırılmışdı.

Texniki-peşə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müəllimlərlə, istehsalat təlimi ustaları və tərbiyəçilərlə təmin edilməsi sahəsində atılan addımlar sayəsində emalatxanaların sayı 5-dən 28-ə, kabinə və

laboratoriyaların sayı isə 16-dan 49-a çatdırıldı. Əgər 1970-ci ildə texniki-peşə məktəblərində 44 müəllim, usta və tərbiyəçi var idisə, 1975-ci ildə onların sayı 146-ya, 1980-ci ildə isə 289-a çatmışdı.

Pedaqoji kadrların keyfiyyət tərkibində də dəyişikliklər baş vermişdi. 1980-ci ildə 62 müəllimdən 56-sı ali, 6-sı orta ixtisas təhsilinə malik idi, halbuki 1970-ci ildə 44 texniki-peşə məktəbi işçisindən yalnız birinin ali təhsili var idi. Qalan 18-nin orta ixtisas, 25-nin isə orta təhsili var idi [4, v.195].

1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsində işləyərkən Heydər Əliyevin rəhbərlik etdiyi sahələrdən biri də ümumi təhsildə, o cümlədən texniki-peşə təhsili sistemində islahatların hazırlanması oldu. İslahat proqramında orta texniki-peşə məktəblərinin sayının artırılması, əmək fəaliyyətinə başlamazdan əvvəl bütün gənclərə peşələrə yiyələnmək imkanının yaradılması, gənclərin tam təhsilə yiyələnməsi nəzərdə tutulmuşdu. Lakin Heydər Əliyevin ali hakimiyyətdən uzaqlaşdırılmasından sonra SSRİ-də baş verən siyasi proseslər bu proqramların da həyata keçirilməsinə imkan vermədi.

Heydər Əliyev Azərbaycanda fundamental elmin inkişafına xüsusi qayğı və diqqət göstərirdi. Bu qayğı və diqqətin ən bariz nümunələrindən biri heç şübhəsiz, Naxçıvan MSSR-də fundamental elm sisteminin təşəkkül tapması oldu. Vaxtilə heç bir elmi idarəsi olmayan Naxçıvan MR-də 70-ci illərdə elm mərkəzi, ali məktəb, təcrübə zavodları, layihə-konstruktor büroları və onlarla elmə xidmət edən təşkilat yaradılmışdı. Azərbaycan KP MK və respublika hökumətinin qərarı ilə 1972-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin yaradılması

bölgədə elmin geniş inkişafına mühüm təsir göstərdi. Mərkəzin yaradılmasının əsas təşəbbüskarı Heydər Əliyev özü oldu. Onun təşəbbüsü ilə Azərbaycan KP MK və respublika hökuməti 8 yanvar 1974-cü il tarixli məlum qərarında Naxçıvan Elm Mərkəzi nəzdində Naxçıvan şəhəri ətrafında respublikanın bitki ehtiyatlarının tədqiqatı və öyrənilməsi məqsədi ilə Botanika bağının yaradılması, Naxçıvan şəhəri hüdudunda, ilk növbədə Mömünə Xatun tarixi abidəsi ərazisində arxeoloji qazıntılar aparmaq məsələsi qoyulmuşdu [18, v.94]. Azərbaycan elminin sürətli inkişafında, mühüm elmi-texniki problemlərin həllində Naxçıvan alimləri də öz töhfələrini verməyə başlamışdılar. Artıq 1983-cü ildə NEM-də işləyən elmi kadrların sayı 1972-ci ilə nisbətən 15 dəfə artmışdı. Muxtar respublikada elmin maddi-texniki bazası da xeyli gücləndirilmişdi. 80-ci illərin ortalarında NEM-də 150-dən artıq işçi 14 mövzu üzrə elmi-tədqiqat işi aparırdı. Yerli alimlərin iştirakı ilə Darıdağ termal suyunun kompleks emalı üzərində aparılan tədqiqatlar nəticəsində karbon qazının alınma və təmizləmə texnologiyası işlənib hazırlanmış və zavod miqyasında həyata keçirilmişdi. Yeyinti sənayesində istifadə üçün bir sıra boyaların və bioloji aktiv maddələrin Sarıçiçəkdən alınması metodikasının işlənib hazırlanmasında NEM-in fizioloq alimləri mühüm nəticələr əldə etmişdilər. Onlar birinci olaraq müəyyən etmişlər ki, Darıdağ termal suyu heyvanlara nisbi stimulyator təsiri göstərir [122, 6-7].

Heydər Əliyev Naxçıvanda elmin inkişafı üçün daha geniş imkanlar yaradılmasına çalışır, burada olarkən Naxçıvan Elm Mərkəzinə, digər elmi müəssisələrə baş çəkməyi unutmurdu. Xüsusən 1980-ci ilin mayında muxtar respublikaya səfərində o,

NEM, Batabat astrofizika rəsədxanasında, Ordubadda yerləşən «Xəzər» xüsusi konstruktor bürosunda olmuş, elmi tədqiqat işlərinin vəziyyəti ilə yaxından tanış olmuşdu. O, qısa müddətdə Naxçıvanda elmin inkişafı və kadrların hazırlanması sahələrində böyük uğurlar əldə edəcəyinə əmin idi. Müdrik şəxsiyyət o zaman dahiyanə şəkildə göstərirdi: «İndi elmin inkişafı sahəsində Naxçıvan, necə deyərlər, təkər üstədir. Əgər siz imkanlardan istifadə edə bilsəniz, Naxçıvan gələcəkdə elmin inkişafında öz yaxşı yerini tuta bilər. Elmin inkişafı nəticəsində isə Naxçıvanın ümumi istehsal qüvvələri, bütün təbii sərvətləri həm muxtar respublikamız üçün, həm bizim vətənimiz üçün yaxşı istifadə oluna bilər» [99, v.112-113]. Heydər Əliyevin o dövrdə Naxçıvanda elmin inkişafı imtiqamətində atdığı addımlar nəticəsində qısa müddətdə muxtar respublikada böyük elmi potensial yaradıldı və bu gün Naxçıvanda elmin inkişaf səviyyəsinin mənzərəsi ulu öndərimizin uzaqgörənliyini bir daha bizə sübut etmiş olur.

Naxçıvan alimləri Azərbaycan elmi əlaqələrində fəal iştirak edirdilər. Naxçıvan Elm Mərkəzində 10 problem üzrə tədqiqat aparılırdı. Bu problemlərin tədqiqində həm Azərbaycan, həm də keçmiş SSRİ-nin elmi-tədqiqat müəssisələri bilavasitə məşğul olurdular. Aparılan tədqiqatların əsas məqsədi muxtar respbulikanın təbii resurslarından daha səmərəli istifadə edilməsi yollarının müəyyənləşdirilməsi idi. Naxçıvan alimlərinin digər respublikalarla birgə tədqiqatları öz müsbət nəticəsini vermişdi. Belə ki, 1984-cü ildə Naxçıvan Elm Mərkəzinin Batabat astrofizika rəsədxanasında müxtəlif morfoloji tipli qalaktikadan kənar obyektlər haqqında yeni məlumatlar alınmışdı. Bu iş SSRİ EA P.K. Şternberq adına

Dövlət Astronomiya İnstitutu ilə birgə, Bolqarıstan Rəsədxanasının əməkdaşlarının iştirakı ilə həyata keçirilmişdi [167, 20-21].

Beləliklə, Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə xalq təhsilinin inkişafı sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvan MR-də maarifin daha da inkişaf etdirilməsi, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların pedaqoji kadrlarla təmin edilməsində ciddi uğurlar əldə edilmişdi. Orta məktəblərin sayı artmış, onların strukturunda mühüm dəyişikliklər baş vermişdi. İşləyən gənclərin orta təhsilə cəlb edilməsində də uğurlu işlər aparılırdı. Ali və orta ixtisas təhsilli kadrların hazırlanması sahəsində də böyük uğurlar əldə edilmiş, nəticədə əhalinin ümumtəhsil səviyyəsi xeyli yüksəlmişdi. Texniki-peşə təhsili şəbəkəsinin genişləndirilməsi və orada təhsil alan şagirdlərin sayının artması muxtar respublika iqtisadiyyatının ixtisaslı kadrlara olan tələbatının ödənilməsinə kömək etdi. Bütün bu amillər Heydər Əliyevin təhsil strategiyasının bariz nəticələri idi.

Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Naxçıvan MR-də elmin inkişafında mühüm nəticələr əldə edildi və muxtar respublikanın bugünkü elmi uğurlarının əsası qoyuldu.

## 3.2. Muxtar Respublikada mədəni quruculuq

Heydər Əliyev xalqımızın mədəniyyətinin, mənəvi dəyərlərinin qorunub inkişaf etdirilməsi, milli ruhunun, özünüdərkinin gücləndirilməsi naminə dövrün bütün imkanları daxilində var qüvvəsi ilə çalışır, bütün hakimiyyət

strukturlarından öz fəaliyyətlərində milli-mənəvi dəyərləri üstün tutmağı tələb edirdi.

Azərbaycan xalqının mədəni, bədii-estetik, ideya-siyasi səviyyəsinin yüksəldilməsində, onun mədəni ehtiyaclarının təmin edilməsində mədəni-maarif işinin ən mühüm amillərdən biri olduğunu aydın dərk edən Heydər Əliyev bu sahəni daim öz diqqət mərkəzində saxlayırdı. O, dəfələrlə əhaliyə mədəni xidmət sisteminin təkmilləşdirilməsi, bütün iri yaşayış məntəqələrində, rayon mərkəzləri və kəndlərdə mədəni-maarif müəssisələrinin, mədəniyyət ocaqlarının tikilməsi, onların ixtisaslı kadrlarla təmin edilməsi, kütləvi informasiya vasitələrinin, əhalinin müxtəlif özünütəhsil formalarının inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. Bu zaman o, əsas diqqəti əməkçilərin istirahətinin təşkilində mədəni-maarif müəssisələrinin rolunun artırılmasına yönəltməyi tələb edirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illər – 80-ci illərin əvvəlləri mədəni-maarif müəssisələrinin genişləndirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, xüsusən kənd yerlərində mədəniyyət evlərinin, klubların, kitabxanaların və digər sosial-mədəni obyektlərin tikintisinin sürətləndirilməsi ilə əlamətdar olmuşdur. Bilavasitə onun qayğısı nəticəsində mədəni-maarif müəssisələrinə ayrılan xərclərin həcmi ildən-ilə artırdı. Məsələn, mədəni-maarif müəssisələrinin saxlanılması üçün 1979-cu il dövlət planına nisbətən 1980-ci ildə 6,5% çox (32,9 mln. manat), 1982-ci ildə isə 1980-ci ilə nisbətən 20%, 1981-ci ilə nisbətən isə 8,2% çox vəsait ayrılmışdı [69, 181].

Ümumilikdə, 1969-1982-ci illərdə Azərbaycanda 1155 kitabxana və 1316 klub tikilib istifadəyə verilmişdi. Həmin

illərdə inşa edilmiş mədəni-maarif müəssisələrinin sayı Sovet hakimiyyətinin bütün əvvəlki dövrlərindən dəfələrdə çox idi [69, 184].

Naxçıvan MR-də həmin illərdə ictimai-iqtisadi həyatın bütün sahələrində əldə edilmiş nailiyyətlər mədəniyyətin inkişafı, mədəni-maarif işinin canlanması üçün də əlverişli şərait yaratdı.

1970-1980-ci illərdə Naxçıvan MR-də 83 yeni klub, 51 kitabxana tikilərək istifadəyə verilmiş, 2 xalq teatrı yaradılmış, mədəni-maarif müəssisələri üçün 38873 min manatlıq avadanlıq və texniki vasitələr alınmışdı [118, v.5]. Bu isə Naxçıvan kimi o qədər də böyük olmayan ərazi üçün o dövrə görə çox böyük göstərici idi. Yəni bu diyarın mədəni çiçəklənmə zamanının bariz nümunəsi sayıla bilərdi.

1980-ci ildə Naxçıvanda muxtar respublika fəallar yığıncağında çıxışı edərkən Heydər Əliyev qeyd etmişdi ki, bizim məqsədimiz muxtar respublikada təkcə iqtisadiyyatı inkişaf etdirmək deyil, biz çalışırıq ki, Naxçıvan zəhmətkeşlərinin rifah halı da yaxşılaşsın, burada elm, mədəniyyət daha yaxşı inkişaf etsin [110, v.112].

Əhali arasında mədəni-maarif işinin aparılmasında kitabxanalar xüsusi rol oynayırdı. Heydər Əliyev Azərbaycanın hər bir kəndində, hər bir yaşayış məntəqəsində kitabxanaların açılması, onların kitab fondlarının artırılması, xarici ölkələrdən, digər müttəfiq respublikalardan alınmış kitab və jurnallarla təchiz olunmasına çalışırdı. 1975-ci ildə Azərbaycanda kitabxanaların sayı 110 vahid artırılmış, 1976-1980-ci illərdə dövlət büdcəsi hesabına 415 kitabxana tikilmişdi. 1974-cü ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin

qərarı ilə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 50 illik yubileyinin keçirilməsi respublikanın mədəni həyatında mühüm hadisə olmaqla bərabər, əhalinin kitaba olan marağının artmasına da ciddi təsir göstərdi.

1970-ci ildə Naxçıvan MR-də 1286 nüsxə kitab və jurnal fondu olan 232 kitabxana var idisə, 1975-ci ildə muxtar respublikada 1559 min kitab fondu olan 238 kitabxana, 1980-ci ildə 1823 min kitab fonduna malik 244 kitabxana var idi. 1985-ci ildə kitabxanalarının sayı 277-ə, bu kitabxanalardakı kitab və jurnalların nüsxə sayı 2279 minə çatmışdı. 70-ci illərdə Naxçıvan MR-in, demək olar ki, bütün kəndlərində kitabxanalar açılmışdı. Muxtar respublikanın kənd yerlərində1970-ci ildə 210, 1975-ci ildə 216, 1980-ci ildə 223, 1985-ci ildə 240 kitabxana fəaliyyət göstərirdi [123, 86-87; 120, 63; 124, 69].

1980-ci ildə Naxçıvan MSSR-də kitabxanaların mərkəzləşdirilməsi başa çatdırılmışdı.

Bütün respublikada olduğu kimi, Naxçıvan MR-də kitab satışının həcmi ildən-ilə artırdı. Bu məqsədlə Naxçıvan şəhərində, rayon mərkəzlərinin hər birində kitab mağazası tikilmiş, muxtar respublika kəndlərində səyyar kitab satışı təşkil edilmişdi. Heydər Əliyevin kitaba, xalqın maafrilənməsinə göstərdiyi qayğı əhaliyə kitabxana xidmətinin yaxşılaşmasına da öz müsbət təsirini göstərmişdi. Təkcə 1980-ci ildə muxtar respublikanın kütləvi kitabxanalarında 31683 min kitab oxuculara verilmişdi ki, bu da 1970-ci ildəkindən 19 dəfə çox idi. Həmin illər ərzində oxucuların sayı 18,4 faiz artaraq 144335 nəfərə çatmışdı [4, v.195]. Muxtar respublikada ictimai-siyasi ədəbiyyata da maraq xeyli artmışdı. Əgər 1970-ci ildə ictimai-siyasi mövzuya aid 156733 kitab verilmişdisə,

1980-ci ildə onların sayı 282500-ə çatmışdı. Kitabxanalar əslində mədəni-kütləvi tədbirlərin, oxucu konfranslarının, ədəbi-bədii gecələrin keçirildiyi yerlərə çevrilmişdi ki, bu da əhalinin, sıravi vətəndaşların mənəvi aktivliyinə, dünyagörüşünün lazımi məcraya düşməsinə lazımi yardım göstərə bilirdi. 1970-ci ildə kitabxanalarda 14886 mədəni-kütləvi tədbir keçirilmiş, 1980-ci ildə onların sayı 16314 olmuşdu [4, v.195]. Kitabxanalarda keçirilən tədbirlər əsasən Sovet dövlətinin əlamətdar günləri ilə əlaqədar olsa da, Azərbaycan xalqının tarixi hadisələrinə, görkəmli adamların həyatı ilə bağlı mövzulara da geniş yer ayrılırdı.

Qeyd etmək lazımdır ki, uğurlarla yanaşı kitabxanaların işində bir sıra nöqsanlar da mövcud idi. Belə ki, kənd yerlərində kitabxanaların çoxu yararsız binalarda yerləşirdi, kitabxanaların yeni kitablarla zənginləşdirilməsinə kifayət qədər diqqət yetirilmirdi. Əksər hallarda kütləvi-mədəni tədbirlər formal olaraq keçirilirdi. Bəzi kitabxanalarda müvafiq ixtisası olmayan şəxslər işləyirdi.

Kitabxanaların, xüsusən kənd kitabxanalarının yüksək ixtisaslı kadrlarla təmin edilməsi istiqamətində də müəyyən işlər görülürdü. Naxçıvan MR-in kitabxana sistemində işləyənlərin əksəriyyəti orta təhsilli olduğundan bu sahədə ixtisasların artırılmasına xüsusi diqqət yetirilirdi. Problemin həllində ADU-nun kitabxanaçılıq fakültəsinə, Bakı kitabxanaçılıq texnikumuna naxçıvanlı abituriyentlərin daha çox qəbul edilməsi üçün təbliğat işinin gücləndirilməsi mühüm yer tuturdu.

Mədəni-maarif müəssisələrinin yüksək ixtisaslı kadrlarla təmin edilməsi isə xeyli yaxşılaşmışdı. 1980-ci ildə muxtar respublikanın mədəni-maarif müəssisələrində 3900 nəfər

çalışırdı ki, bu da 1970-ci ilin göstəricisindən 1,5 dəfə çox idi [120, 49]. Mədəni-maarif işçilərinin tərkibində də müsbət keyfiyyət dəyişiklikləri baş vermişdi. Həmin illərdə ali təhsilli işçilərin sayı 22 faiz, orta ixtisas təhsilli işçilərin sayı isə 32 faiz artmışdı. Mədəni-maarif işçiləri ixtisaslarının artırılması məqsədilə müntəzəm olaraq Moskva, Bakı və digər şəhərlərdəki kurslara göndərilirdi. Təkcə 1980-ci ildə 150-dən artıq mədəni-maarif işçisi təkmilləşdirmə kursu keçmişdi.

Heydər Əliyev Azərbaycanın bütün bölgələrinin, o cümlədən Naxçıvan Muxtar Respublikasının mədəni yüksəlişini təmin etmək üçün sosial-mədəni obyektlərin tikintisini sürətləndirməyi tələb edir, bu məqsədlə MK və respublika hökuməti səviyyəsində müvafiq qərarlar qəbul edilməsinə nail olurdu. Naxçıvan MR-in mədəniyyətinin yüksəldilməsi məqsədi ilə Azərbaycanın nazirlik və komitələri, eləcə də Naxçıvan Vilayət Partiya Komitəsinə, Nazirlər Sovetinə daim göstərişlər verirdi. Bunun əməli nəticəsi özünü Naxçıvan MR-də mədəniyyət müəssisələrinin sayının durmadan artmasında göstərirdi.

Klub müəssisələrinin sayı Naxçıvan MR-də 1970-ci ildə cəmi 166 vahid təşkil edirdisə və onlardan 142-si kənd yerlərində yerləşirdisə, 1975-ci ildə onların sayı müvafiq olaraq 218 və 192, 1980-ci ildə 229 və 209, 1985-ci ildə 255 və 229 təşkil edirdi [123, 86-87; 120, 63; 124, 69].

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində Naxçıvan şəhərində Mədəniyyət sarayının tikintisinə başlanıldı. Heydər Əliyev bu sarayın tikintisi ilə daim maraqlanırdı. 1982-ci ilin oktyabrında Naxçıvanda olarkən ümummilli lider sarayın təhvil müddətinin gecikdiril-

diyinin şahidi olmuş, bu faktın dözülməz olduğunu inşaatçıların, muxtar respublika rəhbərliyinin nəzərinə çatdırıb onları kəskin tənqid etmişdi [128, 1982, 5 oktyabr)] Nəhayət, 1984-cü ildə Mədəniyyət sarayının istifadəyə verilməsi ilə burada geniş dövlət tədbirlərinin, konsertlərin, müsabiqələrin keçirilməsi mümkün oldu.

Heydər Əliyev xalqımızın mədəni səviyyəsinin inkişafında kinonun rolunu yüksək qiymətləndirir, onu insan tərbiyəsində mühüm təsir vasitəsi hesab edirdi. Bu baxımdan 1984-cü ilin mayında Moskvada işləyərkən onun kino işçilərinin ümumittifaq müşavirəsindəki çıxışı əlamətdar idi [165, 1984, 19 may]. İncəsənətin mahir bilicisi olan Heydər Əliyev əhalinin geniş kütlələrinin kino sənətinə daha yaxından cəlb edilməsini, onların estetik dünyagörüşünün artırılması üçün kinoteatrların, kino qurğularının tikintisinə diqqət yetirməyi tövsiyə edirdi. Belə bir fakt diqqəti cəlb edir ki, 1976-1980-ci illərdə 140, 1980-ci ildə isə 45 yeni kinoteatr və kino qurğusu istifadəyə verilmişdi [67, 1981, 3 iyul; 55, 183].

1970-ci ildə Naxçıvan MR-də 131 (onlardan 115-i kənd yerlərində), 1975-ci ildə 180 (onlardan 152-si kənddə), 1980-ci ildə 189 (onlardan 165-i kənddə), 1985-ci ildə isə müvafiq olaraq 190 (161) kino qurğusu var idi [120, 86-87; 124, 71]. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Naxçıvan MSSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli qərarında 1974-1979-cu illərdə muxtar respublikanın kəndlərində 20 yeni stasionar kino qurğusunun və 6 yay kinoteatrının – kino meydançasının qurulması nəzərdə tutulmuşdu [18, v.194].

Bütün bunlar öz növbəsində əhaliyə kino xidmətinin həcminin və keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdi. Əgər 1970-ci ildə Naxçıvan MSSR-in kinoteatrında 42500 kinofilm (o cümlədən 3461 sənədli və elmi-populyar və 1519 kənd təsərrüfatı haqqında film) nümayiş etdirilmişdisə, 1980-ci ildə onların sayı müvafiq olaraq 54 min, 7009 və 4518 təşkil etmişdi. Nəticədə kino salonlarına gələnlərin sayı da artaraq 1970-ci ildə 2127 min nəfər, 1980-ci ildə 2615 min nəfər, 1985-ci ildə isə 3166 min nəfər olmuşdu [124, 71].

Naxçıvan MR əhalisinin mənəvi-estetik, vətənpərvərlik tərbiyəsində muzeylər mühüm rol oynayırdı. Göstərilən dövrdə bütün respublikada olduğu kimi, Naxçıvan MR-də də muzeylərin şəbəkəsi genişləndirilmiş, onların işi təkmilləşdirilmiş və yaxşılaşdırılmışdı.

Heydər Əliyevin şəxsi göstərişi ilə Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar Naxçıvan şəhərində Xatirə muzey-salonu (gələcək Lenin muzeyi) yaradılmışdı. 1976-cı ildə onun tapşırığı ilə həmin muzey-salonun gələcək fəaliyyətini müəyyənləşdirmək üçün Naxçıvana mütəxəssislərdən ibarət bir qrup göndərilmişdi. Qrupun rəyi nəzərə alınmaqla Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 18 noyabr 1976-ci il tarixdə Naxçıvan MSSR Tarix muzeyinin şöbəsinin təşkili barədə qərar qəbul etdi [25, v.101].

Azərbaycan KP MK bürosunun 10 noyabr 1980-ci il tarixli qərarı ilə Culfa, İliç (Şərur), Ordubad rayonlarında Dövlət tarix-diyarşünaslıq muzeyləri yaradıldı [40, v.218].

XII əsrin mədəniyyət abidəsi olan Möminə xatun məqbərəsi yanında memarlıq və incəsənət muzeyi təşkil olun-

du. Muxtar respublikada 1970-ci ildə cəmi iki muzey var idisə, 1980-ci ildə onların sayı dörd, 1985-ci ildə isə on birə çatdırıldı.

Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən möhtəşəm xidmətlərindən biri də xalqımızın görkəmli simalarının, elm və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi sahəsində atdığı qətiyyətli və cahanşümül addımlardır. Onun Azərbaycana rəhbərliyi dövründə Bakıda, digər şəhərlərdə çoxlu görkəmli xadimlərimizin ev muzeyləri fəaliyyətə başlamışdı. Məhz Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə 70-ci illərdə və 80-ci illərin əvvəllərində Naxçıvan şəhərində və Şahtaxtı kəndində görkəmli Azərbaycan dramaturqu və şairi Hüseyn Cavidin, Naxçıvan şəhərində görkəmli sərkərdə C.Naxçıvanskinin, Ordubad şəhərində yazıçı-dramaturq M.S.Ordubadinin, akademik Y.Məmmədəliyevin ev muzeyləri yaradılmışdı.

Heydər Əliyev Naxçıvana səfərlərində bu diyarın övladları olan görkəmli şəxsiyyətlərin ev muzeylərinə də baş çəkir, muzeylərin rəy kitablarına öz xoş sözlərini yazırdı. 1980-ci ildə o, Ordubadda olarkən görkəmli Azərbaycan ədibi M.S.Ordubadinin ev muzeyində olmuş, muzeyin eksponatları ona xoş təsir bağışlamışdı. O, həmçinin sovet elminin inkişafında böyük xidmətlər göstərmiş kimyaçı alim Y.Məmmədəliyevin ev muzeyinə də baxmışdı. Heydər Əliyev Naxçıvan şəhərində görkəmli yazıçı C.Məmmədquluzadənin şərəfinə ucaldılmış abidəyə baxmış, onun ətrafında aparılan tikinti-abadlıq işləri ilə tanış olmuşdu.

Həmin səfərində Heydər Əliyev görkəmli memar Ə.Naxçıvaninin inşa etdiyi Mömünə Xatun məqbərəsinə baxmış və

qeyd etmişdi ki, Əcəmi sənətinin incilərini bundan sonra da yaşatmaq, bu üslubda binaların tikintisinə, abidənin ornamentlərindən geniş istifadə edilməsinə diqqət yetirmək lazımdır. Xalqımızın qədim əsrlərdən dövrümüzədək gəlib çıxmış qəhrəmanlıq tarixini özündə əks etdirən sənət abidələrinə yaxşı münasibət göstərilməli, onların mühafizə olunmasına xüsusi fikir verilməlidir [128, 1980, 25 may].

Heydər Əliyev həmin səfərində Hüseyn Cavidin ev muzeyində aparılan tikinti işləri ilə də ətraflı tanış olmuşdu. 1982-ci ildə Heydər Əliyev Naxçıvanda Hüseyn Cavidin adını daşıyan poeziya teatrına gələrək tamaşaya baxmış və əmin olduğunu bildirmişdi ki, bu poeziya teatrı Naxçıvan sakinlərinin, xüsusən Hüseyn Cavidin gənc həmyerlilərinin sevimli istirahət yerinə çevriləcəkdir [128, 1982, 5 oktyabr].

Heydər Əliyev Azərbaycan KP MK-nin I katibi kimi sonuncu dəfə 1982-ci ilin oktyabrında Naxçıvanda olarkən yenidən Əcəmi Naxçıvaninin memarlıq kompleksində aparılan bərpa işləri ilə tanış olmağa ehtiyac duymuş, öz tövsiyələrini vermişdi.

Muxtar respublikanın kənd yerlərində də muzeylərin yaradılmasına təşəbbüs göstərilirdi. Ziyalıların və sovxoz rəhbərliyinin gücü ilə Çərçiboğan və İbadulla kəndlərində (Şərur rayonunda) əmək şöhrəti muzeyləri də yaradılmışdı [4, v.193]. 70-ci illərdə Naxçıvan MR muzeylərinin ekspozisiya sahəsi xeyli genişlənmiş, onlar əsl mədəniyyət və elmi metodik mərkəzlərinə çevrilmişdilər. 1980-ci illərdə muzeylərdə 20370 eksponat nümayiş etdirilirdi ki, bu da 1970-ci ilin göstəricisindən 2,9 dəfə çox idi. Muzeylərdə xidmətin yaxşılaşdırılması nəticəsində oraya gələnlərin sayı artmaqda

idi. Onların sayı 1970-ci illə müqayisədə (52 min) 1980-ci ildə (172 min) 3,5 dəfə, 1985-ci ildə isə (321 min) 6,4 dəfə artmışdı [123, 63; 124, 71].

Muzeylərdə aparılan kütləvi-mədəni işlərin sayı da artmışdı. 1980-ci ildə muxtar respublikanın muzeylərində 2527 ekskursiya təşkil edilmiş, orada 66263 nəfər iştirak etmişdi. 1970-ci illə müqayisədə bu göstəricilər müvafiq olaraq 2,4 və 1,9 dəfə artmışdı. Bu dövr ərzində muzeylər tərəfindən elmi-siyasi və ədəbi mövzularda keçirilmiş mühazirələrin sayı 1,4 dəfə, dinləyicilərin sayı isə 2,6 dəfə çoxalmışdı.

Heydər Əliyev xalqımızın tarixi-mədəni abidələrinin qorunması, bərpası və tanınması sahəsində böyük fəaliyyət göstərirdi. Onun respublikaya rəhbərliyi dövründə bu istiqamətdə onlarla tarixi qərar qəbul edilmişdi. Onun göstərişi ilə tarix və mədəniyyət abidələrinin qorunması və bərpasına ayrılan xərclər ildən-ilə artırılır, tarixi abidələrin tədqiqinə, arxeoloji tədqiqatların aparılmasına xüsusi dövlət qayğısı göstərilirdi.

Bu siyasətə tarixi abidələrlə zəngin Naxçıvan MR-də da ardıcıl əməl olunurdu.

Heydər Əliyev Naxçıvan MR-in sosial-iqtisadi inkişafına aid qəbul edilmiş qərarlara tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı xüsusi bəndlərin salınmasına nail olur, bunun üçün əlavə vəsaitlərin ayrılmasını tapşırırdı. Naxçıvan MSSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Ordubad şəhərinin tarixi hissəsinin planlaşdırılması, Naxçıvan şəhəri hüdudunda, birinci növbədə Mömünə Xatun tarixi abidələri

ərazisində arxeoloji qazıntılar təşkil olunması məsələsi öz əksini tapmışdı.

Heydər Əliyev Azərbaycan klassik memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adının əbədiləşdirilməsinə, onun əsərlərinin gələcək nəsillər üçün qorunub saxlanılmasına xüsusi diqqət yetirirdi. Naxçıvana hər gəlişində Əcəmi Naxçıvaninin yaratdığı möhtəşəm Mömünə Xatun məqbərəsini ziyarət edir, abidənin bərpa edilməsi, ətrafının abadlaşdırılmasına dair öz göstərişlərini verirdi.

1976-cı ildə böyük Azərbaycan memarı Əcəminin anadan olmasının 850 illiyi qeyd edilirdi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK bürosu 12 mart 1976-cı il tarixli iclasında yubileyin 1976-cı ilin oktyabrında keçirilməsi, bu məqsədlə təşkilat komitəsinin yaradılması (təşkilat komitəsinə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Y.Nəbiyev də daxil edilmişdi – Ə.Q.), geniş yubiley tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilmişdi [27, v.229]. Həmin qərara uyğun olaraq Naxçıvan şəhərində Əcəmi Naxçıvaninin yaradıcılığına həsr edilmiş elmi sessiya keçirilmişdi.

O, 1980-ci ildə Naxçıvanda olarkən göstərirdi ki, Naxçıvanın tarixi abidələrini yaxşı qorumaq və onların ətrafında yaxşı iş aparmaq lazımdır. Bu sahədə də təəssüf ki, əvvəlki dövrlərdə geriliyə yol verilib. Tarixi abidələr Naxçıvanın çoxəsrlik tarixinin əyani göstəricisidir. Bu abidələr həm də Naxçıvanın gözəlliyini, tarixi özəlliyini nümayiş etdirir [129, 1980, 5 iyun].

O, müharibədə həlak olmuş insanların xatirəsini daim əziz tutur, müharibə və əmək veteranlarına qayğı və diqqət göstərilməsini tələb edirdi. Bu baxımdan Heylər Əliyevin Sovet İttifaqı qəhrəmanı Nəcəfqulu Rəfiyevin xatirəsinə göstərdiyi münasibət diqqəti cəlb edir. 1975-ci ilin martında Rəfiyevin qohumları adından onun qardaşı müharibə iştirakçısı və partizan Cəlil Rəfiyev Heydər Əliyevə məktubla müraciət etmişdi. Məktubda Sovet İttifaqı Qəhrəmanı N.Rəfiyevin cəbhədəki qəhrəmanlıq və rəşadətindən bəhs edilir, onun üç dəfə qəhrəman adına layiq görüldüyü və yalnız biri haqqında rəsmi məlumat olduğu bildirilirdi.

Məktubdan o da məlum olmuşdu ki, N.Rəfiyev naxçıvanlılar arasında ilk Sovet İttifaqı Qəhrəmanı adı alsa da, Azərbaycanda, Naxçıvanda onun adının əbədiləşdirilməsi üçün heç bir tədbir görülməmişdir. Buna görə də qohumları Heydər Əliyevdən N.Rəfiyevin adının əbədiləşdirilməsini, Ordubad şəhərində qəhrəmana heykəl qoyulmasını, onun üçün Döyüş Şöhrəti muzeyinin yaradılmasını, müharibədən əvvəl təhsil aldığı Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna, Naxçıvan MSSR-də idman işləri üzrə bacarıqlı təşkilatçı olduğuna görə isə Naxçıvan şəhər stadionuna onun adının verilməsini xahiş etmişdilər [23, v.199-201].

Azərbaycan SSR hərbi komissarlığının siyasi şöbəsi də Naxçıvan kənd təsərrüfatı texnikumuna və Bakı şəhərinin küçələrindən birinə N.Rəfiyevin adının verilməsi ilə bağlı müraciət etmişdilər.

Heydər Əliyev bu təkliflərə dərhal reaksiya vermişdi. Onun təşəbbüsü ilə Azərbaycan KP MK bürosu 15 oktyabr 1975-ci il tarixli qərarı ilə [P.№138, §17]. Naxçıvan Kənd təsərrüfatı tex-

nikumuna Sovet İttifaqı Qəhrəmanı N.Rəfiyevin adı verilmişdi [23, v.195]. Eyni zamanda Ordubad şəhərinin mərkəzində qəhrəmanın büstü qoyulmuş, Döyüş Şöhrəti muzeyi yaradılmışdı.

Naxçıvana səfərlərində o, bu diyarda olan Sovet İttifaqı Qəhrəmanlarının abidəsi önünə gedir, onları hörmətlə yad edirdi. Heydər Əliyev respublikanın bütün qəsəbələrində və kəndlərində, Böyük Vətən müharibəsində həlak olanların abidələrinin yaradılmasını tələb edir, Naxçıvanda bu göstərişin lazımi şəkildə yerinə yetirilmədiyini diqqətə çatdırırdı. O, Vətən müharibəsinin iştirakçılarının, əlillərinin, müharibədə həlak olanların xidmətlərini, qəhrəmanlıqlarını əbədiləşdirməyi hamının vətəndaşlıq borcu sayırdı [128, 1980, 5 iyun]. Müharibədə həlak olanların xatirəsinin əbədiləşdirilməsinin gənclərin vətənpərvərlik tərbiyəsinə çox gözəl təsir bağışlayacağını bildirirdi [128, 1980, 5 iyun].

1980-ci ilin mayın 24-də Heydər Əliyev Naxçıvanda müharibə və əmək veteranları ilə görüşərək onların xidmətlərini yüksək qiymətləndirmişdi [128, 1980, 25 may].

Heydər Əliyev Azərbaycanın, o cümlədən Naxçıvan MR-in tarixi hadisələrinin qeyd edilməsi məsələsinə xüsusi önəm vermiş, bu məsələ ilə bağlı bir neçə fərman imzalamışdı.

1974-cü ildə Naxçıvan MSSR-in 50 illiyinin qeyd edilməsi muxtar respublikada əsl xalq bayramına çevrildi.

Hələ 1973-cü il avqustun 28-də Azərbaycan KP MK bürosunda «Naxçıvan MSSR-in 50 illiyi haqqında» məsələ müzakirə edilmiş və 8 bənddən ibarət qərar qəbul edilmişdi. Heydər Əliyevin imzaladığı qərarda Naxçıvanın muxtariyyətinin qeyd edilməsi ilə bağlı yubiley tədbirlərinin 1974-cü

ildə keçirilməsi nəzərdə tutulmuşdu. Həmin qərarın ikinci bəndində Azərbaycan SSR Nazirlər Sovetinə Naxçıvan VPK və MR Nazirlər Soveti ilə birgə muxtar respublikanın iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdirilməsi məsələlərinə baxılması və öz təkliflərini Azərbaycan KP MK-ya təqdim edilməsi tapşırılmışdı [16, v.180]. Qeyd edək ki, məhz bu tapşırığa uyğun olaraq Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin Naxçıvan MSSR-in iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında 8 yanvar 1974-cü il tarixli məlum qərarı qəbul edilmişdi.

Əslində Heydər Əliyev Naxçıvan MR yubileyinin geniş qeyd edliməsini həm də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı məsələlərin həllinin sürətləndirilməsində bir vasitə kimi istifadə edərək Naxçıvan üçün əlavə maliyyə vəsaitlərinin ayrılmasına nail olmuşdu. Belə ki, Azərbaycan KP MK 28 avqust 1973-cü il tarixli qərarında Azərbaycan SSR Maliyyə Nazirliyinə muxtar respublikanın şəhər və qəsəbələrinin abadlaşdırılması üçün 1974-cü il üçün əlavə vəsaitlərin ayrılması məsələsinə baxmağı tapşırmışdı [15, v.186].

Naxçıvan MSSR-in 50 illik yubileyi muxtar respublikanın mədəni, əbədi həyatında böyük canlanma yaratdı. Azərbaycan KP MK Bürosunun 28 avqust 1973-cü il tarixli qərarına uyğun olaraq Sovet hakimiyyəti illərində təsərrüfat və mədəni həyatda muxtar respublikanın qazandığı uğurlara həsr edilmiş, hər biri 5 çap vərəqi həcmində, Azərbaycan və rus dillərində «Naxçıvan MSSR-50» kitabı buraxılmışdı. Azərbaycan (10 çap vərəqi) və rus (5 çap vərəqi) dillərində Naxçıvan yazıçılarının

əsərlərindən ibarət toplu – «Almanax», muxtar respublikanın yazıçılarının 8 adda, 40 çap vərəqi həcmində kitabları nəşr edilmiş, muxtar respublikada yaşayıb-yaradan şairlərin şeirlərinə bəstələnmiş mahnılar toplusu yubiley ərəfəsində işıq üzü görmüşdü.

Yubiley ilində həmçinin «Naxçıvan MSSR 50 ildə» adlı Azərbaycan və rus dillərində suvenir foto-albom, eləcə də, muxtar respublikanın görməli yerlərini əks etdirən açıqcalar komplekti, «Naxçıvan MSSR-50» döş nişanı və yubiley medalı buraxılmışdı.

Yubiley tədbirləri içərisində Azərbaycan SSR Nazirlər Soveti Dövlət kinematoqrafiya komitəsi tərəfindən Naxçıvan MSSR-dən bəhs edən sənədli film də xüsusi əhəmiyyət daşıyırdı.

Heydər Əliyevin imzaladığı Azərbaycan KP MK-nın katibliyinin qərarına əsasən Kirovabad (Gəncə), DQMV və Bakıda Naxçıvan Muxtar Respublikası günləri keçirilmiş, orada muxtar respublikanın bədii kollektivləri konsert proqramı ilə çıxışlar etmişdilər [20, v.62].

Artıq qeyd edildiyi kimi, Naxçıvan MSSR-in 50 illik yubileyinin 1974-cü ilin mayında keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Sov. İKP MK Katibliyinin «Naxçıvan MSSR-in yaranmasının 50 illiyi haqqında» 19 mart 1974-cü il tarixli qərarına uyğun olaraq Azərbaycan KP MK Bürosu 6 sentyabr 1974-cü ildə Naxçıvan MSSR-in yubileyinin 1974-cü il oktyabrın 4-də bayram edilməsi haqqında ikinci qərar qəbul etməli oldu [19, v.172].

Bayram tədbirlərində Heydər Əliyev şəxsən iştirak edərək böyük nitq söyləmiş, Naxçıvan MR-in bayrağına Oktyabr İnqilabı ordenini sancmışdı.

Bayram münasibəti ilə muxtar respublikanın rayonlarında da geniş tədbirlər, mitinqlər olmuş, orada Bakıdan, digər bölgələrdən gəlmiş qonaqlar iştirak etmişdilər. Həmin günlərdə Naxçıvan şəhərində Leninin abidəsi, Naxçıvan MSSR Xalq Təsərrüfatı Nailiyyətləri sərgisi Heydər Əliyevin özü tərəfindən açılmışdı [129, 1974, 4-6 oktyabr]. Muxtar respublikanın 60 illiyi də (1984-cü il) Azərbaycanda böyük təntənə ilə qeyd edilmişdi.

Heydər Əliyevin milli musiqiyə, incəsənətə göstərdiyi dövlət qayğısı nəticəsində Azərbaycan musiqi mədəniyyəti və incəsənəti 70-80-ci illərdə özünün ən yüksək inkişaf səviyyəsinə çatdı, xalqımızın milli-mədəni dirçəlişi yolunda mühüm rol oynamağa başladı. Məhz Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan mədəniyyəti, onun görkəmli nümayəndələri respublikadan kənarlarda geniş tanınmağa başladılar. Heydər Əliyev xalqın daha geniş kütlələrini, xüsusən uşaq və gəncləri mədəniyyətə, musiqiyə, incəsənətə cəlb etmək üçün şəxsi nümunə göstərir, Azərbaycanın paytaxtı ilə yanaşı bölgələrdə də incəsənətin inkişafına səy göstərir, yerlərdə musiqi və incəsənət ocaqlarının şəbəkəsinin genişləndirilməsini təşviq edirdi.

Gənc nəslin mənəvi simasının və estetik tərzinin formalaşmasında, onun dünya musiqi mədəniyyətinin inciləri ilə yaxından tanış olmasında, ifaçılıq sənətinin yüksəldilməsində musiqi məktəbləri böyük rol oynayırdı. Musiqi məktəbləri incəsənət və bədii özfəaliyyət

kollektivlərinin istedadlı gənclərlə zənginləşməsində böyük əməli fəaliyyət göstərirdilər. Heydər Əliyevin bütün Azərbaycanda musiqi təhsilinin inkişafına göstərdiyi qayğı və diqqət Naxçıvanda da öz təsirini göstərirdi. Muxtar respublikada 70-ci illərdə uşaqların musiqi təhsili alması üçün əhəmiyyətli addımlar atılmağa başlanmış, musiqi məktəbləri şəbəkəsi genişlənmişdi. Naxçıvan şəhərində orta ixtisas təhsili verən musiqi məktəbi açılmış, muxtar respublikanın 15 kəndində rayon musiqi məktəblərinin filialları fəaliyyətə başlamışdı.

Musiqi məktəblərinə qəbul da xeyli artırılmışdı. Əgər 1970-ci ildə musiqi məktəblərində 757 şagird oxuyurdusa, 1980-ci ildə onların sayı 1540 nəfərə çatmışdı [115, v.10; 4, v.190]. Musiqi məktəblərinin şəbəkəsinin genişlənməsi, oradakı şagirdlərin sayının artması öz növbəsində muxtar respublikada musiqi təhsilinin, bədii özfəaliyyətinin, professional musiqi sənətinin inkişafına müsbət təsir göstərdi.

Heydər Əliyev Azərbaycanda professional milli və klassik musiqinin, bəstəkarlıq və ifaçılıq sənətinin, xalq musiqisi və özfəaliyyət sənətinin inkişafı və tərəqqisi üçün var qüvvəsi ilə çalışır, bəstəkarlar və ifaçılar üçün normal yaradıcılıq və məişət şəraitinin yaradılması, onlara fəxri adların verilməsi, yubileylərin keçirilməsi, respublikadan kənarda tanınmaları üçün bütün imkanlardan istifadə edirdi. Bütün bunların sayəsində 70-80-ci illərdə Azərbaycan musiqi sənəti özünün ən yüksək tərəqqi zirvəsinə çatdı.

Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyətinin inkişafında göstərdiyi ən mühüm xidmətlərdən biri geniş əhali kütləsinin professional və klassik musiqi sənəti ilə daha

yaxından tanış olmasına, təkcə Bakıda deyil, eləcə də Azərbaycanın şəhər və bölgələrində professional musiqi-mədəniyyətinin, bəstəkarlıq və ifaçılıq sənətinin təşəkkül taparaq inkişafına nail olması idi. Onun təşəbbüsü ilə bu istiqamətdə Mərkəzi Komitənin bürosu və respublika hökuməti səviyyəsində mühüm qərarlar qəbul edilmiş və icra olunmuşdur.

1970-80-ci illər Naxçıvanda musiqi sənəti, o cümlədən bəstəkarlıq sahəsi də inkişaf etməkdə idi. İlk dəfə olaraq 1976-cı ildə Naxçıvan şəhərində muxtar respublika bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı hazırlanmış və uğurla həyata keçirilmişdi. Konsertdə Naxçıvanın on iki bəstəkarının müxtəlif janrlı əsərləri ifa olunmuşdu.

1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvanda keçirilmiş səyyar plenumunda İttifaqın Muxtar Respublika təşkilatı yaradıldı. Ramiz Mirişli təşkilatın sədri, Məmməd Ələkbərov məsul katibi seçildi.

70-80-ci illərdə Naxçıvanda professional musiqi ifaçılığı öz inkişaf zirvəsinə qədəm qoydu. Burada yaşayıb-yaradan bəstəkarlardan Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səidə Məmmədova, Nazim Quliyev, Məmməd Cavadov, Vahid Axundov və digərlərinin müxtəlif musiqi janrlarında bəstələdiyi əsərlər yüksək profesionallıq səviyyəsi ilə nəzəri cəlb edirdi.

1984-cü ildə Naxçıvan Dövlət Filarmoniyasının təşkil olunması muxtar respublikanın mədəni həyatında mühüm hadisə oldu. «Araz» dövlət Mahnı və Rəqs ansamblı filarmoniyanın tərkibinə daxil edildi. Burada Azərbaycan xalq çalğı alətləri və kamera orkestrləri təşkil olundu. N.Quliyev

filarmoniyanın bədii rəhbəri, H.Qurbanov xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş direktoru, İ.Abdulin isə kamera orkestrinin baş direktoru təyin olundular. Bu musiqi kollektivləri qısa müddətdə böyük nailiyyətlər qazanmış, muxtar respublikada və ondan kənarda bir sıra konsert proqramları ilə çıxış etmişdi.

Heydər Əliyevin hakimiyyəti dövründə bölgələrdə musiqi sənətinin inkişafı məqsədilə bir neçə müsabiqə və festivallar keçirilmişdi ki, onların iştirakçıları əsasən respublika regionlarını təmsil edirdilər.

Heydər Əliyev Azərbaycan folklor musiqisinin, muğamın, aşıq sənətinin dirçəldilməsinə, bədii özfəaliyyət kollektivlərinin yaradılmasına xüsusi diqqət yetirirdi. Onun bu siyasəti Naxçıvan MR-də öz təzahürünü tapırdı. 70-ci illərdə Naxçıvan MR-də, xüsusən kənd yerlərində çoxlu mədəniyyət və özfəaliyyət kollektivləri yaradılmış, qısa müddət ərzində onların şöhrəti muxtar respublikanın hüdudlarını aşaraq keçmiş SSRİ-nin bir çox respublikalarında yayılmışdı.

Naxçıvan MR-in bədii özfəaliyyət kollektivləri Moskva səhnələrində, müttəfiq respublikalarda, xarici ölkələrdə uğurla çıxış etmiş, müxtəlif diplomlara və fəxri fərmanlara layiq görülmüşlər. İliç (Şərur) rayon mədəniyyət evinin «Yallı» ansamblı 1972-ci ildə ADR-də keçirilmiş VIII Beynəlxalq folklor rəqsləri festivalında ölkəni uğurla təmsil etmiş və festivalın laureat diplomuna layiq görülmüşdü. Ansambl SSRİ-nin mərkəzi televiziyası ilə də çıxış etmişdi. Şahbuz və Ordubad rayonlarının bir çox bədii özfəaliyyət kollektivləri müxtəlif müsabiqə və festivallarda yaxşı ifaçılıq ustalığı nümayiş etdirmişdilər [81,s.27]. Göstərilən dövr Naxçıvan

MR-də bədii özfəaliyyət kollektivlərinin sayının artması ilə əlamətdar oldu. Bu işdə Naxçıvan Vilayət Partiya Komitəsinin «Naxçıvan MSSR-də bədii özfəaliyyətin daha da yaxşılaşdırılması və kənd mədəni-maarif müəssisələrinə hamilik köməyinin göstərilməsi haqqında» qərarı da müəyyən rol oynadı. Əgər 1970-ci ildə muxtar respublikada 2245 nəfəri əhatə edən 227 bədii özfəaliyyət kollektivi var idisə, 1980-ci ildə onların sayı müvafiq olaraq 17739 və 1081-ə çatmışdı. 1980-ci ildə bədii özfəaliyyət kollektivlərinin 4595 konsert və tamaşalarında 4998 min adam iştirak etmişdi. Müqayisə üçün deyək ki, 1970-ci ildə 893 belə tədbir 104,4 min tamaşaçının ixtiyarına verilmişdi [4, v.196].

1975-1976-cı illərdə bədii özfəaliyyət kollektivlərinin Naxçıvan MSSR Mədəniyyət Nazirliyi və Muxtar Respublika Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən birgə keçirilən müsabiqəsi regionun özfəaliyyət musiqisinin inkişafında yeni mərhələ, mədəni həyatında mühüm hadisə oldu. Müsabiqədə muxtar respublikanın ən ucqar kəndlərindən belə özfəaliyyət kollektivləri iştirak etmiş və öz məharətlərini göstərmişlər. Müsabiqənin digər mühüm xidməti ondan ibarət idi ki, qədim musiqi alətləri (Qara zurna, tütək, yantütək, tulum) onların ifaçıları tərəfindən geniş kütlə qarşısına çıxarılmışdır. Müsabiqə bir növ yaradıcılıq yarışına çevrilmiş və muxtar respublikada bədii özfəaliyyət kollektivlərinin inkişafına böyük təsir göstərmişdi [75, 61].

Heydər Əliyev Naxçıvanda ədəbiyyatın, ədəbi fikrin inkişafı, təbliği sahəsində də misilsiz xidmətlər göstərmişdir ki, onlardan biri də əslən naxçıvanlı şair və yazıçıların respublika səviyyəsində yubileylərinin qeyd edilməsi, onların adlarının

əbədiləşdirilməsinə xüsusi diqqətlə yanaşması idi. Belə ki, Heydər Əliyevin imzaladığı sərəncamlarla 1972-ci ildə Məmməd Səid Ordubadinin 100 illik, 1981-ci ildə 110 illik, 1980-ci ildə Əliqulu Qəmkusarın 100 illik, 1982-ci ildə Hüseyn Cavidin 100 illik, 1980-ci ilin martında görkəmli ədəbiyyatşünas Əziz Şərifin 85 illik yubileyləri həm Azərbaycanda, həm də vətənləri Naxçıvanda geniş qeyd olundu. Heydər Əliyevin həmin şəxslərin yubileylərinin qeyd edilməsi ilə bağlı imzaladığı qərarlarda Naxçıvanda onların adlarının məktəblərə, küçələrə, kitabxanalara verilməsi, ev-muzeylərinin açılması və s. tədbirlər nəzərdə tutulmuşdu [69, 189-229].

Heydər Əliyevin Azərbaycan ədəbiyyatı qarşısında ən mühüm xidmətlərindən biri 1937-ci ildə sovet repressiyasının qurbanlarından olmuş görkəmli şair-dramaturq, mütəfəkkir Hüseyn Cavidin adının ədədiləşdirilməsi, 90 və 100 illik yubileylərinin keçirilməsi, onun nəşinin Azərbaycana gətirilərək doğulduğu torpağa tapşırılması kimi mühüm və xeyirxah işlərin təşkilinə və rəhbərliyinə qatlaşması oldu.

Böyük ədibin 100 illiyi 1982-ci il oktyabrın 24-də tamam olsa da, yubileyin keçirilməsinə iki il əvvəl başlanılmış, geniş tədbirlər sistemi müəyyənləşdirilmişdi. Azərbaycan KP MK bürosunun 11 dekabr 1980-ci il tarixində keçirilmiş iclasında Naxçıvan şəhərində Hüseyn Cavidin Xatirə ev muzeyinin yaradılması haqqında məsələ müzakirə edilərək müvafiq qərar qəbul edilmişdi. Qərarda Naxçıvan şəhərində Cəlil Məmmədquluzadə adına Naxçıvan MSSR Ədəbiyyat Muzeyinin filialı kimi Hüseyn Cavidin xatirə ev-muzeyinin yaradılması haqqında Naxçıvan VPK və Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təklifinin qəbul edildiyi qeyd olunur,

respublikanın mədəniyyət nazirliyinin muzeyinin ştatları və onun yaradılması ilə bağlı digər maliyyə-təsərrüfat məsələləri haqqında təkliflərini baxılmaq üçün müəyyən olunmuş qaydada Azərbaycan SSR Nazirlər Sovetinə təqdim etmək tələb olunurdu [41, v.53].

Azərbaycan KP MK bürosunun 7 iyul 1981-ci il tarixli iclasında «Hüseyn Cavid – anadan olmasının 100 illiyi» haqqında tarixi qərar qəbul edildi. 5 səhifəlik, 14 bənddən ibarət bu geniş qərarda Hüseyn Cavidin ədəbi fəaliyyətinə qısa nəzər salınmış, onun milli ədəbiyyatın və teatr sənətinin inkişafında böyük xidmətləri qeyd olunmuşdu.

Qəbul olunmuş qərarda Naxçıvanla bağlı bir sıra məqamlar da öz əksini tapmışdı. Belə ki, yubileylə əlaqədar yaradılmış təşkilat komitəsinin sədr müavini Naxçıvan VPK I katibi K.Rəhimov təyin olunmuş, Naxçıvanda H.Cavidin həyat və fəaliyyyətinə həsr edilmiş elmi sessiya və ədəbi-bədii gecə keçirilməsi qərarlaşdırılmışdı.

Qərarda həmçinin Naxçıvan şəhərində Hüseyn Cavidin abidəsinin qoyulması və xatirə muzeyinin yaradılması, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının ikinci səhnəsi kimi Hüseyn Cavid poeziya teatrının yaradılması da nəzərdə tutulmuşdu [43, v.202-206].

Heydər Əliyev həmçinin böyük siyasi cəsarət və uzaqgörənlik göstərərək Cavidin məzarını uzaq Sibirdən vətənə gətirtməyə və islam qaydalarına uyğun Naxçıvanda dəfn edilməsinə nail oldu. Heydər Əliyev böyük mütəfəkkirin cənazəsini ümumi şəhər qəbiristanlığında deyil, şairin doğulduğu evin yaxınlığında, dəfninə qərar verdi. Məzarın üzərində gələcəkdə məqbərə tikilməsi nəzərdə tutulmuşdu.

Heydər Əliyevin bu addımları onun Cavid yaradıcılığına, Cavid irsinə məhəbbət və etiramının, ədəbi fikir tarixində Cavidin yerini və rolunu düzgün qiymətləndirməsinin parlaq təzahürü idi.

Lakin Heydər Əliyevin Moskvaya rəhbər vəzifəyə irəli çəkilməsi ilə H.Cavid məqbərəsinin tikintisi də yarımçıq qaldı. Yalnız onun ikinci dəfə Azərbaycana siyasi rəhbərliyə qayıtması ilə bu xeyirxah işi başa çatdırdı və 1996-cı ildə şairin Naxçıvanda möhtəşəm məqbərəsinin açılışında iştirak etdi.

70-ci illərin ortalarında Naxçıvanda Azərbaycan SSR Yazıçılar İttifaqının 10-dan çox üzvü yaşayıb-yaradırdı. H.İ.İbrahimov, H.Razi, A.Qasımov, K.Ağayeva, Ə.Yusifli, Ə.Mahmud, H.Fətullayev, M.Tariverdiyev, H.Əzim, M.Nəsirlinin əsərləri muxtar respublikadan kənarda geniş yayılmış, onların bir çoxunun pyesləri Naxçıvan teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu. 1974-cü ildə muxtar respublikanın 50 illiyi ərəfəsində onların əsərlərindən ibarət «Arazın işıqları» adlı almanax nəşr edilmişdi [129, 1974, 4 oktyabr; 73, 17]. 80-ci illərin əvvəllərində Naxçıvan şair və yazıçılarının 64 kitabı, 7 almanaxı nəşr edilmiş, 17 pyesi tamaşaya qoyulmuşdu. Kitabların 38-i 70-ci illərdə Bakı nəşriyyatlarında nəşr olunmuşdu [99, v.97]. Bir sıra naxçıvanlı müəlliflərin əsərləri müxtəlif dillərə tərcümə olunmuşdu.

Sonrakı dövrlərdə də Heydər Əliyev Naxçıvanda ədəbi mühitin vəziyyəti ilə daim maraqlanır, naxçıvanlı yazıçı və şairlərin əsərlərinin nəşrinə, səhnələşdirilməsinə şərait yaradırdı. Bütün bunların nəticəsi olaraq Naxçıvan ədəbi mühiti öz intişar dövrünü yaşayır, daha da inkişaf etməyə

başlamış bu diyarın şair və yazıçılarının əsərləri Azərbaycan ədəbiyyatının inciləri sırasına daxil olurdu.

Qədim və zəngin tarixə malik Naxçıvan teatrının da ən yüksək inkişaf və tərəqqi zirvəsi 70-80-ci illərə təsadüf edir. Heydər Əliyev teatra, teatr xadimlərinə daim qayğı göstərir, onların yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi, teatr işçilərinin ev-məişət problemlərinin həlli məsələlərini öz nəzarəti altında saxlayırdı. Onun dövründə Naxçıvan Musiqili Dövlət Dram Teatrının maddi-texniki bazası xeyli möhkəmlənmiş, repertuarı yeni əsərlərlə zənginləşmişdir. Heydər Əliyev teatrın bir neçə aktyoruna fəxri adlar, dövlət mükafatları verərək onların yaradıcılığını layiqincə qiymətləndirmişdir. Naxçıvan teatrının bir sıra görkəmli nümayəndələri (İ.Həmzəyev, Z.Həmzəyeva, S.Hüseynova, A.Şahsuvarov, R.Cəfərxanova və b.) respublikanın fəxri adları ilə təltif edilmişdi [72; 136, 14]. Naxçıvana səfərlərində Heydər Əliyev teatrı yaddan çıxarmır, onun tamaşalarında iştirak etməyə vaxt tapırdı.

Naxçıvan Dövlət Musiqili Dram teatrı muxtar respublikada teatr sənətinin flaqmanına çevrilmişdi. Teatr tez-tez muxtar respublikanın rayon və kəndlərinə səfərə çıxır, əhali qarşısında tamaşalar göstərirdi. 70-ci illərdə teatra gələn tamaşaçıların sayı təqribən 2,5 dəfə artmış, 56 mindən 137 minə çatmışdı.

1980-ci ilin mayında Heydər Əliyev Naxçıvanda olarkən ziyalılar ondan bir neçə məsələnin həllini xahiş etmişdilər. Bu məsələlər sırasında Bakı nəşriyyatlarında Naxçıvan müəlliflərinin əsərlərinin nəşri, H.Cavidin Naxçıvan şəhərində heykəlinin qoyulması, Naxçıvanda rəsm qalereyasının təşkili, Naxçıvanda filarmoniyanın yaradılması və s. daxil idi [99,

v.98-99]. Heydər Əliyev bu məsələlərə çox həssaslıqla yanaşmış, qısa müddət ərzində onların həllinə nail olmuşdu.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, elmi-mədəni həyatında kütləvi informasiya və təbliğat vasitələri mətbuat, televiziya və radio mühüm rol oynamağa başlamışdı.

Heydər Əliyev mətbuatın inkişafına xüsusi diqqət göstərir, qəzet və jurnalların maddi-texniki bazasının, kadr potensialının artırılmasına çalışırdı. Onun ölkəyə başçılıq etdiyi dövrdə Azərbaycanda 100-ə yaxın mətbu orqan nəşr edilirdi. O, milli mətbuatın iftixarı sayılan «Əkinçi» və «Molla Nəsrəddin» qəzet və jurnalının yubileylərinin keçirilməsinə qərar vermiş, Azərbaycan jurnalistlərinin 1982-ci ildə keçirilmiş qurultayında şəxsən iştirak etmişdi. O, mətbuata təkcə partiyanın siyasi tribunası kimi deyil, həm də milli-mənəvi dəyərlərin təbliğatçısı, insanların ideya-siyasi tərbiyəsinin əsas vasitəsi kimi baxırdı. 70-80-ci illərdə Naxçıvan MR-də 1 respublika və 5 rayon qəzeti çıxırdı. Qəzetlərin tirajı artırılmış, 1980-ci ildə 29 minə çatdırılmışdı [123, 63]. Naxçıvan Muxtar Respublikasının mərkəzi mətbu orqanı olan «Şərq qapısı» həmin illərdə gündəlik nəşr edilirdi (Qəzet 1980-1990-cı illərdə «Sovet Naxçıvanı» və «Sovetskiy Naxçıvan» adları ilə Azərbaycan və rus dillərində çıxmışdır – Ə.Q.).

Heydər Əliyevin imzaladığı Azərbaycan KP MK bürosunun 22 oktyabr 1971-ci il tarixli qərarı ilə 1971-ci ilin dekabrında Azərbaycan KP Naxçıvan VPK Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin və Nazirlər Sovetinin orqanı olan «Şərq qapısı» qəzetinin 50 illik yubileyi bütün respublikada geniş qeyd edildi. Həmin qərarda «Şərq qapısı» qəzetinin «Naxçıvan MSSR zəhmətkeşlərinin kommunist tərbiyəsində,

onların təsərrüfat və mədəni vəzifələrin yerinə yetirilməsinə səfərbər edilməsində» xidmətlərinə görə Sov.İKP MK qarşısında «Şərəf Nişanı» ordeni ilə təltif olunması barədə məsələ qaldırıldı [10, v.134].

Heydər Əliyev qəzet əməkdaşlarının xidmətlərini də yüksək qiymətləndirmiş, yarıməsrlik yubileyi ilə əlaqədar olaraq «Şərq Qapısı» qəzetinin bir qrup əməkdaşı mətbuat və poliqrafiya sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdu.

«Şərq qapısı» qəzetinin yubiley mərasimlərində SSRİ və Zaqafqaziya respublikalarının Jurnalistlər İttifaqlarının nümayəndələri iştirak etmişdilər.

Qəzetin 50 illiyinə respublikanın qəzet və jurnalları məqalələr həsr etmiş, radio və televiziyasında verilişlər təşkil edilmişdi [10, v.134].

1980-ci ilin yanvarından «Şərq Qapısı» qəzeti «Sovet Naxçıvanı» adlandırılmış və qəzet rus dilində də çap edilməyə başlamışdı. Əslində qəzetin adında bu dəyişiklik bilavasitə Moskvanın iradəsi ilə baş vermişdi. Sov.İKP MK-nın «Özbəkistan SSR və Azərbaycan SSR-də çıxan bəzi qəzetlərin rus dilində də çap edilməsi haqqında» qərarına uyğun olaraq Azərbaycan KP MK Bürosunun 25 sentyabr 1979-cu il tarixli qərarı ilə «Şərq Qapısı» qəzeti, «Sovet Naxçıvanı» adlandırılmış və qəzetin rus dilində dublikatı – «Sovetskaə Naxiçevanğ» adıyla nəşr edilməyə başlanmışdı. Zənnimizcə, qəzetin adının dəyişdirilməsi ideoloji-siyasi amillərlə bilavasitə bağlı idi. 1990-cı ildə keçmiş SSRİ-də demokratikləşmə proseslərinin başlandığı dövrdə «Şərq qapısı»nın əvvəlki adı da özünə qaytarıldı. Yeri gəlmişkən, Azərbaycan KP MK

Bürosunun həmin qərarında DQMV-ni «Sovetakan Karabax» («Sovetskiy Karabax») və Şamaxı rayonunun Yeni Şirvan («Novıy Şirvan») qəzetlərinin də rus dilində çıxarılması qərara alınmışdı [33, v.117]. Bu qərarın müsbət tərəfi isə o oldu ki, həmin qərarda qəzetlərin mətbəələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, dublyaj olunan qəzetlərin keyfiyyətli çapının təmin edilməsi, qəzetlərin tirajlarının 5 min nüsxə artırılması, əlavə ştatlar ayrılması nəzərdə tutulmuşdu [33, v.117].

Qəzetin 60 illik yubileyi də (1981-ci il) geniş qeyd edilmiş, Heydər Əliyevin göstərişi və Azərbaycan KP MK Bürosunun 24 noyabr 1981-ci il tarixli qərarına uyğun olaraq «Sovet Naxçıvanı» qəzeti Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuş, qəzet redaksiyası və mətbəəsinin işçiləri Azərbaycanın fəxri adlarına və Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanına layiq görülmüşdülər [44, v.275].

Heydər Əliyevin göstərişi ilə 1976-cı ildə Naxçıvan mətbəəsi üçün xüsusi bina tikilmiş və muxtar respublikada çıxan qəzetlər burada rotasiya üsulu ilə çap edilməyə başlamışdı. Mətbəə 1985-ci ildən Azərbaycan SSR Nəşriyyat-Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin strukturuna daxil edilərək Naxçıvan Şəhər Poliqrafiya müəssisəsi adlandırılmışdır [89, 139-140].

Naxçıvanda radio və televiziyanın inkişafı da əsasən Heydər Əliyevin adı ilə bağlıdır. Onun dövründə Naxçıvan televiziyası və radiosunun maddi-texniki bazası xeyli gücləndirilmiş, verilişlərin sayı artmış, ştat tərkibi genişləndirilmişdi. 1976-cı ildə Azərbaycan radiosunun 50 illik, 1981-ci ildə isə televiziyasının 25 illik yubileyi

Naxçıvanda da geniş qeyd edilmiş, bayram tədbirləri keçirilmişdi.

70-ci illər Naxçıvan rəsm sənətinin inkişafında da xüsusi yer tutur. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan şöbəsinin yaradılması bu sənət növünün inkişafına güclü təkan verdi. Başqa yaradıcılıq ittifaqlarına nisbətən Rəssamlar İttifaqının Naxçıvan filialı nisbətən az sayda rəssam və heykəltəraşları birləşdirsə də, onların bir çox nümayəndələri (Ə.Fətəliyev, Y.Məmmədov, M.Seyidov, H.Əliyev, A.Qazıyev, E.Cəfərov və başqaları) öz uğurlu əsərləri ilə Azərbaycan boyakarlıq sənətinin inkişafında xüsusi rol oynamışdılar. 1982-ci ildə Naxçıvan şəhərində rəsm qalereyasının açılması bölgənin rəssamlarının yaradıcılığının inkişafı üçün əlavə imkanlar yaratdı. Muzeydə Azərbaycanın görkəmli təsviri sənət ustaları ilə yanaşı Naxçıvan rəssamlarının qrafika, tematik tablo, portret və s. janrlarda yaratdıqları əsərlər də əsas yer tuturdu. Heydər Əliyev Naxçıvan rəssamlarının yaradıcılığı ilə daim maraqlanır, onlara lazımi şərait yaradılmasına çalışırdı. 1982-ci ildə Naxçıvan səfərində Heydər Əliyev yerli rəssamların H.Cavidin yaradıcılığına həsr edilmiş sərgisinə tamaşa etmişdi [128, 1982, 5 oktyabr].

Azərbaycanın müttəfiq respublikalarla və xarici ölkələrlə mədəni əlaqələrində Naxçıvan Muxtar Respublikası fəal iştirak etməyə başlamışdı. Muxtar respublikanın mədəni əlaqələri ən müxtəlif formalarda - yubiley şənliklərinin, ədəbiyyat və incəsənət günlərinin, poeziya axşamlarının keçirilməsi, şair və yazıçıların şəxsi əlaqələrinin, musiqi və teatr kollektivlərinin

qarşılıqlı səfərləri, rəssamların işlərindən ibarət sərgilərin təşkili, kinofestivalların keçirilməsi və s. inkişaf edirdi.

Naxçıvanın ədəbiyyat və incəsənət xadimləri Azərbaycanın müttəfiq respublikalarla keçirdikləri qarşılıqlı tədbirlərdə yaxından iştirak etmişdilər. 1970-1980-ci illərin əvvəllərində Azərbaycanda RSFSR mədəniyyət günləri (1972) Özbəkistan SSR-in və Ukrayna SSR-in mədəniyyət günləri (1979), Sovet ədəbiyyatı günləri (1975), Sovet yazıçılarının Ümumittifaq konfransı (1980), SSRİ xalqlarının poeziya bayramı (1982) keçirilmiş, həmin tədbirlərdə Naxçıvan MR-in yaradıcı kollektivləri də iştirak etmişdilər [129, 1979, 6 iyun, 4-5 oktyabr; 128, 1980, 30 oktyabr; 1981, 23 iyun].

Muxtar respublikanın mədəni əlaqələrində teatrların qarşılıqlı səfərləri xüsusi yer tuturdu. 1972-ci ildə Moskva şəhərinin bir qrup teatr xadiminin Naxçıvanda çıxışları muxtar respublikanın mədəni həyatında mühüm hadisə oldu [129, 1972, 6 oktyabr].

C.Məmmədquluzadə adına NMDT Ermənistan, Gürcüstan, Dağıstan respublikalarında yaşayan azərbaycanlılar qarşısında teatr tamaşaları ilə çıxış edir, onların milli-mənəvi ehtiyaclarının ödənilməsində fəal iştirak edirdilər. Teatr 1972-ci ildə Ermənistan SSR Sisyan, Əzizbəyov, Yexenendzor rayonlarında, 1974-cü ildə Gürcüstan SSR Marneuli, Bolnisi, Dmanisi, Qardabani rayonlarında, 1975-ci ildə Dağıstan MSSR-in Dərbənd və Axtı rayonlarında qastrollarda olmuş, 1979-cu ildə yenidən Ermənistan SSR və Gürcüstan SSR-də tamaşalar göstərmişdi [167, s.22-23].

Muxtar respublikanın mədəni əlaqələrində «Araz» Mahnı və Rəqs Ansamblının xüsusi yeri var idi. 1971-ci ildə ansambl

Ermənistan SSR, Ukrayna SSR, Gürcüstan SSR, RSFSR-də, 1976 və 1978-ci illərdə yenidən Gürcüstan və Ermənistanda geniş konsert proqramı ilə çıxış etmişdir. 1972-ci ildə Rusiyanın «Voronej qızları», 1974-cü ildə Başqırdıstan MSSR dövlət xalq rəqsləri ansamblı, 1979-cu ildə Özbəkistanın «Nəvai» vokal-instrumental ansamblı Naxçıvanda tamaşaçılar qarşısında çıxış etmişdilər.

Naxçıvan Dövlət Filarmoniyasının kollektivi bir neçə dəfə Azərbaycandan kənara qastrol səfərlərinə çıxmışdı. Belə ki, 1984-cü ilin oktyabrında kollektiv RSFSR-in bir sıra şəhərlərində, 1985-ci ilin martında Ermənistan SSR-də, 1985-ci ilin oktyabrında Belorusiya SSR-də konsert proqramı ilə çıxış etmişdi [167, 23-24].

Beləliklə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illərdə Naxçıvan MR-də mədəniyyət müəssisələrinin şəbəkəsi xeyli genişlənmiş, sosial-mədəni obyektlərin tikintisinə diqqət artırılmışdı. Bu isə öz növbəsində muxtar respublika əhalisinə mədəni xidmət səviyyəsini yüksəltməyə, mədəni-maarif işini canlandırmağa kömək etmişdi.

Həmin dövrdə muxtar respublika mədəni-maarif müəssisələrinin kadrlarla təminatı sahəsində də xeyli irəliləyişlər baş vermişdi.

Heydər Əliyev Naxçıvanda incəsənətin, ədəbiyyatın inkişafına daim qayğı göstərirdi, burada yaşayıb-yaradan ziyalıların yaradıcılığını izləyir, onların maddi-məişət problemlərinin həlli üçün zəruri addımlar atırdı.

O, Naxçıvanın maddi-mədəniyyət abidələrinin qorunması və təbliği üçün müvafiq göstərişlər verir, bu sahədə muxtar

respublikada həyata keçirilən işlərin vəziyyəti ilə şəxsən tanış olmaq üçün regiona səfərlər edirdi.

Heydər Əliyev Naxçıvandan olan görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin xatirəsini də daim əziz tutur, onların xalqın yaddaşında əbədi qalması üçün müvafiq tədbirlər görürdü.

Azərbaycan milli musiqisinə, teatrına, kinosuna, rəsm sənətinə qayğısının ən mühüm təzahürlərindən biri də 70-80-ci illərdə Naxçıvanda milli mədəniyyətin bütün sahələrində böyük canlanma və tərəqqinin baş verməsi oldu.

Nəticədə Naxçıvan torpağı Azərbaycan xalqının milli və mənəvi dəyərlərinin qorunub saxlanıldığı bir məkana, müstəqillik ideyalarının, özünədərkin inkişafının mühüm amilinə çevrildi.

## 3.3. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi həyat

XX əsrin 50-60-cı illərini SSRİ məkanında ictimai-siyasi, sosial həyatda bir dirçəliş, oyanış dövrü kimi qiymətləndirmək olar. Ancaq sosial həyatın heç də bütün sahələrində bu dirçəlişin əlamətlərini müşahidə etmək mümkün deyildi. Bunu hələ ki, SSRİ vətəndaşı olan insanın fikrində, düşüncəsində baş vermiş oyanış adlandırmaq daha doğru olardı. Əlbəttə, Azərbaycan da bu ümumi abu-havanın çərçivəsindən kənara çıxmırdı. Respublika həyatının bütün sahələri bir dönüşə, yeniliyə möhtac idi ki, bu da gələcəkdə ümummilli liderimiz olacaq öndərimizin idarəçiliyin sükanını ələ alması ilə baş tutdu.

Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər seçilməsi bütün Azərbaycanda olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-in ictimai-siyasi həyatında da dönüş nöqtəsi oldu. Heydər Əliyevin respublikada sağlam, işgüzar şəraitin yaradılması, kadrların seçilib yerləşdirilməsi, tapşırılan sahə üçün onların şəxsi məsuliyyətininin artırılması, neqativ hallara qarşı mübarizə sahəsində çoxcəhətli fəaliyyəti Naxçıvan MR-in timsalında da öz müsbət həllini tapdı.

Heydər Əliyevin başçılığı altında Azərbaycan rəhbərliyi iqtisadiyyata rəhbərliyin səviyyəsini yüksəltmək, partiya və sovet orqanlarının iş üslubu və metodlarını təkmilləşdirmək, kadrların seçilməsi və yerləşdirilməsi işini yaxşılaşdırmaq, dövlət intizamını möhkəmləndirmək, yabançı ünsürlərə qarşı mübarizəni gücləndirmək, kütlələrlə əlaqəni möhkəmləndirmək sahəsində ciddi tədbirlər həyata keçirməyə başladı. Nəticədə dövlət tapşırıqlarının yerinə yetirilməsində respublikanın qarşısında duran ictimai-siyasi problemlərin həllində bu tədbirlər böyük rol oynadı.

Heydər Əliyev vəzifəli şəxslərin uzun illər boyu öz mövqelərindən tamahkarlıq məqsədilə etdikləri bütün sui-istifadə hallarına qarşı, mənəvi normalardan hər cür kənara çıxılmasına qarşı ciddi mübarizə aparmağa başladı. Əlbəttə, bu çox zəruri addım idi və qısa müddətdə öz nəticələrini vermiş, uğurların əldə olunmasında böyük rol oynamışdı.

Heydər Əliyevin cinayətkarlığa, neqativ hallara qarşı mübarizə əzmini Azərbaycan KP MK-nın «Respublikada cinayətkarlığa qarşı mübarizəni gücləndirmək tədbirləri haqqında» 7 mart 1971-ci il tarixli qərarı nümayiş etdirdi. Həmin qərarda bütün cinayət hallarının aşkarlanması,

cinayətkarlığa qarşı vahid cəbhə təşkil edilməsi bir vəzifə kimi qarşıya qoyuldu.

Aparılan ardıcıl mübarizənin nəticəsi olaraq qısa müddət ərzində Azərbaycanda müstəsna dərəcədə yaxşı mənəvi-siyasi şərait yaranmışdı. Əvvəllər iqtisadiyyata rəhbərlikdə, kadrların seçilib yerləşdirilməsində, ideoloji işdə mövcud olmuş ciddi nöqsanları aradan qaldırmaq üçün Heydər Əliyevin gördüyü tədbirlər bütün Azərbaycan xalqı tərəfindən müdafiə edilir və bəyənilirdi.

Heydər Əliyevin ardıcıl fəaliyyəti nəticəsində adamlarda qanunların gücünə, həyata keçirilən tədbirlərin obyektivliyinə yaranan inamsızlıq aradan qaldırılmış, respublika rəhbərliyinin bütün namuslu adamların mənafeyi keşiyində möhkəm dayandığı haqda xalqda qəti inam yaranmışdı.

Heydər Əliyev respublikanın partiya, sovet, təsərrüfat orqanlarının fəaliyyətindəki nöqsanları prinsipiallıqla ortaya çıxarır, onların aradan qaldırılması üçün qətiyyətli tədbirlər görürdü. 1974-cü ilin fevralında Naxçıvan VPK-nın XXX konfransında Heydər Əliyev bütün mənfi hallara, nalayiq hərəkətlərə qarşı daha qətiyyətlə mübarizə aparacağını, kadrlara qarşı tələbkarlığı daha da yüksəldəcəyini açıq şəkildə bəyan etdi. Heydər Əliyev Naxçıvanda əldə edilən müvəffəqiyyətləri qiymətləndirməklə yanaşı, muxtar respublika partiya, sovet və təsərrüfat orqanlarının işindəki nöqsanlardan danışmağı daha məqsəduyğun sayırdı: «Biz gərək əldə edilmiş nailiyyətləri həmişə düzgün qiymətləndirərək, özümüzə tənqidi yanaşaq, diqqəti həll edilməmiş məsələlər üzərində cəmləşdirək, irəliyə baxaq, arxayınlığa, laqeydliyə, xüsusən də lovğalığa yol verməyək» [129, 1974, 12 mart; 95, v.104].

Həmin dövrdə Kommunist Partiyası sovet siyasi sisteminin əsas və aparıcı qüvvəsi olduğundan ictimai həyatın bütün sahələrinin inkişafı bilavasitə partiya-siyasi işin keyfiyyətindən, partiya komitələrinin fəaliyyətindən asılı idi. Ona görə də təsadüfi deyil ki, Heydər Əliyev respublikada partiya-təşkilati və partiya-siyasi işin yüksəldilməsini, vilayət partiya komitəsinin, rayon partiya komitələrinin işində dönüş yaradılmasını muxtar respublikanın iqtisadi və sosial inkişafının əsas şərti hesab edir, əldə edilmiş nailiyyətlərlə yanaşı, muxtar respublikada ideoloji-siyasi işdə olan nöqsanları ört-basdır etmir, onlar haqqında açıq danışırdı.

1974-cü ildə Heydər Əliyevin Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransındakı məruzəsi onun Azərbaycanın siyasi lideri kimi öz həmyerliləri qarşısında ilk çıxışı idi. Öz çıxışında o, açıq şəkildə bildirmişdi ki, Naxçıvan Muxtar Respublikasının sakinləri əməksevər, çalışqan camaatdır. Onlar çətinlikləri müvəffəqiyyətlə aradan qaldıran, heç zaman geri çəkilməyən, nikbinliyi, yaxşı siyasi əhval-ruhiyyəni hifz edən adamlardır… Açıq demək lazımdır ki, belə zəhmətsevər adamlarla Naxçıvan MR iqtisadiyyatını xeyli yüksək inkişaf səviyyəsinə qaldırmaq olardı [95; v.104-105].

Heydər Əliyev Naxçıvanın uzun müddət geridə qalmasının bir səbəbini Azərbaycanın müvafiq nazirliklərinin və idarələrinin (bütövlükdə siyasi hakimiyyətinin) fəaliyyətsizliyində, muxtar respublikaya lazımi diqqət yetirməməkdə görürdüsə, digər əsas səbəb kimi həm də Vilayət Partiya təşkilatının mövcud imkanlardan lazımınca istifadə etməməsini göstərirdi.

Həmin konfransda Heydər Əliyev muxtar respublika

rəhbərliyindən bölgənin iqtisadi, sosial problemlərini, o cümlədən əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı problemləri qısa müddət ərzində (2-3 ilə) həll etməyi qəti tələb etdi.

Naxçıvan VPK-nın XXX konfransında Heydər Əliyev muxtar respublikada kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi sahəsində vilayət, şəhər və rayon partiya komitələrinin, sovet və təsərrüfat orqanlarının fəaliyyətində olan ciddi nöqsanları prinsipiallıqla tənqid etmiş və bu sahədə lazımi qayda yaradılmasını bir vəzifə kimi qarşıya qoymuşdu.

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katib seçilməsindən sonra Azərbaycan KP MK plenumlarında qəbul edilmiş qərarlar, xüsusən 1975-ci ildə keçirilmiş Azərbaycan KP MK plenumunda kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi məsələsinin müzakirəsi Azərbaycan KP MK avqust (1969-cu il) plenumunda götürülmüş siyasi xəttin davamı idi. 1975-ci il plenumunda Heydər Əliyev Azərbaycan partiya təşkilatının, MK bürosunun fəaliyətini dərindən və prinsipiallıqla təhlil edərək, kadrlarla iş sahəsində hələ də ciddi səhvlərin və çatışmazlıqların olduğunu, liberalizmə, bürokratizmə, süründürməçiliyə, köhnəlmiş iş metodlarına və üsullarına aludəçiliyə, yerlibazlığa, şəxsi sədaqət hissinə yol verildiyini açıq göstərmişdi [21, v.73].

Heydər Əliyev həmin plenumda, eləcə də Naxçıvandakı çıxışlarında bu səhvlərin və çatışmazlıqların Naxçıvan VPK, sovet və təsərrüfat orqanlarının fəaliyyətində hələ də davam etdiyini nəzərə çatdıraraq onların tez bir zamanda aradan qaldırılmasını tələb etmişdi.

Heydər Əliyev ilk günlərdən Azərbaycanda ideoloji işi gücləndirmək üçün bir sıra radikal tədbirlər həyata keçirməyə

başlamış, bu məqsədə 1971-ci ilin oktyabrında Azərbaycan KP MK-nın xüsusi plenumunu çağırılmışdı. Plenumda bu sahədə yol verilmiş ciddi nöqsanlar barədə açıqca, prinsipiallıqla danışılmışdı. Xüsusən kadrların bir hissəsi arasında hədsiz dərəcədə varlanmaq, qənimətçilik, dostbazlıq və qohumbazlıq faktlarına, cah-cəlallı bağlar, evlər tikilməsi, torpaqların ələ keçirilməsi halları barədə respublika rəhbərliyinin aydın mövqeyini ortaya qoymuş, neqativ hallara qarşı kəskin mübarizə aparılmasını tələb etmişdi. Azərbaycanda rüşvətxorluq və korrupsiyaya qarşı əsl müharibə elan edilmişdi. Ali məktəblərin, texnikumların, sovet, təsərrüfat orqanlarının, inzibati orqanların işçiləri arasında, səhiyyə idarələrində çoxlu sayda qanunsuzluqlar aşkara çıxarılmış, rüşvətxorlar ifşa edilmişdi. Heydər Əliyev belə faktları nəinki ört-basdır etməməyi, onların hətta kütləvi informasiya vasitələrində geniş işıqlandırılmasını tələb edirdi.

Bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da neqativ hallarla mübarizə istiqamətində müəyyən işlər görülmüş, bəzi məsul vəzifəli şəxslər cinayət məsuliyyətinə cəlb edilmişdi. Heydər Əliyev bu işləri təqdir etsə də, görülmüş tədbirlərin səmərəliliyini artırmağı tələb edirdi. Həmin konfransda o zaman Naxçıvan VPK-nın I katibi işləmiş A.Hüseynov öz məruzəsində Naxçıvanda bu sahədə mövcud olan vəziyyətə dair bir neçə faktlar gətirmiş, konkret adlar və rəqəmlər göstərmişdi. Heydər Əliyev isə bildirmişdi ki, göstərilən faktlar muxtar respublikanın həyatının müxtəlif sahələrində yayılmış rüşvətxorluq, qənimətçilik təzahürlərini heç də tam əhatə etmir. Buna görə də o, A.Hüseynovun məruzəsində məsələnin qoyuluş tərzi ilə razılaşmayaraq,

məruzəçinin göstərilən faktları sadalayaraq əslində rüşvətxorluğun mövcud olduğunu qeyd etməklə kifayətləndiyini, muxtar respublikada rüşvətxorluğa qarşı lazımınca mübarizə aparılmadığını, rüşvətxorların az ifşa edildiyini bir daha diqqətə çatdırmışdı. Heydər Əliyev Naxçıvanda xidmət sahəsində, təsərrüfat orqanlarında, təhsil müəssisələrində, o cümlədən Pedaqoji institutda, inzibati orqanlarda rüşvətxorluğa təsadüf edildiyini nəzərə çatdıraraq Naxçıvanın bütün partiya, sovet, ictimai təşkilatlarını, inzibati orqanlarını rüşvətxorluğa qarşı amansız mübarizə aparmağa çağırırdı [95, v.124].

Heydər Əliyev konkret faktlara əsaslanaraq Naxçıvan MR-in inzibati orqanlarının fəaliyyətində nöqsanların çox olduğunu, MR-in daxili işlər, prokurorluq orqanlarının, Naxçıvan Ali Məhkəməsinin, xalq məhkəmələrinin cinayətkar ünsürlərə qarşı lazımınca mübarizə aparmadıqlarını açıb göstərərək bildirirdi ki, 1969-cu ildən sonra Azərbaycan Respublikası üzrə dövlət mülkiyyətini oğurlamaq, rüşvətxorluq, qənimətçilik, vəzifədən sui-istifadə etmək üstündə cinayət məsuliyyətinə cəlb edilənlərin sayı xeyli artsa da (əslində bu, cinayətkarlığın artmasına deyil, cinayətkarlığın aşkarlanmasına və onunla mübarizənin güclənməsinə dəlalət edirdi – Ə.Q.), Naxçıvanda cinayətkarlığa qarşı mübarizənin güclənməsi hiss olunmur [95, v.117-124].

Heydər Əliyev muxtar respublika partiya, sovet, həmkarlar ittifaqı, komsomol, təsərrüfat orqanları barəsində tənqidi mülahizələr söyləyərkən onların işindəki ciddi səhvləri və qüsurların əsas səbəbi kimi Vilayət Partiya Komitəsi, Muxtar Respublika Ali Soveti və Nazirlər Sovetinin təşkilatçılıq

işindəki ciddi nöqsanları göstərirdi. Kadrların seçilib yerləşdirilməsində, tərbiyə edilməsində ciddi səhvlərin və nöqsanların olduğunu göstərən Heydər Əliyev Vilayət Partiya təşkilatının yaxşı rəhbər kadrlar yetişdirmək işi ilə yarıtmaz məşğul olduğunu, muxtar respublika partiya təşkilatında kadrlar yetişdirmək sahəsində səmərəli işin aparıldığını hiss etmədiyini açıq şəkildə söyləmişdi. Bütün bunlara əsaslanaraq Heydər Əliyev son illərdə Azərbaycan KP MK-nın yeritdiyi xəttin, bütün nöqsanlara qarşı mübarizə aparmaq üçün görülmüş ciddi, qəti tədbirlərin Naxçıvan VPK-nın fəaliyyətində lazımınca öz əksini tapmadığını təəssüf hissi ilə qeyd edirdi.

Heydər Əliyev Naxçıvana rəhbərlik edən şəxslərin fəaliyyəti ilə də bağlı tənqidi fikirlər söyləyirdi. Məsələn, Naxçıvan VPK-nın XXX konfransında VPK-nın I katibi A.Hüseynova və Nazirlər Sovetinin sədri Y.Nəbiyevə etdikləri çıxışlara görə irad tutan Heydər Əliyev onların çıxışında tənqidi təhlilin, faktların, partiya, sovet, təsərrüfat orqanlarının, kadrların fəaliyyətinin qiymətləndirilməsində lazımi kəskinliyin və konkretliyin olmaması, nöqsanların aradan qaldırılması ilə bağlı konkret məsələlərin qoyulmamasına görə kəskin tənqid etmiş, muxtar respublika rəhbərlərinin hamısını adbaad çəkərək onun tənqidindən ciddi nəticələr çıxarmalarını tələb etmişdi və qeyd etmişdi ki, hər kəs işə can yandırmalı, təşəbbüskar və fəal olmalıdır. Ona görə ki, əks təqdirdə muxtar respublikanın qarşısında duran vəzifələri yerinə yetirmək olmaz. Hər kəs öz işinə, öz kollektivinə, öz diyarına, respublikasına can yandırmalıdır. Yalnız belə olduqda Naxçıvan MR-in zəhmətkeşləri böyük və məsul vəzifələrin

öhdəsindən gələ bilərlər [95, v.124-125]. Bu, Heydər Əliyevin əsl dövlətçlik və vətənpərvərlik dərsi idi.

Heydər Əliyev təkcə Naxçıvan MR-in rəhbərliyini tənqid etməklə kifayətlənməyərək Azərbaycanın hökumət orqanlarından da Naxçıvan MR-ı münasibətlərini dəyişməyi, regiona kömək etməyi, daha artıq diqqət yetirməyi tələb edirdi. Artıq qeyd edildiyi kimi, onun təşəbbüsü ilə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Naxçıvanın xalq təsərrüfatının inkişaf etdirmək tədbirləri haqqında xüsusi qərar qəbul etmişdi. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın inkişafına yardım göstərilməsi üçün mümkün olan bütün məsələlərin həll edilməsi üçün Azərbaycanın nazirlik və baş idarələrinin məsul nümayəndələrinin iştirakı ilə KP MK-da müntəzəm yığıncaqlar keçirilir və müvafiq qərarlar qəbul edilirdi [95, v.126].

Heydər Əliyev verdiyi tapşırıqlara şəxsən özü nəzarət edir, muxtar respublikada siyasi ab-havanı sağlamlaşdırmaq üçün prinsipial addımlar atılmasına nail olurdu. Qısa müddətdə Naxçıvanın özünü doğrultmayan bir sıra vəzifəli şəxsləri (onlar arasında rayon PK-nın I katibləri, RS icraiyyə komitələrinin sədrləri, nazirlər, hakimlər, prokurorlar, milis şöbələrində işləyənlər də var idi – Ə.Q.) vəzifələrindən azad edilmiş, bəziləri haqqında cinayət işi açılmışdı. Bu barədə Azərbaycan KP Naxçıvan VPK-nın 1974-cü il may plenumunda prinsipial söhbət getmişdi [129, 1980, 30 may].

Bütün bu görülmüş tədbirlər qısa müddət ərzində öz müsbət nəticələrini göstərdi. Muxtar respublikanın iqtisadi və mədəni inkişafında mütərəqqi dəyişikliklər hiss olunmağa başlamışdı. Naxçıvanlılarda ruh yüksəkliyi, yenilməz iradə, sabaha inam,

qurub-yaratmaq əzmi daha da güclənmişdi. Qısa zaman kəsiyində muxtar respublikada qazanılmış uğurlar yüksək dövlət orqanları tərəfindən də qiymətləndirilmişdi. «Sovet xalqlarının mehriban dostluğunun möhkəmləndirilməsində böyük xidmətlərinə» «iqtisadi, ictimai, siyasi və mədəni quruculuqda böyük müvəffəqiyyətlərinə» görə və SSRİ-nin 50 illiyi münasibətilə Naxçıvan MSSR Xalqlar Dostluğu ordeni ilə təltif edilmişdi. 1974-cü il fevralın 21-də Heydər Əliyev özü bu ordeni Naxçıvan Muxtar Respublikasının bayrağına sancaraq nitq söyləmişdi.

1974-cü ilin fevral ayının 9-da həmçinin, Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi tamam oldu. «Kommunizm quruculuğunda qazandığı müvəffəqiyyətlərə görə» və muxtar respublikanın 50 illiyi ilə əlaqədar olaraq Naxçıvan MSSR Oktyabr İnqilabi ordeni ilə təltif olundu. Həmin ilin oktyabrında Naxçıvanda, Bakıda və Azərbaycanın digər şəhərlərində bu yubiley geniş qeyd edildi. Naxçıvanda bayram mərasimlərində Heydər Əliyev özü iştirak edirdi. Bayram mərasimindəki nitqində o, Naxçıvanın muxtariyyət tarixinə qısaca nəzər salmış, muxtar respublikanın qazandığı uğurlardan danışmış, görüləcək işləri təhlil etmişdir. Yubiley Heydər Əliyevin öz doğma torpağının vəziyyəti ilə daha yaxından tanışlığı üçün əlverişli məqam yaratdı. O, həmin günlərdə muxtar respublikanın rayonlarında, əmək kollektivlərində olmuş, sadə insanlarla görüşmüşdü. Bayram şənliklərinin keçirilməsi Naxçıvanın ictimai-siyasi həyatında böyük hadisəyə çevrilmişdi. Naxçıvan şəhərində, rayon mərkəzlərində yığıncaqlar və nümayişlər, məhsul bayramları, konsertlər təşkil edilmişdi. Naxçıvan şəhərində 1974-cü il 5 oktyabrda

keçirilmiş nümayiş və şənliklərdə ulu öndərimiz də iştirak etmişdi.

Heydər Əliyevin dəfələrlə Naxçıvanda olması, onun sənaye, kənd təsərrüfatı müəssisələrinə, su təsərrüfatı obyektlərinə, yeni tikintilərə, elm və mədəni-məişət idarələrinə getməsi, fəhlələrlə, kəndlilərlə, mütəxəssislərlə, veteranlarla, gənclərlə, partiya və təsərrüfat rəhbərləri ilə söhbət aparması, onların həyatı, müvəffəqiyyətləri, ehtiyacları, tələbatı, muxtar respublikanın, eləcə də onun hər bir rayonunun inkişaf perspektivləri ilə maraqlanması siyasi və əmək fəallığına yüksək təsir göstərmişdi. Heydər Əliyev Naxçıvanda olarkən muxtar respublikanın sosial-siyasi inkişafına dair bir sıra təkliflər irəli sürmüş, onların həyata keçirilməsi üçün əməli tədbirlər görülmüşdü. Məsələn, 1974-cü ildə Heydər Əliyevin Naxçıvana səfərindən sonra «Hüquq qaydalarının mühafizəsi işini yaxşılaşdırmaq və bu qaydaların pozulmasına qarşı mübarizəni gücləndirmək haqqında» Sov. İKP MK-nın qərarı ilə əlaqədar olaraq muxtar respublika inzibati orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək sahəsində həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan VPK-nın plenumu keçirildi. Plenumda vətəndaşlara hüquqi yardım, qanunların və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində vəziyyət müzakirə edilmişdi.

Lakin bütün bu tədbirlərə baxmayaraq, Naxçıvan Muxtar Respublikasında qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə sahəsində çox ciddi nöqsanlar hələ də mövcud idi. 1975-ci ilin ortalarında Heydər Əliyevin tapşırığı ilə Azərbaycan KP MK inzibati orqanlar şöbəsi

tərəfindən muxtar respublikada bu sahədə vəziyyət dərindən araşdırılmış və geniş arayış tərtib edilmişdi. Arayışda muxtar respublikada qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə sahəsində müəyyən irəliləyişlərin olduğu göstərilsə də, bu sahədə aparılan işin ümumi xarakter daşıdığı, muxtar respublikanın konkret xüsusiyyətlərinin nəzərə alınmadığı qeyd edilmişdi. Arayışda göstərilirdi ki, hüquq pozuntuları, onların törədilməsi şəraiti öyrənilmir, hüquq qaydalarının pozulması profilaktikası qeyri-qənaətbəxş aparılır, xalq drujinaçılarının, yoldaşlıq məhkəmələrinin və ictimaiyyətin cinayətkarlığa qarşı mübarizədə iştirakının digər formalarının geniş imkanlarından istifadə olunmur, əmək kollektivləri və yaşayış yerlərində qanunçuluğu pozanlara qarşı dözümsüzlük atmosferi yaradılmamışdır. Ayrı-ayrı işçilərin mədəni səviyyəsinin aşağı olması, siyasi qətiyyətsizliyi, Azərbaycan KP MK Bürosunun son illərdə çatışmazlıqlara qarşı apardığı böyük prinsipial mübarizə təcrübəsinin nəzərə alınmaması səbəbləri üzündən muxtar respublikada hüquq pozuntularına qarşı vahid mübarizə cəbhəsi yaranmamış, aparılan işin hüquqi xarakter daşımaması nəticəsində cinayətlərin sayının azalmaq əvəzinə artmağa başlaması da nəzərə çatdırılırdı.

Arayışda muxtar respublikada əmək qanunvericiliyinə riayət edilməsi vəziyyətinin qeyri-kafi olduğu, prokurorluq və məhkəmələrin əmək münaqişələrinin qarşısının alınması sahəsində fəaliyyətində ciddi qüsurların mövcudluğu qeyd edilirdi.

Arayışda sovet və təsərrüfat orqanlarının, həmkarlar ittifaqlarının qanunçuluğu və hüquq qaydalarının

möhkəmləndirilməsi sahəsində fəaliyyətində ciddi nöqsanlar barədə çoxlu faktlar irəli çəkilirdi.

Muxtar respublikada müəllimlər arasında ideya-siyasi işin nəzarətsiz buraxılmasının nəticəsi olaraq 1973-1974-cü illərdə müxtəlif cinayətlər törətdiyi üçün 19 müəllim cinayət məsuliyyətinə cəlb edilmişdi. Kişi müəllimlər tərəfindən məktəbli qızlara qarşı pozğun və zorakılıq hərəkətləri, nikah yaşına çatmamış məktəbli qızlarla nikaha girmə və s. hallara dair çoxlu faktlar üzə çıxarılmışdı ki, bu faktlar şagirdlərin mənəvi tərbiyəsinə mənfi təsir göstərir, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın artmasına gətirib çıxarırdı.

Təşkilati məsələlərdə qüsurlar da cinayətkarlığa və qanunçuluğun pozulmasına qarşı mübarizənin səmərəliliyini aşağı salırdı. Partiya orqanları tərəfindən qəbul edilmiş qərarlar və tədbirlər əksər hallarda kağız üzərində qalırdı, onların icrasına lazımi nəzarət edilmirdi.

Muxtar respublikada dövlət mülkiyyətinin qorunması sahəsində iş də pis təşkil olunmuşdu. Oğurluq faktlarına qarşı dözümsüzlük atmosferi mövcud olmadığından, dövlət əmlakını dağıdanlara qarşı da qətiyyətli mübarizə aparılmırdı və nəticədə dövlətə ciddi maddi ziyan vurulurdu. Bütün göstərilən faktların ümumi nəticəsi kimi arayışda məhkəmə orqanlarının oğurluq və vəzifə cinayətlərinə qarşı mübarizəsinin qeyri-kafi olduğu, bir çox hallarda onların oğrulara qarşı yumşaq münasibəti, onları cinayət məsuliyyətindən əsassız azad etmələri qeyd olunur, belə hallara prokurorluq və partiya orqanlarının bir qayda olaraq reaksiya verməmələri vurğulanırdı.

Muxtar respublikada rüşvətxorluğa qarşı mübarizənin də çox zəif aparıldığı arayışda öz əksini tapmışdı. Son illərdə

respublikada cəmi bir neçə belə cinayətin açıldığı, prokurorluq və SƏDM şöbəsi işçilərinin rüşvətxorları ifşa etmək üçün öz imkanlarından kifayət qədər istifadə etmədikləri, pozuntular və sui-istifadə halları haqqında vətəndaşların siqnallarına vaxtında reaksiya verməmələri təəssüflə qeyd olunurdu.

Naxçıvan MSSR Ali Məhkəməsinin, Prokurorluğunun və Ədliyyə Nazirliyinin fəaliyyətlərində ciddi qüsurların olmasını sübut edən bir çox faktlar arayışda öz əksini tapmışdı.

Arayışda təhqiqat işinin vəziyyəti də qeyri-qənaətbəxş hesab edilir, cinayətlərin gizlədilməsi, cinayət işinin qaldırılmasından əsassız imtina və cinayət işinə xətm verilməsi halları ciddi narahatçılıq yaradırdı.

Cinayətkarlıqla bağlı qeyri-münbit vəziyyətin əsas səbəblərindən biri inzibati orqanların kadrlarının seçilməsi, yerləşdirilməsi və tərbiyəsində buraxılan ciddi qüsurlar idi. 1974-cü ilin noyabrındakı vəziyyətə görə Naxçıvan MSSR DİN-in 10, rəis heyətinin 13 vəzifəsi boş qalmışdı [24, v.20]. Rəis heyətinin yalnız 9 nəfəri və ya 8,1 faizi ali hüquq təhsilinə malik idi. Heç bir rayon  milis şöbələrinin rəsmilərinin hüquq təhsili yox idi. İnzibati işçilər arasında siyasi tərbiyə işinin səviyyəsi də çox aşağı idi. 1974-cü ilin 10 ayı ərzində DİN-in 35 əməkdaşı və ya 32,1 faizi intizam qaydasında cəzalandırılmış, prokurorluğun demək olar ki, bütün işçiləri intizam cəzasına məruz qalmışlar.

Arayışda muxtar respublikada inzibati orqanların fəaliyyətindəki mövcud səhvlər həm də bu orqanlara partiya rəhbərliyinin zəif olması ilə əlaqələndirilmişdir. Rayon və şəhər partiya komitələrinin tərəfindən inzibati orqanların partiya təşkilatlarının fəaliyyəti yoxlanılmamış, onların

katiblərinin hesabatları dinlənilməmişdir.

Arayışda göstərilən məsələlər Azərbaycan KP MK bürosunun müzakirəsinə çıxarılmış və 1975-ci il oktyabrın 25-də Büronun «Qanunçuluğun daha da möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üzrə Naxçıvan Muxtar Respublikasının partiya təşkilatlarının işi haqqında» Heydər Əliyev tərəfindən imzalanmış qərarı qəbul edildi.

Qərarda Naxçıvan MSSR-də qanunçuluğun və hüquq qaydalaranın qorunması sahəsində vəziyyətin təhlili verilmiş, bu sahədə çox ciddi qüsurların və çatışmazlıqların olduğu qeyd olunmuşdu. Buna görə də Azərbaycanın siyasi rəhbərliyi Naxçıvan VPK-nın bürosundan «sosialist qanunçuluğunun möhkəmləndirilməsi» və hüquq pozuntularına qarşı mübarizənin gücləndirilməsi sahəsində muxtar respublikanın partiya təşkilatlarının işindəki ciddi çatışmazlıqlara diqqət yetirməyi tələb etmiş, muxtar respublikanın inzibati orqanlarının cinayətkarlığa, xüsusən oğurluqla, rüşvətxorluqla, qətllərlə qadınların şərəf və hüquqlarına qarşı cinayətlərlə, yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə sahəsində işini qeyri-qənaətbəxş hesab etmişdir. Buna görə də qərarda qeyd olunmuş çatışmazlıqların aradan qaldırılması üçün təsirli tədbirlər hazırlayıb həyata keçirmək, partiya, həmkarlar, komsomol təşkilatlarının, sovet, inzibati, təsərrüfat və digər orqanların səylərini hüquq pozuntularının profilaktikası sahəsində işin canlandırılmasına dair partiya və hökumətin göstərişlərinin əməli surətdə həyata keçirilməsinə yönəltmək, hər bir qanun pozuntusunu, qabaqlayıcı və tərbiyəvi tədbirlər kompleksinin həyata keçirilməsi üçün siqnal

kimi qəbul etmək vilayət, şəhər və rayon partiya komitələrindən tələb edilmişdi.

Qərarda qanunçuluğun daha da möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində partiya sovet, həmkarlar, komsomol təşkilatlarının, əmək kollektivlərinin rolunun və məsuliyyətinin artırılması, əhalinin ideya-siyasi və hüquqi tərbiyəsinin sahəsində işin gücləndirilməsi, bu işdə KİV-in imkanlarından geniş istifadə olunması, cinayətkarlığa qarşı mübarizədə xalq drujinaçılarının, yoldaşlıq məhkəmələrinin və ictimaiyyətinin iştirakının digər formalarının rolunun artırılmasının vacibliyi vurğulanmışdı [24, v.5-6].

Qəbul edilmiş qərarda Azərbaycan SSR Prokurorluğundan, Ədliyyə Nazirliyindən və Ali Məhkəməsindən Naxçıvan MSSR müvafiq tabeli orqanların fəaliyyətinə nəzarəti gücləndirmək, muxtar respublikanın inzibati orqanlarının işinin keyfiyyətini yüksəltmək üçün zəruri tədbirlər görmək, o cümlədən bu orqanları yüksək ixtisaslı kadrlarla möhkəmləndirmək tələb edilmişdi.

Azərbaycan KP MK Bürosu, Naxçıvan VPK və muxtar respublikanın Maarif Nazirliyinin diqqətini pedaqoji ictimaiyyət və orta məktəb şagirdləri arasında ideya tərbiyə işinin qeyri-qənaətbəxş səviyyədə olmasına cəlb edərək, onlardan muxtar respublikanın müəllim heyətinin tərkibini yaxşılaşdırmaq, məktəblərdə tədris prosesinin və kütləvi-siyasi tədbirlərin ideya məzmununa daim nəzarət etmək tələb edilmişdi [24, v.6-7].

Heydər Əliyev Naxçıvan MR-də olarkən neqativ hallara qarşı daha ciddi mübarizə aparmağı təxirəsalınmaz bir vəzifə

kimi tapşırmışdı. Sonrakı illərdə də inzibati orqanlar barəsində Naxçıvan rəhbərliyi səviyyəsində bir çox qərarlar qəbul edilmiş, bir sıra vəzifəli şəxslər partiya cəzası, inzibati cəza almış, orqanlardan qovulmuş, cinayət məsuliyyətinə cəlb olunmuşlar. Lakin muxtar respublika hüquq-mühafizə orqanlarının fəaliyyətində yenə də ciddi qüsurlar var idi, inzibati orqanlar üzərində lazımi nəzarət həyata keçirilmirdi. Bu isə Heydər Əliyevin başçılığı altında Azərbaycanda qanunçuluğun təmin edilməsi sahəsində aparılan işə bir sıra hallarda uyğun deyildi.

Düzdür, muxtar respublikada mənəvi-psixoloji iqlimi yaxşılaşdırmaq, sağlam işgüzar şərait yaratmaq məqsədilə bir sıra addımlar atılmış Vilayət Partiya Komitəsində Culfa rayon partiya komitəsi haqqında, Daxili İşlər Nazirliyinin fəaliyyəti haqqında, Naxçıvan Dövlət Pedaqoji İnstitutunda və Politexnik texnikumunda ciddi qanunsuzluqlar haqqında, Naxçıvan şəhər XDS icraiyyə komitəsinin işi haqqında, Naxçıvan ŞPK-nın işi haqqında, Şahbuz Rayon Partiya Komitəsində kadrlarla işin vəziyyəti haqqında və digər məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul edilmişdi. Lakin muxtar respublikada vilayət, rayon, şəhər partiya komitələrinin işində, sovet, təsərrüfat orqanlarının fəaliyyətində çox ciddi nöqsanlar var idi.

1978-ci ilin oktyabrında Heydər Əliyev Naxçıvana üçüncü dəfə səfər edərək buradakı iqtisadi, ictimai-siyasi vəziyyətlə tanış olmuş, muxtar respublikada siyasi, mənəvi-psixoloji iqlimin yaxşılaşdırılması, kadrların seçilməsi, yerləşdirilməsi, tərbiyə edilməsi, təsərrüfatsızlığa, rüşvətxorluğa, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılmasını təşkil etmək üçün

tövsiyyələrini vermiş, muxtar respublika rəhbərliyi qarşısında konkret vəzifələr qoymuşdur.

Heydər Əliyev Naxçıvanda bu istiqamətdə müəyyən işlər görüldüyünü təqdir etsə də, bunların lazımi səviyyəyə gəlib çatmadığını da qeyd edirdi. «Bilirsiniz məni acıdan, incidən odur ki, bu məsələlər haqqında biz 1969-cu ilin avqust plenumundan sonra mütəmadi olaraq danışırıq. Çox kəskin qərarlar qəbul edirik. İbrət olmaq üçün çox böyük işlər görürük. Ancaq niyə, nə səbəbə, Naxçıvan partiya təşkilatında bu qərarlar, bu tələblər, respublika partiya təşkilatının bu xətti-hərəkati öz yerini layiqincə tutmasın? Niyə – nə səbəbə?» Heydər Əliyev Naxçıvan VPK-nın XXX konfransındakı kəskin tənqidi çıxışını yada salaraq ümid etdiyini bildirmişdi ki, ondan sonra iş xeyli yaxşılaşacaqdır. Ancaq rayon partiya komitələrinin, rəhbər partiya işçilərinin öz vəzifələrindən sui-istifadə etməsi, nizam-intizamı pozması, pis hərəkətlər etməsi onu göstərir ki, demək nəticə çıxarılmamışdır [96, v.23].

Heydər Əliyev açıq şəkildə bəyan edirdi: «Siz bizə öz sədaqətinizi bildirirsiz. Sadiqlik dildə olmamalıdır, ancaq əməldə olmalıdır. Ancaq sizin dediyinizlə, sözünüzlə, əməliniz bəzi hallarda bir-birinə uyğun gəlmir. Bəzən də zidd olur» [96, v.23].

Heydər Əliyev Şamaxı RPK-nın I katibi, MK üzvünün aqibətini nümunə gətirərək (o şəxs rüşvətxorluğa, vəzifədən sui-istifadəyə görə 15 il azadlıqdan məhrum edilmişdi – Ə.Q.) heç kimi bağışlamadığını, heç kimə güzəştə getmədiyini qətiyyətlə bildirirdi. «Yolundan çıxan adamı, bizim xətt-hərəkətə zidd gedəni kim olursa olsun, vəzifəsindən, mövqeyindən keçmiş xidmətindən, nə bilim kimin dostudur,

kimin tanışıdır, kimin xoşuna gəlir, kimin xoşuna gəlmir, bu hallardan asılı olmayaraq, hamıya eyni münasibət göstəririk. 9 ildən artıqdır ki, Azərbaycan partiya təşkilatında bu prinsip hökm sürür… bütün nöqsanlarla, əyriliklərlə, oğurluqlarla, vəzifəsindən sui-istifadə edənlərlə, rüşvətxorlarla, dövlət malına xor baxanlarla, yolundan çıxan adamların hamısı ilə mübarizə aparmış və tam kəskinliyi ilə bundan sonra da mübarizə aparacağıq» [96, v. 24].

Heydər Əliyev eyni zamanda bu işləri tam ədalətlə, obyektiv surətdə aparmağı, subyektivliyə yol verməməyi də tələb edərək deyirdi: «Ədalət bizim üçün ən böyük, ən müqəddəs məfhumdur. Bəli, hər şey gərək ədalətli olsun. Ola bilər bir adam sənin xoşuna gəlmir. Ancaq o düz işləyirsə sən onu gərək qiymətləndirəsən, onu gərək irəliyə çəkəsən. Ancaq ola bilər ki, sənin bir adama xüsusi hüsn-rəğbətin var. Ancaq o, əyri yola gedirsə, sənin xüsusi münasibətin heç vaxt sənə burada gərək maneəçilik eləməsin. Sən gərək, o adama da başqa adamlara olduğu kimi eyni münasibət göstərəsən və eyni kəskinliklə onun səhvlərini aradan qaldırasan». Ona görə də o, rəhbər işçiləri həm kəskin xətt-hərəkət aparmağı, bütün nöqsanlara qarşı barışmaz olmağı, həm də heç vaxt ədaləti yaddan çıxarmamağı tövsiyyə edirdi [96, v.24].

Onun çıxışı muxtar respublika partiya, təsərrüfat kollektivlərinə geniş müzakirə edilir, bu vəzifələrin yerinə yetirilməsi üçün qüvvələr səfərbərliyə alınırdı. Heydər Əliyevin qarşıya qoyduğu vəzifələr 1978-cü il oktyabrın 28-də keçirilmiş Azərbaycan KP Naxçıvan VPK-nın plenumunda geniş müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdi.

Heydər Əliyevin irad və tövsiyələrini əldə rəhbər tutularaq Naxçıvan MSSR-də kadrların tərkibinin daha da yaxşılaşdırılması, onlara tələbkarlığın gücləndirilməsi, tapşırılan iş üçün onların məsuliyyətinin artırılması sahəsində müəyyən işlər görülmüş, partiya və sovet orqanlarının ixtisaslı kadrlarla möhkəmləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdi. Kadrlarla iş VPK-nın bürosunda, şəhər və rayon komitələrində müntəzəm müzakirə edilməyə başlamışdı.

Muxtar respublikada kadr ehtiyatının yaradılması istiqamətində də işlər gedirdi. Vilayət və rayon partiya partiya komitələrində perspektivdə məsul vəzifələrə irəli çəkilmək üçün işçilərin siyahısı yaradılmışdı.

Bütün bunlar rəhbər işçilərin, xüsusən partiya aparatı işçilərinin tərkibinin yaxşılaşmasına təsir göstərirdi. 70-ci illərin sonlarında muxtar respublikada artıq raykom katiblərinin hamısının ali təhsili var idi, onlardan 12-si (o cümlədən 5 qadın) ali partiya-siyasi təhsilə malik idi. 83 partiya komitəsi işçisindən 79-nun ali təhsili var idi. VPK-nın əsas nomenklaturasına daxil olan 488 işçinin, demək olar ki, hamısı ali təhsilli idi [34, v.3-4].

Muxtar respublikada bir sıra məsul sahələrin gücləndirilməsi üçün tədbirlər görülmüş, mühüm təsərrüfat və siyasi vəzifələri əməli sürətdə həll etməyi bacarmayan bir çox şəxslər, o cümlədən Naxçıvan ŞPK I katibi M.Seyidov İliç RPK I katibi S.Həsənov, Şahbuz RPK I katibi Y.Bayramov, Əhaliyə Məişət Xidməti Naziri A.Adıgözəlov, Naxçıvan şəhər, İliç və Culfa RİK-nın sədrləri M.Mürsəlov, F.Rzayev, Ə.İskəndərov, NDPİ-nin rektoru İ.Məmmədov vəzifələrindən azad edilmişdi.

Bütün bunlar muxtar respublika əhalisinin rəhbərliyə etimadının artmasına, təsərrüfat və mədəni quruculuq vəzifələrinin uğurla həyata keçirilməsinə müsbət təsir göstərirdi.

Lakin muxtar respublikada kadrlarla iş, ehtiyat kadrlar formalaşdırılması sahəsində çox ciddi qüsurlar və çatışmazlıqlar yenə mövcud idi.

1979-cu ilin əvvəllərində Heydər Əliyevin sərəncamı ilə Naxçıvanda kadrlarla işin vəziyyətini araşdırmaq məqsədilə muxtar respublikaya Azərbaycan KP MK-nın məsul işçilərindən ibarət qrup göndərildi. Qrup muxtar respublikada kadrlara işin vəziyətini araşdırmış və doqquz səhifəlik arayış hazırlanmışdı [34, v.4-11].

Arayışda muxtar respublikada bu sahədə bir sıra irəliləyişlərin olduğu göstərilmiş, eyni zamanda ciddi səhvlərin və çatışmazlıqların mövcudluğu diqqətə çatdırılmışdı.

Sənəddə kadr məsələlərinin həlli zamanı heç də həmişə yüksək tələbkarlıq və prinsipiallıq göstərilməməsinə, bir sıra hallarda kadrların dostbazlıq, tanışbazlıq, qohumbazlıq, yerlibazlıq sayəsində irəli çəkilməsinə dair faktlar öz əksini tapmışdı. Bunun nəticəsində rəhbər vəzifələrə hazırlıqsız, səriştəsiz, işçilər irəli çəkilirdilər ki, onların da qarşıda qoyulmuş vəzifələri yerinə yetirə bilməməsi öz növbəsində böyük kadr dəyişikliklərinə gətirib çıxarırdı. Belə ki, arayışın yazıldığı vaxta qədərki 3 il ərzində VPK-nın 488 nomenklatura işçisindən 260-ı dəyişilmiş, onlardan 71-i öz işinin öhdəsindən gəlmədiyinə və qulluq vəzifəsindən sui-istifadə etdiyinə görə tutduqları vəzifədən azad edilmişdilər [34, v.6].

Kadr ehtiyatının lazımi səviyyədə olmaması ucbatından Vilayət Partiya Komitəsinin, şəhər və rayon partiya komitələrinin nomenklaturasına daxil olan 60 vəzifə vakant olaraq qalmışdı. VPK inzibati orqanlar şöbəsinin müdiri vəzifəsi 1977-ci ilin noyabrından, Naxçıvan MSSR Nazirlər Soveti sədrinin üç müavini vəzifəsi 1976-cı ilin dekabrından, Ədliyyə naziri vəzifəsi 1977-ci ilin aprelindən, maarif naziri vəzifəsi isə 1978-ci ilin fevralından boş qalmışdı.

Bir çox hallarda işi batırmış işçilər bir rəhbər vəzifədən digərinə keçirilirdi.

Kadrlarla iş və onların hazırlanmasında da ciddi nöqsanlar var idi. Kolxoz və sovxozların istehsal briqadalarının 43 faizinə qeyri-mütəxəssislər başçılıq edirdi. Muxtar respublikada 141 ferma müdirindən yalnız 2-nin ali təhsili və 62-nin orta ixtisas təhsili var idi. Eyni zamanda bir çox ali təhsilli mütəxəssislər xüsusi hazırlıq tələb etməyən vəzifələrdə işləyirdi [34, v.8].

Muxtar respublikada gənclərin, qadınların rəhbər vəzifələrə irəli çəkilməsi sahəsində də çox ciddi nöqsanlar var idi. Rayon partiya komitələrinin nomenklaturasında qadınlar cəmi 13,6 faiz təşkil edirdilər (Şahbuzda isə cəmi 4,8 faiz, Culfada 6,6 faiz – Ə.Q.). Muxtar respublikada 32 sovxozdan 2-nə, 60 kənd sovetindən 5-nə, 494 istehsalat briqadasından yalnız 16-na qadınlar başçılıq edirdilər. Baxmayaraq ki, ictimai istehsalda çalışanların 47,6 faizini onlar təşkil edirdilər. Qadınların üstün mövqe tutmalı olduqları ticarət və məişət xidməti kimi sahələrdə işləyənlərin cəmi 25,0 və 18,0 faizini qadınlar təşkil edirdi [34, v.9].

Kadrlarla işdəki nöqsanların nəticəsi idi ki, bütövlükdə muxtar respublikanın iqtisadi göstəriciləri pis olmasa da, bir

çox təsərrüfatlar öz imkanlarından aşağı səviyyədə işləyir, əmək məhsuldarlığı və dövlət tapşırıqlarını yerinə yetirmirdilər [34, v.11].

Naxçıvan MR-də kadrlarla iş və ehtiyat kadrların hazırlanması vəziyyəti 6 aprel 1979-cu ildə Azərbaycan KP katibliyində müzakirə edilərək qərar qəbul edildi. Heydər Əliyevin imzaladığı qərarda Naxçıvan Vilayət Partiya Komitəsinin kadrlarının seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi sahəsində, eləcə də işçi ehtiyatının yaradılması sahəsindəki işində ciddi çatışmazlıqların olduğu qeyd olunmuş, Azərbaycan KP MK-nın təşkilat-partiya şöbəsinin bu məsələ ilə bağlı hazırladığı arayışa baxılması və zəruri tədbirlərin görülməsi üçün Azərbaycan KP Naxçıvan VPK-ya göndərilməsi, görülmüş işlər barədə VPK-ya və Azərbaycan KP MK-ya məlumat verməsi tələb edilmişdi [34, v.1].

Heydər Əliyev Naxçıvana hər gəlişində muxtar respublikada mənəvi-siyasi şəraitin sağlamlaşdırılması uğrunda, intizamı möhkəmləndirmək, hər cür naqisliyə, xüsusilə rüşvətxorluğa qarşı mübarizənin vacibliyini qeyd edirdi.

1980-ci ilin mayında Heydər Əliyevin Naxçıvana növbəti, dördüncü gəlişi də muxtar respublikada ictimai-siyasi hadisəyə, əsl toy-bayrama çevrildi. Naxçıvana Ermənistandan gələn Heydər Əliyev muxtar respublikaya özü ilə bərabər Ermənistan KP MK-nın I katibi K.Dəmirçiyanı də gətirmişdi. Əslində bu addımın çox böyük siyasi mənası var idi. Bununla Heydər Əliyev Naxçıvanın ictimai-siyasi həyatı, buranın etnik-milli tərkibi, diyarın əsl sahiblərinin kim olması haqqında həqiqətin ona çatdırılması və özünün şahidi olması məqsədini güdürdü. Naxçıvanın Ermənistanla sərhəddində yerləşmiş Sədərək

kəndində izdihamlı mitinq keçirilmiş, Heydər Əliyev mitinqdə geniş nitq söyləmişdi. Bu səfərin əlamətdar cəhətlərindən biri də o idi ki, Heydər Əliyev muxtar respublikanın beş rayonuna baş çəkmiş, rayonlarda olarkən muxtar respublikanın sosial-iqtisadi inkişafı sahəsində görülən işlərlə tanış olmuş, rayonların partiya-təsərrüfat fəallarının yığıncağında şəxsən iştirak və çıxış etmişdi. Bütün şəhər və kəndlərdə adamlar rəhbəri yüksək coşğunluqla salamlayırdılar. Həmin səfəri çərçivəsində oktyabrın 24-də Naxçıvan şəhərində partiya, əmək və müharibə veteranları ilə əl tutaraq bir-bir görüşmüş onların xidmətlərini yüksək qiymətləndirmiş, problemləri ilə yaxından tanış olmuşdu [128, 1980, 25 may].

Heydər Əliyev Naxçıvan MSSR partiya-təsərrüfat fəalların yığıncağındakı dərin və məzmunlu nitqində, muxtar respublikada vəziyyətə qiymət vermiş, mövcud nöqsanların aradan qaldırılması yollarını da göstərmişdir.

Həmin səfəri zamanı Naxçıvan VPK büro üzvləri, muxtar respublikanın rəhbərləri, Azərbaycanın nazirlik və baş idarələrinin rəhbərləri ilə birgə Naxçıvan MR-in gələcək inkişafı üçün proqram hazırlanması qərara alınmışdı. Proqramda muxtar respublikanın sənaye potensialının durmadan artırılması, yeni iri sənaye obyektlərinin yaradılması, mövcud obyektlərin gücünün artırılması nəzərdə tutulmuşdu. Təkliflər sırasına Ordubad baramaçılıq fabrikinin yenidən qurulması, İliç rayonunda iri konserv zavodunun tikilməsi, Ordubad konserv zavodunun köçürülməsi, burada əllə toxunan xalça fabrikinin yaradılması, Naxçıvanın böyük sərvətlərindən isitifadə etmək üçün müəssisələrin tikilməsi və s. də daxil idi.

Kənd təsərrüfatı sahəsində də bir çox işlər görülməsi planlaşdırılırdı. Bu sahənin su təminatını yaxşılaşdırmaq üçün su obyektlərinin, o cümlədənVayxır su hövzəsinin  tikilməsi nəzərdə tutulmuşdu.

Heydər Əliyev muxtar respublikanın bütün yaşayış məskənlərini qazla təmin edilməsi vəzifəsini də irəli sürmüşdü. O, müasir tələblərə cavab verən yolların çəkilməsini, başqa sosial məsələlərin də həll olunacağını inamla söyləmişdi. Əslində bununla Heydər Əliyev Naxçıvan MR-in gələcək sosial-iqtisadi inkişaf planını müəyyənləşdirmişdi. Bu planın mühüm tərkib hissəsini muxtar respublikada elmin, mədəniyyətin, təhsilin, bütün humanitar sahələrin inkişafı təşkil edirdi [99, v.112-115]. Heydər Əliyev qeyd edirdi ki, bu planları həyata keçirmək şübhəsiz ki, asan məsələ deyil. Bizim borcumuz ondan ibarətdir ki, bu planları tərtib edək və onların həyata keçirilməsinə şərait yaradaq. Sizin də borcunuz ondan ibarətdir ki, ixtiyarınıza verilən bütün imkanlardan bacarıqla istifadə edəsiniz ki, o planlar vaxtlı-vaxtında yerinə yetirilsin [99, v.122]. O, bir daha təkrar edərək qeyd etmişdi: «Muxtar respublikaya yardım etmək üçün çox böyük işlər görürük. Biz Naxçıvan Muxtar Respublikasının inkişafı üçün böyük əsas yaratmışıq. Mən arzu edərdim ki, bu imkanatlardan, bu köməkdən Vilayət Partiya təşkilatı və Naxçıvan Muxtar Respublikasının bütün zəhmətkeşləri səmərəli istifadə etsinlər» [97, v.122].

Lakin sonrakı məlum hadisələr Heydər Əliyevə Naxçıvanın sosial-iqtisadi inkişafına dair özünün işləyib hazırladığı geniş və hərtərəfli proqramı reallaşmaq imkanını vermədi. Yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra

Heydər Əliyevin siyasi rəhbərliyi, muxtar respublikanın rəhbərliyinin əzmkar fəaliyyəti sayəsində bu proqramın əksər müddəaları yeni şəraitə uyğun olaraq əməli surətdə həyata keçirilməyə başladı.

O, planların, qərarların həyata keçirilməsi üçün partiya təşkilatlarının işini gücləndirməyi, ideoloji işi daha da yaxşılaşdırılmağı, nizam-intizamı möhkəmləndirməyi, kadrların seçilib yerləşdirilməsi işini daha da təkmilləşdirməyi, tələbkarlığı artırmağı tövsiyə edirdi.

Heydər Əliyev Naxçıvandan Bakıya göndərilmiş şikayətlərin yoxlanılıb tədbir görülməsi üçün şəxsən göstəriş vermişdi. O, hətta Naxçıvan VPK bürosunun gizli iclasını keçirərək prinsipial nöqsanları müzakirə etmişdi [99, v.115-119]. Heydər Əliyev kadrların seçilməsində səhvlərin olduğunu, eyni zamanda bu səhvlərin düzəldilməsini müsbət qiymətləndirirdi və bu barədə qeyd edirdi ki, belə səhvlərdən danışarkən, düzü, mən çox ürəkağrısı çəkirəm. Çünki 1969, 1970 və 1971-ci illərdə rəhbər vəzifələrdə belə nalayiq hərəkətlər edən adamların olması bizi incidirdi. O vaxt belə hallar müəyyən qədər təbii idi. Çünki altmışıncı illərdə respublika partiya təşkilatında hərc-mərclik, kadrların dostbazlıq, tanışbazlıq, rüşvətxorluq vasitələri ilə irəli çəkilməsi dərin kök salaraq geniş miqyas almışdı. Biz 1969-cu ilin avqust plenumunda məhz ilk növbədə bu nöqsanları aşkara çıxardıq, bu səhvləri düzəldib, ümumiyyətlə, respublikada partiya təşkilatının işini yaxşılaşdırmaq qərarını qəbul etdik. Ancaq 1977, 1978, 1980-ci illərdə adamların özlərini pis aparması bizi çox incidir [99, v.118].

Heydər Əliyev Naxçıvanda münasib kadrların hazırlanması

məsələsinin lazımi səviyyədə olmamasına növbəti dəfə diqqəti yönəldərək müdriklik və uzaqgörənliklə qeyd edirdi ki, «Kadr taxıl deyil ki, bu il əkdin, beş aydan sonra onun məhsulunu götürəsən... Rəhbər vəzifə üçün kadr hazırlamaq on il, on beş il vaxt tələb edir. Biz indi gərək həm bu gün haqqında fikirləşək, həm də kadrların hazırlanması prosesini elə təşkil edək ki, beş il, on il, on beş il bundan sonrakı iş üçün də yararlı kadrlar hazırlansın» [97, v.119].

Heydər Əliyevin Naxçıvana səfərindən sonra bütün şəhər və rayonlarda partiya, təsərrüfat orqanlarının yığıncaqları keçirilir və onun çıxış və tövsiyyələri ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə edilirdi.

Heydər Əliyevin Azərbaycan KP qurultaylarında, MK-nın plenumlarında, 1979-cu ilin aprelində Bakıda keçirilmiş «fəal həyat mövqeyinin formalaşdırılması, mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda elmi-praktik konfransdakı məruzəsində, «Pravda» qəzetinin səhifələrində «Vicdanımızın normaları» başlığı ilə verilən söhbətində, «Literaturnaya qazeta»nın müxbiri ilə aktual müsahibəsində («Qoy ədalət zəfər çalsın» – Ə.Q.) və bir sıra digər çıxış və məqalələrində mənəvi intizam məsələsini qarşıya çox mühüm bir vəzifə kimi qoyurdu. Onun neqativ hallara qarşı mübarizəsi Azərbaycanda sağlam, mənəvi-psixoloji mühitin yaradılmasına səbəb olmuş, bu isə geniş xalq kütlələrinin sosial fəallığını daha da artırmışdır.

Naxçıvan MR-də onun bu prinsipial xətti tam müdafiə edilir, muxtar respublikada mənəvi-psixoloji iqlim yaratmaq sahəsində məqsədyönlü iş aparılırdı. Bütün bunlar böyük müsbət nəticələr verirdi. Heydər Əliyevin Azərbaycan KP MK

birinci katibi kimi Naxçıvan MR-ə son səfərində (oktyabr 1982-ci il) də mənəvi tərbiyə sahəsində aparılan işə diqqəti daha da artırmağı tövsiyə etmişdi [100, v.29-56].

Naxçıvanda ideoloji işin təkmilləşdirilməsi məsələlərindən danışarkən Heydər Əliyev əhalinin, xüsusən gənclərin mənəvi tərbiyə vəzifələrinin aktuallığını, əmək intizamını və ictimai asayişi pozanlara qarşı qətiyyətlə mübarizə aparmaq lüzumunu qeyd edirdi [128, 1982, 5 oktyabr]. Həmin dövrdə Naxçıvan Vilayət Partiya Komitəsinin, Culfa, Babək rayon, Naxçıvan şəhər partiya komitələrinin, Naxçıvan MSSR Daxili İşlər Nazirliyinin, NDPİ və başqa təşkilatların sabiq rəhbərləri haqqında gördüyü tədbirlər muxtar respublika ictimaiyyəti tərəfindən razılıqla qarşılanmışdı.

Heydər Əliyevin iş prinsiplərindən birini də bacarıqlı kadrların, xüsusən qadınların, gənclərin qətiyyətlə irəli çəkilməsi təşkil edirdi. Bunu Naxçıvanın timsalında da görmək olar. Əgər 1972-ci ildə VPK-nın nomenklaturasında cəmi 25 nəfər qadın var idisə, iki ildən sonra, 1974-cü ildə onların sayı 41-ə çatdırılmışdı. Bu zaman nomenklaturaya daxil olan işçilər sırasında 40 yaşına qədər olanların sayı 60 faizdən yuxarı təşkil edirdi. Naxçıvan MSSR-Ali Soveti və yerli Sovetlərin deputatlarının 29 faizi 30 yaşınadək olan gənclərdən ibarət idi [129, 1974, 30 may].

Heydər Əliyev cəmiyyətdə qadınların statusunun artırılmasını, onların ictimai istehsala, idarəetmə işinə geniş cəlb edilməsini dövlətin və partiyanın ən ali vəzifələrindən biri kimi irəli çəkmişdi. Bu baxımdan onun Azərbaycan qadınlarının IV qurultayında (1972-ci il), «Azərbaycan qadını» jurnalının 50 illiyi ilə bağlı yubiley iclasında, eləcə də digər

forumlardakı çıxışı Azərbaycanda qadınların ictimai vəziyyətinə çox böyük həssaslıqla yanaşdığını bir daha sübut edir. Ulu öndərin başçılığı ilə Azərbaycanda həyata keçirilən qadınların həyat fəaliyyətinin yüksəldilməsi siyasətinin ən bariz nümunələrindən biri həmin dövrdə Naxçıvanda qadınların ictimai-iqtisadi vəziyyətində, təhsilində baş verən mütərəqqi dəyişikliklərdir.

Heydər Əliyevin Naxçıvanda iqtisadi istehsalın genişləndirilməsi, sənaye müəssisələrinin sayının artırılması istiqamətində apardığı məqsədyönlü siyasətin nəticəsi olaraq burada işləyən qadınların sayı artaraq 1980-ci illərin sonlarında işçilərin ümumi sayının 47,7 faizini təşkil edirdi [124, 61].

70-80-ci illərdə Naxçıvan qadınlarının təhsil səviyyəsi artmaqda davam edirdi. Artıq 70-ci illərin sonlarında muxtar respublikada qadınların demək olar ki, hamısı ümumi təhsilə cəlb edilmiş, nəticədə qadınlar arasında ali və orta təhsillərin sayı xeyli artmışdı. 1979-cu ildə burada hər 1000 qadından 24-ü ali, 152-si orta təhsilli idi [160, 3].

Məlumdur ki, 70-ci illərə qədər muxtar respublikada qadınların ictimai istehsala cəlb edilməsi sahəsində müəyyən problemlər var idi. Hər şeydən əvvəl burada qadın əməyinin tətbiqinin mümkün olduğu istehsal müəssisələri çox az idi. Lakin Heydər Əliyevin düşünülmüş siyasətinin nəticəsi olaraq Naxçıvanda qısa müddət ərzində bir sıra yüngül və yeyinti sənaye müəssisələri, xidmət obyektləri tikilərək istifadəyə verildi ki, orada işçi qüvvəsi əsasən qadınlardan ibarət idi. Belə müəssisələr sırasında Naxçıvan alt geyimləri trikotaj fabriki, xalçaçılıq fabriki, Naxçıvan istehsal kombinatı, fərdi tikiş fabriki, quşçuluq kombinatını və s. göstərmək olar.

Naxçıvanda qadınların ictimai statusunun artmasını göstərən faktlardan biri də müxtəlif sahələrdə məsul vəzifələrə onların geniş şəkildə irəli çəkilməsi oldu. Həmin dövrdə naxçıvanlı qadınlar məktəb direktoru, maarif, şöbə müdiri, baş həkim, partiya komitəsinin katibi, nazir, ali məhkəmənin sədri vəzifələrini uğurla icra edirdilər.

Xalq deputatları içərisində qadınların sayı artmaqda idi. Belə ki, 1980-ci illərdə Azərbaycan SSR Ali Sovetində Naxçıvanı təmsil edən 18 nəfərdən 7-si, Naxçıvan MSSR Ali Sovetinin 110 deputatından 52-si, 2904 yerli sovet deputatlarından 1411-i qadın idi [160, 241].

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə Naxçıvanda bir sıra mühüm vəzifələrə qadınlar təyin olunmuşdular. Belə ki, S.Əliyeva uzun müddət ərzində (1990-cı ilə qədər) MR Ali Soveti Rəyasət Heyətinin sədri işləmiş, S.Bayramova Ali Məhkəmənin sədri, L.Ələkbərova ictimai təminat naziri, V.Hüseynova vilayət komsomol komitəsinin I katibi, E.Qasımova Naxçıvan Şəhər Partiya komitəsinin katibi, D.Ələkbərova Vilayət Partiya komitəsinin katibi, S.Kərimova «Şərq qapısı» qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır.

Qəbul edilmiş ənənəyə müvafiq olaraq bütün rayon partiya və komsomol komitələrinin katibləri qadınlar idi. Qadınların ictima-siyasi fəallığının artırılmasında qadın şuraları da müəyyən rol oynayırdı.

Naxçıvan MR-də mədəniyyət, təhsil, səhiyyə sahəsində çalışanların əksəriyyəti qadınlar idi. Muxtar respublikada həkimlərin və orta tibb işçilərinin 60,7 faizini, müəllimlərin 70 faiz, mədəni-maarif işçilərinin 60 faizə qədərini qadınlar təşkil edirdi.

Naxçıvanlı qadınların bir çoxu keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşdu. 30-a yaxın Sosialist Əməyi Qəhrəmanının 18-ni qadınlar təşkil edirdilər. 1980-ci illərin əvvəllərində 1429 qadın «Qəhrəman ana» ordeni, 19504 qadın «Analıq şərəfi» ordeni, 31091 qadın isə «Analıq» medalı ilə təltif olunmuşdular [58, 15].

Bütün bunlarla yanaşı, həmin dövrdə bütün Azərbaycan qadınlarına xas olan problemlər Naxçıvanda da təzahür edirdi. Qadınların məşğulluq probleminin həlli üçün bir sıra tədbirlər həyata keçirilsə də, istehsalata cəlb olunmamış əhali arasında qadınlar üstünlük təşkil edirdi (89,4 faiz). Qadın əməyinin tətbiqinin mümkün olduğu sahələrdə yenə də kişilər üstünlük təşkil edirdi (Rabitə, ictimai iaşə, yeyinti sənayesi, xidmət, kargüzarlıq və s.). Qadınlara xidmət göstərən məktəbəqədər, məişət xidməti, səhiyyə müəssisələri azlıq təşkil edirdi.

Qadınların dövlət, partiya, sovet orqanlarında, ictimai təşkilatlarda irəli çəkilməsi sahəsində müəyyən uğurlar əldə edilsə də, rəhbər işçilər arasında onların sayı kişilərdən dəfələrlə aşağı idi. Ali təhsilli mütəxəssislər, müxtəlif peşələr üzrə qadınlarla kişilər arasında disproporsiyalar hələ də qalmaqda idi.

Bütün bunlara baxmayaraq, Azərbaycanda həyata keçirilən qadın siyasətinin nəticəsi olaraq 70-ci illərdə 80-ci illərin I yarısında Naxçıvanda qadınların iqtisadi, mədəni-məişət vəziyyətinin yaxşılaşdırılması, ictimai-siyasi fəallığının artırılması sahəsində çox mühüm uğurlar əldə edilmiş, qadınların mədəni-maarif, təlim-təhsil səviyyəsi yüksəlmiş, ictimai istehsalatda iştirakı genişlənmişdir. Qadınlar muxtar

respublikanın iqtisadi və mədəni tərəqqisinə daha çox töhfələr verməyə başlamışdılar.

Heydər Əliyev Naxçıvanda gənc nəslin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirməyi tövsiyə edirdi. Gənclərin yüksək vətəndaşlıq keyfiyyətlərinin formalaşmasında, onların cəmiyyət qarşısında öz borcunu düzgün başa düşməsində hərbi vətənpərvərlik tərbiyəsi mühüm rol oynayırdı. Heydər Əliyevin gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi ilə bağlı tövsiyələrinin yerinə yetirilməsi üçün muxtar respublika partiya, sovet, həmkarlar ittifaqları, komsomol təşkilatları hərbi komissarlıqlarla birlikdə kompleks tədbirlər həyata keçirirdi.

Muxtar respublikada məhsul bayramlarının, çoban və heyvandar günlərinin, mahnı bayramlarının, komsomol toylarının keçirilməsi, gənclərin təntənəli surətdə ordu sıralarına yola salınması, müharibə veteranları ilə görüşlər və s. tədbirlərin həyata keçirilməsi artıq ənənə halını almışdı.

Bütün ölkədə olduğu kimi, muxtar respublikada da əhali arasında siyasi rejimin tələblərinə uyğun ictimai-siyasi iş aparılırdı. Heydər Əliyev vətəndaşların fəallığını ictimai, iqtisadi tərəqqinin əsas faktoru, həyat fəaliyyətinin, yaradıcı fəallığın mühüm forması hesab edərək mövcud reallıqlar şəraitində insanların ictimai-siyasi fəallığının artırılması üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışırdı.

Lakin etiraf etmək lazımdır ki, partiya amirliyinin dərin kök saldığı şəraitdə bu çox çətin idi. Demokratiyanın boğulduğu, bürokratiyanın kök saldığı təkpartiyalı siyasi sistemdə vətəndaşların siyasi məsələlərə yadlaşması, ictimai təşkilatların formal mövcudluğu tamamilə təbii idi.

Siyasi hakimiyyətin kommunist partiyasının əlində cəmləşdiyi, partiyanın siyasi sistemin əsas ünsürü olduğu bir dövrdə vətəndaşların ictimai-siyasi fəallığının, cəmiyyətin idarə edilməsində iştirakının əsas vasitəsi olan partiya təşkilatlarının rolunun genişlənməsi, partiya təşkilatlarının və partiya üzvlərinin sayının artması təbii proses idi.

Bütün ölkədə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da partiya təşkilatlarının hegemon mövqeyi davam etməkdə idi. 1970-ci ildə Naxçıvan Vilayət Partiya təşkilatının sıralarında 8890, 1981-ci ildə 11152, 1984-cü ildə 12228 kommunist birləşməsidi. 1975-ci ildə 453, 1980-ci ildə 452 partiya təşkilatı fəaliyyət göstərirdi [163,4].

Lakin mövcud inzibati-amirlik şəraitində partiya təşkilatlarının fəaliyyətində bürokratik metodlar üstünlük təşkil edirdi, onlar dövlət, təsərrüfatı orqanlarına, ictimai təşkilatlara qəyyumluq etməkdə, onların funksiyaların yerinə yetirməkdə davam edirdilər.

Partiya orqanlarının tərkibindəki kəmiyyət dəyişikliyi əksər hallarda yuxarı orqanların iradəsi ilə həyata keçirilirdi. 70-80-ci illərdə Azərbaycanda partiya üzvlərinin sayının orta artımı 1,8 faizdən çox olmadığı halda, Naxçıvanda bu göstərici çox yüksək idi [68, 176]. Sözlə iş arasında dərin uyğunsuzluq var idi. Partiya təşkilatlarının fəaliyyətində qüsurlar, demokratik prinsiplərin pozulması, formalizm onların xalq arasında nüfuzdan düşməsinə səbəb olur, əhalinin onlardan yadlaşmasına gətirib çıxarırdı.

1970-1985-ci illərdə Vilayət partiya komitəsinin XXIX, XXX, XXXI, XXXII konfranslarında, plenumlarında muxtar respublikanın iqtisadi, mənəvi və sosial-mədəni inkişafı ilə

bağlı bir sıra məsələlər müzakirə edilmiş, təşkilati-siyasi tədbirlər müəyyənləşdirilərək həyata keçirilmişdi. Heydər Əliyevin mövcud siyasi reallıqlar şəraitində həyata keçirdiyi idarəçilik mexanizmi muxtar respublikanın partiya təşkilatlarının fəaliyyətində də özünü göstərirdi.

Göstərilən dövrdə Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi vəzifəsində H.İbrahimov, A.Hüseynov, K.Rəhimov, N.Mustafayev çalışmışdı. Sonralar Azərbaycanın siyasi rəhbərliyində təmsil olunmuş bir sıra dövlət xadimləri öz siyasi-partiya fəaliyyətlərinə Naxçıvan partiya təşkilatından başlamışlar.

Heydər Əliyevin həyata keçirdiyi çoxşaxəli idarəçilik siyasətinin mühüm istiqamətlərindən birini həmkarlar ittifaqları, komsomol və b. ictimai təşkilatların muxtar respublikanın iqtisadi, mədəni, siyasi inkişafında iştirakının genişləndirilməsi təşkil edirdi. Partiyanın «etibarlı köməkçisi və ehtiyat qüvvəsi» adlandırılan komsomol Naxçıvan MR-də 1984-cü ildə 57,5 min gənci birləşdirirdi [74, 124]. Lakin o zaman bütün komsomolun fəaliyyətinə xas olan cəhətlər Naxçıvan komsomol təşkilatlarına da bilavasitə aid idi. Müəyyən yaşa çatmış gənclərin, demək olar ki, əksəriyyəti hətta onların xəbəri olmadan «komsomola üzv» qəbul edilirdilər. Komsomol təşkilatları gənclər arasında ictimai-siyasi, mənəvi-tərbiyə işinin təbliğat və təşviqatın, kütləvi əyləncəli tədbirlərin əsas təşkilatçıları idilər. Lakin partiya amirliyi şəraitində komsomolun bu sahədəki fəaliyyəti daha çox formal xarakter kəsb etdiyindən, gənclərin maraq və tələbatlarına cavab vermirdi. Bu isə partiya təşkilatları kimi

komsomolun da gənclər arasında «yadlaşması» prosesinin güclənməsi demək idi.

Öz sıralarında 100 minə qədər vətəndaşı birləşdirən Vilayət Həmkarlar İttifaqı təşkilatı, onun rayon və şəhər şöbələri əhalinin həyat tərzini, iş şəraitinin, məişətinin, istirahətinin və müalicəsinin təşkili məsələləri ilə məşğul olurdu. Həmkarlar təşkilatlarının fəaliyyəti ilə Ordubad və Şahbuz rayonlarında məktəblilər üçün pioner düşərgələri təşkil edilmişdi. Bu təşkilat muxtar respublika əhalisinin özfəaliyyət kollektivlərinin təşkili, bədii və ideoloji tərbiyəsi ilə də yaxından məşğul olmaq səlahiyyətində idi. Lakin həmkarlar ittifaqlarının real müstəqilliyə malik olmamaları, mövcud siyasi şəraitdə əhalinin həqiqi maraqlarının təminatçısı rolunu yerinə yetirməməsi, bütövlükdə işinin formal xarakter daşıması Naxçıvan MR-də də təzahür edirdi. Bu təşkilat zəhmətkeşlərin maddi və mənəvi həyat şəraitinin yaxşılaşdırılması vəzifəsini yerinə yetirməli olsa da, reallıqda bu sahəyə ayrılmış vəsaitlərin, sosial ödənişlərin bir növ bölüşdürücüsü rolunda çıxış edirdi, bir qayda olaraq bu zaman sosial ədalət prinsipinə riayət edilmirdi. Heydər Əliyev muxtar respublikada əhalinin maddi-mənəvi maraqlarının qorunmasında, həmkarlar ittifaqlarının fəaliyyətlərində qüsur və nöqsanları təsdiqləyən ciddi faktları meydana çıxarmışdı.

Muxtar respublikada müxtəlif ictimai və özfəaliyyət təşkilatları – müharibə və əmək veteranları şuraları, qadın komitələri, könüllü xalq drujinaları, nəzarət qrupları, komsomol projektorları və s. fəaliyyət göstərirdi. Lakin onların fəaliyyətində formalizm, gözdən pərdə asmaq kimi xüsusiyyətlər üstünlük təşkil edirdi. Muxtar respublikada sovet

dövlətinin tarixi ilə bağlı yubileylər də hesabat xatirinə qeyd edilir, ictimai-siyasi həyata bu tədbirlərin təsiri demək olar ki, hiss olunmurdu. Əhalinin inzibati-amirlik yolu ilə bu tədbirlərə cəlb edilməsi, xüsusən, oktyabr inqilabi və 1 may bayramlarında nümayişlərin keçirilməsi vətəndaşlarda bu tədbirlərə qarşı yalnız ikrah hissi oyadırdı.

Muxtar respublikada seçkili hakimiyyət orqanları olan sovetlər bölgənin siyasi, mədəni, iqtisadi həyatında müəyyən rol oynamaqda davam edirdi. Bilavasitə partiya təşkilatlarından asılı olsalar da, xalq deputatları sovetləri iqtisadi və mədəni inkişafa müəyyən təsir göstərir, şəhər və kəndlərin abadlaşdırılması, maarifin, səhiyyənin, ticarət və ictimai iaşənin yaxşılaşdırılmasına çalışırdılar.

Bütövlükdə komsomol, həmkarlar təşkilatlarının, yerli sovetlərin müstəqilliyi, real qüvvəsi çox az idi, onlar öz funksiyalarını tədricən itirərək deformasiyaya uğramışdılar. Bu təşkilatlar haqqında reallığa uyğun olmayan qanunlar qəbul edilsə də, onların həyata keçirilməsi mövcud şəraitdə mümkün deyildi. Həmin təşkilatların say tərkibinin artması, strukturlarının genişləndirilməsi partiya orqanları tərəfindən müəyyən edilmiş planlara müvafiq, inzibatçılıq yolu ilə həyata keçirilirdi. Müəyyən yaş həddinə çatmış hər bir gənc komsomolun, hər bir işləyən isə həmkarlar ittifaqının üzvü olmalı idi. Bütün bunlar əhalinin sosial-ictimai fəallığının aşağı düşməsinə, siyasətə, idarəetməyə laqeydliyi ilə nəticələnirdi.

Sovetlər haqqında həm ittifaq, həm respublika, həm də muxtar respublika səviyyəsində çoxlu qanun və qərarlar qəbul edilsə də, onların hüquqları yenə də məhdud olaraq qalırdı, sovetlər üzərində partiya orqanlarının qəyyumluğu ifrat

dərəcəyə çatmışdı. Bütün səviyyədən olan sovetlərə «seçkilər»də əhalinin hamısının «iştirak» etdiyi bildirilirdi. Lakin yalnız bir namizədin olduğu seçki prosesini hətta formal olaraq belə seçki adlandırmaq mümkün deyildi. Deputat korpusu da yuxarıdan göstərilmiş formada və tərkibdə formalaşdırılırdı.

Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın ali hakimiyyət orqanı hesab olunurdu. 1970-1985-ci illərdə Ali Sovetə 4 dəfə (VIII-XI çağırışlarda) seçkilər keçirilmişdi. Ali Sovetin fəaliyyətinə dövlət, hakimiyyət və idarə orqanlarının təşkili və fəaliyyət qaydalarının müəyyənləşdirilməsi, onların fəaliyyətinə rəhbərlik etmək daxil idi. Muxtar respublikanın konstitusiyasına görə 5 il müddətinə seçilən Ali Sovet öz hakimiyyətini muxtar əsaslarla müstəqil həyata keçirirdi. Onun səlahiyyətinə həmçinin digər dövlət orqanlarının həll edə bilməyəcəyi dövlət, təsərrüfat, sosial-mədəni quruculuğun ən vacib məsələləri daxil idi. 5 il müddətinə seçilən muxtar respublikanın Ali Soveti özündə 110 deputatı birləşdirirdi (8-ci çağırış AS-də 80, IX çağırış AS-də isə 100 – Ə.Q.). Naxçıvandan Azərbaycan Ali Sovetinə isə 18 deputat seçilirdi. Həmin dövrdə muxtar respublikada 3 şəhər, 5 rayon, 4 qəsəbə və 56 kənd soveti fəaliyyət göstərirdi. Yerli sovetlər özündə 2574 deputatı birləşdirirdi. 1984-cü ildə muxtar respublikada bütün pillələrdən olan sovetlərə 3045 nəfərdən çox deputat seçilmişdi. 70-80-ci illərdə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə Səkinə Əliyeva başçılıq etmişdir.

Ali Sovetin Rəyasət Heyətində 9 deputat təmsil olunurdu. XI çağırış Naxçıvan MSSR Ali Sovetində [24 fevral, 1985-ci il] 10 daimi komissiya (mandat, qanunvericilik təşəbbüsləri,

plan-büdcə, sənaye, tikinti, nəqliyyat və energetika, kənd təsərrüfatı və meliorasiya, ticarət, ictimai iaşə və əhaliyə məişət xidməti, səhiyyə və sosial təminat, elm, maarif, mədəniyyət, qadın əməyi və məişəti, analıq və uşaqların mühafizəsi məsələləri, gənclərin işləri üzrə komissiyalar) fəaliyyət göstərirdi.

Həmin dövrdə Naxçıvan muxtariyyətinin hüquqi statusunu konkretləşdirən bir sıra qanunvericilik aktları, o cümlədən Ali Sovetin daimi komissiyaları, yerli xalq deputatlarının səlahiyyətləri, sovetlərə seçkilər, muxtar respublikanın Nazirlər Soveti və s. haqqında aktlar qəbul edilmişdi. 1978-ci il mayın 30-da IX çağırış Naxçıvan MSSR Ali Sovetinin səkkizinci sessiyası Naxçıvan Muxtar Respublikasının yeni konstitusiyasını qəbul etdi. Azərbaycan SSR-in yeni konstitusiyasının qəbulundan bir ay sonra qəbul edilmiş Naxçıvan MR-in konstitusiyası muxtar respublikanın hüquqi statusunu müəyyən edərək onun səlahiyyət dairəsini təsbitləşdirdi.

70-ci illərin sonu – 80-ci illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının inzibati bölgüsündə müəyyən dəyişikliklər aparıldı.

Azərbaycan KP MK bürosunun 22 avqust 1972-ci il tarixli qərarı ilə Naxçıvan MSSR Culfa, İliç, Naxçıvan, Şahbuz rayonlarının inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi barədə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin təklifləri qəbul edildi [11, v.176-177].

Naxçıvan kənd rayonunun adı dəyişdirilərək Babək rayonu adlandırıldı.

Naxçıvan şəhərinin və Naxçıvan kənd rayonunun adlarının eyniliyi sənaye və kənd təsərrüfatına rəhbərliyin həyata keçirilməsində, partiya orqanları və dövlət idarələrində kargüzarlığın aparılmasında müəyyən çətinliklər yaradırdı. Buna görə də Naxçıvan rəhbərliyi Azərbaycan KP MK-ya müraciət edərək rayonun adının dəyişdirilərək Babək rayonu adlandırılmasını xahiş etmişdi.

Lakin Naxçıvan VPK-nın bu təklifi MK-da birmənalı qarşılanmamış, orada işləyən rus millətinə mənsub məmurlar rayona sovet dövlət xadimlərindən birinin adının verilməsini təkid etmişdilər. O zaman bu məsələdə hökmən Moskvanın razılığı alınmalı idi. Lakin Heydər Əliyev milli-tarixi dəyərlərə sadiqliyini, vətənsevərliyini bir daha nümayiş etdirərək rayona Azərbaycan xalqının ərəb işğalçılarına və xilafətə qarşı azadlıq mübarizəsinin fəal iştirakçısı, böyük Azərbaycan sərkərdəsi Babəkin adının verilməsinə nail oldu. Heydər Əliyevin imzası ilə Azərbaycan KP MK bürosu 27 sentyabr 1978-ci il tarixli qərarı ilə Naxçıvan MSSR Naxçıvan rayonunun Babək rayonu adlandırılması barədə Azərbaycan KP Naxçıvan VPK-nın təklifini qəbul etdi [30, v.134].

Azərbaycan KP MK-nın avqust (1969-cu il) plenumundan sonra Azərbaycanda, o cümlədən Naxçıvan MR-də bərqərar olmuş yüksək tələbkarlıq şəraiti, iqtisadi və mədəni quruculuğa əldə edilmiş cahanşümul müvəffəqiyyətlər, respublika əhalisinin qüvvəsinin dövlət-təsərrüfat planlarının yerinə yetirilməsi, ölkənin və respublikanın tərəqqisi üçün mübarizəyə səfərbər etmək sahəsində Heydər Əliyevin yorulmaq bilmədən ardıcıl həyata keçirdiyi təşkilatçılıq və siyasi fəaliyyətinin bəhrəsi oldu.

Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi ictimai-iqtisadi tədbirlər, Naxçıvan əhalisində böyük ruh yüksəkliyi yaratmış, onların ictimai-siyasi fəallığını, muxtar respublikanın tərəqqisi naminə əmək coşğunluğunu artırmışdı.

Əməkdə fərqləndiyinə görə, 30 nəfərdən çox naxçıvanlıya Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, minlərlə naxçıvanlı SSRİ orden və medalları ilə təltif edilmişdir. Görkəmli maarif, səhiyyə, mədəniyyət işçilərindən 170 nəfərdən çoxu SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR fəxri adlarına layiq görülmüşdür.

Naxçıvan MR-də 70-80-ci illərdə əldə edilmiş bütün nailiyyətlərdə Heydər Əliyevin xüsusi payı və xidmətləri var idi. Muxtar respublika əhalisi Heydər Əliyevin bölgəyə qayğı və köməyini, onun şəxsi təşəbbüskarlığını və diqqətini daim hiss edirdi.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan camaatında milli dəyərlərə bağlılıq, sədaqət hissi daha da güclənmişdi. Etiraf edilməlidir ki, 70-80-ci illərin əvvəllərində mövcud partiya diktaturası şəraitində belə Naxçıvanda milli-mənəvi dəyərlərin, milli mədəniyyətin, adət-ənənələrin qorunması və inkişafı üçün atılmış addımlar başqa regionlarla müqayisədə daha səmərəli və məqsədyönlü xarakter daşıyırdı.

Əlbəttə, Heydər Əliyev bütün Azərbaycanın siyasi və mənəvi lideri olduğundan Azərbaycan xalqının tərəqqisi, rifahı onun əsas amalı idi. Məhz onun hakimiyyəti dövründə Azərbaycan xalqı özünün iqtisadi və mədəni intibah dövrünü yaşamağa başladı, xalqla hakimiyyət arasında uçurum aradan qaldırıldı, azərbaycanlılar arasında milli həmrəyliyə nail

olundu. Azərbaycanın bütün regionlarının davamlı inkişafı üçün təsirli tədbirlər həyata keçirilməyə başlandı.

Heydər Əliyevin milli-mənəvi dəyərlərə qayğısı, milli ruhu inkişaf etdirmək sahəsində atdığı addımlar xalqımızda müstəqillik hisslərinin dirçəlməsinə zəmin yaratdı. Nəticədə məhz 70-80-ci illərdə Azərbaycanın milli müstəqilliyi üçün zəruri olan iqtisadi, siyasi, mədəni-mənəvi xüsusiyyətlər təşəkkül tapdı. Müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün münbit şərait yarandı. Təsadüfi deyildir ki, 80-ci illərin sonlarında Azərbaycanda milli hərəkat başlayarknən Azərbaycan xalqı bu hərəkatın lideri kimi yalnız Heydər Əliyevi görür, ona ümid bağlayırdı. Xüsusən Naxçıvanda Heydər Əliyev şəriksiz nüfuza malik idi. Sonrakı hadisələr xalqın öz seçimində yanılmadığını bir daha sübut etdi.

Beləliklə, 70-ci illərdə və 80-ci illərin I yarısında Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi həyat xeyli zənginləşmiş, insanların ictimai-siyasi fəallığı yüksəlmiş, onlarda gələcək müstəqil Azərbaycan dövlətinə inam daha da güclənmişdi.

Ümumiyyətlə, Ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi dövrləri bütün ölkəmizdə olduğu kimi, Naxçıvan MR-də də hər bir vətəndaşın rifah, əmin-amanlıq və inam içərisində yaşanılmış bir ömür kəsiyi adlandırsaq yanılmarıq.

# NƏTİCƏ

Azərbaycanımız, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası öz tarixi ərzində mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Tarixən Şərqin iri elm və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhvələri ilə yanaşı, Azərbaycanın dövlətçiliyinin inkişafına uğurlu fəaliyyətini təqdim etmişdir.

Lakin Azərbaycanın, onun bütün regionlarının həqiqi inkişafı və tərəqqisi Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlişi ilə başlanmışdır. Mübaliğəsiz demək olar ki, xalqımızın son yarım əsrlik tərəqqi dövrü məhz böyük öndərimizin həyatı və fəaliyyəti ilə bağlı olmuşdur.

Ona qədər iqtisadi, sosial və mədəni inkişafın əksər göstəricilərinə görə Azərbaycan SSRİ-nin müttəfiq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. 1960-cı illərin sonunda SSRİ-də ümumi milli məhsul 59 faiz artdığı halda, Azərbaycanda bu artım cəmi 22 faiz təşkil etmişdi. Milli məhsulun adambaşına düşən həcmi də başqa respublikalarla müqayisədə ilbəil azalırdı. Mərkəzin Azərbaycanın problemlərinə diqqət və qayğı göstərməməsi, respublikada idarəetmə sahəsində ciddi nöqsanların olması nəticəsində ictimai, iqtisadi, mənəvi həyatda dərin böhran yaşanırdı.

Mərkəzin və respublika hakimiyyət orqanlarının Naxçıvan MR-ə laqeyd, ögey münasibəti nəticəsində 1970-ci illərə qədər muxtar respublika Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən aşağı inkişaf səviyyəsinə malik olmuş, sənaye məhsulunun artım sürətinə

görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tutmuşdu. Naxçıvan MR-də sənayenin, kənd təsərrüfatının inkişafında, məhsuldar qüvvələrin yerləşdirilməsində çox ciddi nöqsanlar var idi.

Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə Azərbaycanın və Naxçıvanın həyatında təzahür edən mənfi proseslərin qarşısı qətiyyətlə alındı, ölkəmiz əsl tərəqqi yoluna qədəm qoydu.

Qısa müddət ərzində hazırlanmış və həyata keçirilmiş strateji kurs uzun müddətli geriliyə son qoymuş, respublika həyatının bütün sahələrində sabit və dinamik artım əldə edilmişdi.

1969-cu ildən sonra Heydər Əliyevin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının sənaye, kənd təsərrüfatı, istehsal infrastrukturunun yüksək inkişafı baş verdi. Sənayenin emal və istehsal sahələrinin şəbəkəsi genişləndi.

Heydər Əliyev Naxçıvanın iqtisadi inkişafına, regionun sənaye potensialına mühüm geosiyasi məsələ kimi baxaraq, strateji obyektlərin yerləşdirilməsi üçün xüsusi proqramlar və planların hazırlanaraq həyata keçirilməsinə nail olmuşdu.

Naxçıvan MR-in iqtisadi inkişafında Heydər Əliyevin birbaşa göstərişi və rəhbərliyi əsasında hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 8 yanvar 1974-cü il tarixli birgə qərarının mühüm rolu oldu.

Qərarda Naxçıvan MR-də iqtisadiyyatın və mədəniyyətin Azərbaycanın və respublikanın digər regionlarının orta inkişaf

göstəricilərindən aşağıda olduğu prinsipial şəkildə açıq qeyd edilmiş və bu geriliyin əsas səbəbləri göstərilmişdi. Etiraf edilmişdi ki, Naxçıvan MR-in geridə qalmasının əsas səbəbi Azərbaycanın əksər nazirlik və idarələrinin muxtar respublikanın problemlərinə ögey münasibəti bəsləmələri olmuşdur.

Qərarda muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdi. Heydər Əliyev bu qərarının yerinə yetirilməsinə şəxsən nəzarət edirdi. Məhz onun şəxsi tələbkarlığı və diqqəti sayəsində qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmişdi. Bu qərar Heydər Əliyevin muxtar respublikanın inkişafına, naxçıvanlıların həyat səviyyəsinin yüksəldilməsinə göstərdiyi əsl atalıq qayğısı idi.

Naxçıvan Muxtar Respublikasının mövcud sosial-iqtisadi problemlərinin, onların həlli yollarının müəyyənləşdirilməsində, bölgənin gələcək inkişaf perspektivlərinin üzə çıxarılmasında Heydər Əliyevin Naxçıvan Vilayət Partiya Komitəsinin XXX konfransındakı nitqi mühüm rol oynadı. İqtisadiyyata rəhbərliyin, ideoloji işin gücləndirilməsi, kadrların məsuliyyətinin artırılması sahəsində aparılan tədbirlərin, mənfi hallara qarşı mübarizə ruhunun Naxçıvanda hiss olunmadığını açıq bəyan edən Heydər Əliyev muxtar respublika rəhbərliyinin fəaliyyətini ciddi tənqid etmiş, ondan iş üslubunu və metodlarını dəyişdirməyi qətiyyətlə tələb etmişdi. Həmin çıxışında Heydər Əliyev muxtar respublikanın ehtiyaclarına diqqət yetirməyi və problemləri qısa müddətdə

həll etməyi bir dövlət vəzifəsi kimi Azərbaycanın nazirlik və idarələrinin qarşısına qoydu.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatlarından səmərəli istifadə etmək, regionda tikinti materialları sənayesini inkişaf etdirmək məqsədi ilə bir sıra mühüm qərarların qəbul olunmasına nail olmuşdu. Onun şəxsi təşəbbüsü ilə 1970-1980-ci illərdə Naxçıvan MR-də dəmir-beton məmulatları zavodu, şüşə tara zavodu, evtikmə kombinatı, travertin bloklar karxanası tikilib istifadəyə verildi. Nəticədə ümumi məhsul istehsalında tikinti materiallarının xüsusi çəkisi bir neçə dəfə artdı, muxtar respublikada istehsal olunan mərmər, üzlük plitə, travertin və s. tikinti materiallarının ixracı xeyli genişləndi. Heydər Əliyev Naxçıvan MR-də üzlük materialların istehsalını genişləndirmək məqsədi ilə Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin «Naxçıvan MSSR-də üzlük materialların istehsalının daha da inkişaf etdirilməsi tədbirləri haqqında» 19 fevral 1982-ci il tarixli qərarının qəbul edliməsinə nail oldu. Lakin sonrakı ictimai-siyasi hadisələr bu kimi iqtisadi tədbirləri həyata keçirməyə imkan vermədi.

Heydər Əliyev Naxçıvanda elmi-texniki tərəqqini müəyyən edən sahələrin sürətlə inkişaf etdirilməsi üçün bütün imkanlardan istifadə edirdi.

Heydər Əliyevin Naxçıvan MR-in elektrik enerjisinə tələbatının tam təmin edilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynayan faktora çevrildi. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən enerji blokdasına alınarkən, muxtar respublika əhalisi məhz ulu öndərin 70-ci illərdə yaratdığı enerji

mənbələri hesabına həyat ritmini itirmək təhlükəsindən xilas oldu.

